Novruz MƏMMƏDOV

GEOSİYASƏTƏ GİRİŞ

(İki cilddə)

II CİLD

- 9533 -

Azərbaycan Respublikası Prezidentinin
[illegible] Şurası
PREZİDENT KİTABXANASI
"AZƏRBAYCAN"
NƏŞRİYYATI

BAKI–2011

66.4(0)
Ə51

M(09)11

Elmi redaktor: **Pərvin Darabadi**
tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının professoru

Elmi məsləhətçilər: **İlham Məmmədzadə**
fəlsəfə elmləri doktoru, professor, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun direktoru

Həmid İmanov
"Şöhrət" ordenli əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının müdiri

Rəyçilər: **Sani Hacıyev**
tarix elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin humanitar məsələlər üzrə prorektoru

Əmir Əliyev
hüquq elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı

Həsən Əlibəyli
tarix elmləri doktoru, professor, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsinin müdiri

Məmməd Fətəliyev
tarix elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müdiri

Amil Məhərrəmov
iqtisad elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Gömrük işinin təşkili və idarəetmə kafedrasının müdiri

Kərəm Məmmədov
siyasi elmlər üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dosenti

Elnur Kazımlı
siyasi elmlər üzrə fəlsəfə doktoru

Redaktor: **Kamal Adıgözəlov**

Novruz Məmmədov
M(09)11 **Geosiyasətə giriş** (İki cilddə. II cild). - Bakı, "Azərbaycan" nəşriyyatı, 2011. - 416 səh.

M $\frac{4804000000 - 009(2011)}{M670(07) - 2011}$ Sifarişlə

© "Azərbaycan" nəşriyyatı, 2011.

Kitab Azərbaycanın böyük oğlu, müasir Azərbaycan dövlətinin banisi, dahi siyasi və dövlət xadimi HEYDƏR ƏLİYEVİN əziz xatirəsinə ithaf olunur.

GEOSİYASƏTƏ GİRİŞ

Kitabda oxucular XX əsrdə əvvəlcə nüfuzdan salınmış, sonra isə dirçəldilmiş geosiyasət elminin dramatik taleyi ilə tanış olacaqlar. Bu əsərdə ənənəvi (klassik) geosiyasət, yeni geosiyasət (geoiqtisadiyyat) və ən yeni sivilizasiya geosiyasəti (geofəlsəfə) haqqında qısa kurs və əsas anlayışlar verilmişdir.

Geosiyasət - dövlətlərin dünya səhnəsində davranışını müəyyən edən bazis amillərinin toplusunun genişləndirilməsi hesabına coğrafi və iqtisadi determinizmin ənənəvi məhdudluğunu aradan qaldıran analitik elm hesab edilir.

Müasir geosiyasət geoiqtisadiyyatla eyniləşdirilir. Formasiya yanaşmasından fərqli olaraq, ən yeni geosiyasətdə mədəni-genetik kodların və arxetiplərin davamlılığı, kənar təhdidlərə qarşı mübarizədə mentalitetin və mənəvi dəyərlərin rolu önə çəkilir.

Əvvəlki nəsillərin yaratdığı mənəvi sərvətlərin tamamilə itirilməməsi üçün nə etmək lazımdır? Dövlətin sosial-iqtisadi firavanlığa doğru yolu haradan keçir? Keçmişin hansı ibrət dərslərini yadda saxlamaq lazımdır? Düşmənçiliklə sülhün geosiyasi sərhədləri haradadır, geoiqtisadi müharibələr nə deməkdir və bu müharibələrdən zəfərlə çıxmaq üçün nə etmək olar? Kitabda bu və digər sualların cavablarının mümkün variantları nəzərdən keçirilir.

Tədqiqatda geosiyasətin sistemli təhlili, onun mövzusu, metodları, məqsəd və vəzifələri, baza anlayışları, kateqoriyaları və cərəyanları haqqında geniş söhbət açılır, bu elmin inkişafının ümumi mənzərəsi təqdim edilir. Müəllif dünya siyasi fikrinin nailiyyətləri daxil edilməklə, geosiyasətin əsas ideya istiqamətlərini, model və ehtimallarını təhlil edir. Ən qədim geosiyasi təlim nümunələrini yaratmış Şərq xalqlarının fəlsəfi və sosial-siyasi fikrinin xüsusiyyətləri, filosof və mütəfəkkirlərin həyat və fəaliyyəti ilə bağlı məsələlər kitabda ayrıca yer tutur.

İdeyaların tarixi beynəlxalq münasibətlər sistemində və bir çox dünya ölkələrinin siyasi həyatında təzahür edən nümunələrlə göstərilir. Son illər müasir dünyanın geosiyasi xəritəsində baş vermiş dəyişikliklər daha əhatəli verilir. Geosiyasətin informasiya resurslarının təsvirinə, informasiya qarşıdurmasının problem və ziddiyyətlərinə, informasiya mühitində geosiyasətin yeni imkanlarına, informasiya müharibəsinin müasir reallıqlarına diqqət ayrılır.

Əsərdə, həmçinin beynəlxalq münasibətlərin və milli təhlükəsizliyin əsasını təşkil edən ən mühüm geosiyasi anlayışlar şərh edilir. Neoliberal (postmüasir) beynəlxalq münasibətlərin iqtisadi qloballaşması və regionallaşması proseslərini səciyyələndirən yeni terminlərə xüsusi diqqət yetirilir. İlk dəfədir ki, ənənəvi geosiyasətin (hərbi qüdrətin), geoiqtisadiyyatın (iqtisadi qüdrətin) və sivilizasiya yanaşmasına əsaslanan müasir geosiyasətin anlayış və terminləri təhlil edilir və Qərbdə hamılıqla qəbul olunmuş anlayışların postsovet məkanında transformasiyasının spesifik xüsusiyyətləri nəzərə alınır.

Kitabda mövzulara aid xəritə və təsvirlər də yer almışdır.

Kitab analitik təfəkkürün formalaşmasına kömək edir, bu cür təfəkkür olmadan müasir dövrdə peşəkar uğurlar qazanmaq mümkün deyil.

Kitab siyasi və işgüzar elita, dövlət qulluqçuları, "Dövlət idarəçiliyi", "Politologiya", "Regionşünaslıq", "Beynəlxalq münasibətlər", "Beynəlxalq iqtisadi münasibətlər", "Dünya iqtisadiyyatı", "Beynəlxalq biznes" və "Beynəlxalq hüquq" ixtisasları üzrə universitet tələbələri, müəllimlər, alimlər üçün, eləcə də geniş oxucu kütləsi üçün maraq doğurur.

MÜNDƏRİCAT

Elmi redaktordan 7
Rəyçilərdən 8
Müəllifin ön sözü 11

I FƏSİL
Geosiyasi münasibətlər sistemində ABŞ-ın yeri
1.1. ABŞ-ın beynəlxalq münasibətləri tarixindən 19
1.2. Avrasiya üçün geostrategiya 32

II FƏSİL
Qərbi və Şərqi Avropada, Baltikyanı bölgədə geosiyasi proseslər
2.1. Avropanın enişli-yoxuşlu yolları 54
2.2. Avropada inteqrasiya prosesləri 61
2.3. Şərqi Avropa: yeni geosiyasi reallıqlar 72
2.4. Baltikyanı regionun geosiyasəti 76

III FƏSİL
Rusiya yeni geosiyasi münasibətlər sistemində
3.1. SSRİ-nin dağılmasının Rusiya üçün geosiyasi nəticələri .80
3.2. Rusiya-ABŞ: rəqabət, yoxsa tərəfdaşlıq? 87
3.3. Rusiya və Şimali Atlantika regionu 88
3.4. Yeni minillikdə Rusiya-Çin münasibətləri 93

IV FƏSİL
Cənubi və Cənub-Şərqi Asiya regionunun geostrategiyası
4.1. Asiyanın dirçəlişi 97
4.2. Hindistan: geosiyasətdə yeni meqatrendlər 99
4.3. Əfqanıstan-Pakistan: çağırışlar və təhlükələr 109
4.4. Çinin geostrateji doktrinası 114
4.5. Yaponiyanın geosiyasəti və ictimai inkişafı 133
4.6. Koreya Respublikası: iqtisadi möcüzələr ölkəsi 150

V FƏSİL
Yaxın və Orta Şərq dövlətlərinin geosiyasəti
5.1. Yaxın və Orta Şərqdə geosiyasi transformasiyalar 158
5.2. Türkiyənin geosiyasəti 163
5.3. İran: yeni geosiyasi reallıq 172
5.4. Səudiyyə Ərəbistanının regionda rolu 178
5.5. İsrail - beynəlxalq mövqeyi, daxili və xarici siyasəti ...184
5.6. İraq - bölgənin narahat ölkəsi 189

VI FƏSİL
Afrika və Latm Amerikası ölkələrinin ənənələri və geosiyasəti
6.1. Afrika - qaynar qitə 192
6.2. Latın Amerikası: geosiyasi proseslər 202

VII FƏSİL
Qafqaz və Mərkəzi Asiyada geosiyasi münasibətlər
7.1. Qafqaz Avrasiyanın geosiyasətində: mürəkkəb miras ...212
7.2. Mərkəzi Asiya. Geostrateji vəziyyət 219

VIII FƏSİL
Azərbaycan müasir regional geosiyasət kontekstində
8.1. Dəyişən dünyada Azərbaycan: milli inkişafın prioritetləri ..226
8.2. Geniş dialoq siyasəti: qlobal və regional təşəbbüslər ...263
8.3. Təhlükəsizlik məsələlərinin müasir təkamülü: Azərbaycan modeli 273
8.4. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: sülh üçün perspektivlər 290

Sözardı əvəzi 316
Terminlər lüğəti 326
Adlar göstəricisi 366
Xülasə (ingilis dilində) 374
İstifadə olunmuş və tövsiyə edilən ədəbiyyat 375

ELMİ REDAKTORDAN

Məlum olduğu kimi, XXI əsrin əvvəli geosiyasətin - "dövlətin bu coğrafi zəkasının" (K.Haushofer) intibahı dövrü kimi səciyyələndirilir. Gözlərimiz qarşısında dünya arenasında, bütöv beynəlxalq nizamda ciddi dəyişikliklərlə müşayiət olunan böyük təbədüllatlar baş verir. Və təsadüfi deyil ki, geosiyasi problem dünya elmi ədəbiyyatında beynəlxalq tematikanı tədqiq edən nəşrlərin böyük qisminin mərkəzində yer alır.

Bütün Qafqaz-Xəzər regionunda olduğu kimi, onun ətrafında - Böyük Orta Şərqdə də baş verən mürəkkəb geosiyasi proseslərin obyekti və subyekti olan Azərbaycan Respublikası üçün Novruz Məmmədovun bu problemə müraciət etməsinin, dünya siyasətində dərin və çox zaman ziddiyyətli proseslərin əsas aləti olan geosiyasətin nəzəriyyə və təcrübəsinə yiyələnməyin vacibliyi baxımından mühüm əhəmiyyəti var.

Oxucuların mühakiməsinə təqdim edilmiş "Geosiyasətə giriş" kitabında müəllif geosiyasətin böyük məkanlar haqda elm kimi yaranması və inkişafının əhatəli mənzərəsini çanlandırmağı, yüz ildən artıq bir müddətdə formalaşmış başlıca nəzəri məktəblərin təməl ideyalarının mahiyyətini açmağı bacarmışdır.

Kitabda həm böyük, həm də regional dövlətlərin müasir mərhələdə əsas siyasi məqsədləri işıqlandırılır. Kitabın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geosiyasi aspektlərinə həsr edilmiş bölməsi xüsusi maraq kəsb edir.

Novruz Məmmədovun fundamental tədqiqatı, bütövlükdə, Azərbaycan siyasətşünaslıq elminə böyük töhfədir və sözsüz ki, beynəlxalq siyasət mütəxəssislərinin, həmçinin geniş oxucu kütləsinin marağına səbəb olacaqdır.

Pərvin DARABADİ,
tarix elmləri doktoru, professor

RƏYÇİLƏRDƏN

Novruz Məmmədovun "Geosiyasətə giriş" kitabında geosiyasətin elm sahəsi kimi meydana gəlməsi, əsas anlayışlarının yaranması, formalaşması və inkişafına nəzər salınır, onun nəzəri mənbələri, qanunauyğunluqları, obyekt və predmeti, kateqoriyaları, metodoloji paradiqmaları, aktorları ilə bağlı müxtəlif dövrləri, fərqli geosiyasi məktəbləri təmsil edən siyasətşünasların elmi nəzəriyyələri araşdırılır. Əsərdə, həmçinin dünyada cərəyan edən əsas geosiyasi hadisələr, planetin geosiyasi xarakteristikası, geosiyasi güc mərkəzləri və onlar arasındakı münasibətlər, qloballaşan dünyada geosiyasi məsələlərə yeni baxışlar, milli dövlət maraqları uğrunda mübarizə, yeni dünya nizamı, beynəlxalq təşkilatların və maliyyə təsisatlarının artan rolu, bəşəriyyəti təhdid və məşğul edən əsas iqtisadi, siyasi, enerji təhlükəsizliyi, qlobal nəqliyyat-kommunikasiya, ticarət, xammal, beynəlxalq daşımalar kimi məsələlərin mövcud vəziyyəti, perspektivləri haqqında ətraflı məlumat verilir. Kitabda, eyni zamanda, Azərbaycanın müstəqillik illərində keçdiyi yol sistemli şəkildə təhlil edilir və ümumiləşdirilir, eləcə də XX əsrin sonu - XXI əsrin əvvəlində bütün dünyada gedən geosiyasi dəyişikliklər şəraitində Azərbaycan dövlətçiliyinin təşəkkülünün və inkişafının əsas meylləri göstərilir.

Bununla yanaşı, kitabda beynəlxalq münasibətlərin və milli təhlükəsizliyin əsasını təşkil edən ən mühüm geosiyasi anlayışlar şərh edilir. Neoliberal (postmodern) beynəlxalq münasibətlərin iqtisadi qloballaşması və regionallaşması proseslərini səciyyələndirən yeni terminlərə xüsusi diqqət yetirilir və ənənəvi geosiyasətin (hərbi qüdrətin), geoiqtisadiyyatın (iqtisadi qüdrətin) və sivilizasiya yanaşmasına əsaslanan müasir geosiyasətin anlayış və terminləri sistemləşdirilir. Bütün bunlar oxucuda geosiyasət elmi və geosiyasi fikir haqqında aydın təsəvvür yaratmağa kömək edir.

Bu əsərdə bəşər tarixində ən məşhur və mühüm rol oynamış geosiyasətçi mütəfəkkirlərin zəngin irsi təqdim edilmişdir. Artıq Azərbaycan oxucusu daha bir kitabın köməyi ilə geosiyasət elminin inkişafı tarixinə varmaq imkanı qazanmışdır.

Novruz Məmmədova görə, geosiyasət insan davranışının unikal sahələrindən biri, siyasi-strateji xarakterli problemlərin qoyuluşuna və həllinə yönəlmiş praktik fəaliyyətin xüsusi formasıdır. XIX əsrin sonu - XX əsrin əvvəlində Almaniyanın, İngiltərənin, ABŞ-ın, Fransanın, Yaponiyanın, İtaliyanın və Rusiyanın böyük mütəfəkkir və alimlərinin fəaliyyəti sayəsində yaranmış geosiyasət siyasi şüurun əsas formalarından birinə, dünya və onun dərk edilməsi haqqında ən ümumi anlayışlar sisteminə çevrilmişdir.

Novruz Məmmədovun kitabı geosiyasətə dair mühakimələrin və fikirlərin təhrif edilmiş, yanlış təsəvvür və məzmundan təmizlənməsinə, millətçilik və irqçilik qalıqlarından uzaqlaşaraq saflaşmasına böyük töhfədir. Bu kitab nəinki müasir Azərbaycan aliminin, siyasətşünaslıq elminin geosiyasi problemlərə dair yeni fikirlərini, həm də bütövlükdə XXI əsrin reallığı işığında geosiyasi ideyanın dərk edilməsinə nəzəri oriyentir kimi çıxış edir.

Kitab, eyni zamanda, çoxsaylı geosiyasi konsepsiyaların böhran yaşadığı vaxtda bir çox suallara cavab axtararaq, geosiyasətə dair XIX əsrdən üzü bəri deyilən fikirlərə yeni keyfiyyət və məna gətirir.

Müəllif xüsusi vurğulayır ki, geosiyasətin dirçəlişi böyük çətinliklərlə müşayiət olunur. Bu elmin əsasını təşkil edən fundamental anlayışların çoxu hələ XIX əsrdə ifadə edilsə də, müasir dövrdə bəzən onların dəqiqləşdirilməsinə ehtiyac var. Geosiyasətə misli görünməmiş maraq onun konturlarının silinməsi ilə müşayiət olunur.

Novruz Məmmədov hesab edir ki, dövlətlərin, xüsusilə də dünya dövlətlərinin geosiyasi maraqları permanent xarakter daşıdığı üçün geosiyasət elminin qarşısında sivilizasiya yanaşması çərçivəsində müasir dövrdə gedən proseslərin mahiyyətini tədqiq etmək və müəyyənləşdirmək kimi mühüm və mürəkkəb vəzifə durur.

Onun fikrincə, beynəlxalq münasibətlərdə və yeni dünya nizamının formalaşmasında əsas diqqət formasiya yanaşmasına deyil, sivilizasiya yanaşmasına yönəldilir. Buna görə də kitabda geosiyasi təfəkkürün transformasiyası məsələlərinə xüsusi diqqət yetirilir.

Kitabda, müəllifin özünün də qeyd etdiyi kimi, dünya sivilizasiyaları, ayrı-ayrı regionlardakı böyük dövlətlər haqqında ümumi təsəvvür yaradılır. Nəzərdən keçirilən əsas geosiyasi obyekt Avrasiya (sözün geniş mənasında "Hartland" və ya "Yerin mərkəzi"), həmçinin etnomilli və etnokonfessional baxımdan münaqişə zonalarından ibarətdir. Bu halda isə, iqtisadi və sivilizasiya geosiyasətinin inkişafı aktualdır. Onun üçün də kitab-

da Amerika, Avropa, Rusiya, Çin, Hindistan, Yaponiya və müsəlman dövlətlərinin geosiyasətlərinə xüsusi diqqət yetirilir, alimlər və siyasi xadimlər haqqında bioqrafik məlumatlar verilməsi geosiyasi təfəkkürün qaynaqlarını daha dərindən başa düşməyə kömək edir.

XXI əsrdə geosiyasətin dərin elmi-siyasi əsaslarla yanaşı, həm də gerçəkliyin sınağından çıxan real həqiqətlər üzərində durması çox önəmlidir və artıq bu əsaslar müəyyən edilmişdir. Kitabda geosiyasi proseslərin dünya tarixinin ayrılmaz tərkib hissəsi kimi öyrənilməsi əsaslandırılır.

Şübhəsiz ki, bu əsər həm Azərbaycanda geosiyasi proseslərin, həm də ümumiyyətlə, geosiyasət elminin dünya miqyasında yeni təhlilinə töhfə hesab edilə bilər.

Sani Hacıyev,
tarix elmləri doktoru, professor

Əmir Əliyev,
hüquq elmləri doktoru, professor

Həsən Əlibəyli,
tarix elmləri doktoru, professor

Məmməd Fətəliyev,
tarix elmləri doktoru, professor

Amil Məhərrəmov,
iqtisad elmləri doktoru, professor

Kərəm Məmmədov,
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

Elnur Kazımlı,
siyasi elmlər üzrə fəlsəfə doktoru

MÜƏLLİFİN ÖN SÖZÜ

Bu kitab yeni, XXI əsrin ilk onilliyində nəşrə hazırlanmışdır. Ötən, XX əsr parlaq elmi-texniki və iqtisadi nailiyyətlər, incəsənətdə misli görünməmiş inkişaf, təhsilin və səhiyyənin sıçrayışı, dövlət səviyyəsində və yerli səviyyədə demokratik prinsiplər əsasında idarəetmədə vətəndaşların iştirakının genişlənməsi ilə əlamətdar olmuşdur. Başa çatmış yüzillik, eyni zamanda, iki dünya müharibəsi ilə tarixə düşmüşdür. Bu dövrdə, həmçinin nüvə müharibəsi təhlükəsi yaranmış, insanın fəaliyyətinin təbii mühitə təsiri qlobal miqyas almış, nəticədə isə, ekoloji problemlərin həlli naminə dövlətlərin öz əraziləri üzərində suverenliyinin hesabına səmərəli beynəlxalq əməkdaşlığı zərurətə çevrilmişdir.

Sirr deyil ki, hətta ən fantastik elmi və hərbi layihələrin həyata keçirilməsi də heç bir ölkənin təhlükəsizliyinə və sülhə təminat vermir. "Aşağı və orta səviyyədə intensiv" lokal silahlı münaqişələrin genişlənərək tammiqyaslı müharibələrə çevrilməsi riski hələ də qalır. Beynəlxalq terrorizm təzahürləri hətta ən dinc dövlətlərdə də siyasi sabitliyin pozulması ilə nəticələnə bilər. Bütövlükdə, dünyada siyasi təzadlar zəifləmir, yalnız modifikasiyaya məruz qalır, bəzi regionlarda isə böhranlı dərəcədə kəskinliyi ilə müşahidə olunur. Bu şəraitdə "tərəqqi" və "demokratiya" anlayışlarına yeni tərifl ər verməyə çalışan beynəlxalq akademik dairələr SSRİ və dünya sosializm sistemi dağılandan sonra yaranmaqda olan "postbipolyar" dünya geosiyasi nizamının əsas xüsusiyyətlərini müzakirə edir. Qərbə xas olan "istehlak sivilizasiyası"nın ekoloji və sosiomədəni hüdudlarını nəzərə alan yeni sivilizasiya modellərinin yaranmasının mümkünlüyü barədə diskussiyalar aparılır.[1]

[1] Əsrlər boyu sivilizasiyalı inkişafın mənası elmi müzakirələr üçün müxtəlif, bəzən ikili, bəzən də paralel mənalar daşımışdır. Sivilizasiyalara zaman kəsiyi, bu və ya digər cəmiyyətlərin tarixi vəziyyəti kontekstində baxılır, onların əlamətləri, məsələn, urbanizasiya ilə, əhalinin sürətlə artması ilə, təhsil sisteminin və elmi biliklərin inkişaf dərəcəsi ilə, əmək məhsuldarlığı ilə əlaqə-

Cəmiyyətdə inqilabi dəyişikliklər və dünyanın geosiyasi strukturunun radikal transformasiyası geosiyasətin "yenidən kəşf olunmasını" tələb edir. Bir sıra başqa ictimai elmlərin fonunda geosiyasət artıq sanballı, lakin ziddiyyətli tarixə malikdir. Nasist ideoloqları tərəfindən uzun müddət hörmətdən salınmış "geosiyasət" termini faktiki olaraq nəinki keçmiş Sovet İttifaqında və Şərqi Avropa ölkələrində, hətta Almaniyanın özündə və bəzi başqa ölkələrdə də qadağan edilmişdi. Eyni zamanda, resursların, kapitalların, əmtəələrin qarşılıqlı mübadiləsi, sosiomədəni əlaqələr, daxili siyasi vəziyyət və başqa amillər nəzərə alınmaqla, dünya miqyasında və iri regionlarda siyasi qüvvələr nisbətinin təhlilinə ciddi ictimai tələbat hiss edilirdi. Qlobal və regional siyasi problemlərin qarşılıqlı əlaqələrinin, ölkələrin və regionların sosial-iqtisadi coğrafiyasında irəliləyişlərə siyasi fəaliyyətin təsirinin öyrənilməsi məsələləri getdikcə aktuallaşırdı.

Beləliklə, ənənəvi geosiyasətin nəzəri irsinin konstruktiv mövqedən təhlil edilməsi və ərazi-siyasi proseslərin izahının metodologiyasının yaradılması yenidən zərurətə çevrilmişdir. İyirmi beş ildən çoxdur ki, bu elmə Qərb ölkələrində və onların hüdudlarından kənarda marağın getdikcə artması müşahidə olunur. Yeni akademik jurnallar təsis edilir, sanballı nəzəri monoqrafiyalar və dərsliklər çap olunur, elmi assosiasiyalar yaradılır. Geosiyasət üzrə mütəxəssislər qanunverici və icra hakimiyyəti orqanlarının, siyasi xadimlərin məsləhətçiləri rolunda çıxış edirlər.

ləndirilir, "insanların ən yüksək mədəni birliyi və mədəni identifikasiyanın (eyniləşdirmə) ən geniş səviyyəsi" (S.Hantinqton) kimi başa düşülür. Təxminən 1500 il bundan əvvəl yaranmış ilk sivilizasiyaların rüşeymləri müasir dövrdə çoxşəkilli və geniş dünya mədəniyyətinə çevrilmişdir [bax: Mehdiyev, 2008, səh. 219]. Lakin "sivilizasiya" (lat. civilis - mülki, dövlət) termini və onun mahiyyətini ayrı-ayrı elmlərdə fərqli anlayışlar ehtiva edir. Geosiyasi anlamda "sivilizasiya" anlayışı insanlığın xüsusi bir tarixi inkişaf dövrü olaraq, "barbarlıq" dövründən sonrakı daha sivil sosiomədəni münasibətlərə malik, xüsusi inkişaf mərhələsi hesab olunur.

Məlumat üçün qeyd edək ki, "barbarlıq" [qədim yunanlar, sonra isə romalılar dil və mədəniyyətcə onlara yabançı olan xalqları "barbarlar" (yun. barbaroi, lat. barbari - yadellilər sözündən) adlandırırdılar] dövrü dedikdə, XVIII əsrin 60-cı illərində şotland filosofu A.Fergüsonun irəli sürdüyü və XVIII-XIX əsrlərdə Avropa elmində bəşəriyyət tarixinin keçdiyi üç dövrün (vəhşilik, barbarlıq, mədəniyyət) orta mərhələsi nəzərdə tutulur. Amerikan etnoloqu L.Morqan bu bölgünü daha da əsaslandırmışdır. Onun fikrincə, barbarlıq bəşəriyyət tarixində ən böyük ixtiralardan biri olan dulusçuluğun, - gil məmulatının hazırlanması və bişirilməsi ilə məşğul olan sənət sahəsinin, - yaranması dövründən (erkən neolit dövrü) başlanıb, yazının meydana gəlməsi ilə qurtarır.

Son onillikdə geosiyasət Azərbaycanın elmi və ictimai həyatında da nəzərəçarpacaq yer tutmuşdur. Tamamilə qanunauyğun haldır ki, ali təhsil sistemində, xüsusən siyasi profilli ali məktəblərdə bu elmin tədrisinə geniş yer ayrılır.

Oxuculara təqdim olunan bu kitab geosiyasət sahəsində Azərbaycan dilində nəşr edilən ilk əsərlərdəndir. Kitabın ***xüsusiyyəti*** *ondan ibarətdir ki, burada təkcə geosiyasətin yaranması və tarixi barədə deyil, müasir şəraitdə dünyada və xüsusən Qərbdə geosiyasətin vəziyyəti, ən mühüm nəzəri yanaşmalar və konsepsiyalar haqqında ətraflı məlumat verilir. Son illərdə dünyada geosiyasətə həsr edilən çoxlu sayda yeni kitablar və dərs vəsaitlərinin demək olar ki, hamısında ənənəvi "güc geosiyasəti" konsepsiyaları ətraflı səciyyələndirilir. Halbuki bu konsepsiyaların əksəriyyəti hələ İkinci Dünya müharibəsindən əvvəl yaranmışdır. Həmin konsepsiyalara əsasən elə güman etmək olar ki, guya dünyada geosiyasi təfəkkürün inkişafı Helford Makinder[1] (1861-1947) və Karl Haushoferin[2] (1869-1946) dövründə olduğu səviyyədə qalmışdır. Bu konsepsiyaların müəlliflləri ən yaxşı halda nisbətən sonrakı dövrdə siyasətşünaslar, yaxud beynəlxalq münasibətlər üzrə mütəxəssislər tərəfindən təklif edilmiş, geosiyasət məsələlərinə birbaşa və ya dolayı aidiyyəti olan ayrı-ayrı nəzəriyyələri təhlil edirlər, bu isə müasir geosiyasət haqqında təhrif olunmuş təsəvvür yaradır. Məsələyə bu yanaşma çox vaxt müəlliflərin subyektiv ideoloji mövqeləri ilə şərtlənir.*

Eyni zamanda, dünyanın müasir geosiyasi mənzərəsinin və xarici ölkələrin siyasi-coğrafi problemlərinin başa düşülməsi üçün nəzəriyyəyə diqqəti cəlb etməklə bu problemlərin çoxu bu və ya digər formada səciyyələndirilir. Hər halda, nəzəri müddəalar Azərbaycanın və xarici ölkələrin, xüsusən keçmiş SSRİ-nin varisləri olan ölkələrin siyasi praktikasından seçilmiş nümunələrlə illüstrasiya edilərək əsaslandırılır.

Geosiyasət müasir beynəlxalq münasibətlərdə mühüm yer tutur. Geosiyasi proqnozlar olmasa, ölkənin gələcəyini təsəvvür etmək mümkün deyil. Açıq və qapalı cəmiyyətlər və iqtisadiyyatlarla səciyyəvi

[1] İngilis coğrafiyaşünası və tarixçisi, beynəlxalq münasibətlər nəzəriyyəçisi.

[2] Böyük alman geosiyasətçisi, general və diplomat.

olan çoxqütblü dünyada dövlət xadimi geosiyasi təfəkkürə malik olmalıdır. Lakin geosiyasətin təkcə siyasətçilər üçün vacib olmasını vurğulamaq kifayət deyil, çünki o, həmçinin ümumtəhsil mədəniyyətinin tərkib hissəsinə çevrilməkdədir. Geosiyasət haqqında təsəvvürlər cəmiyyətdə fəal mövqe tutmağa çalışan hər bir insan üçün faydalıdır.

Geosiyasətin dirçəlişi böyük çətinliklərlə müşayiət olunur. Bu elmin əsasını təşkil edən fundamental anlayışların çoxu hələ XIX əsrdə ifadə edilmişdir və müasir dövrdə bəzən onların dəqiqləşdirilməsinə ehtiyac var. Geosiyasətə misli görünməmiş maraq onun konturlarının silinməsi ilə müşayiət olunur. Bizə belə gəlir ki, ənənəvi geosiyasətin ən düzgün tərifini o vaxtlar K.Haushofer vermişdir. O, geosiyasət elmini dövlətin siyasətini yaratmaq və əsaslandırmaq üçün coğrafi biliklərdən istifadə etmək bacarığı, praktik siyasətə rəhbərlik etmək məharəti hesab edirdi: "Geosiyasət - dövlətin coğrafi zəkasıdır". Lakin bu tərif artıq köhnəlmişdir. Müasir tədqiqatçılar artıq fundamental (qlobal) və tətbiqi geosiyasət, geosiyasət və siyasi coğrafiya anlayışlarını fərqləndirirlər.

Fundamental geosiyasət həyati məkanın nəzəriyyə və konsepsiyalarını, o cümlədən dünya inqilabı, "ox" (məhvər) məkanı, dənizlərin qüdrəti, atlantizm, avrasiyaçılıq, "qabağınalma" (containment) nəzəriyyəsi və bir sıra başqa məsələləri tədqiq edir.

Tətbiqi geosiyasət suveren dövlətlərin yaranması və parçalanması, millətçiliyin dirçəlməsi, qloballaşma və regionallaşma, nəqliyyat dəhlizləri və enerji resurslarından asılılıq, beynəlxalq təşkilatların və maliyyə təsisatlarının rolunun getdikcə artması, konkret beynəlxalq investisiya layihələrinin geosiyasi aspektləri və başqa siyasi-iqtisadi-coğrafi problemlərin geniş spektrini təhlil edir.

Qloballaşma şəraitində təkcə makroregional (dövlətlərarası) səviyyədə deyil, həm də regional siyasətdə geosiyasi proseslərin təsiri artmışdır. Buna görə də qlobalistika ilə yanaşı həm daxili, həm də xarici amillərin regional inkişafa təsirini nəzərə alan regionalistika təşəkkül edir.

Bəzi tədqiqatçılar geosiyasət ilə siyasi coğrafiya arasında prinsipial fərqi görmür və bu anlayışları sinonimlər hesab edirlər. Biz isə onların arasında fərq olmasına əminik.

Siyasi coğrafiya siyasi proseslərin inkişafına məkan elementlərinin təsirini tədqiq edir və klassik coğrafiya çərçivəsində iqtisadi və fiziki coğrafiya ilə yanaşı ayrıca bir istiqamət kimi nəzərdən keçirilə bilər. Ənənəvi siyasi coğrafiya dövlətləri və onların sərhədlərini makrosəviyyədə öyrənir. Siyasi (elektoral) coğrafiya, əsasən, konkret məkanda (ölkə, ştat, seçki dairəsi və s.) siyasi qüvvələrin paylanmasının xüsusiyyətlərini tədqiq edir, səsvermənin nəticələrində məkan fərqlərini açıqlayır. Qərarlaşmış seçkilər institutuna malik olan demokratik hüquqi dövlətlərdə elektoral coğrafiyanın öyrənmə predmeti bütün siyasi sistemi, o cümlədən seçkiləri (səsvermə prosesi, elektoratın tərkibi, seçki dairələrinin "biçilməsi" və s.), hakimiyyət təsisatlarını və həyata keçirilən siyasəti əhatə edir.

Geosiyasət isə coğrafiya, tarix, iqtisadiyyat, etnologiya və başqa elmlərin sərhədlərində olan məsələlərə dair biliklər tələb edir. Bu biliklər peşəkar analitika təkcə məkan hadisələrinin səriştəli təhlili üçün deyil, həm də hadisələrin inkişafının və mümkün strategiyaların proqnozlaşdırılması, onların ssenari və meyillərinin yaradılması üçün zəruridir. Geosiyasət klassikləri göstərirlər ki, bu halda tədqiqatçı özünün ümumi savad və mədəniyyətinin yüksək səviyyəsi ilə seçilməli, ən başlıcası, yeni ideyalar generatoru olmalıdır. Geosiyasət bu sahəyə təkcə siyasi aspektlərin deyil, həm də hərbi, iqtisadi, sosiomədəni və başqa aspektlərin daxil edilməsi yolu ilə inkişaf edir, bu isə çoxölçülü (geosiyasi, geoiqtisadi, sosiomədəni və s.) məkan və onun hüdudlarını müəyyən edən təsəvvürlər əsasında geofəlsəfənin və ya siyasi-coğrafi fəlsəfənin yaranmasına gətirib çıxarır. Məsələyə bu yanaşmanın təməli klassik Avropa fəlsəfəsində qoyulmuşdur. Həmin fəlsəfəyə görə, həqiqəti yalnız sərhəd vəziyyətləri vasitəsilə görmək mümkündür.

Bu kitabın ***məqsədi*** *geosiyasi transformasiya, ziddiyyətli qloballaşma və regionallaşma prosesləri şəraitində səmərəli siyasət yeritməyə kömək edən analitik təfəkkür formalaşdırmaqdır. Kitabın əsas* ***vəzifəsi*** *dövlətin beynəlxalq səhnədə davranışını müəyyən edən bazis amillərinin toplusunun genişləndirilməsi hesabına geosiyasətin coğrafi və iqtisadi determinizminin ənənəvi məhdudluğunu aradan qaldırmağa cəhd göstərməkdən ibarətdir. Beynəlxalq münasibətlər-*

də və yeni dünya nizamının formalaşmasında əsas diqqət formasiya yanaşmasına deyil, sivilizasiya yanaşmasına[1] yönəldilir. Buna görə də kitabda geosiyasi təfəkkürün transformasiyası məsələləri öz əksini tapmışdır. Beləliklə, ənənəvi geosiyasət, yeni (iqtisadi) geosiyasət (geoiqtisadiyyat) və ən yeni sivilizasiya geosiyasəti fərqləndirilir.

Kitabda dünya sivilizasiyaları, dövlətlər, ayrı-ayrı regionlardakı böyük dövlətlər haqqında ümumi təsəvvür yaradılır. Nəzərdən keçirilən əsas geosiyasi obyekt Avrasiya (sözün geniş mənasında "Hartland"[2]), həmçinin etnik-milli və etnik-konfessional münaqişə zonalarından ibarətdir. Bu halda isə, iqtisadi və sivilizasiya geosiyasətinin inkişafı aktualdır. Onun üçün də kitabda Amerika, Avropa, Rusiya, Çin, Hindistan, Yaponiya və müsəlman dövlətlərinin geosiyasətlərinə xüsusi diqqət yetirilir, alimlər və siyasi xadimlər haqqında bioqrafik məlumatlar verilməsi geosiyasi təfəkkürün qaynaqlarını daha dərindən başa düşməyə kömək edir.


Geosiyasətdə başqa məna kəsb edən coğrafi anlayışlardan - məsələn, Qərb, Şərq, Şimal, Cənub, Dəniz, Qitə anlayışlarından istifadə etmək ənənəsi yaranmışdır. Kitabda bu sözlər böyük hərflə yazılır. Qərbə xas olan anlayışların çoxu postsovet məkanında ciddi transformasiyaya məruz qalmışdır. Buna görə də mümkün olduqca müvafiq terminin yeni, çox vaxt onun ilkin mənasına uyğun gəlməyən real məzmunu şərh edilir.

Kitabda müxtəlif dövrlərin və xalqların geosiyasətçilərini onların öz təsəvvürləri işığında anlamaqdan ötrü hər bir geosiyasətçinin baxışlarının onun zəmanəsi kontekstində öyrənilməsinə xüsusi diqqət yetirilir. Amma, eyni zamanda, onlarla dialoqa da səy edilir. Biz keçmişdən gələn səslərə yalnız qulaq asmağı deyil, həm də onlarla dialoqa girərək münasibət bildirməyi qarşımıza məqsəd qoyuruq.

Novruz MƏMMƏDOV

[1] Sivilizasiyalı yanaşmada tarixi prosesin mərkəzində öz mentalitetinin xüsusiyyətləri, cəmiyyətlə mürəkkəb qarşılıqlı əlaqələri ilə fərqlənən insan özü-özünü inkişaf etdirən sistem kimi nəzərdən keçirilir.


[2] *H.Makinder* tərəfindən irəli sürülmüş "Yerin mərkəzi" geosiyasi anlayışı. Bu anlayışa görə, kim "Yerin mərkəzi"nə sahib olarsa, dünya ağalığına nail ola bilər.



- 9533 -

MÜASİR GEOSİYASİ PROSESLƏR

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



Dünyanın siyasi xəritəsi

I Fəsil

GEOSİYASİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ ABŞ-ın YERİ

1.1. ABŞ-ın beynəlxalq münasibətləri tarixindən

Amerika Birləşmiş Ştatlarının dünya miqyaslı geosiyasi dövlət kimi təşəkkülünün tarixi bir sıra mərhələlərdən ibarətdir. XX əsrin axırlarında onun nail olduğu qüdrətin zirvəsinə gedən yol heç də həmişə hamar olmamışdır. Bu yol, əslində, daim qüvvə toplayan, öz iqtisadi, hərbi və maliyyə imkanlarını genişləndirən dövlətin irəlilədiyi yol idi.

ABŞ ərazisinə (9,8 mln. kv.km) və əhalisinin sayına (313,2 mln. nəfər) görə dünyada üçüncü yeri tutur. ABŞ şimalda Kanada ilə, cənubda Meksika ilə həmsərhəddir. Onun Rusiya ilə dəniz sərhə-



Xəritə 19. ***Amerika Birləşmiş Ştatları***

di də var. Ölkə qərbdən Sakit okeanla, şərqdən Atlantik okeanı ilə əhatə olunmuşdur. İnzibati baxımdan 50 ştata və Kolumbiya federal dairəsinə bölünür. Bir sıra ada əraziləri də ABŞ-ın tabeliyindədir.

ABŞ 1776-cı ildə özünün müstəqilliyini elan etmiş on üç Britaniya müstəmləkəsinin birləşməsi yolu ilə yaranmışdır. Müstəqillik uğrunda müharibə 1783-cü ilə qədər davam etmiş və kolonistlərin qələbəsi ilə başa çatmışdır. 1787-ci ildə ABŞ Konstitusiyası, 1791-ci ildə isə hökumətin vətəndaşlara münasibətdə səlahiyyətlərini xeyli məhdudlaşdıran Hüquqlar haqqında bill qəbul edilmişdir. 1860-cı illərdə cənubdakı quldar ştatlarla şimaldakı sənaye ştatları arasında ziddiyyətlər dörd il davam edən vətəndaş müharibəsinin başlanmasına gətirib çıxarmışdır. Şimal ştatlarının qələbəsi ölkəni parçalanmadan xilas etdi və ABŞ-da quldarlığın tamamilə qadağan edilməsinə gətirib çıxardı.

Birinci Dünya müharibəsindən sonra ABŞ təcridçilik siyasətindən qəti imtina etdi və dünya siyasətində fəal rol oynamağa başladı. 1945-ci ildə ABŞ İkinci Dünya müharibəsindən ilk nüvə dövləti kimi çıxdı və SSRİ ilə qlobal qarşıdurma mövqeyi tutdu. Bu vəziyyət 1990-cı illərə qədər davam etdi.

XX əsrin əvvəlində sürətlə dünya liderləri sırasına daxil olan ABŞ SSRİ dağılandan sonra *yeganə fövqəldövlətə* çevrildi. Qərb yarımkürəsində yerləşən bu ölkənin siyasi, iqtisadi və hərbi qüdrəti belə deməyə əsas verir ki, ABŞ-ın geosiyasi mövqeyinin radiusu bütün dünyanı əhatə edir. Ölkənin üstün qüvvəsi hərbi, istehsal və informasiya texnologiyalarına, o cümlədən intellektual məhsulların (biliklərin) ixracına əsaslanır. Avropa iki dünya müharibəsinin episentri olmuş, bir sıra ölkələr inqilabların, çevrilişlərin, kütləvi iğtişaşların ağır sınaqlarından, onlarla əlaqədar zorakılıq sınaqlarından keçdiyi halda, ABŞ sosial-siyasi sabitliyi ilə fərqlənir. ABŞ bütün dünyaya göstərmişdir ki, mürəkkəb sosial-iqtisadi problemləri demokratik yolla həll etmək mümkündür. Vətəndaş müharibəsindən sonra bu ölkənin üzləşdiyi ən ciddi sı-

naq yalnız 1929-1933-cü illərin iqtisadi böhranı və ya Böyük depressiya olmuşdur.

U.Çörçill ABŞ haqqında demişdir: ***"Həmişə inanmaq olar ki, Amerika doğru yolla gedəcəkdir, amma bunu... bütün alternativ yolları sınadıqdan sonra edəcəkdir".***


Sürətlə silahlanmada iki fövqəldövlətin yarışı informasiya-kommunikasiya inqilabına kömək etmiş, bu inqilabda ABŞ dünya lideri olmuşdur. Minilliklərin qovşağında baş vermiş ən maraqlı hadisələrdən biri internetin kibernetik məkanının kəşf edilməsi olmuşdur. Bu qlobal informasiya sistemi çoxölçülü kommunikasiya məkanının dünya okeanı hüdudlarında böyük kəşflər dövrünün başlanmasının əlamətidir. Keçmişdə dəniz səyyahları Köhnə dünya limanlarından çıxaraq naməlum torpaqlara üz tutduğu kimi, bu gün də hər bir insan ümumdünya informasiya magistralı vasitəsilə naməlum üfüqlərə səyahət edə bilər.

Maraqlıdır ki, bu kəşfə ən energetik (passionar) töhfə verənlər Yeni dünyanın adamları olmuşdur. Heç şübhəsiz, bu, demokratiyanın və azad sahibkarlığın uğurudur. Lakin burada psixoloji tərkib hissənin də rolu ola bilər: amerikalılar Atlantik okeanın o tayında, Avropada qalmış, onlar üçün itirilmiş vətən üçün qəribsəyirlər. Virtual məkan dünyanı elə şəkildə birləşdirmişdir ki, burada hər kəs bütün kainatın mərkəzi ola bilər. *Geosiyasi konsepsiyaların çoxu köhnəlmişdir. İndi dünyaya sahib olmaq üçün kontinentin bu və ya digər hissəsinə, yaxud dünya okeanına sahib olmaq zəruri deyil. Yeni dünya nizamı bəlkə də virtual məkana texnoloji nəzarətlə müəyyən ediləcəkdir. Ümumdünya informasiya magistralı tarixən çox qısa bir müddətdə elektron rabitənin texniki hüdudlarını aşmış, siyasi və iqtisadi gerçəklik amilinə çevrilmişdir. İnformasiya-kommunikasiya texnologiyaları XXI əsrdə cəmiyyətin formalaşmasına təsir göstərən siyasi və iqtisadi gerçəkliyin ən mühüm amillərindən biridir.*


Tədqiqatçıların müasir Amerika geosiyasətinə həsr edilmiş əsərləri arasında *Zbiqnev Bjezinskinin* "Böyük şahmat lövhəsi. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri" əsəri

(1997) xüsusi qeyd edilməlidir. Bu kitabda Amerikanın geostrategiyasına səmimi və sadə baxış şərh edilir. Qeyd edilir ki, XX əsrin axırlarında Birləşmiş Ştatlar dünyada hərbi-strateji, iqtisadi, texnoloji, informasiya və mədəni məkanda hökmranlıq edən ilk və yeganə dövlətə çevrilmişdir. Dünya miqyaslı bu böyük dövlətin qüdrəti çox böyük iqtisadi və texnoloji resursları hərbi məqsədlər üçün çevik səfərbər etmək qabiliyyətinə və Amerika həyat tərzinin mədəni cazibəsinə əsaslanır.

Vaxtilə dünyada ağalıq etmək və dəniz səltənətinə çevrilmək iddiasında olmuş Roma və Çin imperiyaları (*bax:* ***20-ci*** və ***21-ci xəritələr***) kimi, indi Birləşmiş Ştatlar üçün də mədəni üstünlük




Xəritə 20. ***Roma imperiyası çiçəklənmə dövründə***
Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.




Xəritə 21. ***Mancuriya imperiyası çiçəklənmə dövründə***
▪▪▪ *Mancuriya imperiyasının Müstəmləkə Məsələləri üzrə İdarənin nəzarəti altında olan regionları*
Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

mühüm birləşdirici rol oynayır. *Çingiz xanın* hərbi zəfərlərə güvənən Monqol imperiyası (*bax:* ***xəritə 22***) nisbətən qısa müddətdə Avrasiya çölləri üzərində özünün siyasi nəzarətini təmin etmişdi. Geosiyasətçilər Avrasiya çölünü *dünyanın qəlbi* və ya dünyada ağalıq üçün *dayaq nöqtəsi* adlandırırlar. Monqolların yerli şəraitə adaptasiyası və assimilyasiyası dünyada ən iri quru imperiyasının dağılmasına gətirib çıxardı. Monqollardan fərqli olaraq, Qərbi Avropa dövlətləri məhz dəniz qüdrətinin köməyi ilə coğrafi kəşflərə, yeni ərazilərin müstəmləkələşdirilməsinə, ticarətə və öz mə-




Xəritə 22. ***Monqol imperiyasının nəzarəti altında olan ərazilərin təxmini cizgiləri***
Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

dəniyyətlərinin bərqərar edilməsinə əsaslanaraq həqiqi, lakin kollektiv dünya ağalığına nail oldular (*bax:* ***xəritə 23***). Bununla belə, yalnız Birləşmiş Ştatlar öz miqyasına və təsir gücünə görə nəinki bütün dənizlərə və okeanlara nəzarət etməyə, həm də desant qüvvələrinin sahillərə nəzarət etməsi vasitəsilə quruda öz hakimiyyətini həyata keçirməyə və çoxsaylı siyasi nəticələrə nail olmuş unikal dünya dövlətidir. *"Onun hərbi legionları Avrasiyanın qərb və şərq qurtaracaqlarında etibarlı surətdə möhkəmlənmişlər. Bundan başqa, Fars körfəzinə Birləşmiş Ştatlar nəzarət edir. Amerikanın vassalları və ondan asılı olan dövlətlər - onların bə-*



Xəritə 23. ***Avropanın qlobal üstünlüyü***
Britaniyanın dənizdə hökmranlığı
Avropanın siyasi nəzarəti
Avropanın mədəni təsiri
Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

ziləri Vaşinqtonla daha möhkəm rəsmi əlaqələrin qurulmasına can atırlar - bütün Avrasiya kontinentinə yayılmışdır" (***24-cü xəritə*** buna dəlalət edir). Əlbəttə, bəzi ölkələr Amerikanın hegemonluğunu qısqanclıqla qəbul edirlər. Lakin həqiqət ondan ibarətdir ki, intihara bərabər olan nüvə müharibəsində həmin ölkələr qalib gələ bilməzlər. Bundan əlavə, Amerikanın qlobal kommunikasiyalar, informasiya texnologiyaları və kütləvi mədəniyyət sahəsində hökmranlığını da nəzərə almaq lazımdır. Beynəlxalq maliyyə təsisatları və təşkilatlarının dünya şəbəkəsində də Amerika üstünlüyə malikdir. Qərbi Avropa sivilizasiyasının sərhədində yaranmış Birləşmiş Ştatlar bir sıra xarici icmalarla ortaq dini və etnik kökləri olan unikal submədəniyyətlər energetikasına malikdir. Bu fakt da dövlətin qüdrətini artırır.



Xəritə 24. ***Amerikanın dünya hökmranlığı***

ABŞ-ın okeanlarda nəzarəti

ABŞ-ın siyasi təsiri

ABŞ-ın geosiyasi hökmranlığı

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

XX əsrin əvvəllərində ABŞ *Monro doktrinasını* rəhbər tutaraq o vaxta qədər dənizlərin şəriksiz hökmranı olan Britaniya imperiyası (*bax:* ***xəritə 25)*** ilə dünya ağalığı uğrunda mübarizəyə başladı. Sakit və Atlantik okeanlarında ABŞ hərbi dəniz qüvvələrinin hökmranlığını təmin etməyə yönəlmiş doktrina işlənib hazırlandı. Panama kanalı çəkildikdən sonra doktrinanın həyata keçirilməsi üçün daha əlverişli şərait yarandı. XX əsrin əvvəllərinədək Yeni dünyada nisbi təcrid şəraitində olan Birləşmiş Ştatlar Birinci Dünya müharibəsi illərində böyük geosiyasi oyunçu kimi dünya səhnəsinə çıxdı. ABŞ-ın qüdrətinin təcəssümü olan ekspedisiya korpusu Avropa ölkələrinin ərazilərində hərbi əməliyyatlara başladı.

ABŞ-ın milli təhlükəsizlik doktrinası "Kontinental ada"nın təcrid olunması və dünyada ən qüdrətli hərbi dəniz donanmasının yaradılması zəruriliyi üzərində formalaşmışdır.



Xəritə 25. ***Britaniya hökmranlığı***

Britaniyanın nəzarət etdiyi okean boğazları

Britaniyanın dəniz hökmranlığı

Britaniyanın nəzarət etdiyi ərazilər

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

Birinci Dünya müharibəsinin dağıdıcı xarakteri Avropanın dünya miqyasında öz siyasi, iqtisadi və mədəni üstünlüyünü itirməsi prosesinin başlanğıcını qoydu. İkinci Dünya müharibəsi (bu, həqiqətən qlobal müharibə idi) isə Sovet İttifaqının (Avrasiya "Hartland"inin) və Birləşmiş Ştatların ("Kontinental ada"nın) qələbəsi, Almaniyanın darmadağın edilməsi, Böyük Britaniya və Yaponiyanın hərbi dəniz qüdrətinin itirilməsi ilə nəticələndi. Beləliklə, Birləşmiş Ştatlar vahid Avropa dövlətinin (nasist Almaniyası qalib gələcəyi təqdirdə) dünyada hökmranlıq perspektivlərindən, Yaponiyanın Sakit okeana və Şərqi Asiyaya iddialarından, Böyük Britaniyanın dəniz qüdrətindən xilas oldu. Bu fonda Amerika praqmatizmi zəminində yeni geosiyasət formalaşmağa başladı.

İkinci Dünya müharibəsindən sonrakı dövrdə dünyanın qurucluğu bipolyar (ikiqütblü) modelə əsaslanırdı, iki fövqəldövlət dünyada ağalıq uğrunda mübarizə aparırdı. Bu mübarizədə Dəniz ilə Qu-

runun - Atlantik və Sakit okeanlarda hökmranlıq edən dünya miqyaslı hərbi dəniz dövləti ilə "Hartlənd"ə nəzarət edən ən böyük Avrasiya dövlətinin mübarizəsinə dair klassik geosiyasi konsepsiya praktik təcəssümünü tapmış oldu. Dünya ağalığı uğrunda Birləşmiş Ştatlarla SSRİ (Avrasiya), Şimali Atlantika və Varşava hərbi-siyasi blokları arasında "soyuq müharibə" başlandı. Nüvə silahı tətbiq edilməsinin doğura biləcəyi qlobal nəticələr bu münaqişənin intensivliyini azaldırdı. Münaqişənin geosiyasi cəbhələri Avrasiya "daxili aypara"sının və ya "Rimlənd"in Berlindən Koreyaya qədər hüdudlarını əhatə edirdi. "Soyuq müharibə"nin ilk meydanları olmuş bu bölgələr Qərbi və Şərqi Berlinə, Şimali və Cənubi Koreyaya bölündü.

Sovet İttifaqının əsas geostrateji istiqamətinin cənuba, Hind okeanına yönəlməsi barədə sovet-alman məxfi razılaşmasının mövcud olmasını unutmayan ABŞ Avrasiyanın sahil zonasında öz hərbi qüdrətini artırırdı. "Rimlənd"in əsas strateji cəbhələrində Amerika dəyərləri, Amerika texnologiyaları geniş yayılmışdı.

Marşall planı Avropanı qısa müddətdə bərpa etməyə, eyni zamanda, Amerika dəyərlərinin köməyi ilə Qərbi Avropanı "fəth etməyə" imkan verirdi. Fars körfəzi rayonu Amerikanın həyati maraq zonası elan edilirdi. Sovet qoşunlarının Əfqanıstana yeridilməsi Amerikanın Yaxın Şərqdə irimiqyaslı iştirakının daha da artırılması ilə müşayiət olunurdu. Amerikalılar Cənub-Şərqi Asiyada öz iştirakını gücləndirmək uğrunda müharibəni yalnız Vyetnamda uduzdular. Uzaq Şərq cəbhəsində yeni sənaye ölkələri azad sahibkarlığın inkişafı istiqamətində çox böyük uğurlar qazandılar. Birləşmiş Ştatlar Avropa xalqlarına Sovet İttifaqının təklif edə bilmədiyi dəyərləri təklif etdi. Doqmatik (ehkamçı) ideologiya səmərəli iqtisadi və hərbi rəqabəti təmin etmirdi. Sovet-Çin münasibətlərində qarşıdurma yarananda sonra "Hartlənd"in geosiyasi və geoiqtisadi məkanı məhdudlaşmağa başladı.

Coğrafi amil Amerikanın qüdrətinin təşəkkülünə əlverişli təsir göstərirdi. Köhnə dünyadan təcridolunma və ona münasibətdə periferiya vəziyyəti Amerikanın kənar təsirə məruz qalmadan təşəkkülünə şərait yaratdı. Amerika qitəsində də qonşu ölkələr ABŞ-ın təhlükəsizliyinə və maraqlarına təhlükə yaratmırdı. İki okeana sərbəst çıxışı olan geniş və eyni zamanda, yığcam ərazi Atlantik və Sakit okean sahillərində xarici aləmə və ölkənin daxili rayonlarına açıq olan iki iqtisadi və texnoloji inkişafın kommunikasiya qütblərinə malik bir ölkənin səmərəli təsərrüfat modelini yaratmağa imkan verirdi.

Məhsuldar qüvvələrin yerləşməsinin ikiqütblü ekssentrik sistemi nadir geostrateji perspektivlər yaratmışdır. Kaliforniya və ABŞ-ın Atlantik okeanı sahillərindəki ştatları öz qüdrətinə görə iri dövlətlərlə müqayisə edilə bilər. Bunun sayəsində Birləşmiş Ştatlar Qərbi Avropada və Şərqi Asiyada iqtisadi və texnoloji inkişafın digər iki dünya qütbü ilə bərabər qarşılıqlı fəaliyyət göstərə bilər.

Hal-hazırda ABŞ dünyanın ən böyük iqtisadiyyatına malikdir. O, dünyanın bütün sərvətinin 35 faizinə sahibdir, dünya bazarlarına təsir göstərir və işgüzar fəallığın yarısına nəzarət edir. İnformasiya texnologiyaları, reklam və marketinq sahələrində, fond birjalarında mütləq üstünlük ABŞ-ındır. ABŞ Qərbi Avropa və Yaponiya ilə iqtisadi yarışda qalib gəlmişdir. Ölkə iqtisadiyyatı dünyada rəqabətə ən davamlı iqtisadiyyatlardan birinə çevrilmişdir. 90-cı illərdə ABŞ iqtisadiyyatının orta illik artım sürəti Yaponiya, Almaniya, Fransa və Böyük Britaniya üzrə göstəricidən yüksək idi. Son 30 ildə istehsalın enerji tutumunun 33 faiz azalması böyük nailiyyətdir. Son yarım əsrdə kənd təsərrüfatı məhsullarının istehsalı iki dəfə artmışdır.

"Təhlükəsiz dünya quruculuğu" və *"Amerika xalqı və beynəlxalq birlik naminə demokratiyanın yayılması"* prinsipləri ABŞ-ın xarici siyasətinin əsas prinsipləri elan edilmişdir.

ABŞ beynəlxalq münasibətlərdə çox mühüm rol oynayır, ölkə dünyada ən geniş diplomatik nümayəndəliklər şəbəkəsinə malikdir. ABŞ BMT-nin və NATO-nun təsisçi üzvü, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir. ABŞ diplomatiyası beynəlxalq münaqişələrin həllində yaxından iştirak edir. ABŞ-ın xarici siyasət istiqamətlərindən biri *"yumşaq güc"* (Soft Power) siya-

sətidir. "Yumşaq güc" dedikdə dövlətin (ittifaqın, koalisiyanın) beynəlxalq məsələlərdə arzu etdiyi nəticələrə başqalarını əzmək (öz iradəsini onlara zorla qəbul etdirmək, məcburiyyət) vasitəsilə deyil, inandırma (cəlbetmə) vasitəsilə nail olmaq bacarığı başa düşülür.

Demokratiya ABŞ-ın xarici siyasətinin əsas məqsədlərindən biri elan edilmişdir. Başqa ölkələrə münasibətdə mədəni siyasət kimi demokratiyanın yayılması anlayışı da bu kontekstdə başa düşülməlidir. ABŞ öz təhlükəsizliyini başqa ölkələrdəki rejimlərin xarakteri ilə əlaqələndirir.

Avropada sabitlik ABŞ-ın təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edir. Birləşmiş Ştatların Avropa siyasətinin iki strateji məqsədi var. Bu *məqsədlərdən birincisi* həqiqətən inteqrasiya edilmiş, demokratik, firavan və dinc Avropa qurmaqdan ibarətdir. *İkinci məqsəd* Atlantik okeanının o tayındakı müttəfiqlər və tərəfdaşlarla qarşılıqlı fəaliyyətdə qlobal təhdidlərə cavab tapmaqdır, çünki ayrıca götürülmüş heç bir ölkə bu vəzifənin öhdəsindən gələ bilməz. Bu, böhranlı regionlarda sülhün bərqərar edilməsi üçün birgə səy göstərmək, dünya miqyaslı təhdidlərə müqavimət göstərmək və daha açıq - transatlantik ticarət və investisiyalar üçün maneələrin olmadığı dünya iqtisadiyyatı formalaşdırmaq deməkdir.

NATO Amerikanın Avropada iştirakının dayağı və transatlantik təhlükəsizliyinin əsası hesab edilir. NATO-nun genişlənməsi ABŞ-ın və onun müttəfiqlərinin bütöv və dinc Avropa qurmaq strategiyasının həlledici elementidir. Avropa Amerikanın qlobal iqtisadiyyatda iştirak sisteminin mühüm tərkib hissəsidir. 1995-ci ildə Madriddə keçirilmiş Amerika-Avropa sammitində qəbul edilmiş Yeni transatlantik gündəlik çərçivəsində ABŞ və Avropa İttifaqı yeni transatlantik açıq bazar yaradılması yolu ilə ticarət və investisiyalar üçün maneələrin aradan qaldırılmasına dair konkret addımlar atmaq barədə razılığa gəlmişlər. ABŞ Avropa İttifaqında təcəssüm olunmuş Avropa inteqrasiyası prosesini qətiyyətlə dəstəkləyir. Vaşinqton Mərkəzi və Şərqi Avropada, habelə MDB öl-

kələrində tarixi bazar islahatlarını dəstəkləməklə bir tərəfdən öz iqtisadiyyatını möhkəmləndirir, digər tərəfdən isə yeni demokratiyaların bərqərar olmasına kömək edir. ABŞ MDB ölkələrinin beynəlxalq iqtisadi və digər təsisatlara inteqrasiyası, sahibkarlıq üçün sağlam şərait yaradılması məsələsində onlara köməyini davam etdirir. ABŞ-ın Çinə və Rusiyaya münasibətdə siyasəti həm prinsipial, həm də praqmatik siyasətdir.

ABŞ qloballaşma dövründə vüsət almış *regional inteqrasiya proseslərində* də yaxından iştirak edir. Bu ölkənin təsiri Avropa İttifaqı, Cənub-Şərqi Asiya və Sakit okean hövzəsi, Avrasiya və başqa regional inteqrasiya çərçivəsində xüsusi hiss olunur. Həmin inteqrasiya mərkəzlərində ABŞ həm dövlət kimi, həm də onu təmsil edən böyük transmilli şirkətlər vasitəsilə iştirak edir. Xüsusən qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrində, transmilli layihələrdə ABŞ həmişə öndə gedir.

ABŞ Şimali Amerika və Sakit okean hövzəsində həyata keçirilən regional inteqrasiya proseslərinə bilavasitə rəhbərlik edir. Bu bölgədə dövlətlərarası regional inteqrasiya 1988-ci ildə ABŞ və Kanada arasında bağlanan "Şimali Amerika azad ticarət sazişi" *(ing. Canada-United States Free Trade Agreement - CUSFTA)* ilə başlanır. Sazişin şərtlərinə görə, iki ölkə arasında azad ticarət aparmaq üçün bütün gömrük, sərhəd, tarif və vergi sədləri aradan qaldırılır. 1992-ci ildə bu sazişə Meksika qoşulur və Şimali Amerika azad ticarət sazişini *(ing. North American Free Trade Agreement - NAFTA)* təmin etmək üçün dövlətlərarası komissiya yaradılır. Əlbəttə, Avropa İttifaqından fərqli olaraq, NAFTA vahid xarici ticarət tarifi və siyasətini müəyyən etmir. Onun əsas vəzifəsi üç ölkə arasında daxili ticarət sistemini asanlaşdırmaq və vahid standarta uyğunlaşdırmaqdan ibarətdir. Hər bir üzv dövlət xarici aləmlə ticarət əlaqələrində (öz aralarındakı standartlar istisna olmaqla) sərbəstliyi saxlayır. Hər bir ölkənin sərbəst ticarət əlaqələrində öz maraqları və planları mövcuddur. Lakin insanların, istehsalın, biznes və kapitalın hərəkəti üçün bu sazişin çox böyük əhəmiyyəti vardır. Bundan başqa, hər üç ölkədə liberal iqtisadi is-

lahatların, milli iqtisadiyyatın və makroiqtisadi mühitin sabitləşdirilməsinin, tarif-vergi sistemlərinin universallaşdırılmasının ətraf ölkələrə, xüsusən Latın Amerikası dövlətlərinə müsbət təsiri olmuşdur.

2001-ci ilin *11 sentyabr hadisələrindən* sonra ABŞ özünün geosiyasi aktivliyini daha da gücləndirmiş, qoşunların yerləşdirilməsinə, enerji mənbələrinin, nəqliyyat-kommunikasiya dəhlizlərinin, əsas bazarlara çıxışların və s. həyati əhəmiyyət kəsb edən obyektlərin nəzarətdə saxlanılmasına diqqəti xeyli artırmışdır. Bu məqsədlə *ABŞ dünyanın 35 ölkəsində 395 iri və kiçik hərbi baza saxlayır. ABŞ-ın qlobal maraqlarına daxil olan hər bir bölgədə onun bazaları fəaliyyət göstərir, yaxud planlaşdırılır.*

ABŞ siyasətşünasları hesab edir ki, *bu ölkənin qoşunu daxil olan hər bir ərazi, dərhal onun geosiyasi maraqları çərçivəsinə alınır. Onların fikrinə görə, Amerika dünyanın qloballaşması və yeni dünya nizamına rəhbərlik edə biləcək yeganə supergücdür. O, yerüstü hərbi plasdarmlara söykənərək istənilən əhəmiyyətli düşərgələrə nəzarət edə bilər. O, yeganə dövlətdir ki, bütün dünya okeanlarında hərbi dəniz donanmasına malikdir, havada dominantdır, ilk nüvə zərbəsi imkanını əlində saxlayır, nəzarət, kəşfiyyat, kommunikasiya imkanları genişdir.*

Maraqlarını kənar təsirlərdən, qəfil zərbələrdən sığorta etmək, azad ticarət və enerji təminatını möhkəmlətmək, Qərb yarımkürəsində, Afrikada, Mərkəzi və Şərqi Asiyada, Qafqaz və Xəzər regionunda öz təsir gücünü artırmaq müasir dövrdə ABŞ-ın geosiyasi proseslərdən və qloballaşmadan gözlədiyi nəticələrdir.

1.2. Avrasiya üçün geostrategiya

Sovet İttifaqı dağılandan sonra ABŞ-ın geosiyasəti əsasən Avrasiyaya istiqamətlənmişdir. Bu siyasətin məqsədi Avrasiya sivilizasiyalarının sərhədlərində Amerikanın nəzarətinə nail olmaqdır. Lakin ABŞ-ın "Rimlənd"dən qitənin dərinliklərinə doğru irəliləməsi Amerika-Avrasiya müharibələrinə (Balkanlarda, Əfqanıstanda, İraqda və s.) səbəb oldu. Bu müharibələrin beynəlxalq

təhlükəsizlik üçün nə ilə nəticələnəcəyini qabaqcadan söyləmək çətindir.

Dünyanın siyasi xəritəsində tektonik dəyişikliklər nəticəsində Avrasiyaya aid olmayan dövlət tarixdə ilk dəfə olaraq dünya lideri roluna irəli çəkildi: ABŞ Avrasiya dövlətlərinin münasibətlərində əsas arbitrə çevrildi. Sovet İttifaqının süqutundan sonra da Avrasiyanın geosiyasi mövqeyi dəyişməmişdir. Qərbi Avropa ilə yanaşı, Şərqi Asiyada da yeni iqtisadi inkişaf və artan siyasi nüfuz mərkəzi formalaşmaqdadır.

Avrasiya kontinenti klassik geosiyasi konsepsiyalarda mərkəzi yer tutur. Avrasiya "Hartland"inə nəzarət məsələsi bir sıra nəzəri araşdırmaların əsasını təşkil edir. Amerika və Avrasiya kontinentləri arasında qarşılıqlı siyasi münasibətlərin yaranmasından 500 ildən çox vaxt keçir. Lakin orta əsrlərdə avropalılar Yeni dünyanı özləri üçün kəşf etmişdisə, XX əsrdə amerikalıların Avrasiyaya həmləsi başlanmışdır.

İkinci Dünya müharibəsi başa çatandan sonra ABŞ-da çox diqqətlə öyrənilən sənədlər arasında Berlində aparılmış *sovet-alman danışıqlarının (noyabr, 1940-cı il)* stenoqramları ilə müqayisə edilə biləcək başqa bir sənəd göstərmək çətindir. *Hitler, Molotov* və *Ribbentrop* arasında söhbətlərin stenoqramları Ağ evdə və Pentaqonda az qala Bibliya kimi qəbul edilir, Amerikanın xarici siyasəti bu sənədlə uyğunlaşdırılırdı. SSRİ-də ictimaiyyətdən səylə gizlədilən bu materiallar *Amerika geosiyasətinin təməli* olmuşdur.

ABŞ-ın həyati maraq zonalarına diqqət yetirsək görərik ki, həmin zonalar Almaniyanın geostrategiyasında göstərilən yerlərdir (Aralıq dənizi və Türkiyə, Fars körfəzi, Şərqi Asiya). Aralıq dənizində ABŞ-ın təyyarədaşıyan gəmilərdən ibarət donanması mövcuddur, Türkiyə NATO-nun üzvüdür, Fars körfəzi xüsusi həyati mənafelər zonasına çevrilmişdir. Cənubi Koreya, Yaponiya, Filippin və Asiyanın digər sahil ölkələrinin ərazilərində ABŞ-ın hərbi bazaları yerləşdirilmişdir. İkinci Dünya müharibəsi başa çatandan sonra Birləşmiş Ştatlar Almaniyanın geostrategiyasını mənimsə-

mişdir. Bəs *Avrasiyaya münasibətdə Amerika geosiyasətinin mahiyyəti* nədən ibarətdir?

XX əsrin axırlarında Avrasiyada ABŞ-ın real hərbi, mədəni və iqtisadi liderliyi başlanmışdır. *Bjezinski* özünün *"Böyük şahmat lövhəsi. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri"* kitabında gələcəkdə ölkələrin davranışının mümkün variantlarını modelləşdirir və dünyada yeganə fövqəldövlətin qorunub saxlanması üçün tövsiyələr verir. Avrasiyaya münasibətdə Amerika geosiyasətinin əsas müddəaları deyilənləri təsdiq edir.


ABŞ-ın Avrasiya geosiyasətinin ana xəttini *universal dəyərlər geosiyasəti* adlandırmaq olar. Yəni, bu, zor tətbiqini nəzərdə tutmayan *humanistləşdirilmiş geosiyasi mövqedir*. Başqa sözlə desək, ABŞ hərbi müstəmləkələşdirməni nəzərdə tutmur, o, Avrasiya kontinentində demokratik dəyərlərin və insan hüquqlarının tətbiq olunmasını təklif edir. Bu cür təmənnasız bəxşişdən imtina edənlər isə onu ən "ədalətli" bombaların və raketlərin köməyi ilə ala bilərlər. İndi Amerika öz qlobal maraqlarını və dünya ağalığını qoruyub saxlamaq kimi mürəkkəb bir vəzifə ilə üzləşmişdir. Müasir kommunikasiyalar və texnologiyalarla yanaşı, xarici siyasətə də xüsusi diqqət yetirilməsi zəruridir.

Avrasiyanın böyük şahmat lövhəsi üzərində dünya ağalığı uğrunda mübarizə davam edir. Bjezinskinin fikrincə, burada əsas fiqurlar kimi *Rusiya, Almaniya, Fransa, Çin və Hindistan* çıxış edir. Güclü xarici siyasi ambisiyalara malik olan bu iri dövlətlərin məxsusi geostrategiyası var və onların maraqları ABŞ-ın maraqları ilə toqquşa bilər.

Amerikanın Avrasiyada mövcud qüdrəti dünyada ağalıq məsələsində başqa ölkələrin ambisiyalarına son qoymalıdır. Amerika geostrategiyasının məqsədi əməkdaşlığa həqiqətən hazır olan dünya birliyi yaratmaq və eyni zamanda, siyasi səhnədə Avrasiyada hökmranlıq etməyə və Amerikaya meydan oxumağa qabil olan bir rəqibin yaranmasına yol verməməkdir.

ABŞ-ın əsas geosiyasi məqsədi Avrasiya üzərində nəzarəti təmin etməkdir. Bjezinskinin yazdığı kimi, *Avrasiya Amerika üçün əsas*

geosiyasi prizdir (mükafatdır). Avrasiyanın cəlbediciliyi aşağıdakı amillərlə şərtlənir. Avrasiya qitəsi dünyada geosiyasi ox mövqeyi tutur. Dünyadakı üç iqtisadi və texnoloji inkişaf mərkəzlərindən ikisi burada - Qərbi Avropada və Asiya-Sakit okean regionunda yerləşir. Beləliklə, Avrasiyada hökmranlıq edən dövlət dünyanın ən inkişaf etmiş və iqtisadi cəhətdən ən məhsuldar üç regionundan ikisinə nəzarət etmiş olardı. Xəritəyə ötəri nəzər belə bir ehtimal irəli sürməyə imkan verir ki, Avrasiya üzərində nəzarət demək olar avtomatik surətdə Afrikanın tabeçiliyinə gətirməklə, Qərb yarımkürəsi və Okeaniyanı dünyanın mərkəzi kontinentinin periferiyasına çevirərdi *(bax:* ***xəritə 26).*** Planetin əhalisinin 75 faizi Avrasiyada yaşa-




Xəritə 26. ***Geosiyasi cəhətdən dünyanın mərkəzi kontinenti və onun həyati dərəcədə mühüm periferiyaları***

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

yır. Dünya üzrə ümumi daxili məhsulun 60 faizdən çoxu burada istehsal edilir, dünya enerji ehtiyatlarının 80 faizi burada cəmləşmişdir *(cədvəllərə bax).* Potensial baxımdan Amerikanın üstünlüyünə meydan oxuya biləcək, regional hegemonluq və qlobal təsir iddiasında olan əsas dövlətlər də burada yerləşir. Lakin Avrasiya çox bö-


Cədvəl 14

Kontinentlər: sahəsi (mln. kv. km)




Cədvəl 15

Kontinentlər: əhalisi (min nəfər)




Cədvəl 16

Kontinentlər: ÜDM (mlrd. dollarla)



Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

yük və siyasi baxımdan qeyri-monolitdir. O, qlobal hökmranlıq uğrunda eyni vaxtda bir neçə oyunçunun mübarizə apardığı şahmat lövhəsini xatırladır. Aparıcı oyunçular bu şahmat lövhəsinin qərb, şərq, mərkəz və cənub hissələrində yerləşir *(bax:* ***xəritə 27).*** Avra-



Xəritə 27. ***Avrasiyanın şahmat lövhəsi***

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

siyanın qərb periferiyasında əsas oyunçu kimi ABŞ başda olmaqla Qərb, şərqdə Çin, cənubda isə Hindistan çıxış edir. Bu dövlətlər, müvafiq surətdə üç sivilizasiyanı təmsil edir. Bjezinskinin obrazlı şəkildə "qara dəlik" adlandırdığı Orta Avrasiyada Qərb və Şərq üçün böyük potensial əhəmiyyət kəsb edən siyasi cəhətdən anarxik, lakin enerji ehtiyatları ilə zəngin olan region yerləşir. Regional hegemonluq iddiasında olan Rusiya da burada yerləşir.

Avrasiyanın geniş ərazisi, əhalisinin çoxluğu və mədəniyyətlərinin müxtəlifliyi Amerikanın təsir dərəcəsini məhdudlaşdırır. Ona görə də şahmat oyununda olduğu kimi, burada da müxtəlif kombinasiyalar mümkündür. Amerika başda olmaqla Qərb Rusiyanı *"London-*

dan Vladivostoka qədər Avropa evinə" daxil etsə, cənubda Hindistan, şərqdə Çin üstünlük təşkil etməyəcək, onda Amerika Avrasiyada qələbə qazanacaq. Lakin əgər Rusiya başda olmaqla Orta Avrasiya Qərbi dəf edərək vahid geosiyasi və geoiqtisadi məkana çevrilsə, yaxud Çin ilə ittifaq bağlasa, onda Amerikanın Avropa qitəsində iştirakı əhəmiyyətli dərəcədə azalacaqdır. Bununla əlaqədar Çinin və Yaponiyanın səylərinin birləşdirilməsi arzuedilməzdir. Əgər Qərbi Avropa Amerikanı onun köhnə dünyadakı yuvasından qovarsa, bu, orta hissədəki oyunçunu (Rusiyanı) avtomatik olaraq canlandıracaqdır.

Şahmat oyununda qaydalar hamı üçün eyni olmalıdır, o cümlədən rəqiblər bir-birinə hörmət etməlidir. Amerikanın Avrasiyadakı geostrategiyasının memarlarından biri olan *Bjezinski* Birləşmiş Ştatların idarə etdiyi oyunçunu müdafiə edəcəyini gizlətmir: *"Ona görə də biz Avrasiya oyunçularının tərəfində oynayacağıq, xüsusən ona görə ki, heç kəs başqasının oyununda əsas, hətta geosiyasi xarakterli olsa belə, mükafat roluna düşmək istəməz".*

Beləliklə, hər bir oyunçunun öz geosiyasi məqsədləri var və həmin məqsədlərə nail olmaq üçün o, öz geostrategiyasını formalaşdırır. Bir qayda olaraq, bu geostrategiya geniş ərazilərə və iri kommunikasiya qovşaqlarına nəzarətdən ibarətdir. Dövlətin coğrafi mövqeyi onun hərbi, siyasi və iqtisadi əhəmiyyətinə təsir edir. Dövlətin qüdrəti nə qədər çox olsa, onun geosiyasi maraqlarının radiusu bir o qədər böyükdür. Məsələn, Britaniya imperiyası əvvəllər Avrasiya geostrategiyasında əsas diqqəti dəniz qüdrəti üçün həyati əhəmiyyət kəsb edən Cəbəllütariq (Gibraltar), Süveyş kanalı və Sinqapur kimi boğazlara və kanallara nəzarət məsələsinə yönəldirdi. Nasist Almaniyası həm almandilli xalqları, həm də ucuz əmək resursları, kölələr, o cümlədən Ukraynanın taxıl zəmiləri də daxil olmaqla Şərqi slavyan torpaqlarını birləşdirməklə "minillik reyx" yaratmaq məqsədi güdürdü. Yaponiya imperiyası da Mancuriya, sonralar isə Hollandiyanın müstəmləkəsi, neft yataqları ilə zəngin olan Ost-İndiya (Şərqi-Hindistan) ərazilərinə sahib olmaq yolu ilə öz milli qüdrətini artırmaq və qlobal status əldə etmək niyyətində idi. Əsrlər boyu Rusiyanın qüdrəti də yeni ərazilərin ələ

keçirilməsi ilə eyniləşdirilirdi. Bjezinski ABŞ-ın Avrasiya geostrategiyasını bu tarixi fonda ifadə edir. Nasist Almaniyasının həyati əhəmiyyətli məkanından fərqli olaraq, Birləşmiş Ştatların Avrasiya geostrategiyasına öz müstəsna qlobal hakimiyyətini qoruyub saxlamaq və onunla rəqabət aparan başqa bir fövqəldövlətin yaranmasına imkan verməmək üçün superkontinentə məqsədyönlü şəkildə rəhbərlik etmək və ya onu idarə etmək məsələləri daxildir.

Avrasiya geostrategiyasının əsas iştirakçılarını və onun geosiyasi qütblərini nəzərdən keçirək. Avrasiyanın yeni siyasi xəritəsində *Bjezinski* Almaniya, Fransa, Rusiya, Çin və digər iri və fəal fiqurlara üstünlük verir. Lakin iri geosiyasi qütblər arasında Böyük Britaniya, Yaponiya və Hindistan yoxdur, lakin daha məhdud imkanlar daxilində Ukrayna, Azərbaycan, Cənubi Koreya, Türkiyə və İranın geostrateji fəallığı nəzərdən keçirilir.

Birləşmiş *Almaniya* Qərbi Avropada getdikcə daha artıq dərəcədə Avropa İttifaqının ən mühüm dövləti və iqtisadi lideri hesab edilir. "Böyük Avropa" barədə *Fransanın* öz geostrategiyası var və o, özünü Aralıq dənizi - Şimali Afrika ölkələri qrupunun nüvəsi hesab edir. Avropanın birləşməsinə ikili münasibət və Amerika ilə xüsusi qarşılıqlı münasibətlərə sədaqət nəticəsində *Böyük Britaniya* Avropa oyunundan çıxmışdır. Böyük Avropa avantüralarından özünü kənarlaşdırmış Böyük Britaniya "istirahətə çıxmış" geostrateji fiqura çevrilir. Bjezinski *Rusiyanın* geosiyasi vəziyyətini obyektiv qiymətləndirir: "Rusiya iri geostrateji oyunçu olaraq qalır. Onun dövlətçiliyinin zəifləməsinə, nasazlığının uzanmasına baxmayaraq o, hələ də iddialı geosiyasi məqsədlər güdür və bu məqsədləri getdikcə daha açıq şəkildə bəyan edir. O, öz əvvəlki qüdrətini bərpa edən kimi özünün şərq və qərb qonşularına ciddi təsir göstərməyə başlayacaqdır..." Rusiya demokratik yola qədəm qoymaq, yoxsa yenidən Avrasiya imperiyasına çevrilmək variantları arasında hələlik qəti seçim etməmişdir. Rusiya Amerika ilə özünün qarşılıqlı münasibətlərini hələ müəyyənləşdirməmişdir: Amerika onun dostudur, yoxsa düşməni?

Əslində, regional böyük dövlətə çevrilmiş *Çin* dünyanın mərkəzi olması haqqında ənənəvi təsəvvürü unutmur. Çinin iqtisadi tə-

rəqqisi onun Asiyada geosiyasi təsirinin güclənməsinə şərait yaradır. Böyük Çinin dirçəlməsi Amerikanın Uzaq Şərqdəki mövqelərinə hökmən təsir göstərəcəkdir.

Yaponiya paradoksu bu ölkənin regionda dominantlığa cəhd göstərməməsidir. Gündoğar ölkə Amerikanın himayəsi altında fəaliyyət göstərməyi üstün tutur.

Avropada Böyük Britaniya kimi, Yaponiya da Asiyanın materik hissəsi ilə siyasi peripetiyalara qarışmamağı üstün tutur. Burada bir sıra ölkələr Yaponiyanın lider roluna iddia etməsinə şübhə ilə yanaşırlar.

İqtisadiyyatı nisbətən zəif inkişaf etmiş, daxili siyasi vəziyyətin qeyri-sabit olduğu, etnoslar arasında münaqişələr davam edən ada dövləti *İndoneziya* hələlik fəal geostrateji fiqur roluna iddia edə bilmir. Güclü Çin diasporu İndoneziyanın maliyyə vəziyyətinə ciddi təsir göstərir. *Hindistan* regional böyük dövlət kimi təşəkkül prosesindədir və Cənubi Asiyada ən güclü dövlətdir. Çin ilə tarixi rəqabətə baxmayaraq, Hindistan Amerikanın Avrasiyadakı maraqlarına müdaxilə etmir və Çindən, yaxud Rusiyadan fərqli olaraq o, geosiyasi narahatlıq mənbəyi deyil. *Bjezinski* yeni müstəqil dövlətlər arasında *Ukraynanı* xüsusi fərqləndirir: "Avrasiya şahmat lövhəsi üzərində yeni və mühüm dövlət olan Ukrayna geosiyasi mərkəzdir, çünki onun müstəqil dövlət kimi mövcud olması faktının özü Rusiyanın transformasiyasına kömək edir. Ukraynasız Rusiya Avrasiya imperiyası kimi qala bilməz. Ukraynasız Rusiya imperiya statusu uğrunda mübarizəni davam etdirə bilər, lakin bu halda, o, əsasən Asiya imperiya dövlətinə çevrilərdi..."

Xəzər regionunda *Azərbaycanın* mühüm mövqeyi enerji amili ilə müəyyən olunur. *Bölgədə Bjezinski Azərbaycana xüsusi əhəmiyyət verərək yazır ki, bu ölkə Ukrayna ilə birlikdə ABŞ-ın Rusiyaya qarşı mübarizəsinin əsas fiquru hesab olunur. Əgər Azərbaycan Moskvanın nəzarəti altında olacaqsa, o zaman çətin ki, Mərkəzi Asiya dövlətlərinin müstəqilliyi tam olsun, yaxud Azərbaycanın Rusiyanın təsiri altında olması, Qərblə Şərq arasındakı alternativ nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsinin sonu demək olardı.*


SSRİ dağılandan sonra *Türkiyə və İran* Xəzər-Mərkəzi Asiya regionunda öz mövqelərini fəallaşdıraraq çox vaxt bir-birini neytrallaşdırır. Qara dəniz regionunda dominantlıq edən Türkiyə Aralıq dənizindən bu regiona gedişgəlişə nəzarət edir, Rusiyanın Qafqazdakı fəaliyyətini tarazlayır, müsəlman fundamentalizminə qarşı müqavimət göstərir və regionda NATO-nun istehkamı vəzifəsini yerinə yetirir. İran, ABŞ-a qarşı düşmən mövqeyi tutmasına baxmayaraq, Fars körfəzi rayonunda Amerikanın maraqlarına Rusiya tərəfindən təhdidlər üçün baryer rolunu oynayır.

Cənubi Koreya Uzaq Şərqin geosiyasi mərkəzi kimi Birləşmiş Ştatlarla sıx bağlıdır. Bu, Amerikanın Yaponiya üçün sipər rolu oynamasına və sonuncunun güclü hərbi dövlətə çevrilməsinin qarşısını almağa imkan verir. Cənubi Koreyanın getdikcə artmaqda olan iqtisadi qüdrəti onun geoiqtisadi məkanının radiusunu genişləndirir.

Avrasiya "şahmat lövhəsi" üzərində *oyunçuların bir səciyyəvi xüsusiyyəti* diqqəti cəlb edir. İkinci Dünya müharibəsindən sonra qitənin qərb və şərq periferiyalarında olan oyunçular ABŞ-ın himayəsi altındadır. Birləşmiş Ştatlar Qərbi Avropaya və Yaponiyaya himayədarlıq edir, onlara siyasi, hərbi və iqtisadi dəstək verir. *Bjezinski* Avropa barəsində belə bir hökm çıxarır: "Acınacaqlı hal ondan ibarətdir ki, Qərbi Avropa, eləcə də getdikcə artıq dərəcədə Mərkəzi Avropa da Amerikanın protektoratı olaraq qalırlar, bu halda müttəfiq dövlətlər qədim vassalları və tabelikdə olanları xatırladırlar. Bu vəziyyət istər Amerika üçün, istərsə də Avropa dövlətləri üçün heç də normal deyildir".

"Avropa evi"nin əsas memarları Fransa və Almaniyadır, lakin onların layihələri bir-birindən fərqlənir. Avropanın *Şarl dö Qoll* tərəfindən təklif edilmiş "Atlantikdən Urala qədər" fransız modeli anqlosaksların ağalığına və Qərb mədəniyyətinin amerikanlaşmasına ziddir. *"Suveren dövlət-millət ideyasını birinci olaraq kəşf etmiş və millətçiliyi vətəndaş dini səviyyəsinə qaldırmış ölkə... tamamilə təbii olaraq öz timsalında, - bir vaxtlar "la patrie" (vətən) anlayışının işləndiyi elə həmin emosional pafosla, - müstəqil, lakin vahid Avropanın təcəssümünü görmüşdür. Fransanın başçılığı ilə Av-*

ropanın əldə edəcəyi əzəmət bu halda, həm də Fransanın özünün əzəməti olardı. Dərin kök salmış tarixi missiya duyğusu ilə meydana çıxan və öz mədəniyyəti üçün istisnasız qürur hissi ilə möhkəmləndirilən bu xüsusi təyinat böyük siyasi məna kəsb edir. Fransanın öz nüfuzunu qoruyub saxlamalı olduğu - və ya heç olmasa, daha güclü dövlətin hökmranlığına imkan vermək istəmədiyi - əsas geosiyasi məkan xəritədə yarımdairə formasında təsvir oluna bilər. Bura İberiya yarımadası, Qərbi Aralıq dənizinin şimal sahilləri və Almaniyadan Mərkəzi-Qərbi Avropaya qədər ərazilər daxildir (bax: ***xəritə 28).*** *Bu, yalnız Fransanın təhlükəsizliyinin minimal radiusu*




Xəritə 28. ***Fransa və Almaniyanın geosiyasi maraq zonaları***
Fransanın xüsusi maraqlar orbiti
Almaniyanın xüsusi maraqlar orbiti
Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

deyil, həm də onun siyasi maraqlarının əsas zonasıdır. Fransanın başçılığı ilə vahid və müstəqil Avropanın yaradılması vəzifəsi yalnız cənub dövlətlərinin və Almaniyanın zəmanətli dəstəyi olacağı təqdirdə effektiv yerinə yetirilə bilər" [Brzezinski, 1997, p. 28]. Bjezinskinin fikrincə, Almaniya üçün Avropaya sədaqət milli günahların yuyulmasının əsasıdır, Amerika ilə sıx əlaqə isə Almaniyanın təhlükəsizliyi üçün zəruridir. Buna görə də Almaniya aşağıdakı formulu əsas götürür: "Günahların yuyulması + təhlükəsizlik = Avropa + Amerika". Bu layihələrin həyata keçirilməsi üçün Birləşmiş Ştatlar Fransa-Almaniya əməkdaşlığına əsaslanan Avropanın qurucusu rolunu yerinə yetirməlidir. Ona görə də Amerikanın Avropada əsas geostrateji məqsədi transatlantik tərəfdaşlığı yolu ilə əldə demokratiya məşəli tutaraq Avrasiyaya doğru irəliləmək üçün Amerikanın plasdarmını möhkəmlətməkdən ibarətdir. Təbii ki, bu yolda Rusiya ən mühüm dayanacaq olacaqdır.

Sovet İttifaqının süqutundan sonra Avrasiyanın lap "göbəyində" qısa bir müddətdə geosiyasi vakuum yarandı. Rusiyanın geosiyasi mövqeyi pisləşdi. İkinci Dünya müharibəsindən sonra Rusiya-Çin-Yuqoslaviya oxu boyunca Adriatik dənizindən Sarı dənizə qədər geniş bir ərazidə yaradılmış sovetpərəst nəhəng hərbi-siyasi blokun əvəzinə geosiyasi "qəlpələr" qalmışdı. Rusiya və Yuqoslaviya imperiyaları dağıldı. Dünyadakı iki fövqəldövlətdən biri köhnəlmiş nüvə arsenalına malik olan, gələcəyi barədə qabaqcadan proqnozlar verilməsi mümkün olmayan regional "Üçüncü dünya" dövlətinə çevrildi. *Bjezinski* Rusiya imperiyasının dağılmasına təsir göstərmiş ən mühüm hadisələrin - rus-yapon müharibəsində məğlubiyyətdən başlamış, Çeçenistanda təhqiramiz müharibəyə qədər dövrdə baş vermiş hadisələrin sosial nəticələrini nəzərdən keçirir. XX əsrdə müharibələr, inqilablar və repressiyalar nəticəsində Rusiya xalqının genofonduna ciddi zərər dəymişdir. Yeni sərhədlər daxilində Rusiya Avrasiyanın şimalına və şərqinə doğru sıxışdırılmış, "bufer dövlətlər" zonası vasitəsilə Qərbi Avropadan ayrılmışdır. Rusiya Baltik dənizi və Qara dəniz hövzələrində öz əsas mövqeyini itirmiş, iri hərbi dəniz bazalarından və ticarət limanlarından məhrum olmuş-

dur. Rusiyanın Qafqazda və Mərkəzi Asiyada statusu da analoji şəkildə dəyişmişdir. Mərkəzi və Qərbi Avropaya birbaşa quru yolu ilə çıxış imkanları itirilmişdir. Ərazi dəyişiklikləri Uzaq Şərqə aid olmasa da bu regionda yeni, təhlükəli vəziyyət yaranmışdır. Sibirin seyrək məskunlaşmış əraziləri Çinin iqtisadi qüdrəti ilə üzbəüz qalmışdır *(bax: **xəritə 29**)*. Lakin amerikalı politoloqun fikrincə, bura-



Xəritə 29. *İdeoloji nəzarətin itirilməsi və imperiyanın ixtisarı*

Ərazilərin itirilməsi

İdeoloji nəzarətin itirilməsi

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

da ən mühüm geosiyasi hadisə Ukraynanın itirilməsidir. Ukraynasız Rusiya Avrasiya imperiyasını bərpa etməyə qabil deyil.

Əslində, bir müddət, sanki təkcə Rusiya deyil, Ukrayna da ABŞ-ın strateji tərəfdaşına çevrilmiş kimi görünür. Lakin gəlin, bu barədə *Bjezinskinin* fikrinə qulaq asaq: *"Yetkin strateji tərəfdaşlıq konsepsiyası" gözə və qulağa xoş gəlsə də, aldadıcıdır. Amerika Yer kürəsində hakimiyyəti heç vaxt Rusiya ilə bölüşmək niyyətində olmamışdır və hətta bunu istəsə də, edə bilməzdi. Yeni Rusiya dünyada Amerikanın real tərəfdaşına çevrilmək üçün sadəcə olaraq həddən artıq zəif, sosial baxımdan həddən artıq geriləmiş dövlət idi. Dünyada Amerika ilə eyni status əldə etmək iddiası Rusiyanın siya-*

si elitasının nəinki keçmiş Sovet İttifaqı ərazisində, hətta Mərkəzi Avropanın satellitləri olmuş ölkələrə münasibətdə də üstün geosiyasi mövqe ideyasından imtina etməsini çətinləşdirirdi".

"Yaxın xaric" konsepsiyası adı altında bir neçə geosiyasi doktrina - regional iqtisadi əməkdaşlıq, Rusiya, Belarus və Ukraynadan ibarət "Slavyan İttifaqı" yaradılması, Şərqi slavyan dövlətlərinin Qazaxıstan və Qırğızıstanla birlikdə "Avrasiya İttifaqı" yaradılması və bəzi başqa doktrinalar mövcuddur. Bütün ssenarilərdə avrasiyaçılıq doktrinasından irəli gələn imperiya konteksti nəzərə çarpır.

Böyük və geosiyasi cəhətdən qeyri-sabit olan Mərkəzi Avrasiya məkanı qeyri-müəyyənliyi ilə seçilir. Sərhədləri ***30-cu xəritə***də



Xəritə 30. *Zorakılığın yayıldığı zona*


* Özbaşınalıq, münaqişə və zorakılıq arealları

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

göstərilmiş regionda, - onun sərhədləri Qara dənizdə Krımdan keçərək Rusiyanın yeni cənub sərhədləri boyunca şərqə gedir, Çinin Sinszyan əyalətinin sərhədləri ilə keçir, sonra Hind okeanına doğru aşağı düşür, oradan qərbə istiqamət alıb Qırmızı dənizə tərəf uzanır, daha sonra şimala doğru qalxaraq Aralıq dənizinin şərq hissəsinə çatır və yenidən Krıma qayıdır, - təqribən 25 ölkədə 500 milyona yaxın əhali yaşayır, onlar həm etnik mənşəcə, həm də dini etiqad cəhətdən müxtəlifdirlər və praktiki olaraq bu ölkələrdən heç biri siyasi cəhətdən sabit deyil. Bu ölkələrin bəzisi nüvə silahını əldə etmişlər.

*"Bu, asanlıqla qızışdırıla bilən nifrət hissi ilə didilən və bir-biri ilə rəqabət aparan güdrətli qonşularla əhatə olunmuş çox böyük region, çox güman, həm də milli dövlətlər arasında müharibələrin aparıldığı böyük hərb meydanı və qurtarmaq bilməyən etnik və dini zorakılığın hökm sürdüyü zonadır (zona - bu, həqiqətə ən yaxınıdır). Hindistan sipər amili qismində çıxış edəcək, yoxsa Pakistana öz iradəsini sırımaq üçün bəzi imkanlardan istifadə edərək, özünü daha çox mümkün münaqişələrin regional çərçivələrində büruzə verəcəkdir? Türkiyə və İranda daxili gərginlik, çox güman, yalnız güclənməyəcək, həm də hər an partlamaq təhlükəsi olan regionda bu ölkələrin oynaya biləcəkləri sabitləşdirici rolu əhəmiyyətli dərəcədə azaldacaqdır. Hadisələrin belə inkişafı, öz növbəsində, Mərkəzi Asiyanın yeni dövlətlərinin beynəlxalq birlik tərəfindən assimilyasiyası prosesini çətinləşdirə, eləcə də Fars körfəzində Amerikanın dominant rol oynadığı təhlükəsizliyin təmin olunması məsələsinə mənfi təsir göstərə bilər. İstənilən halda həm Amerika, həm də beynəlxalq birlik burada elə bir problemlə qarşılaşa bilər ki, keçmiş Yuqoslaviyada baş verən münaqişə onunla müqayisədə əhəmiyyətsiz görünərdi" (bax: **xəritə 31)** [Brzezinski, 1997].*

Asiya-Sakit okean regionu dünyanın iqtisadi və texnoloji inkişaf qütblərindən birinə çevrilməkdədir. Lakin Şərqi Asiyada silahların və potensial münaqişələrin miqyası getdikcə genişləndiyinə görə bu regionun siyasi landşaftı partlayış dərəcəsinə çata bilər. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq Şərqi Asiya regionu dünyada



Xəritə 31. ***"Avrasiya Balkanları"***

→ Geosiyasi təzyiq
▬ "Avrasiya Balkanları"
▪▪▪▪ Qeyri-sabitlik zonası
* Münaqişələrin kəskinləşmə nöqtələri

*"**Mənbə:*** Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

ən iri silah idxalçısına çevrilmişdir. "Mürgüləyən vulkanlar" arasında partlayış təhlükəsi daha yüksək olan problemlər bunlardır:

1) Tayvanın siyasi statusu problemi;

2) Şimali Koreya və onun nüvə dövlətinə çevrilməsi problemi;


3) Şimali və Cənubi Koreya arasında siyasi-ideoloji qarşıdurma;

4) Kontinental şelfin potensial enerji ehtiyatları ilə bağlı mübahisəli problemlər (Parasel və b. adalar, Liankur qayaları);

5) Şimal əraziləri (Cənubi Kuril adaları) problemi;

6) Tibetin və Sinszyanın etnik-milli ərazi problemləri;

7) Çoxsaylı tənzimlənməmiş sərhəd münaqişələri və s. ***(bax: xəritə 32).***



Xəritə 32. ***Şərqi Asiyada sərhəd və ərazi mübahisələri***

1. Çinin iddiaları
2. Hindistanın iddiaları
3. Çinin iddiaları
4. Çin-Vyetnam sərhəd münaqişələri
5. Parasel adaları
6. Spretli adaları
7. Pratas adası
8. Senkaku adaları/Diao-Yu-Tai
9. Liankur qayaları
10. Demarkasiya xətti
11. Şimal əraziləri

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

İkinci Dünya müharibəsindən sonra Qərbi Avropa kimi, Yaponiya da Amerikanın iqtisadi yardımı və nüvə çətiri altında sığınacaq sayəsində uğurlar qazanmışdır. Beləliklə, *Bjezinskinin* fikrincə, paradoksal bir vəziyyət yaranmışdır: Yaponiya eyni vaxtda həm dünya dövləti, həm də ABŞ-ın protektoratıdır. Birləşmiş Ştatlarla rəqabətdə Yaponiyanın qələbəsi haqqında proqnozlar doğrulmadı. Yaponiya dünyada enerji və başqa ehtiyatların nəqlində və xarici ticarətdə baş verən pozuntulardan asılıdır. Eyni zamanda, Yaponiya zənginlik və təhlükəsizlik sahəsində özünün qüdrətli müttəfiqi, dünyada sabitliyin əsas keşikçisi və Gündoğar ölkənin iqtisadi rəqibi olan qüdrətli müttəfiqindən siyasi cəhətdən asılıdır. Təhlükəsizlik haqqında Amerika-Yaponiya müqaviləsi əslində Amerikanın Yaponiyanı müdafiə etmək barədə birtərəfli öhdəliklərini - proteksionist münasibətləri qanuniləşdirmiş oldu.

ABŞ-ın Avrasiya geostrategiyasının ümumi cizgiləri belədir. Bu kontekstdə ABŞ dünyada əsas güc mərkəzi kimi qəbul edilir. Artıq qeyd etdiyimiz kimi, Amerika hərbi sahədən biznesə, elmdən texnologiyaya, təhsildən kütləvi mədəniyyətə qədər dünyada görünməmiş miqyasda hökmranlıq edir. XX əsrin axırıncı onilliyində Amerikanın hökmran mövqeyi bu dövləti beynəlxalq sabitliyin təmin olunmasında əvəzsiz etmişdir. Hətta belə bir fikir də mövcuddur ki, ABŞ hal-hazırda dünyada mondialist xarakterli beynəlxalq siyasət həyata keçirir. "Mondializm geosiyasəti" nəzəriyyəsi "yeni dünya nizamı" doktrinası kimi məşhurdur. Bu doktrina XX əsrin 70-ci illərindən etibarən amerikan geosiyasətçiləri tərəfindən işlənməyə başlanmışdır. Lakin 1991-ci ildə Körfəz müharibəsi zamanı ata *Corc Buş* tərəfindən ilk dəfə olaraq geniş səslənmişdir.

İqtisadi strategiya ABŞ-ın müasir xarici siyasətinin prioriteti hesab olunur. XX əsrin sonlarında bir daha təsdiq olundu ki, iqtisadi amil geosiyasi qüvvələr balansında aparıcı yerlərdən birini tutur. Nəzərə almaq lazımdır ki, 1990 və 2000-ci illərdə Amerika iqtisadiyyatı 27% artmışdır. Bu göstərici Qərbi Avropa dövlətlərin-

də 15%, Yaponiyada isə cəmi 9% olmuşdur. Dünyanın ümumi məhsulunda Amerikanın payı 1996 və 2002-ci illər arasında 25,9%-dən 31,2%-ə qədər yüksəlmişdir. Bu səbəbdən ABŞ dünyada ən qüdrətli iqtisadi "güc mərkəzi" kimi qəbul edilir. Hərbi potensial baxımından da ABŞ dünyada hegemonluq edir. ABŞ-ın müdafiə sənayesinə qoyulan illik sərmayəsi dünyanın digər ölkələrinin müvafiq məqsədlər üçün yönəltdiyi sərmayənin ümumi miqdarına bərabərdir (2004-cü ildə bu rəqəm 480 milyard dollar təşkil etmişdir). ABŞ həm öz daxili ehtiyacını, həm də dünya hərbi sursatlarının 50%-ni təmin edir. Bununla bərabər, dünyanın ən mobil və peşəkar ordusu (1970-1998-ci illərdə ABŞ ordusunun sayı 3,1 milyondan 1,4 milyona qədər azaldılmışdır) məhz Amerikaya məxsusdur.

ABŞ dünyanın istənilən regionuna, istənilən dövlət və dövlətlərarası təşkilatlara, onların qəbul etdiyi qərarlara və yeritdikləri siyasətə əhəmiyyətli təsir etmək iqtidarına malikdir. Buna həm onun iqtisadi, siyasi, hərbi gücü, həm də beynəlxalq nüfuzu imkan verir. Müasir dövrdə insan hüquqlarının qorunması, beynəlxalq münasibətlərin demokratikləşməsi prosesi, dünya ticarət və iqtisadiyyatının qlobal sisteminin yaradılması və s. ABŞ-ın xarici siyasət strategiyasının əsas prinsiplərinə çevrilmişdir. Bu baxımından ABŞ-ın keçmiş dövlət katibi *Madlen Olbraytın* fikrinə əsasən, ABŞ-ın siyasəti sülhə, çiçəklənməyə, ədalətə və beynəlxalq normalara riayət etməyə əsaslanır: *"...bizim siyasət dini müxtəliflik kimi fərqlərə məhəl qoymur"*.

Bjezinskiyə görə, Amerikanın dünyada rolu müasir dövrün iki əsas reallığı ilə müəyyən olunur: Amerikanın qlobal qüdrətinin misilsizliyi və misilsiz qlobal qarşılıqlı asılılıq. *"Amerikanın hegemonluğu altında beynəlxalq münasibətlərin inkişafı birqütblülük amilini əks etdirir, bu hegemonluq uca səslə elan olunsa da, yavaş-yavaş baş versə də, bu, o qədər də əhəmiyyətli deyil, dünya reallığı belədir. İkincisi, belə təəssürat yaranır ki, ümumi, bəlkə də həmişə də səmərəli olmayan qloballaşma prosesi tədricən konkret dövlətləri müqəddəs suverenlikdən məhrum edir. Bu iki amilin çulğalaşma-*

sı beynəlxalq münasibətlər sahəsində uzağa gedən dəyişikliklərə aparır, ənənəvi diplomatiyanın ölümünə səbəb olur, həm də bu, daha vacibdir, - qlobal birliyin meydana gəlməsinə şərait yaradır" [Brzezinski, 2004, p.178].

Bu dəyişikliklər yalnız simvolik deyil, faktiki olaraq dünyanın birinci paytaxtının meydana gəlməsini təsdiq edir. *"Lakin bu paytaxt bütün milli dövlətlərin Baş Assambleyasının keçirildiyi Nyu-York deyil. Əgər yeni dünya nizamı suverenliyin aldadıcı hüquqi bərabərlik prinsipinə söykənən suveren dövlətlərin ümumi əməkdaşlığı əsasında yaransaydı Nyu-York belə paytaxt ola bilərdi. Lakin belə dünya nizamı qurulmadı və bu anlayışın özü transmilli qloballaşma və suveren Amerika qüdrətinin tarixən unikal miqyası fonunda hansısa anaxronizmə çevrildi" [yenə orada, səh. 183].*

Bjezinski Vaşinqtonu dünyanın siyasi paytaxtı hesab edir: *"Dünya paytaxtı meydana gəldi, lakin Hudzon ilə İst-River arasında deyil, Potamak çayının sahillərində yerləşən Vaşinqton dünya tarixində ilk qlobal siyasi paytaxt oldu. Regional imperiyanın paytaxtı olan nə Roma, nə qədim Pekin, nə də hətta viktorian London öz qlobal qüdrətinə və qərar qəbul etmək imkanlarına görə Vaşinqtonun mərkəzində cəmləşən bir neçə kvartala bərabər olmaqdan uzaqdır. Bir qədər üst-üstə düşən, lakin dəqiq məhdudlaşdırılan daxili üçbucaqlarda qəbul edilən qərarlar Amerikanın qüdrətini bütün dünyaya yayır və qloballaşma prosesinin necə getməsinə ciddi təsir göstərir. Ağ evdən monumental bina olan Kapitoliyə, sonra qalanı xatırladan Pentaqona, yenidən Ağ evə aparan xətt hakimiyyətin bu üçbucaq nümunəsini təşkil edir. Ağ evdən bir neçə kvartal aralı olan Dünya Bankına, sonra Dövlət Departamentinə və geriyə - Ağ evə aparan digər xətt də qlobal təsir üçbucağını yaradır (bu məkanda Beynəlxalq Valyuta Fondu və Amerika Dövlətləri Təşkilatı yerləşir). Birlikdə götürülən bu iki üçbucaq "dünya işlərinin" ənənəvi anlamda Vaşinqtonun dairəvi yolu ilə əhatə olunan bu hissənin nə dərəcədə daxili işi olduğundan xəbər verir" [Brzezinski, 2004, p. 204].*

Bjezinskinin fikrincə, Birləşmiş Ştatların aparıcı dünya dövləti kimi yeni rolunda qloballaşma doktrinası müasir dünyanı və Amerikanın bu dünya ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirmək üçün faydalı koordinat sistemidir. Qloballaşma özünün intellektual sadəliyi ilə diqqəti cəlb edir, postindustrial və postmilli dövrün mürəkkəbliyini aydın şəkildə izah edir, dünya iqtisadiyyatına açıq yol yeni texnologiyaların təbii və zəruri nəticəsi hesab edilir. Dünya Ticarət Təşkilatı, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu isə qlobal miqyasda bu faktın institusional tətbiqidir. Azad bazar öz miqyasına görə qlobal olmalıdır və burada cəsarətli və əməksevər olanlar rəqabət aparır. Ölkələr yalnız özlərinin daxili demokratiya dərəcələrinə görə deyil, həm də nə qədər qloballaşmalarına görə dəyərləndirilməlidirlər.

II Fəsil

QƏRBİ VƏ ŞƏRQİ AVROPADA, BALTİKYANI BÖLGƏDƏ GEOSİYASİ PROSESLƏR

Avropanın geosiyasi xəritəsi ən azı üç iri qurumdan (arealdan) ibarətdir. Onlardan birincisi kontinental Qərbdir. Onun nüvəsi, ilk növbədə, Fransa, İspaniya və Portuqaliya hesab edilə bilər. İngiltərə və ABŞ çox vaxt inkişaf etmiş Qərbə aid edilir. İkinci qurum (areal) Orta Avropadır. Buraya Almaniya, Avstriya, İtaliya və Macarıstan aiddir. Üçüncü qurum Şərqi Avropadır. Buraya gərginlik zonaları daxildir.

Xəritə 33. ***Avropa***



2.1. Avropanın enişli-yoxuşlu yolları

ABŞ kimi İngiltərə də Qərbi və Şərqi Avropa ölkələri, Avrasiya və Cənub-Şərqi Asiya ilə geosiyasi münasibətlərdə talassokratik yanaşmanın tərəfdarı olmuşdur. Yuxarıda qeyd etmişdik ki, talassokratiya və ya dəniz qüdrəti sürətli texniki inkişafı müəyyənləşdirən dənizçilik, ticarət ilə sıx bağlı olan sivilizasiya tipidir. Talassokratiya ideoloqlarının fikrincə, sivilizasiyanın bu tipi fərdi sahibkarlıq, varlanma və yığıcılıq ruhunu şərtləndirir (bu barədə daha ətraflı məlumat üçün *bax: I cild, 2-ci fəsil*). Alfred Mehenin fikrincə, dəniz sivilizasiyası cəsarət və risk tələb edən, ozmkar insanlar yetişdirən ticarət sivilizasiyasıdır. Etiraf etmək lazımdır ki, bu tipli insanlar İngiltərə üçün çox səciyyəvi idi. Onlar İngiltərəni "dənizlər hökmdarı"na çevirmişlər. Demək olar ki, XX əsrin ortalarına qədər İngiltərənin müstəmləkələrinin səmasında günəş batmırdı. XIX əsrin sonlarına qədər İngiltərə "dünyanın emalatxanası" olmuş, ən iri kommersiya sövdələşmələri Sitidə (Londonun maliyyə mərkəzi) bağlanmışdır.

Lakin Birinci Dünya müharibəsi dünyada geosiyasi qüvvələrin paylanmasına çox ciddi düzəlişlər etdi. Sonra Rusiyada oktyabr çevrilişi və dünya xəritəsində əvvəlcə RSFSR-in, sonra isə SSRİ-nin yaranması bu prosesləri daha da dərinləşdirdi. Yarım əsr ərzində SSRİ və ABŞ dünyada iki fövqəldövlətə çevrildi. XX əsrin 50-90-cı illərində Böyük Britaniya da daxil olmaqla, Qərbi Avropa, əslində bufer zonası rolunu oynamışdır. Lakin bəzi dövlətlər, məsələn, Fransa satellit dövlət rolu ilə razılaşmırdı. Bu, Fransanın sabiq Prezidenti, onun milli qəhrəmanı general *Şarl dö Qoll* kimi güclü siyasətçiləri qane etmirdi. Paris-Bonn oxu yaratmaqla ABŞ-ın nəzarətindən çıxmaq ideyası ona məxsusdur. Bu cəhdi dərin inteqrasiya yolu ilə okeanın o tayındakı qüdrətli himayədarına qarşı çıxmağa qadir olan güclü Avropa yaratmağa çalışan müasir Avropanın rüşeymi hesab etmək olar. Qərbi Avropa birliyinin daxilində ABŞ ilə Avropanın münasibətlərində ilk baxışda görünməyən dəyişikliklər baş verir. Zahirən Paris ilə Vaşinqton arasında ənənəvi qarşıdurma təsiri bağışlayan bu dəyişikliklər, ilk növbədə, NATO-nun

"avropalaşdırılması", NATO-da Avropanın rolunun artırılması, eləcə də blokda islahatlara aiddir.

Avropa alyansının kapitan körpüsündə sükan başqalarına nisbətən güclü siyasi və iqtisadi dayaqlara malik olan birləşmiş Almaniyanın əlinə keçməkdə idi. Buna görə də atlantizm ideyaları müəyyən transformasiyaya məruz qalır. Blokun çoxtərəfli əməkdaşlıq formatları genişlənir (Şimali Atlantika Əməkdaşlıq Şurası yaradıldı, "Sülh naminə tərəfdaşlıq" proqramı həyata keçirilməyə başlamış, çoxmillətli qüvvələr yaradılmış, bu qüvvələr Fars körfəzində, keçmiş Yuqoslaviyada və başqa bölgələrdə hərbi əməliyyatlar aparmışlar), Avropa dövlətləri arasında (AFR-Fransa), Şimali Avropanın kiçik ölkələri arasında, Baltik regionu ölkələri arasında ikitərəfli əlaqələr, siyasət, iqtisadiyyat, maliyyə sahəsində inteqrasiya münasibətləri (əlaqələri) güclənir. XX əsrin axırları vahid Avropa valyutasının (avro) yaradılması və gömrük nəzarətindən imtina edilməsi ilə əlamətdar oldu.

1992-ci il *Maastrixt müqaviləsi* Qərbi Avropa ölkələrinin oksəriyyətinin sıx iqtisadi və siyasi inteqrasiyası yolunda ilk iri addım olmuşdur. Hökumət başçılarının 1997-ci ildə Amsterdamda keçirilmiş növbəti görüşü Qərbi və Mərkəzi Avropanın 1999-cu ilə qədər vahid avro valyutası olan konfederativ dövlətə çevrilməsinə kömək etmişdir. Amsterdam görüşündə əvvəllər Qarşılıqlı İqtisadi Yardım Şurasının (QİYŞ) üzvü olmuş on Mərkəzi və Şərqi Avropa ölkəsinin və bəzi keçmiş Sovet İttifaqı respublikalarının: Polşa, Macarıstan, Çexiya, Slovakiya, Bolqarıstan, Rumıniya, Albaniya, Estoniya, Latviya və Litvanın *Avropa İttifaqına* dəvət olunması barədə prinsipial qərar qəbul edilmişdir.

XX əsrin sonlarında *NATO*-da iki qrup formalaşdı. Birinci qrup ABŞ, Kanada və onlara qoşulan Böyük Britaniya, ikinci qrup isə Qərbi Avropa ölkələrini əhatə edir. Bu proses obyektiv tarixi xarakter daşıyır. İkinci Dünya müharibəsindən sonra tar-mar olmuş Avropaya silah, döyüş sursatı, ərzaq satmaqla məşğul olmuş ABŞ çox qısa müddətdə həm varlanır, həm də qüdrətli dövlətə çevrilir. Bu məsələdə, müharibədən zəif çıxmış Avropa dövlətlərinin iqti-

sadi cəhətcə güclənməsində ABŞ konqresinin qəbul etdiyi *Marşall planının* xüsusi rolu olmuşdur. Amma Avropanın bəzi ölkələri, xüsusilə Fransa və Almaniya ABŞ-ın direktivi ilə hərəkət etmək istəmirdilər. Bu barədə ilk sözü Fransa dedi. Ötən əsrin 60-cı illərinin ortalarında *dö Qollun* göstərişi ilə Fransa NATO-nun hərbi qurumunda iştirak etməkdən imtina etdi və bütün azimutlar üzrə müdafiə olunacağını bəyan etdi.

70-ci illərdə kapitalizm dünyası üç qüvvənin dayanıqlı sisteminə çevrildi: 1 - ABŞ, 2 - Qərbi Avropa, 3 - Yaponiya. 70-ci illərin əvvəllərindən başlayaraq ABŞ-ın təsir gücü tədricən zəifləməyə başlasa da, hərbi və siyasi sahələrdə bu ölkənin hegemonluğu qalmaqda idi. Amerikalılarla mübarizənin səbəblərini də məhz *Avropa inteqrasiyasının* köklərində axtarmaq lazımdır. Bu inteqrasiya bir çox məqsədlərə nail olunmasını nəzərdə tutur: XX əsrin sonu üçün vahid Avropa valyutasının yaradılması, Qərbi Avropa qüvvələrinin birləşməsi (bu, maliyyə-iqtisadi sahədə məsələlərin yeni minilliyin əvvəlinə qədər həll edilməsi deməkdir), yeni minilliyin birinci onilliyində siyasi məqsədlərə və xammal (ilk növbədə enerji daşıyıcıları), satış bazarları və kapitalın tətbiq sahələri uğrunda ehtimal edilən hərbi mübarizədə uğur qazanılması və sair. SSRİ-nin dağılması bu proseslərin tam reallaşmasına maneçilik törətdi, çünki artıq dünyada yeni geosiyasi məkan formalaşırdı.

Avropanın iki böyük dövləti - Almaniya və Rusiya geosiyasi baxımdan bir-birinə bənzəyir. Rusiya Avrasiyanın mərkəzində yerləşdiyi kimi, Almaniya da Avropa qitəsinin mərkəzində yerləşir. Onu qərb tərəfdən nisbətən kiçik dövlətlər, şərq tərəfdən güclü kontinental ölkələr əhatə edir (*bax: **xəritə 34***). Ərazinin relyefi kiçik yüksəklikləri olan düzənlikdir. Çaylar əsasən meridianlar boyunca şimal istiqamətində axır. Şimal sərhədləri dənizlər boyunca keçir. Sahillər az sayda iri limanları olan ovalıq ərazidir. Bu əlamətlər hər iki ölkədə ictimai həyatın müxtəlif sahələrində baş verən proseslərin oxşarlığını və hətta eyniliyini müəyyən edir. XXI əsrin əvvəllərində Almaniya və Rusiya, müvafiq surətdə, Avropa-



Xəritə 34. ***Almaniya və Rusiya***

da və Avrasiyada öz layiqli yerlərini tapmağa, onların əl-qolunu bağlayan buxovları qırıb atmağa çalışırlar.

Ötən əsrin 80-90-cı illərində Almaniyanın ümumi milli məhsulu dinamik şəkildə artmağa başlayır. Almaniya artım göstəricilərinin sürətinə görə Fransanı təqribən 2 dəfə, Böyük Britaniyanı 2,5 dəfə, ABŞ-ı 4,5 dəfə üstələyir. XX əsrin axırlarında dünya üzrə ixracın təqribən 13%-i Almaniyanın payına düşür (Yaponiyada bu göstərici 11%, ABŞ-da 10%-dir), əsrlərin qovuşuğunda cari tədiyyə balansı Böyük Britaniyadan və ABŞ-dan fərqli olaraq Almaniyada hər il aktiv saldo verir.

Geosiyasi qüvvələrin və kapitalların təkrar bölünməsi, əslində, başlamışdır. Lakin alman kapitalının Şərqə - Rusiyaya, Avstriyaya, Çexiyaya, Macarıstana, Ukraynaya, Polşaya, Baltikyanı dövlətlərə, Balkanlara doğru hərəkəti meyili aşkar görünür.

Əlbəttə, Almaniya geosiyasi və xarici iqtisadi problemləri yalnız o halda uğurla həll edə bilər ki, daxili iqtisadi və siyasi vəzifələrin öhdəsindən gələ bilsin. Bu, ilk növbədə, sənaye müəssisələrinin çox hissəsinin boş dayandığı, iqtisadiyyatın ayrı-ayrı sektorlarında işsizlik göstəricisinin əmək qabiliyyətli əhalinin 50%-nə qədər olduğu, seçicilərin 40%-nin sosialistlərə səsverməyə həmişə hazır olduğu şərq əyalətləri problemidir. Ölkədə demoqrafik vəziyyətin mürəkkəb olması da, yuxarıda adları çəkilən geosiyasi

məsələlərin həllini şübhə altına alır. 1985-ci ildə AFR-də uşaqlar (15 yaşa qədər) əhalinin 16%-ni, əmək qabiliyyətli (16-64 yaş) sakinlər 69% təşkil etdiyi halda, 2025-ci il üçün müvafiq proqnoz göstəricilərinin 11% və 65%, 2035-ci il üçün 9,7% və 60,3% olacağı gözlənilir *[Ушаков, 1991]*.

Almaniyanın sözün əsl mənasında qüdrətli dövlətə çevrilməsi yolunda başlıca əngəl ölkənin xammalla (əsasən neft və təbii qazla) çox zəif təmin olunmasıdır. Almaniyanın enerji asılılığını başa düşmək üçün rəqəmlərə müraciət edək. XX əsrin əvvəllərində ölkədə ilkin enerjiyə olan daxili tələbat daş kömür ekvivalenti ilə müqayisə olunduqda 400-418 milyard tona bərabər idi. Ölkənin enerji balansında təkcə neftin payı 43 faizə çatırdı. Almaniya təsərrüfatının yanacaq balansında neftin payı 45 faizə bərabər idi. Özünün çıxardığı neft həcmcə idxal etdiyi neftdən 4 dəfə az idi. Bu problemi həll etmək üçün Almaniya Rusiya ilə sıx münasibətlər yaratmağa cəhd göstərir. Yaranmış xammal problemini Almaniyanın məşhur "RurQaz" şirkəti Rusiyanın qaz şirkətləri ilə birlikdə həll etməyə çalışır. Qeyd etmək lazımdır ki, "RurQaz" Rusiyanın qaz sənayesi ilə 1971-ci ildən əlaqə saxlayır. Rusiyadan Almaniyaya ixrac edilən metan ölkəyə böyük həcmdə gəlir gətirir. "RurQaz"ın hesabına Rusiya təbii qazı İspaniya, Portuqaliya, Böyük Britaniyaya və digər ölkələrə "ayaq açmağa" başlamışdır. Hal-hazırda Almaniya neftin təxminən 35%-ni, qazın isə 40%-ni Rusiyadan idxal edir *[Кряжева, 1998]*. 2008-ci ilə qədər "RurQaz" hər il Rusiyadan orta hesabla 200 milyalrd kubmetr həcmində qaz idxal etmişdir Təbii qazın dünya bazarında satış qiyməti isə ildən-ilə artır.

Təbii ki, siyasi və iqtisadi dayaqları möhkəm qurulmuş Almaniya kimi dövlət neft-qaz problemlərini təkcə Rusiya ilə həll etməyə çalışmır. Son illər ərzində neft və təbii qaza olan qiymətlərin artması və ən əsası idxal olunan enerji daşıyıcılarının təchizatında qeyri-sabitlik ehtimalı Almaniya hökumətinin enerji siyasətində dəyişikliklər etməsinə gətirib çıxarmışdır. Bu siyasətin əsas məqsədi neft və qaz idxalının diversifikasiyası və enerji daşıyıcılarından balanslaşdırılmış şəkildə istifadədir. Rusiyanın qonşu ölkələr, xüsusən də Ukrayna ilə enerji təchizatı və tranziti ilə bağlı problemləri Almaniyanı narahat etməyə başlamışdır.

Rusiyadan asılılığın azaldılması üçün Almaniya hökuməti halhazırda neft və qaz idxal etdiyi ölkələrlə (Böyük Britaniya, Norveç və s.) idxal həcminin artırılması, eyni zamanda, neft və qaz ixrac edən digər ölkələrdən idxala nail olmaq istiqamətində müvafiq iş aparır. Bu məqsədlə Nabukko kəməri ilə qazın Yaxın Şərq və Mərkəzi Asiya ölkələrindən tədarükü nəzərdə tutulur. Sözsüz ki, bütün bunlar öz növbəsində onun geosiyasi vəziyyətinə yeni çalarlar gətirəcək.

XVII əsrdən etibarən Almaniya özünün geostrateji problemlərinin əksəriyyətini Rusiyanın köməkliyi ilə həll etməyə başlamışdır. Məsələn, *I Pyotr* (1672-1725) türklərlə müharibə aparan Avstriyanın köməyinə gəlmişdir. Almanların torpağında zorakılıq edən isveçlilərə qarşı digər rus çarı müharibə elan etmişdir. XVIII əsrin axırlarına qədər bütün müharibələrdə Rusiya Almaniya və Avstriyanın müttəfiqi olmuşdur. Yeganə istisna kimi, Yeddiillik müharibədə (1756-1763) rus ordusu Keniqsberq şəhərini zəbt etdikdən sonra Berlin divarlarının önünə qədər gəlib çıxmışdı. Lakin *Yelizaveta Petrovnanın* qəfil ölümü Almaniyanı qeyd-şərtsiz kapitulyasiya imzalamaqdan xilas etdi.

Rusiya ilə Almaniya, eləcə də Prussiya arasında sıx əlaqələr XIX əsrin əvvəllərində də mövcud olmuşdur. Məşhur hərb nəzəriyyəçisi *Karl fon Klauzevits* rus ordusunun polkovniki rütbəsində 1812-ci il müharibəsində iştirak etmişdir. Alman mütəfəkkirləri *Frans Bayader, F.V.Şelling, Rixard Vaqner, Fridrix Nitsşe*, yazıçılardan *Rilke, Hesse* Rusiya ilə sıx mənəvi əlaqə saxlamışlar. Onlar rus və alman mədəniyyətlərinin sintezi üzərində işləmişlər *[Тукаев, 1991]*.

O.Bismarkın (1815-1898) dövründə Almaniyanın birləşməsi Rusiyanın ciddi hərbi-siyasi köməyi ilə baş vermişdir. Kansler *O.Bismark* demişdir: *"Şərqdə düşmənimiz yoxdur"*. 1904-1905-ci illərdə Rusiya Yaponiya ilə və ona kömək edən ABŞ, İngiltərə və

Fransaya qarşı müharibə aparanda Almaniya Rusiyanı dəstəkləyirdi. 1906-cı ildə *Rotşild* Rusiyaya borc vermək üçün əsas şərt kimi Byörke rus-alman ittifaq sazişinin (1905) pozulmasını tələb etmişdir. Beləliklə, XX əsr Rusiya ilə Almaniya arasında münasibətlərin kəskinləşməsi ilə başlanmışdır. Bu, iki dəhşətli qanlı müharibəyə və çox böyük geosiyasi sarsıntılara gətirib çıxarmışdır.

1994-cü ildə çap olunmuş "Almaniya ayılır" kitabının müəllifi *Hans Rüdiger* qeyd edir ki, Almaniya bütün Avropada, xüsusilə Mərkəzi Avropada aparıcı, qüdrətli dövlət funksiyasını yerinə yetirməlidir. Bunun üçün o, regionda baş vermiş ən kiçik münaqişələrdən, separatçı əhval-ruhiyyədən maksimum istifadə etməlidir. Avropanın müxtəlif bölgələrində yaşayan almanlar arxalarında qüdrətli bir dövlətin durmasını həmişə hiss etməlidirlər. Xüsusilə Sudet və Kalininqrad bölgələrində cəmləşmiş almanların arxası Berlinə bağlı olmalıdır.

Almaniyanın kütləvi informasiya vasitələri indiyədək Kalininqrad şəhərini Könisberq adlandırır. Almaniya Volqa boyunda, Sibirdə və Qazaxıstanda yaşayan etnik almanların Kalininqrad vilayətinə köçürülməsinə böyük yardım edir.

İqtisadi baxımdan qüdrətli bir ölkə olan Almaniya hərbi və siyasi aspektlərdə dünyanın birinci dövləti, lideri deyil. Bunu yaxşı başa düşən almanlar daim siyasi və hərbi dəstək axtarırlar. Onlardan bir qrupu hərbi dəstək mənbəyini Fransada görürlər. Kifayət qədər müstəqil hərbi siyasət yeridən Fransanın raket-nüvə silahları, o cümlədən strateji ballistik raketləri, strateji aviasiyası, kosmik sistemləri, raketdaşıyan sualtı atom gəmiləri, təyyarədaşıyan və kreyser donanma qüvvələri vardır. Hər iki ölkənin silahlı qüvvələrinin birləşdirilməsi yaxşı tarazlaşmış sistem yaradır.

Böyük Avropa üçlüyünün 1998-ci ilin payızında "Bor" adlanan iqamətgahda keçirdiyi görüş, əslində, o dövrün mətbuatında deyildiyi kimi, təbliğat xarakteri daşıyırdı. Rusiya ilə Fransa prezidentlərinin, həmçinin Almaniya kanslerinin bir araya gəlməsi və əldə olunan nəticələr gözdən pərdə asmaq kimi bir şey idi. Əslində, Va-

şinqtondan asılı olmayan, ondan xəbərsiz siyasət yürütmək ideyası arzu olunanı həqiqət kimi qələmə vermək idi.

Bu, ilk növbədə, prezidentlərə növbəti seçkilərdə tərəfdarlar toplamağın bir variantı idi. Bu görüşdən sonra jurnalistlər üçün mətbuat konfransı keçirən *Şirak* və *Kol* qeyd etmişlər ki, biz ilk növbədə, vətəndaşlarımızın sosial şəraitinin yaxşılaşdırılması, onların iş yerləri ilə təmin olunması barədə düşünürük və o vaxtlar üçün çox yüksək olan (12 faiz) işsizliyi bir qədər aradan qaldırmaq istəyirik. Buna isə London-Paris-Berlin-Varşava-Moskva marşrutu ilə hərəkət edə biləcək transmilli nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi yolu ilə nail olmaq olar. "Bor" görüşündə ölkə liderləri müxtəlif təbii və texnoloji təhlükələrdən qorunmaq üçün xüsusi xilasedici qruplar yaratmaq, habelə Rusiyanı Böyük Avropaya daxil etmək və Böyük Avropanın hegemonluğu barədə fikirlər səsləndirmişlər.

Rusiyanın geosiyasi və siyasi maraqlarının müəyyən hissəsi Balkanlarla bağlıdır. "Rend korporeyşn"in beynəlxalq bölməsinin aparıcı əməkdaşı *Stiven Larrabi* "Rusiya və Avropa. Təhlükəsizlik problemlərinə dair yeni gündəlik" kitabında yazır: *"Krım müharibəsindən sonra Rusiya Balkanlarda öz təsirini xüsusən Avstriyada və nisbətən az dərəcədə Almaniyada gücləndirməyə çalışırdı. Rusiyada və Balkanlarda panslavyan əhval-ruhiyyənin geniş yayılması güclü stimul idi"* [Жеглова, 1998]. Balkanlar indi də moskvalı siyasətçilərin və geostrateqlərin diqqət mərkəzindədir. Geosiyasi baxımdan bir neçə vacib məqsəd Rusiyanın xüsusi diqqətindədir: Balkanlarda Rusiyanın aparıcı rolunu təmin etmək, o cümlədən regionda yaşayan slavyan xalqlarının talеyüklü məsələlərinin həllinə nail olmaq. Rusiyanın fikrinco, Balkanlarda baş vermiş hadisələrdə tərəflər Rusiyanın istədiyi kimi hərəkət etməlidirlər.

2.2. Avropada inteqrasiya prosesləri

Avropa dünyanın ən mütəşəkkil regionudur (62-ci səhifədəki **cədvələ** bax). Bu regionun siyasi cəhətdən birləşməsi sahəsində uğura nail olunması, demokratiya şəraitində yaşayan və yüksək həyat səviyyəsinə malik 830 milyon insanı birləşdirən vahid strukturun yaranmasına səbəb olmuşdur. Bütövlükdə, dövlət-mil-

Cədvəl 17. Avropa təşkilatları

ATƏT	AŞ	NATO	Aİ
1. ABŞ	1. Albaniya	1. ABŞ	1. Almaniya
2. Albaniya	2. Almaniya	2. Albaniya	2. Avstriya
3. Almaniya	3. Andorra	3. Almaniya	3. Belçika
4. Andorra	4. Avstriya	4. Belçika	4. Bolqarıstan
5. Avstriya	5. Azərbaycan	5. Bolqarıstan	5. Böyük Britaniya
6. Azərbaycan	6. Belçika	6. Böyük Britaniya	6. Çexiya
7. Belarus	7. Bolqarıstan	7. Çexiya	7. Danimarka
8. Belçika	8. Bosniya-Herseqovina	8. Danimarka	8. Estoniya
9. Bolqarıstan	9. Böyük Britaniya	9. Estoniya	9. Finlandiya
10. Bosniya-Herseqovina	10. Çexiya	10. Fransa	10. Fransa
11. Böyük Britaniya	11. Danimarka	11. Xorvatiya	11. İrlandiya
12. Çexiya	12. Ermənistan	12. İslandiya	12. İspaniya
13. Danimarka	13. Estoniya	13. İspaniya	13. İsveç
14. Ermənistan	14. Finlandiya	14. İtaliya	14. İtaliya
15. Estoniya	15. Fransa	15. Kanada	15. Kipr
16. Finlandiya	16. Gürcüstan	16. Latviya	16. Latviya
17. Fransa	17. Xorvatiya	17. Litva	17. Litva
18. Gürcüstan	18. İrlandiya	18. Lüksemburq	18. Lüksemburq
19. Xorvatiya	19. İslandiya	19. Macarıstan	19. Macarıstan
20. İrlandiya	20. İspaniya	20. Niderland	20. Malta
21. İslandiya	21. İsveç	21. Norveç	21. Niderland
22. İspaniya	22. İsveçrə	22. Polşa	22. Polşa
23. İsveç	23. İtaliya	23. Portuqaliya	23. Portuqaliya
24. İsveçrə	24. Kipr	24. Rumıniya	24. Rumıniya
25. İtaliya	25. Latviya	25. Slovakiya	25. Slovakiya
26. Kanada	26. Lixtenşteyn	26. Sloveniya	26. Sloveniya
27. Kipr	27. Litva	27. Türkiyə	27. Yunanıstan
28. Qazaxıstan	28. Lüksemburq	28. Yunanıstan	
29. Qırğızıstan	29. Macarıstan		
30. Latviya	30. Makedoniya Respublikası		
31. Lixtenşteyn	31. Malta		
32. Litva	32. Moldova		
33. Lüksemburq	33. Monako		
34. Macarıstan	34. Monteneqro		
35. Makedoniya Respublikası	35. Niderland		
36. Malta	36. Norveç		
37. Moldova	37. Polşa		
38. Monako	38. Portuqaliya		
39. Monteneqro	39. Rumıniya		
40. Niderland	40. Rusiya		
41. Norveç	41. San-Marino		
42. Özbəkistan	42. Serbiya		
43. Polşa	43. Slovakiya		
44. Portuqaliya	44. Sloveniya		
45. Rumıniya	45. Türkiyə		
46. Rusiya	46. Ukrayna		
47. San-Marino	47. Yunanıstan		
48. Serbiya			
49. Slovakiya			
50. Sloveniya			
51. Tacikistan			
52. Türkiyə			
53. Türkmənistan			
54. Ukrayna			
55. Vatikan			
56. Yunanıstan			

lətlərin kollektiv dövlətüstü iqtisadi və son nəticədə siyasi ittifaqına doğru yolu çəkməklə Avropa, həm də millətçilik epoxası üçün səciyyəvi olan dar təsəvvürlər və destruktiv emosiyalardan kənara çıxan postmilli təşkilatın daha iri birliklərinə doğru istiqaməti də göstərir.

Avropada inteqrasiya prosesləri bir neçə mühüm mərhələdən keçmişdir (bu barədə *bax:* **cədvəl 18**). 1986-cı ildə qəbul edilmiş

Cədvəl 18. *Avropa İttifaqının əsas sənədləri*

Vahid Avropa Aktı inteqrasiya proseslərini sürətləndirdi və o vaxtdan etibarən dövlətlərüstü inteqrasiya prosesləri dövlətlərarası inteqrasiya proseslərini əvəz etməyə başladı. "Dövlətlərüstü inteqrasiya prosesləri" dedikdə, dövlətlərin müəyyən iqtisadi-siyasi sahələrdə öz suverenliklərini Avropa İttifaqının mərkəzi orqanlarına güzəştə gedərək, bu qurumların üzv dövlətlər üzərində daha geniş hakimiyyətinin formalaşdırılmasına imkan yaratmaları nəzərdə tutulur. Dövlətlərüstü inteqrasiyadan fərqli olaraq, dövlətlərarası inteqrasiya prosesləri bunun əksini nəzərdə tutur, yəni müəyyən sahələr üzrə qərarların qəbul edilməsinin dövlətlərin suveren hüquqları və nəzarəti çərçivəsində saxlanılmasına

üstünlük verir. Bu, xüsusilə, suverenlik baxımdan mühüm əhəmiyyət kəsb edən müdafiə, ədliyyə və daxili işlər kimi sahələrə aid qərarların qəbul edilməsinə şamil edilir.

Vahid Avropa Aktının qəbul edilməsi ilə daha dərin inteqrasiyaya nail olmaq istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə edildi. Bu Akt vahid daxili bazarı formalaşdırmaq və İttifaqın idarəçiliyində dəyişikliyə nail olmaq istiqamətində ilk ciddi addım kimi qiymətləndirilir. Avropa İttifaqı daxilindəki institutlara, qurumlara daha çox səlahiyyət vermək, prosedurları daha da səmərəli etmək qarşıya qoyulmuş əsas məqsədlərdən idi.

İqtisadi, sosial, ətraf mühitin mühafizəsi, tədqiqat və texnologiyaların inkişaf etdirilməsi sahələri də Ümumavropa qanunvericilik aktlarının nəzərdə tutduğu sahələrə aid edildi. Ən ziddiyyətli qərar isə səs çoxluğu ilə qəbul edilən qərarların daha çox sahələrə şamil edilməsi barədə oldu. Qərarların müəyyən olunmuş səs çoxluğu və ya xüsusi səs çoxluğu qaydası üzrə qəbul edilməsi narahatlıqla qarşılandı. Çünki bu cür səsvermə qaydalarına görə hər hansı bir üzv dövlət bu və ya digər siyasətə qəti etiraz bildirsə belə, Avropa İttifaqı bu qaydaya uyğun olaraq qərar qəbul edə bilər. Müəyyən sahələrdə dövlətlərin suverenliyinin qorunub saxlanılmasında təkid edən və bu səlahiyyətlərin mərkəzi orqanlarla bölüşdürülməsinə müqavimət göstərənlərə növbəti zərbə Avropa Parlamentinin səlahiyyətlərinin artırılması oldu. "Razılıqvermə proseduru" adlanan bu qaydaya görə hər hansı bir yeni dövlətin İttifaqa qəbul olunması üçün Avropa Parlamenti üzvlərinin tam əksəriyyətinin razılığı olmalıdır. Başqa sözlə desək, üzvlüyə namizəd ölkənin lehinə Avropa Parlamenti üzvlərinin əksəriyyəti səs verməlidir. Avropa Siyasi Əməkdaşlığı Qurumu siyasi status aldığı vaxtdan etibarən Avropa Ədalət Məhkəməsinə yardımçı olmaq üçün Avropa İlk İnstansiya Məhkəməsi yaradıldı.

Vahid Avropa Aktı inteqrasiya proseslərinin inkişafında əhəmiyyətli addım oldu. Növbəti inkişafa nail olmaq üçün yeni bir müqaviləyə ehtiyac duyulurdu ki, bu isə yalnız 1992-ci ildə Maastrixt müqaviləsinin imzalanması ilə baş tutdu. Bu müqavilə

ittifaqdaxili inteqrasiyanın dərinləşməsini keyfiyyətcə yeni mərhələyə qaldırdı.

Beynəlxalq aləmdə baş vermiş dəyişikliklər üzv dövlətləri daha sıx birliyə nail olmaq üçün əlavə addımlar atmağa sövq etdi. "Soyuq müharibə"nin başa çatması tamamilə yeni bir beynəlxalq şərait yaratmışdı. Bu baxımdan, dünyada sülhün, təhlükəsizliyin və tərəqqinin təmin olunması üçün Avropada inteqrasiya prosesləri daha mühüm rol oynamağa başladı.

Fransa Prezidenti Fransua Mitteranın və Almaniya Kansleri Helmut Kolun Franko-Alman alyansında yeni təşəbbüsləri gələcək inteqrasiyanın sabitliyini təmin etdi. Avropadaxili birlik və əməkdaşlıq prosesini qoruyub saxlamaq və daha da möhkəmləndirmək sahəsində onların göstərdiyi əzmkarlıq Avropa İttifaqının gələcək uğurlarının əsasını qoydu. Fransa-Almaniya alyansı birmənalı olaraq İttifaq daxilində inteqrasiya proseslərini yeni səviyyəyə qaldırmaq yolunu tutmuşdu.

Avropa İttifaqı barədə müqavilə köklü dəyişikliklərə gətirib çıxardı. İttifaqın iki səviyyədə inkişaf etdirilməsi barədə razılaşmaya görə dövlətlərə istəmədikləri sahələr üzrə əməkdaşlıqdan kənarda qalmaq hüququ verilirdi. Məsələn, Sosial Xartiyaya qoşulmayan dövlət vahid bazar ilə əlaqədar məsələlərdə iştirak edə bilərdi. Beləliklə, Avropa İttifaqı üçpilləli sistemə çevrilirdi və hər pillə, nəticədə dövlətlərüstü münasibətlərin hüdudlarını müəyyənləşdirmək hüququ qazanırdı.

Birinci pillə Avropa Kömür və Polad Birliyini, həmçinin, Avropa Atom Enerjisi Birliyini birləşdirən Avropa Birliyindən ibarət olacaqdı. Birliyə geniş səlahiyyətlər veriləcəkdi və həm müqavilələrdən, həm də Avropa Komissiyasının səlahiyyətlərindən doğan hüquqi aktlara görə, qərarların qəbul edilməsində Birlik metodu üstünlük təşkil edəcəkdi. Digər iki pillə isə qərar qəbuletmə prosesində dövlətlərarası yanaşmanı qoruyub saxlayacaqdı. Üzv dövlətlər üçün mühüm milli maraq kəsb edən sahələrdə dövlətlərin suverenliyinin qorunması şübhəsiz idi.

İkinci pillə Birliyin xarici və təhlükəsizlik siyasətini əhatə edəcəkdi. Bu sahələrdə İttifaq ümumi mövqedən çıxış etsə də, müdafiə məsələlərində dövlətlər tam suverenliyini qoruyub saxlayacaqdı. Bütün qərarların qəbul olunması üçün yekdilliklə səsvermə prinsipi tətbiq ediləcəkdi.

Üçüncü pilləyə gəldikdə isə daxili işlər və ədliyyə sahələrində (o cümlədən, transmilli cinayətkarlığa qarşı mübarizə, qaçqınlara sığınacaq verilməsi və s.) əməkdaşlıq məsələlərində üzv dövlətlər öz suverenliklərini qoruyub saxlayırlar.

Üçpilləli sistem Birlik daxilində güc və səlahiyyətlərin kimdə olmasını aydın surətdə göstərir. Birinci pillədə Avropa Parlamenti və Avropa Komissiyası daha artıq rola malikdirlər. Lakin ikinci və üçüncü pillələrdə səlahiyyətlərə nəzarət aydın surətdə Avropa İttifaqının Nazirlər Şurasında cəmləşir.

Beləliklə, Maastrixt müqaviləsi son qırx il ərzində Avropada inteqrasiya prosesləri sahəsində əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmişdir. Bu istiqamətdə növbəti addım Avropa İttifaqının struktur islahatlarını nəzərdə tutan *Lissabon müqaviləsi* olmuşdur. Müqavilənin əsas məqsədi Avropa İttifaqı orqanlarını müasirləşdirmək və onların fəaliyyət metodlarını optimallaşdırmaqdır. Müqavilədə, həmçinin qloballaşma, enerji təminatı, demoqrafik tarazlıq, iqlim dəyişiklikləri, təhlükəsizlik və s. mövzuların böyük əhəmiyyət kəsb etdiyi XXI əsrdə Avropanın güclü vahid mövqe nümayiş etdirməsi öz əksini tapmışdır.

Lissabon müqaviləsi Avropaya inteqrasiya yolunda mühüm addım kimi diqqəti çəkir. Bu addım birləşmiş Avropanın XXI əsrdə qarşılaşdığı məsələlərin həllinə kömək edəcək və qloballaşma üçün imkanlar açacaqdır. O, Avropa İttifaqının dünya səhnəsində vahid cəbhə şəklində çıxış etməsinə imkan verəcək və xarici siyasətin müxtəlif istiqamətlərində - diplomatiya, təhlükəsizlik, ticarət və humanitar yardım kimi məsələlərdə daha ardıcıl mövqe tutmasını təmin edəcəkdir.

Məlumdur ki, Lissabon müqaviləsi Avropa İttifaqının bütün hakimiyyət institutlarında dərin islahat aparılmasını nəzərdə tutur.

Məsələn, tarixdə ilk dəfə olaraq İttifaqın prezidenti kimi daimi vəzifə tətbiq edilir. Avropa İttifaqı prezidenti İttifaqın Şurasına rəhbərlik edir və bu birliyi beynəlxalq aləmdə təmsil edir. Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsinin səlahiyyətləri xeyli genişləndirilir. Ali nümayəndənin sərəncamına tamdəyərli xarici siyasət xidməti verilir və o, Avropa Komissiyasının rəhbərinin müavini ranqında bu Komissiyanın tərkibinə daxil olur. Lissabon müqaviləsinə əsasən, Avropa İttifaqı Şurasında qərarlar qəbul edilməsi sisteminə də dəyişikliklər edilir. İndi bu qərarlar "ikiqat çoxluq" prinsipi üzrə qəbul ediləcəkdir. Qərarın yekdilliklə qəbul edilməsi prinsipi yalnız xarici siyasət, təhlükəsizlik və ədliyyə, habelə vergitutma və bəzi başqa sahələrdə qalacaqdır.


İctimai demokratiya Avropa İttifaqının fəaliyyətinin əsas təməllərindən birinə çevrilir. Xalq təşəbbüsü hüququnun tətbiq edilməsi bu sahədə əsas yenilikdir. Məsələn, ən azı milyon imza toplanmış vəsatət Avropa İttifaqı Komissiyası üçün müvafiq qanunvericilik təşəbbüsünün qəbul edilməsi barədə təklif hesab edilə bilər. Burada mühüm yenilikdən söhbət gedir: ictimai demokratiya anlayışı ilk dəfə olaraq Avropa siyasi səhnəsinə çıxarılır. Bundan əlavə, həmin yenilik Avropa vətəndaşlarına öz iradələrini birbaşa ifadə etmək hüququ verir. Bu yeniliyin tətbiq edilməsi üçün göstərilən səylər səlahiyyətlərin daha dəqiq bölgüsünə və hüquqi vasitələrin sadələşdirilməsinə gətirib çıxarmış, bu isə nəticə etibarilə vətəndaşlarla Avropa İttifaqı strukturlarını bir-birinə yaxınlaşdırmışdır. İctimai demokratiya anlayışının başqa mühüm aspektləri də var. Məsələn, bu barədə müddəalar bir daha xatırladır ki, hakimiyyət orqanları vətəndaş cəmiyyətini təmsil edən təşkilatlarla açıq, şəffaf və müntəzəm dialoq aparır, Avropa İttifaqı Komissiyası əlaqədar tərəflərlə geniş məsləhətləşmələr həyata keçirir.

Lissabon müqaviləsi bütövlükdə Avropa İttifaqının müdafiəsini və təhlükəsizliyini gücləndirmək siyasəti çərçivəsində Avropa Müdafiə Agentliyinin yaradılmasını rəsmən bəyan edir, habelə üzv dövlətlərdən birinə silahlı hücum və ya terror həmləsi baş verəcəyi halda qarşılıqlı müdafiə və həmrəylik barədə öhdəliklər müəyyən edir.

Bundan əlavə, üzv dövlətlərin ayrı-ayrı qrupları "daimi struktur əməkdaşlığı" mexanizmini işə salmaq və Avropa İttifaqı Şurasının tapşırığına əsasən hərbi əməliyyatlar aparmaq imkanı əldə etmiş olurlar. Bu halda Avropanın müdafiə sisteminin tərkib hissəsinin mütərəqqi təşəkkülü heç də NATO-nun kollektiv müdafiə sisteminin alternativi deyildir.

Eyni zamanda, Lissabon müqaviləsi qərarların qəbul edilməsində "ikiqat əksəriyyət" prinsipini tətbiq edir. Əksər məsələlərə dair qərarlar o halda qəbul edilmiş sayılacaqdır ki, Avropa İttifaqı əhalisinin ən azı 65 faizinin yaşadığı İttifaq dövlətlərinin ən azı 55 faizi həmin qərarların lehinə səs vermiş olsun. Beləliklə, hətta bir ölkə, yaxud bir qrup ölkə qərarlarla razı olmadıqda belə, həmin qərarların qəbul edilməsi mümkün olacaqdır. Göründüyü kimi, Lissabon müqaviləsi Avropa İttifaqında inteqrasiyanın daha da inkişafı üçün şərait yaradır, İttifaq daxilində qərarların qəbul olunması mexanizmini sadələşdirir və Avropa Parlamentinin səlahiyyətlərini genişləndirir.

500 milyon əhalisi olan (bu, ABŞ və Rusiyanın əhalisinin birlikdə sayından çoxdur) Avropa İttifaqı dünyanın qlobal zənginliyinin dörddə birini özündə cəmləşdirir. Avropa İttifaqı dünyanın güc mərkəzi olmağı qarşısına məqsəd qoymamışdır və onun əsas amalı Avropada yaşayan xalqları və millətləri bir araya gətirməkdir. Lakin İttifaq genişləndikcə və öhdəlikləri artdıqca dünyanın qalan hissəsilə əlaqələrin intensivləşdirilməsi zəruri hala çevrilmişdir. Bu məqsədlə təşkilat 2004-cü ildə *Yeni Qonşuluq Siyasəti proqramını (European Neighbourhood Policy, ENP)* elan etmişdir (*bax:* **xəritə 35**). Bu, Avropa İttifaqının şərq və cənub qonşularını İttifaqın sülh, sabitlik və inkişaf imkanlarından bəhrələnməyə dəvət edən yeni siyasətidir. Bu siyasət genişlənmiş Avropa İttifaqının sərhədləri boyunca dostluq zəncirinin yaranması məqsədini ehtiva edir. Yeni Qonşuluq Siyasəti qonşu ölkələrə Avropa İttifaqı ilə daha sıx əlaqələr təklif edir - bu əlaqələrə iqtisadi inteqrasiya və siyasi əməkdaşlığın dərinləşməsi daxildir. Hər bir ölkə ilə iş prinsipi bu ölkənin maraqları və imkanları çərçivəsində müəyyənləşdirilir.




Xəritə 35. ***Yeni Qonşuluq Siyasəti (YQS)***

- Avropa İttifaqı üzv dövlətləri
- Cari genişlənmə gündəliyi
- YQS Şərq qrupu (Şərq tərəfdaşlığı; EaP)
- YQS-ə daxil olan digər dövlətlər
- YQS Cənub qrupu (Aralıq dənizi ittifaqı; UfM)
- Aralıq dənizi ittifaqı iştirakçısı olan digər dövlətlər

Polşa və İsveçin təşəbbüsü ilə 2008-ci ilin mayında təqdim edilmiş *"Şərq tərəfdaşlığı" (Eastern Partnership, EaP)* proqramı Avropa İttifaqının Şərq qonşuları ilə əlaqələrinin dərinləşməsini nəzərdə tutur. Bu proqramın məqsədi hakimiyyət və vətəndaş cəmiyyətini cəlb etməklə Avropa İttifaqının Şərq tərəfdaşları ilə siyasi və iqtisadi əməkdaşlığını genişləndirməkdir. Proqrama cəlb olunmuş Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova, Belarus və Ermənistan ümumən Qərblə Şərq arasında əlverişli tranzit yollarının,

nəqliyyat-kommunikasiya dəhlizlərinin keçdiyi ən əhəmiyyətli geosiyasi region hesab olunur (*bax:* **xəritə 36**). Avropa Komissiya-



Xəritə 36. ***"Şərq tərəfdaşlığı" üzv dövlətləri***

sı "Şərq tərəfdaşlığı" kommunikesi əsasında bu ölkələr arasında yaxın illərdə assosiativ sazişin imzalanmasını, habelə ölkələrin Avropa İttifaqına inteqrasiya meyillərinin dəstəklənməsini təklif etmişdir. Proqrama daxil edilən ölkələrin gələcəkdə Avropa İttifaqına qəbuluna dair konkret vəd olmasa da, onların avrostrukturlara inteqrasiya prosesinin sürətləndirilməsinin uzaq perspektiv üçün strateji hədəfləri kifayət qədər aydındır. Yaxın perspektivdə isə proqramda iştirak edən ölkələrlə ümumi daxili bazarın formalaşdırılması məqsədilə tədbirlər planının hazırlanması, vahid və hərtərəfli azad ticarət zonalarının yaradılması, vizasız gediş-gəlişin təmini, enerji sahəsində əməkdaşlığın dərinləşdirilməsi nəzərdə tutulur. Proqramın məqsədi tərəfdaş ölkələrdə aparılan islahatları və

müasirləşdirmə prosesini dəstəkləmək, demokratik islahatların sürətləndirilməsinə, habelə iqtisadi inkişafa töhfə vermək üçün sərmayə qoymaqdır.

Avropa inteqrasiyası Birləşmiş (Qərbi) Avropaya gedən yolda siyasi və iqtisadi prosesdir. Bu inteqrasiya vətəndaş cəmiyyətinin dövlətin himayəsindən azad edilməsini nəzərdə tutan *"Atlantik federalizmi"* prinsipləri əsasında həyata keçirilir. Avropa regionalizminin mahiyyəti fövqəlmilli birliklərdən mərhələlər üzrə regionlar Avropasına keçməkdən ibarətdir. Bu prosesdə *Avropa Şurası* Avropa İttifaqından irəlidə gedir, gələcək vətəndaş cəmiyyətinin təməlini möhkəmləndirmək üzərində çalışır.

Avropa İttifaqı ABŞ və Asiya-Sakit okean regionu ilə yanaşı dünya miqyaslı iqtisadi güc qütbü, Birləşmiş Avropanın ticarət, gömrük, iqtisadi və valyuta ittifaqını yaratmış beynəlxalq təşkilatdır. Avropa İttifaqı xarici siyasət, ədalət mühakiməsi, daxili işlər və Avropa təhlükəsizliyi sahəsində inteqrasiya olunmuş birlikdir. Avropa İttifaqının iqtisadi inteqrasiya prosesi *dörd azadlığa* əsaslanır: əmtəələrin, xidmətlərin, kapitalların və işçi qüvvəsinin sərbəst hərəkət azadlıqları. Avropa ümumi bazar vasitəsilə siyasi birliyə doğru irəliləyir. Avropa inteqrasiyası xeyli vaxt, səbir və inad tələb etmişdir. Avropa İttifaqının yaranması prosesi "ümumi sənaye və kənd təsərrüfatı bazarı", iqtisadi və valyuta ittifaqı yaradılması yolu ilə cərəyan etmişdir. Bu ittifaqın üzvü olan ölkələr arasında ümumi razılığa gəlmək üçün onların hər birinin özünəməxsus problemləri nəzərə alınmaqla hamar transformasiya yolu seçmək lazım gəlmişdir.

Hər hansı ölkənin Avropa İttifaqına yeni üzv kimi qəbul edilməsi üçün təkcə onun istəyi və ya siyasi qərar kifayət deyil. Bunun üçün əhalinin gəlirləri də daxil olmaqla makroiqtisadi göstəricilərin müəyyən səviyyəyə çatması zəruridir. Təsərrüfatın strukturunun dəyişdirilməsi, maliyyə və vergi sistemlərində islahatlar aparılması ilə əlaqədar tədbirlər həyata keçirmək, mətbuat azadlığını və korrupsiyaya qarşı uğurlu mübarizəni təmin etmək tələb olunur. Yoxsul ölkəni öz sıralarına qəbul etmək Avropa İttifaqı

üçün böyük israfçılıq deməkdir və o, buna yol verə bilməz, çünki yoxsul ölkə bazar rəqabətinə davam gətirə bilməyəcək və daha da yoxsullaşacaq.

2.3. Şərqi Avropa: yeni geosiyasi reallıqlar

Şərqi Avropa ənənəvi geosiyasətdə *orta region* ("Hartlənd") kimi nəzərdən keçirilir. Bu region üzərində nəzarət dünya ağalığını təmin etmiş olur. Şərqi Avropa əsrlər boyu qlobal dünya siyasətində subyektdən daha çox obyekt olmuşdur. Son onilliklərdə Avropa dövlətlərinin, XXI əsrin əvvəllərində isə dünyanın mənafeləri bu regionla birbaşa bağlıdır. Şərqi Avropa çox vaxt böyük dövlətlər arasında münaqişələrin mənbəyi olmuşdur. Dünyanın ən qüdrətli ölkələri arasında əsas geosiyasi ziddiyyətlər bu regionda cəmləşdiyi üçün hər iki dünya müharibəsi burada başlamışdır.

Şərqi və Qərbi Avropa ölkələrini ayıran cəhətlər çoxdur (iqtisadi, mədəni tarixi-amillər: müxtəlif sosial-siyasi ideallar, müxtəlif konfessiyalar, tarixi düşmənçilik münasibətlərinin təsiri, etnik müxtəliflik və s.).

Bir sıra Qərb siyasətşünaslarının fikrincə, XXI əsr Avropası ötən yüzilliyin ortalarının Avropasından çox, XIX əsrin Avropası ilə daha çox əlaqədə olacaqdır. XIX əsrdə burada burjua rəqabəti hökm sürürdü və nəticədə uzun sürən münaqişələr yaranmışdı.

Hazırda Avropada dövlətlər qrupları arasında koalisiyalar və ittifaqlar yaradılması meyili güclənməkdədir. Avropada bu cür koalisiyalar iqtisadi, siyasi, ərazi, ekoloji və digər mühüm problemləri qısa müddətdə həll etmək məqsədilə yaradılır. Məsələn, Macarıstan və Çexiya, Polşa, Avstriya və İtaliya arasında ittifaqlar bu qəbildəndir. Onların arasında ikitərəfli əlaqələr genişlənir. NATO-nun müqabilində Avropa təhlükəsizlik sistemi yaratmaq ideyası çoxlarını cəlb edir. Lakin bu ideyanın müqabilində Qərbin "nüvə qüdrəti" tezisi, onu "dünyanın nüvə qüdrəti"nə çevirmək ideyası güclü təbliğ edilir. Bu halda Şərqi Avropa ölkələri demokratiyanın institusionallaşması və bazar iqtisadiyyatının təşəkkülü prosesində "nüvə"nin səylərini dəstəkləməlidirlər.

Bu konsepsiyalarda regional geosiyasət ümumi qlobal geosiyasətin bir elementi kimi çıxış edir. O, Qərbin, ilk növbədə, ABŞ, Almaniya və Fransanın geosiyasi səylərinin gerçəkləşməsinə şərait yaratmalıdır. Avropada münasibətlər kompleksində birləşmiş Almaniyanın xüsusi rol oynamasını yuxarıda qeyd etmişdik. Bəziləri bu dövləti Avropanın siyasi-iqtisadi tarazlığının sahibi adlandırırlar, onun iqtisadi və diplomatik təsiri isə nəinki regionda, Yer kürəsinin demək olar ki, bütün guşələrində hiss edilir.

Baş vermiş ərazi dəyişiklikləri, Almaniyanın iqtisadi və siyasi gücü onu obyektiv olaraq, status-kvonun dəyişməsinə, Avropanın, perspektivdə isə dünyanın taleyini həll edən rolda bərqərar olmağa sövq edir. Avropalıların çoxu (xüsusən fransızlar və ingilislər) narahatdırlar ki, qitənin mərkəzində "Dördüncü reyx" yarana bilər. Vaxtilə İngiltərənin Baş naziri *M.Tetçer* bu barədə öz fikrini *M.Qorbaçova* demişdi. Geosiyasət elminin banilərinin konsepsiyalarını, xüsusən Mərkəzi (Orta) Avropa (Mitteleuropa) konsepsiyasını geniş müzakirə etməyə çağıran Almaniyanın yenidən baş qaldırmış həvəsini məhz bununla izah etmək olar. Həmin konsepsiyanın müəllifi, "alman liberalizminin atası" *F.Naumannın* (1860-1919) "Mitteleuropa" adlı əsəri Birinci Dünya müharibəsi illərində Almaniyada və Avstriyada stolüstü kitaba çevrilmişdir. Bu konsepsiya *P. dö Laqardın* tezisinə çox yaxındır. XIX əsrin ortalarında Laqard Almaniya üçün Aralıq dənizinə çıxış imkanı yaradılmasını, o cümlədən Triyest limanının, habelə Dunayın mənsəbinin Almaniya sahibliyinə keçməsini tələb edirdi. Marksizmin banilərindən biri olmuş *F.Engels* də öz məqaləsində eyni fikri söyləmişdir. 1849-cu ildə o yazırdı ki, sloveniyalılar və xorvatlar Almaniya və Macarıstanı Adriatik dənizindən ayırırlar, Almaniya və Macarıstan isə "coğrafi və kommersiya mülahizələrinə görə" onların Adriatik dənizindən ayrı düşməsinə yol verə bilməzlər, bu dəniz Almaniya və Macarıstan üçün həyati əhəmiyyət kəsb edir - məsələn, Baltik dənizinin Dansiqdən Riqaya qədər olan sahilləri Polşa üçün həyati əhəmiyyət kəsb etdiyi kimi.

Dünya nəinki son 150 ildə, hətta XXI əsrin əvvəlində də xeyli dəyişmişdir. Avropada iqtisadiyyat, maliyyə, siyasət sahələrində atılan iri addımlar bu dəyişikliklərin əlamətləridir. Qərbi Avropa ölkələrinin inteqrasiyası xətti məqsədyönlü şəkildə həyata keçirilir: iqtisadi əlaqələr, siyasi ittifaq (Strasburqdakı Avropa Parlamenti), maliyyə əməkdaşlığı (Avropada vahid valyutanın dövriyyəyə daxil edilməsi) bu əlaqələri möhkəmlədir.

Yuxarıda deyilənləri yekunlaşdıraraq bu qənaətə gəlmək olar ki, Avropada bipolyar (ikiqütblü) hərbi-siyasi strukturdan beynəlxalq münasibətlərin dinamik inkişaf edən çoxqütblü sisteminə qayıdış prosesi gedir. Bu prosesdə hərbi-siyasi problemlər hələlik mühüm rol oynayır, lakin əvvələn, XXI əsrin əvvəllərində ağırlıq mərkəzi maliyyə-iqtisadi problemlər tərəfə dəyişmişdir. İkincisi, Avropada milli dövlətlərin fraqmentar sistemi formalaşmaqdadır (Baltikyanı ölkələr daha çox Skandinaviyaya, Polşa, Macarıstan və Çexiya Almaniyaya meyil edir və s.). Şərqi Avropa ölkələri müvəqqəti koalisiyalar yaradırlar. Həmin koalisiyalar çox vaxt ötəri maliyyə maraqlarından, iqtisadi, siyasi, hərbi maraqlardan çıxış edərək öz oriyentirlərini tez-tez dəyişirlər. Bir sıra hallarda bu maraqlar birgünlük siyasətçilər tərəfindən ifadə edilir, subyektiv zövqə uyğun xarakter daşıyır, müasir dövrə xas olan geniş əhatəli dərin qarşılıqlı asılılıqların ciddi təhlilinə əsaslanmır.

Lakin unutmaq olmaz ki, bu qarşılıqlı asılılıq milli dövlətlərdə millətçilik və separatizmin yüksəlişi ilə dağıla bilər (Şərq bloku ölkələri, Sovet İttifaqı ilə baş verdiyi kimi). Milli əsasda çəkişmələr təkcə Baltikyanı, Şərqi və Qərbi Avropa ölkələrini deyil, həm də bütün dünyanı narahat etməlidir.

Çoxsaylı regional təşkilatlar da "soyuq müharibə"dən sonrakı Avropanın yeni reallığıdır. Əksəriyyəti Mərkəzi və Şərqi Avropa dövlətlərindən ibarət onlarla regional təşkilat və dövlətlər qrupu mövcuddur. Bunlardan ən başlıcaları kimi aşağıdakıları göstərmək olar: Barens Avro-Arktik Şurası; Baltik Dənizi Dövlətlərinin Şurası; Mərkəzi Avropa Azad Ticarət Zonası; Mərkəzi Avropa Təşəbbüsü; Qara Dəniz İqtisadi Əməkdaşlıq Şurası; Cənub-Şərqi Avropa Sabitlik Paktı və s.

Bundan əlavə, Vışeqrad qrupu və digər hələ təşkilatlanmamış, lakin fəal əməkdaşlığın həyata keçirildiyi dövlət qrupları da mövcuddur. Bu təşkilatların əksəriyyəti iqtisadi əməkdaşlıq forumlarıdır. Bəzi qurumlar isə təhlükəsizlik problemlərinin regional səviyyədə həllinin tapılması məqsədilə yaradılmışdır. Bu cür təşkilatlar çərçivəsində təhlükəsizliyin müxtəlif aspektləri müzakirə edilir və onun ətrafında ortaq mövqe formalaşdırılmasına nail olunur. Bu baxımdan, son illər öz aktivliyini itirsə də, mühüm dövlətlər qrupu olaraq qalmaqda davam edən Vışeqrad qrupu və Cənub-Şərqi Avropada Sabitlik Paktı diqqət çəkir. Preventiv diplomatiyanın son nailiyyəti olan Sabitlik Paktı, beynəlxalq yardım fonunda iqtisadi əməkdaşlıq və getdikcə artan çoxtərəfli təmaslar vasitəsilə Cənub-Şərqi Avropa regionunda təhlükəsizliyə nail olunması məqsədilə irəli sürülmüşdür *[Hombach, 1999, p.20]*. Regional inkişafı stimullaşdırmalı olacaq bu pakt çərçivəsində beynəlxalq maliyyə institutları bölgənin yenidən qurulması, iqtisadi tərəqqisi və sosial problemlərin həll edilməsi üçün iri maliyyə vəsaitləri ayırmağı planlaşdırır. Təkcə Avropa İttifaqı 2000-ci illərdə regional layihə və təşəbbüsləri dəstəkləmək üçün bir neçə milyard avro ayırdığını bildirmişdir. Pakta əsasən, İkinci Dünya müharibəsindən sonra Qərbi Avropanın dirçəliş təcrübəsini nəzərə alaraq, region ölkələri dövlətçilik və fərdi sahibkarlıq üçün şəraiti inkişaf etdirməli, korrupsiyaya qarşı mübarizə aparmalı, sosial birliyi və rifahı təmin etməli, qarşılıqlı əməkdaşlığı gücləndirməli, başqa sözlə, sabitlik üçün əsas işi özləri görməlidirlər.

Beynəlxalq təşkilatlar və dövlətlər sabitlik paktı üzrə nə qədər öhdəliklər götürsələr də, sabitlik və tərəqqi üçün əsas məsuliyyət region dövlətlərinin üzərinə düşür. Paktda beynəlxalq təşkilatlar və superdövlətlərin iştirakı bir neçə amillə şərtlənir. Əvvəla, Cənub-Şərqi Avropa Avratlantika məkanında sülh üçün əsas təhlü-

kə mənbəyi olduğundan bu regionda uzunmüddətli sabitliyin yaradılması zəruridir. Bu, həm də regionun Avropa strukturlarına inteqrasiyası üçün əsas şərtdir. İkincisi, münaqişələrlə zəngin və geosiyasi baxımdan mürəkkəb region olan Cənub-Şərqi Avropada dünyanın iri dövlətlərinin iştirakı ilə sabitliyin yaradılması digər regionlar (Cənubi Qafqaz, Mərkəzi Asiya, Yaxın Şərq) üçün nümunə olmalıdır. İqtisadi, siyasi və hərbi sferaları əhatə edən tədbirlər toplusu olan paktın müvəffəqiyyəti gələcəkdə digər mürəkkəb geosiyasi regionlarda oxşar layihələr üçün uğurlu başlanğıc ola bilər. Üçüncüsü, Cənub-Şərqi Avropa Sabitlik Paktı "hərtərəfli əməkdaşlığın düşmənçiliyi dostluqla əvəz etməsi" haqqında Qərbin irəli sürdüyü tezisi sübut etməlidir. Bu formulun səmərəliliyinə maraqlı tərəflərdə inam yaradılması üçün, ilk növbədə onun uğurlu sınağı həyata keçirilməlidir. Dördüncüsü, Cənub-Şərqi Avropa preventiv diplomatiyadan istifadə etməklə sabitlik yaradılmasında Qərbin müvəffəqiyyətə daha yaxın ola biləcəyi yeganə regiondur.

NATO özünün irəli sürdüyü Cənub-Şərqi Avropa Təşəbbüsü vasitəsilə sabitlik paktını dəstəkləməkdə mühüm rollardan birinə malikdir. NATO-nun birbaşa yardımı ilə regionda qeyri-qanuni silahların yığılması və məhv edilməsi, silahların idxalının dünya standartlarına müvafiq tənzimlənməsi prosesi başlanmışdır. NATO-nun bu təşəbbüsü, həmçinin region dövlətləri arasında tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi və hərbi sahədə təmasların və əməkdaşlığın yaradılması ilə qarşılıqlı etimadın formalaşdırılması məqsədini də özündə ehtiva edir.

2.4. Baltikyanı regionun geosiyasəti

Müstəqil Baltik ölkələri - Litva, Latviya və Estoniya Qərbi Avropaya sürətlə inteqrasiya olunmaqdadır. Hər üç ölkə 2004-cü ilin mayından Avropa İttifaqının üzvüdür. Əhalisi əsasən katoliklərdən və protestantlardan ibarət olan bu keçmiş sovet respublikaları yenidən qərbi-xristian konfessional məkanına qayıdırlar.

Baltikyanı region, xüsusən, Litva, Latviya və Estoniyanın NATO-da iştirakı məsələsi geosiyasətçilərin diqqətini çox cəlb edir. Bu region Avropa dövlətlərinin hamısı üçün müstəsna əhəmiyyət kəsb edir. Bu dövlətləri Baltikyanı bölgə ilə bağlayan kommunikasiyalar, ticarət-iqtisadi münasibətlər və tarixi köklər var. Bu, Skandinaviya ölkələrinə (Finlandiya, İsveç, Danimarka, Norveç) daha çox aiddir. Avropanın bu bölgədəki geosiyasi maraqları obyektiv baxımdan region ölkələrinin əksəriyyətinin maraqları ilə üst-üstə düşür. Avropa Baltikyanı ölkələrin, bütün Baltik regionunun davamlı inkişaf, təhlükəsizlik və sabitlik zonasına çevrilməsinin tərəfdarıdır. Avropa həmin ölkələrin təhlükəsizliyinə beynəlxalq hüquq baxımından mehriban qonşuluq və təhlükəsizliyin qarşılıqlı təmin edilməsi haqqında çoxtərəfli saziş bağlanması yolu ilə müəyyən öhdəliklər şəklində zəmanət verməyə hazır olduğunu bəyan etmişdir. Bu zəmanətlərə başqa ölkələr - ABŞ, Almaniya, Böyük Britaniya və hərbi təşkilatlar da daxil olmaqla beynəlxalq təşkilatlar da qoşula bilər. Bununla paralel olaraq, siyasi zəmanətləri möhkəmləndirə biləcək hərbi, iqtisadi və sosial sahələrdə etimad tədbirləri işlənib hazırlana bilər.

Rusiya tərəfinin fikrinco, hərbi-siyasi münasibətlərdə sərhədyanı zolaqda etimad rejimi, sakinlərin vizasız gediş-gəlişi, hərbi fəaliyyətdən imtina edilməsi, bütün Baltikyanı regionun hava məkanına birgə nəzarətin tənzimlənməsi, Baltikyanı bölgənin arzu edilməyən regionlarında hərbi dəniz təlimlərinin keçirilməsinə qadağa qoyulması kimi addımlar atıla bilər. İqtisadi sahədə XXI əsrdə vahid yanacaq-xammal və energetika kompleksi, vahid informasiya strukturu - yollar, limanlar, enerji, istilik və su təchizatı sistemi yaratmaq olar. Sosial və humanitar sahələrdə insanlar və təşkilatlar arasında əlaqələrin inkişafını gücləndirmək; narkotiklərin, zəhərli və radiasiya materiallarının yayılmasına qarşı mübarizədə əməkdaşlıq; cinayətkarlığa və terrorizmə qarşı mübarizədə əməkdaşlıq və s. tədbirlər görülməsi də gündəlikdədir.

Müasir dövrdə Almaniya Baltikyanı ölkələrin iqtisadiyyatında mühüm rol oynayır. ABŞ "Şərqi Avropa demokratiyasının dəstəklənməsi" layihəsi çərçivəsində Baltikyanı ölkələrə qısamüddətli və uzunmüddətli əsasda texniki təcrübə mübadiləsi, əsaslı vəsait qoyuluşları və özəl müəssisələrin kredit imkanlarının dəstəklənməsi sahələrində yardım göstərir.

Baltikyanı ölkələr NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı adlı çərçivə sənədini imzaladıqdan sonra hərbi sahədə Amerika-Baltik əməkdaşlığı fəallaşmışdır. Baltik Dənizi Dövlətləri Şurası deyilən çoxtərəfli forum XX əsrin axırlarında Baltikyanı regionda böyük rol oynamağa başlamışdır.

Möhkəm mehriban qonşuluq münasibətləri və qarşılıqlı faydalı əlaqələr yaradılması üçün Baltikyanı dövlətlərin infrastrukturundan və onların nəqliyyat imkanlarından fəal istifadə edilməsi həm Qərb ölkələrinin, həm də Rusiyanın mənafeyinə uyğundur.

III Fəsil

RUSİYA YENİ GEOSİYASİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

Rusiya Qərbi Avropa, Şimali Amerika və Asiya-Sakit okean hövzəsi regionu kimi dünya iqtisadi və texnoloji qütbləri arasında orta vəziyyətdə olan Avrasiya dövlətidir. Rusiya dünyanın ən böyük ərazisi (17 mln. kv. km) malik dövlətidir. Rusiyanın malik olduğu nüvə silahı ona böyük dövlət statusu verən əsas amildir. Geosiyasi güc meyarlarının məcmusuna görə, beynəlxalq münasibətlərin bir çox proseslərinə təsir göstərmək iqtidarındadır. Rusiya siya-

Xəritə 37. ***Rusiya***



si məkanında transmilli (neoliberal), milli-dövlət və imperiya inkişaf modelləri arasında mübarizə gedir.

Rusiyanın taleyində "coğrafi amilə" bir tərəfdən məkanın böyük ölçüləri, digər tərəfdən, mənəvi məqsədlərin "genişliyi" daxildir. İnkişaf yolları Şərq və Qərb arasındakı ziddiyyətlərlə müəyyən edilmiş rus mədəniyyətində coğrafiya özünəməxsus indikator rolunu oynamışdır. Çoxölçülü kommunikasiya məkanının genişliyi Rusiyanın sosial-iqtisadi inkişafının və Avrasiyada siyasi sabitliyin strateji ehtiyatıdır. Qərbin, Cənubun və Şərqin müasir çağırışlarına Rusiya "sərhəd vəziyyətinin" yüksək enerjisinin istifadəsinə diqqəti cəmləmək bacarığı ilə cavab verir.

Rusiya Qərbi Avropa, Şərqi Asiya və Şimali Amerika arasında kommunikasiyaların keçə bildiyi yeganə ölkədir. Geostrateji baxımdan Rusiya Avrasiyanın özü ilə eyniləşdirilir, "Hartlənd№ geosiyasi anlayışı ilə, yaxud *Makinderin* təbirincə desək, "tarixin coğrafi oxu" ilə üst-üstə düşür. O, Avrasiya Qərbi ilə Avrasiya Şərqini birləşdirir. Özü nə Şərq, nə də Qərb olmayan məxsusi müstəqil geosiyasi orqanizmdir. Onun məxsusi "Orta səltənət" mədəniyyəti vardır.

3.1. SSRİ-nin dağılmasının Rusiya üçün geosiyasi nəticələri

Sovet İttifaqının və sosializm sisteminin dağılmasının bugünkü mövqelərdən əhəmiyyətini qiymətləndirmək çox çətindir. SSRİ-nin faktiki dağıldığı andan keçmiş müddət tarixi baxımdan çox kiçikdir. SSRİ-nin dağılması ilə əlaqədar yaranan çoxsaylı sualların ən əsası budur: "Bu dağılma nə üçün baş verdi, nə üçün bu nəhəng fövqəldövlət demək olar ki, bir anda yox oldu?" Bu suala cavab vermək asan deyil, lakin obyektiv səbəbləri, eskiz şəklində də olsa, göstərmək mümkündür. Bu, əvvələn, SSRİ-nin ölçülərinin çox böyük olması ilə bağlıdır. XX əsrin ikinci yarısında dünyada inkişaf istehsalın intensivləşdirilməsi yoluna qədəm qoyanda SSRİ-də bütün ərazi üçün əhali sadəcə olaraq azlıq edirdi. Avropa standartları ilə müqayisə edilə biləcək infrastruktur yaradılması Sovet İttifaqına qat-qat baha başa gəlirdi. Məsələn, yüklərin - yanacağın müxtəlif xammal növlərinin hasilat yerlərindən emal yerlərinə daşınmasının orta məsafəsi ABŞ-da olduğundan 3-5 dəfə uzun idi.

Hələ 50-ci illərin axırlarında seçilmiş ekstensiv təsərrüfatçılıq yolu SSRİ-nin inkişafını obyektiv olaraq ləngidirdi. İşin effektivliyi mənfəətin məbləği ilə qiymətləndirilərdə sənayedə inhisarlar yaratmaq cəhdləri həmin inhisarların elmi-texniki tərəqqiyə qarşı həssas olmadığını göstərdi. Keçmiş SSRİ-də əməyin texnologiyasının və təşkilinin vəziyyəti müasir dövrün əsas geosiyasi amillərindən biri olan iqtisadi amili "udmağa" imkan vermirdi.

Səbəblərin digər qrupu siyasi səbəblərdir. Ölkəyə və xalq təsərrüfatına avtoritar üsullarla rəhbərlik etmək və bu üsullarla idarəçilik həm müsbət, həm də mənfi cəhətlərə malik idi. Rəhbərliyin və idarəçiliyin effektivliyi çox cəhətdən siyasi rəhbərlik və idarəçilik subyektinin intellektindən, onun peşəkar hazırlığından, şəxsi (o cümlədən psixoloji) keyfiyyətlərindən asılı idi. XX əsrin ikinci yarısında hakimiyyət subyektlərinin bu keyfiyyətləri (nadir istisnalarla) sönən sinusoidi xatırladırdı. Yerlərdə (respublikalarda, diyarlarda, vilayətlərdə) partiya rəhbərliyinin qərarları ilə razılaşmamaq, səlahiyyətinin olmamasına və elitanın pərakəndəliyinə görə mərkəzin səhv qərarlarına səmərəli müqavimət göstərmək mümkün deyildi.

Yuxarıda sadaladığımız və SSRİ-nin dağılmasına şərait yaratmış amillərin demək olar ki, hamısı indi də Rusiya cəmiyyətini ciddi narahat edir. Bu isə təsadüfi deyil. Rusiya yeni minilliyə iqtisadi, sosial və siyasi problemləri tam həll olunmamış şəkildə daxil oldu. Özünü çökmüş SSRİ-nin varisi hesab edən Rusiyanın daxilində və xaricində çoxdan tüstülənən münaqişə ocaqları, öz həllini gözləyən milli məsələlər qalmaqdadır. Çeçenistan, Cənubi Osetiya, Kalininqrad anklavı, Kuril adaları, MDB ölkələrində (xüsusilə Ukrayna, Moldova, Qazaxıstanda), Baltikyanı ölkələrdə yaşayan etnik rusların vəziyyəti, MDB məkanında (Ermənistan, Tacikistan, Belarus və Qırğızıstanda) yaratdığı hərbi bazalar, NATO-nun onun sərhədlərinə yaxınlaşması və s. problemlər çoxdan həllini gözləyir.

Rusiyanın geosiyasi vəziyyətinə SSRİ-nin dağılması çox böyük mənfi təsir göstərdi. Rusiya kontinental dövlət kimi qalsa da, onun Qara və Baltik dənizlərinə çıxışı xeyli daraldı, yəni Rusiya Atlantik okeanı və Mərkəzi Avropa ölkələrindən xeyli uzaqlaşdırıldı. Belə

geosiyasi durum Rusiyanın beynəlxalq əlaqələrini xeyli məhdudlaşdıraraq onun regional səviyyəli bir dövlətə çevrilməsinə səbəb oldu.

Tədqiqatçılar Rusiyanın geosiyasi və beynəlxalq mövqeyini qiymətləndirərkən, bir qayda olaraq, ölkənin ən yaxın qonşuları ilə, xüsusən Avropa ilə münasibətlərinin spesifikliyini qeyd edirdilər və yenə də qeyd edirlər. Onlar bir tərəfdən, Rusiyanın Avropa ilə mədəni yaxınlığını, digər tərəfdən, başqa amillərlə yanaşı, onun coğrafi mövqeyi, çox geniş ərazisi, eləcə də mədəni-tarixi (Bizans) irsi ilə şərtlənmiş obyektiv spesifikanı vurğulayırlar. Bundan əlavə, XX əsrin 90-cı illərində Avrasiyada baş vermiş dəyişikliklər geosiyasətçilərin, siyasətşünasların, iqtisadçıların və başqa tədqiqatçıların rəylərinə ciddi təsir göstərmişdir. Təqribən 50 il (1945-ci ildən 1992-ci ilə qədər) davam etmiş əvvəlki tarazlıq sonra həm Avropada, həm də Rusiyada siyasi identiklik böhranı yaratmışdır. Lakin Rusiyada bu böhrana daha biri - SSRİ-nin dağılması ilə əlaqədar geosiyasi böhran da əlavə olunur. Rusiya həm praktiki, həm də nəzəri baxımdan Qara dənizə və Baltik dənizinə məhdud çıxışları olan, Mərkəzi Avropadan "yaxın və orta xaric" deyilən müstəqil dövlətlər zolağı ilə ayrılmış kontinental dövlətə çevrilməkdədir. Yaranmış geosiyasi şəraitdə Rusiya beynəlxalq imkanları məhdud olan regional dövlət vəziyyətinə düşür.

İndi Rusiya sayca çox olmayan variantlar arasında seçim etmək zərurəti qarşısındadır: o, ya "başqa Avropaya", Qərbin passiv əlavəsinə, onun adeptinə çevrilməli, ya "üçüncü Romaya" çevrilərək öz teokratik ideyalarını əzm və israrla Qərbə yönəltməli, ya da ölkənin mərkəzinin şərq regionlarına keçməsini nəzərdə tutan "neokonservativ" yanaşma ilə silahlanmalıdır. Rusiyanın radikal əhvalruhiyyəli islahatçıları Qərbə oriyentasiya edir, öz mülahizələrində *F.Fukuyamanın* "Tarixin sonu haqqında" əsərində irəli sürdüyü tezisləri əsas götürürlər. Qərbdə yaranmış müasir "ticarət quruluşu" radikal-liberallar üçün idealdır.

Bu cərəyanın liderləri maddi ehtiyacları və bazar münasibətləri sistemini ön plana çəkirlər. Onların ən böyük arzusu indiki Rusiya ərazisində Qərblə, xüsusən ABŞ-la eyni iqtisadi, siyasi, mənəvi

koordinatlar sistemində yaşayan yeni tarixi cəmiyyət qurmaqdır. Bu layihənin ideoloqları onu əsaslandırmaq üçün aşağıdakı dəlilləri gətirirlər: Rusiyanın xarici ticarətinin 55%-i Avropanın və yalnız 20%-i MDB ölkələrinin payına düşür, yəni Avropa Rusiyanın əsas iqtisadi tərəfdaşıdır. Rusiyanın ticarətinin yalnız 25%-i Çin, Yaponiya və ABŞ da daxil olmaqla dünyanın qalan ölkələrinin payına düşür.

Lakin liberal-radikallar, başqa hallarda olduğu kimi, aşkar manevr edirlər. Əvvələn, Rusiyanın Qərbi Avropa ilə münasibətləri qeyri-simmetrik olaraq qalır: Avropa İttifaqının xarici ticarətinin yalnız 3%-i Rusiyanın payına düşür. İkincisi, Rusiya Avropaya, əsasən hazır məhsullar, maşınqayırma malları, yəni rusiyalıların əməyi ilə zənginləşmiş mallar deyil, enerji daşıyıcıları və digər xammal ixrac edir. Yüksək texnoloji malların ixracı Qərb tərəfindən əvvəlki kimi ciddi məhdudlaşdırılmışdır. Üçüncüsü, rusiyalı siyasətçilər Müstəqil Dövlətlər Birliyini (MDB) elə bir region hesab edirlər ki, Rusiya orada mərkəz rolu oynamaqda davam edir (hərçənd, MDB daxilində bu münasibətlər bir sıra əlamətlərə görə dialektik ziddiyyət xarakteri daşıyır). Bununla əlaqədar, Rusiyanın mövqeyi Qərbdə ona etimadsızlıq doğurur. Qərb Rusiyanı imperiya ambisiyalarında günahlandırır.

90-cı illərin ikinci yarısında Rusiyada ölkənin milli mənafelərinin müdafiəsi ilə əlaqədar millətçi yönümlü güclü bir cərəyan formalaşmışdır. Ölkənin siyasi, iqtisadi və mənəvi həyatı ilə bağlı bir sıra faktlar bu cərəyanın təsir gücünə dəlalət edir. Prezidentin "alınan hər şey Rusiya istehsalı olmalıdır" çağırışları, "milli ideyanı yaratmalı, formalaşdırmalı" vəzifəsi, icra *hakimiyyəti tərəfindən* Dövlət Dumasına mühüm siyasi güzəştlər və s. bu qəbildəndir. Bu cərəyan liberal islahatları qəbul etmir.

Liberal-radikalların müxalifəti isə təşkilati və ideoloji baxımdan kifayət qədər müxtəlifdir. Burada monarxiyapərəst, "ağ" oriyentasiyalı siyasətçilərdən, mədəniyyət xadimlərindən (xüsusən incəsənət, ədəbiyyat xadimləri, jurnalistlər) başlamış kommunizm ideyasının keçmiş və indiki nümayəndələrinə, yenidənqurmadan əvvəlki sistemin görkəmli funksionerlərinə qədər müxtəlif təbəqələrin təmsilçilərinə rast gəlmək olar. Geosiyasətçi alim *A.Duqin* bu cə-

rəyanın konsepsiyalarını təhlil edərək müxalifətin layihəsini "sovet-çarizm" layihəsi adlandırır, çünki bu layihə sovet dövrü ilə sovetlərdən əvvəlki dövrü obyektiv şəkildə bir-birinə yaxınlaşdıran bəzi ideoloji, geosiyasi, sosial-siyasi və inzibati arxetiplərə əsaslanır. Siyasətşünas *A.Panarin* Rusiyanın mərkəzini onun Şərq regionlarına, məsələn, Urala və ya lap elə Qərbi Sibirə köçürməyi təklif edir. Qərbə oriyentasiya etmək isə onun fikrincə, ölkəni sənayeləşmədən əvvəlki dövrə qayıtmağa məhkum edir.

3.1.1. Yaxın xariclə münasibətlərdə yeni mərhələ

SSRİ-nin süqutundan sonra artıq iyirmi ilə yaxındır ki, Rusiya Federasiyasının perimetri boyu yerləşən və "yaxın xaric" kimi tanınan geosiyasi məkan dünyanın bir sıra aparıcı dövlətlərinin diqqət mərkəzindədir. Əgər NATO və Aİ-yə daxil olduqdan sonra üç keçmiş Baltikyanı dövlət üçün xarici siyasət kursunun müəyyən edilməsi prinsip etibarilə bir problem deyildisə, digər postsovet respublikaları və ilk növbədə, "Orta Avropa"[1] dövlətləri üçün geosiyasi prioritetlərin seçilməsi prosesi müxtəlif səbəblər nəticəsində hələ də başa çatmamışdır.

Qeyd etmək lazımdır ki, MDB məkanında cərəyan edən proseslərə çox zaman aparıcı qlobal və regional aktorların, ilk növbədə, ABŞ və Rusiyanın münasibətləri prizmasından baxılır. ABŞ-da, adətən, ənənəvi olaraq hesab edilirdi ki, Rusiya hələ də öz köhnə "imperiya" siyasətini davam etdirməkdə maraqlıdır və buna cavab olaraq *Z.Bjezinskinin* məsləhətlərinə əməl edərək *"postsovet məkanında üstünlük təşkil edən geosiyasi plüralizm meyillərinin" [Бжезинский, 1998, cmp. 240]* bütün vasitələrlə həvəsləndirilməsinə çalışılırdı.

Bir sıra siyasətçi və ekspertlərin fikrincə, bu qarşıdurma 2008-ci ildə öz pik nöqtəsinə çatdı. Həmin il Kosovonun, Abxaziyanın və Cənubi Osetiyanın qismən də olsa tanınması aparıcı dünya dövlətlərinin məhz bu hadisələrə münasibətdə müxtəlif mövqelərdən çıxış etməsinə səbəb oldu. Bu hadisələr dünyada beynəlxalq hüququn əsasını təşkil edən prinsiplər ətrafında konsensusun olmadığını, Avropada formalaşmış təhlükəsizlik sisteminin zəifliyini və bir sıra Avropa dövlətlərinin ərazi bütövlüyünə potensial təhdidlərin mövcudluğunu bir daha nümayiş etdirdi. Hesab edilir ki, bu və bir sıra digər təhlükələrin aradan qaldırılmasında Rusiya Prezidenti D.Medvedev tərəfindən təklif olunan Avropada təhlükəsizliyə dair müqavilənin (ATM) bağlanması vacib rol oynaya bilər. Bu müqavilə hüquqi cəhətdən Vladivostokdan Vankuverədək böyük ərazidə yerləşən bütün dövlətlər üçün "bərabər" və "bölünməz" təhlükəsizliyin təmin edilməsini nəzərdə tutur.

Bu müqavilənin hazırlanması ideyası Rusiya Prezidenti tərəfindən hələ 2008-ci ilin iyununda Berlin konfransında irəli sürülmüşdü [D.Medvedevin Almaniyada siyasi, ictimai dairələrin və parlament nümayəndələrinin görüşü zamanı çıxışı, 5 iyun 2008-ci il. *Bax:* http://kremlin.ru/transcripts/320]. Cənubi Osetiya və Abxaziya ətrafında baş verən hadisələrdən sonra 2008-ci ilin oktyabrında Fransanın Evian şəhərində keçirilən dünya siyasəti məsələlərinə həsr olunmuş konfransda *D.Medvedev* tərəfindən Avropada kollektiv təhlükəsizliyə dair yeni müqavilənin bünövrəsini təşkil edə biləcək aşağıdakı "beş prinsip" irəli sürüldü:

1) Beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə vicdanlı şəkildə riayət olunması, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və BMT-nin Nizamnaməsində öz əksini tapmış digər prinsiplərə hörmət edilməsi;

2) Beynəlxalq münasibətlərdə gücün tətbiq edilməsinə və ya onun tətbiqi ilə bağlı təhdidlərin həyata keçirilməsinə yol verilməməsi;

3) Bərabər təhlükəsizliyin təmin edilməsinə zəmanət verilməsi;

4) Rusiya da daxil olmaqla heç bir dövlətə və ya beynəlxalq təşkilata Avropada sülhün və sabitliyin qorunmasına dair müstəsna hüquqların verilməməsi;

5) Silahlar üzərində əsas nəzarət parametrlərinin və hərbi quruculuqda lazımi ehtiyacların müəyyən edilməsi.

Prezident *D.Medvedev* konfransda Avropada kollektiv təhlükəsizliyə dair bu yeni müqavilənin üç "olmaz" prinsipinə riayət

[1] Cənubi Qafqazın üç ölkəsi daxil olmaqla Baltik dənizindən Xəzər dənizinə qədər Avropa İttifaqı və Rusiya arasında yerləşən ərazi [*bax:* Шумилис, 2010, səh. 47].

edilməsini də vurğuladı: 1) öz təhlükəsizliyini başqalarının təhlükəsizliyi hesabına təmin etmək olmaz; 2) hər hansısa hərbi ittifaq və koalisiya çərçivəsində ümumi məkanın təhlükəsizliyinin vahidliyini zəiflədən fəaliyyət yolverilməzdir; 3) müqavilənin digər üzvlərinin təhlükəsizliyi hesabına hərbi ittifaqların inkişafının həyata keçirilməsi yolverilməzdir [D.Medvedevin dünya siyasəti məsələlərinə dair konfransda çıxışı, 8 oktyabr 2008-ci il. *Bax:* http://kremlin.ru/transcripts/1659].

Beləliklə, 2008-ci ilin iyulunda Avropada təhlükəsizliyə dair müqavilənin əsas ideyası Rusiya xarici siyasətinin Avropa vektorunun başlıca istiqaməti kimi bu dövlətin xarici siyasət konsepsiyasında öz əksini tapmışdır [Rusiya Federasiyasının xarici siyasət konsepsiyası. *Bax:* http:// kremlin.ru/acts/785]. Qeyd etmək lazımdır ki, Rusiya Prezidentinin bu təşəbbüsü *"sərt təhlükəsizlik"* ("Hard Security") çərçivəsində təhlükəsizliyin "bölünməzliyi", silahlara nəzarət, Avratlantik məkanda münaqişələrin nizama salınması kimi məsələlərə aiddir. Eyni zamanda, D.Medvedevin fikrincə, hərbi-siyasi məsələlərə diqqət artırılmalıdır, çünki bu gün "sərt təhlükəsizlik" əsas rol oynamaqdadır və "məhz burada son zamanlar nəzarət mexanizmlərinin təhlükəli səviyyədə çatışmazlığı yaranmışdır"[D.Medvedevin dünya siyasəti məsələlərinə dair konfransda çıxışı, 8 oktyabr 2008-ci il. *Bax:* http://kremlin.ru/transcripts/1659].

Lakin Rusiyada və Qərbdə "təhlükəsizlik" məfhumuna müxtəlif münasibətlərin mövcudluğu, *"yumşaq təhlükəsizlik"* ("Soft Secuirty") məfhumunun əhəmiyyətinin lazımi səviyyədə qiymətləndirilməməsi bu sənədin reallaşdırılması üçün əsas maneələrdən biridir. Məhz buna görə də Qərb dövlətləri cəmi 14 maddədən ibarət olan bu sənədin əsas müddəalarına etiraz etməyərək, bu müqaviləni NATO-nun xarici siyasət qərarlarına və ilk növbədə Şərqə doğru genişlənməsinə Rusiya tərəfindən özünəməxsus bir veto hüququ qoymaq təşəbbüsü kimi qəbul edirlər. Bununla belə, rusiyalı siyasətşünas *S.Karaqanovun* fikrincə, "güc tətbiq etməklə münaqişələrin həlli nəticəsində dövlətlərin parçalanması və ya yenidən birləşməsi hallarının qarşısını almaq üçün" Avropada təhlükəsizliyə dair yeni müqavilədə Helsinki Yekun Aktının sərhədlərin toxunulmazlığına dair müddəasını təsdiqləmək lazımdır. *"Kosovo, Cənubi Osetiya və Abxaziya güc metodları tətbiq etməklə yaranan sonuncu dövlətlər olmalıdır. Heç olmasa Avropa üçün bu "Pandora qutusu" bağlanmalıdır" [Карагано в, 2009].*

Məlumdur ki, İkinci Dünya müharibəsindən sonra Avropada sərhədlərin toxunulmazlığı 1975-ci ildə Helsinki Yekun Aktı ilə təsdiqlənmişdir. Əlbəttə, bu gün Rusiyanın Kosovonu, Qərbin isə analoji olaraq Cənubi Osetiya və Abxaziyanı tanıması ətrafında hipotetik ssenarinin reallaşması qeyri-mümkün görünür. Lakin Rusiya təşəbbüsünün uğuru bu müqavilə ətrafında aparılan debatlar zamanı postsovet məkanındakı münaqişələrin həll edilməsi istiqamətində ümumi yanaşmaların və regiondakı bütün böhranlı vəziyyətlərə tətbiq edilə bilən universal qaydaların müəyyənləşdirilməsindən asılıdır [Yeni Avratlantik təhlükəsizlik arxitekturasına dair. "Valday" diskussiya klubunun keçirdiyi konfransda Rusiya ekspertlərinin məruzəsi, London, 8-10 dekabr 2009-cu il, səh. 20. *Bax:* http://www. globalaffairs.ru/docs/Karaganov_rus.pdf].

3.2. Rusiya-ABŞ: rəqabət, yoxsa tərəfdaşlıq?

Rusiya ilə ABŞ arasında münasibətlər iki müxtəlif geosiyasi yanaşmanı reallaşdıran iki böyük lider dövlətin cari və strateji maraqları ilə şərtlənir. Bu yanaşmaların nəzəri-metodoloji təhlili 1-ci fəsildə verilmişdir, burada isə biz həmin yanaşmaların XXI əsrin ilk onilliyində praktiki gerçəkləşməsi üzərində dayanacağıq.

Rusiya ilə ABŞ arasında strateji münasibətləri müəyyənləşdirən ən mühüm amillərdən biri hər iki dövlətin raket-nüvə potensialıdır. İki ölkə arasında tərəfdaşlığın fundamental əsası sabit və təhlükəsiz beynəlxalq münasibətlər sisteminin yaradılmasında, "müasir dünyanın siyasi, hərbi proseslərini güc hesabına idarə etməyin" müəyyən dərəcədə tənzimlənməsində, o cümlədən regional münaqişələrin tənzimlənməsində hər iki tərəfin maraqlı olmasıdır. Lakin bu məsələlərə yanaşmalar, onların həlli üçün RF və ABŞ-ın təklif etdiyi mexanizmlər çox vaxt əhəmiyyətli dərəcədə fərqlənir (yanaşmaların bu fərqi 1990-cı illərdə İraqla münaqişədə və 1995-

1997-ci illərdə Bosniyada əməliyyatların aparılmasında amerikalıların iştirakı zamanı xüsusilə aşkar göründü).

Əlbəttə, beynəlxalq münasibətlərin tənzimlənməsinə ölçülübbiçilmiş, realist yanaşmada bərabərhüquqlu tərəfdaşlar kimi Rusiya-ABŞ əməkdaşlığı qlobal təhlükəsizliyin bel sütununa çevrilə bilər. Bu əməkdaşlığın əsasını bir-birinə qarşı ərazi iddialarının, kəskin iqtisadi rəqabətin (hərbi rəqabətdən başqa), eləcə də ideoloji fikir ayrılıqlarının olmaması, iki ölkə xalqlarının tarixi yaddaşının sağlam düşüncə çərçivəsində formalaşması və başqa şərtlər təşkil etməlidir. Bu halda RF ilə ABŞ-ın səyləri aşağıdakı sahələrdə birləşə bilər: müxtəlif münaqişələrin aradan qaldırılması, kosmosun dinc məqsədlər üçün öyrənilməsi, ətraf mühitin qorunması (XX əsrin sonundan başlayaraq ekoloji problemlər qlobal xarakter daşıyır, XXI əsrin əvvəlində isə bu problemlər xeyli kəskinləşmişdir), raket-nüvə silahlarının yayılmaması, adi silahların yayılmasına nəzarət, nüvə silahlarının təkcə RF-də və ABŞ-da deyil, başqa dövlətlərdə də azaldılması, hərbi-texniki və hərbi-texnoloji sahələrdə əməkdaşlıq, terrorizmə və kriminogen strukturlara, narkotiklərin yayılmasına qarşı birgə mübarizə və s. Lakin təəssüf ki, hələlik tərəflər məhz geosiyasi maraqlarına üstünlük verdikləri üçün, bu əməkdaşlıq istənilən səviyyədə deyil (baxmayaraq ki, tərəflərdən hər biri özünü ədalətli hesab edir).


Yuxarıda qeyd edilənlərlə əlaqədar digər aktual məsələ raketdənmüdafiə sistemlərinin yaradılmasıdır.

1994-cü ildə iki ölkənin prezidentləri tərəfindən imzalanmış "İqtisadi tərəqqi üçün tərəfdaşlıq haqqında" birgə bəyanatda məhdudiyyətlərin aradan qaldırılması yolu ilə Amerika bazarının Rusiyaya açılması, ABŞ-ın antidempinq siyasətinə qarşı mübarizəyə qoşulması, Rusiyanın "keçid iqtisadiyyatı" ölkəsi statusunun qanunvericilik yolu ilə təsbit edilməsi bəyan olunmuşdur.

3.3. Rusiya və Şimali Atlantika regionu

Şimali Atlantika regionu böyük siyasətdə aparıcı rol oynayır. Bu, ilk növbədə, həmin regionun mühüm strateji ərazidə yerləşməsi ilə izah edilir: bura Avropa ilə Şimali Amerika arasında tranzit rayonu-

dur. Qərbdə Kanadanın və ABŞ-ın şərq sahillərindən başlamış şərqdə Kola yarımadası və Baltik dənizinə qədər ucsuz-bucaqsız Şimali Atlantika regionu vaxtilə NATO və Varşava müqaviləsi blokları tərəfindən eyni dərəcədə nəzarət olunan geostrateji regiondur.



Cədvəl 19. ***Sürətlə inkişaf edən ölkələr qrupu - BRIC[1]-də 1998-2009-cu illərdə adambaşına düşən ÜDM-in dinamikası, ABŞ dolları ilə***

Əsas makroiqtisadi göstəricilər (əmtəə dövriyyəsi, investisiyalar, daşımalar) üzrə transatlantik əlaqələr hələ də bütün başqa əlaqələri üstələyir. Belə ki, ABŞ ilə Avropa İttifaqı arasında ikitərəfli ticarətin həcmi Sakit okean hövzəsi ölkələri ilə ticarətin həcmindən demək olar ki, 50% çoxdur.

Bu region nüvə silahına malik olan böyük dövlətlərin hərbi dəniz donanmalarının və hərbi hava qüvvələrinin ən iri qruplaşmalarının yerləşdiyi rayon kimi mərkəzi yer olaraq qalır. Raketdaşıyan sualtı atom qayıqları və strateji bombardmançı təyyarələr burada yenə də döyüş növbəsindədir.

NATO-nun "ön sərhədlər strategiyası"ndan "ön cəbhədə az iştirak" konsepsiyasına keçid niyyəti ilə əlaqədar olaraq bu regionun

[1] 2011-ci ildə Cənubi Afrika Respublikasının dördlüyün sıralarına qoşulması ilə qrup BRICS adlanmağa başlamışdır.

alyans üçün əhəmiyyəti artmışdır. Bununla əlaqədar ABŞ özünün Avropadakı qoşunlarının sayını azaltmağı nəzərdə tutur. Deməli, zəruri hallarda çevik qüvvələri sürətlə lazımi yerə göndərmək üçün okean kommunikasiyalarının etibarlılığını artırmaq lazımdır.

Şimali Atlantika regionunun təsərrüfat və resurs potensialları, xüsusən sənaye balıq ovu getdikcə daha çox əhəmiyyət kəsb edir. 200 millik (360 kilometrdən çox) iqtisadi zonalar tətbiq edilməsi nəticəsində Şimali Atlantika regionu akvatoriyasının yarıdan çoxu sahilyanı dövlətlərin yurisdiksiyasındadır. Bu qərarın qəbul edilməsinin əsas səbəbi odur ki, regiondakı ayrı-ayrı ölkələr, məsələn, İslandiya, Qrenlandiya, Farer adalarının sakinlərinin həyatı tamamilə balıq və dəniz məhsulları hasilatından və emalından asılıdır. Bundan əlavə, Şimal və Norveç dənizlərinin kontinental şelfində neft və qaz çıxarılması mühüm amilə çevrilmişdir.

Qərb ekspertlərinin hesablamalarına görə, Qərbi Avropa ölkələrinin ən qiymətli enerji xammalı növləri ilə təmin edilməsi üçün burada kəşf olunmuş neft və qaz ehtiyatları təqribən 500 milyard tona və ya dünyadakı kəşf edilmiş bütün ehtiyatların onda bir hissəsinə bərabərdir.

Alimlərin fikrincə, Rusiyanın şimal, arktik Avrasiya massivi Avropa ilə Asiya arasında əlaqələndirici buferə çevrilərək ABŞ-Qərbi Avropa-Yaponiya triadasında Asiya sektorunun möhkəmlənməsinə kömək edə bilər.

Rusiyanın Şimali Atlantika regionunda siyasətinin əsas məqsədləri milli təhlükəsizliyin təmin edilməsi, siyasi və hərbi-strateji balansın saxlanılması üçün region dövlətləri ilə mehriban qonşuluq münasibətləri, risk amillərinin minimuma endirilməsi və münaqişəli vəziyyətlərə yol verilməməsi, Rusiyanın sosial-iqtisadi problemlərinin həlli üçün təsərrüfat əməkdaşlığı potensialından istifadə edilməsidir. Rusiyanın şimal-qərb vilayətləri və mahalları (Arxangelsk, Murmansk vilayətləri, Yamal-Nen muxtar mahalı), Komi və Kareliya respublikaları şimal qonşuları ilə sıx üfüqi iqtisadi əlaqələr saxlayırlar. Həm bu regionun rəhbərləri, həm də ölkə rəhbərləri Avropanın şimal ölkələrində yaranmış şəraitə uyğunlaşma strategiyasına əməl edirlər. İndiki şəraitdə Rusiya bu münasibətlərdə lider ola bilməz, buna görə də o, müstəqil qlobal siyasət taktikasını deyil, manevr taktikasını tətbiq edir.

Bu regionda Rusiya ilə ABŞ-ın qarşılıqlı münasibətlərində nüvə çəkindirmə modeli hələ də qüvvədədir. XXI əsrin əvvəllərində bu təhdid, əlbəttə, öz kəskinliyini itirmişdir, lakin böyük dövlətlərin (və region ölkələrinin) təhlükəsizliyi məsələsi iki ölkənin münasibətlərində mərkəzi məsələ kimi qalmaqdadır.

XIX əsrdə ən qüdrətli dəniz dövləti, "dünya emalatxanası", dənizlər səltənəti adlanan Böyük Britaniya həm NATO-da, həm də Şimali Atlantika regionunda fəal rol oynayır. Əlbəttə, bütövlükdə beynəlxalq siyasətdə və xüsusən Avropada İngiltərənin xüsusi çəkisi ABŞ-la müqayisədə xeyli azdır. Buna baxmayaraq, İngiltərənin bu regionda təsiri davam edir. O, dünya dövləti, dünyanın taleyini müəyyən edən BMT-nin Təhlükəsizlik Şurasının üzvü kimi öz adını doğrultmağa çalışır. Böyük Britaniyanın siyasi liderləri atlantizm geosiyasətinin tərəfdarlarıdır. Buna görə də o, Avropada inteqrasiyanın dərinləşməsi probleminə təmkinli münasibət göstərir. Şimali Atlantika regionunda Britaniya siyasəti çox məsələlər üzrə Almaniyanın ən yaxın qonşuları olan, İkinci Dünya müharibəsinin ağır illərini hələ də xatırlayan və xüsusən balıq ovu, enerji daşıyıcıları hasilatı və s. məsələlərdə bir növ blok mövqeyi tutan isveçlilər, norveçlilər və danimarkalılar tərəfindən dəstəklənir.

XXI əsrin əvvəllərində Almaniyanın Avropada rolu İngiltərənin rolundan heç də az əhəmiyyət kəsb etmir. Almaniya Avropadakı iqtisadi və hərbi-siyasi ittifaqlarda lider mövqeyi tutur. O, özünün təsir qüvvəsini Şərqə doğru fəal şəkildə "irəlilədir", yaxın və uzaq qonşuları ilə yeni iqtisadi, maliyyə və siyasi əlaqələr yaradır. Bu, AFR kapitalının mövqeyinin güclənməsi, Şərq ölkələrində alman milli azlıqlarının müdafiə edilməsi xətti ilə şərtlənir.

90-cı illərin ortalarında obyektiv səbəblər üzündən Avropanın şimal ölkələrinin (NATO üzvləri olan Danimarka, Norveç və İslandiya, həmçinin neytral İsveç və Finlandiyanın) mövqelərində yaxınlaşma başlanmışdır. Danimarka, İsveç və Finlandiya Avropa İttifaqının

tamhüquqlu üzvləridir. Norveç Avropa İttifaqı çərçivələrindən kənarda qalır və ABŞ ilə əlaqələrini möhkəmləndirir, atlantist xəttini fəal dəstəkləyir. Lakin bu regiondakı ölkələrin qarşılıqlı asılılığı artmaqdadır. Bu, ilk növbədə, onların iqtisadi, maliyyə, siyasi və başqa əlaqələrinin güclənməsində əyani görünür. Baltikyanı ölkələr bu münasibətlərə getdikcə fəal qoşulur. Bu isə subregionun siyasi və digər imkanlarını əhəmiyyətli dərəcədə artırır. Burada yerləşən ölkələrlə münasibətlər də bəzən təsadüfi amillərdən asılı olan ziddiyyətli, dinamik xarakter daşıyır. Lakin əsas ziddiyyət Barens dənizinin şelfinin və sularının (176 min kvadratkilometrlik sahə) bölünməsi ilə bağlıdır. Bu sahəyə dair danışıqlar 70-ci illərin əvvəlindən aparılır.

Bundan əlavə, Şimal-Qərb subregionunda Rusiya qoşunlarının sayı, Şpisbergen arxipelaqının və onun akvatoriyasının suverenliyi, təbii resurslardan istifadə, balıq və dəniz məhsullarının hasilatı məsələləri ilə bağlı kəskin ziddiyyətlər mövcuddur. Norveçli diplomatlar 1992-ci ildə çoxtərəfli "Avroarktika" əməkdaşlığı təşəbbüsü ilə çıxış etmişlər. Bu təşəbbüsün əsas məqsədi Şimal regionu ölkələrinin bir növ ittifaqını yaratmaqdan ibarət idi.

90-cı illərin əvvəlində Baltikyanı respublikalarda baş verən hadisələrlə əlaqədar problemlər üzündən Rusiya ilə Danimarka arasında münasibətlər mürəkkəbləşmişdir. Almaniyanın ardınca Danimarka da NATO-nun Şərqə genişlənməsi ideyasının həyata keçirilməsi, Baltikyanı ölkələrin bu bloka qəbul edilməsi üçün səylər göstərmişdir.

1997-ci ilin axırlarından Rusiya-İsveç münasibətləri nəzərəçarpacaq dərəcədə yaxşılaşmışdır. XXI əsrin əvvəlində ikitərəfli əlaqələrin uğurla inkişaf etməsi üçün demək olar ki, heç bir ciddi maneə yoxdur. İki ölkə arasında əmtəə dövriyyəsi artır, Rusiya iqtisadiyyatında İsveç investisiyalarının çəkisi çoxalır, Rusiyadan Finlandiya və İsveç vasitəsilə Qərbi Avropaya qaz kəməri çəkilişi layihəsi təsdiq edilmişdir.

Rusiyanın Finlandiya ilə münasibətlərində sabitlik davam edir. Ölkənin Avropa İttifaqına daxil olması bu münasibətlərə xələl gətirməmişdir. Ticarət-iqtisadi əlaqələr kəskin zəifləyəndən sonra

90-cı illərin axırlarında güclənməyə başlamışdır. Finlandiya vasitəsilə Baltik regional əməkdaşlığı Rusiyanın Avropa İttifaqı ilə yaxınlaşması üçün yeni imkanlar yaratmışdır.

Beləliklə, XXI əsrin əvvəlində Şimali Atlantika regionu ölkələri ilə münasibətlərin balansı daimi transformasiya vəziyyətindədir.

3.4. Yeni minillikdə Rusiya-Çin münasibətləri

Qazaxıstandan Yapon dənizinə qədər Rusiya sərhədinin böyük bir hissəsi Rusiyanı Asiya-Sakit okean regionunun geosiyasi və hərbi baxımdan ən qüdrətli ölkəsi olan Çinlə ayırır və birləşdirir. Bu regionun sürətli inkişafı Rusiyadan öz geosiyasi maraqlarını dərk etməsini tələb edir. SSRİ-i dağılandan sonra Rusiyanın Asiya-Sakit okean regionunda siyasəti strateji məqsədyönlülük, taktiki dəqiqlik və çeviklik keyfiyyətləri kəsb etmişdir. 1997-ci ilin axırlarında Rusiya Prezidentinin Çinə səfərindən sonra iki ölkə arasındakı münasibətlərdə irəliləyiş nəzərə çarpır. Bu irəliləyiş regionun nəhəngi ilə daha sıx iqtisadi və strateji əməkdaşlıqdan ibarətdir. Geosiyasi, hərbi və iqtisadi baxımdan Rusiya Federasiyasının ən həssas hissəsi onun Çinlə sərhədidir. Rusiyanın ucsuz-bucaqsız ərazisi Sibir və Uzaq Şərqin çox böyük regionlarının xammal və enerji resursları ilə, ucsuz-bucaqsız tayqa massivləri, çöllər, çəmənliklərlə zəngin olan ərazidir. Dünyadakı kömür ehtiyatlarının yarısı, neft və qaz ehtiyatlarının təqribən üçdə bir hissəsi Sibirin və Uzaq Şərqin payına düşür.

Kəşf edilmiş bütün kömür ehtiyatlarının demək olar ki, 80%-i, 7,1 milyard ton dəmir filizi, 98,5 milyon ton manqan filizi, 40 milyard kubmetrdən çox odun (o cümlədən ən qiymətli iynəyarpaqlı ağac növləri) ehtiyatları Uraldan Uzaq Şərqə qədər olan ərazidə yerləşir. Baykaldan Vladivostoka qədər olan ərazidə əhalinin sayı isə cəmi 20 milyon nəfərə yaxındır. Halbuki, Çin sakinlərinin sayı 1,3 milyardı keçmişdir. Regionun infrastrukturu çox zəif, məskunlaşma adda-buddadır. Bundan əlavə, Qazaxıstandan Vladivostoka qədər ərazilərin əksəriyyəti əkinçilik üçün riskli zonadır. XXI əsrin əvvəlində isə bu ərazi iqtisadi və ekoloji fəlakət mənbələridir.

Çinin geosiyasətində həm dəniz, həm də kontinent izləri vardır. O, xarici siyasətdə heç vaxt talassokratiyanın ardıcıl tərəfdarı olma-

mış, daha çox kontinental tellurokratik prinsiplərə meyil etmişdir. Elə buna görə də onu qədim dövrlərdən "aralıq imperiya" adlandırırlar. Lakin XIX əsrin əvvəlindən 1949-cu ilin oktyabr ayına (Çin Xalq Respublikası elan edilənə) qədər Çinin geosiyasəti atlantist meyilli geosiyasət kimi səciyyəvi olmuşdur. 1949-1959-cu illərdə Çin sovetpərəst xarici siyasətə meyil etmişdir. 1960-1979-cu illərdə onun xarici siyasəti çox cəhətdən SSRİ üçün qarşıdurma xarakteri daşıyırdı. 1969-cu il qışın axırlarında Ussuri çayı üzərindəki Damansk adası uğrunda döyüşlər bu qarşıdurmanın zirvəsi olmuşdur. XX əsrin 70-ci illərinin ortalarında Çin mondialist "Üçtərəfli komissiya"nın nümayəndələri ilə fəal danışıqlar aparmış, yəni yenidən atlantist geosiyasətin tərəfdarı kimi çıxış etmişdir. XXI əsrin əvvəllərində ÇXR-in Qərb ölkələri ilə əlaqələri onun Rusiya ilə münasibətlərinə nisbətən nəzərə çarpacaq dərəcədə möhkəm və genişdir.

Beləliklə, sərhədin bir tərəfində dinamik inkişaf edən, 1979-cu ildən başlayaraq iqtisadi sahədə dünyada ən yüksək nəticələrə nail olan, ən böyük insan potensialı - 1 milyard 300 milyon nəfərdən çox əhalisi olan Çin, digər tərəfində əla resurs bazası[1], çox geniş kommunikasiyaları (dəmir və avtomobil yolları, aviasiya əlaqələri), inkişaf etməkdə olan infrastrukturu, kortəbii inkişaf edən bazar münasibətləri şəraitində zəif inkişaf etmiş və qeyri-sabit iqtisadiyyatı olan Rusiya dayanır. Bu böyük geosiyasi məkanın reallıqları belədir. Buraya sərhədin hərbi-texniki təchizatının qeyri-mükəmməl olması, Rusiya ordusunun və hərbi dəniz donanmasının qüdrətinin xeyli zəifləməsini də əlavə etməliyik. Beləliklə, Şərq regionu Rusiyanın geosiyasi və geoiqtisadi strukturunda ən həssas halqadır.

Sibirdə və Rusiyanın Uzaq Şərqində indiki vəziyyətin mürəkkəbliyi çox cəhətdən bu regionun inkişafının hərtərəfli işlənib hazırlanmış elmi strategiyasının olmaması ilə şərtlənmişdir.

[1] Rusiya dünya üzrə təsdiqlənmiş təbii resursların 21 faizinə sahibdir. Təbii qaz istehsalında dünyada birinci, neft istehsalında isə ikinci yeri tutur. Rusiyanın neft ehtiyatları 80 milyard barel təşkil edir. Bu, dünya neftinin 4,6 faizi deməkdir. Neft ehtiyatının həcminə görə dünyada 8-ci, neft istehsalına görə isə Səudiyyə Ərəbistanından sonra 2-cidir. Rusiyanın təsdiqlənmiş qaz ehtiyatı 47 trilyon kubmetrdir. Dünya qaz ehtiyatının 27 faizi Rusiyanın payına düşür (həmçinin *bax:* **xəritə 38**).



Xəritə 38. ***Rusiya mühüm neft-qaz ölkəsidir***

Sibirin və Uzaq Şərqin məhsuldar qüvvələrinin inkişaf etdirilməsi bütün Rusiya cəmiyyətinin diqqətindədir. Sov.İKP MK 1967-ci ildə qarşısına belə bir məqsəd qoymuşdu. Bu, sosial, iqtisadi xarakteristikaların yaxşılaşdırılması, region sakinlərinin həyat tərzinin təkmilləşdirilməsi, Zabaykalye, Uzaq Şərq və Uzaq Şimalın

ucsuz-bucaqsız ərazilərinin mənimsənilməsi prosesində onlara güzəştli şərait yaradılması əsasında məhsuldar qüvvələrin inkişafına dair kompleks sosial-iqtisadi proqram idi. İndi Rusiyanın Uzaq Şərq regionlarının mənimsənilməsinə dair analoji dövlət proqramına ehtiyacı var. Ehtimal edilən proqramın bəzi fraqmentləri var və həmin fraqmentlərdə çox vaxt diqqəti cəlb edən bir neçə anlayış işlədilir: "geosiyasi düyün", "Rusiyanın özü-özünü təşkil edən istehkamı", "baza əhəmiyyətli ərazi-istehsal strukturu" və s. Bəzən Uzaq Şərqin dünya bazarına müstəqil şəkildə deyil, Asiya-Sakit okean regionu ölkələri vasitəsilə çıxması təklif olunur.

Sibir və Uzaq Şərq problemlərinin həllinə başqa yanaşmalar da var. Məsələn, Koreya Respublikası, Uzaq Şərq və Sibir arasında əməkdaşlıq assosiasiyası yaradılmışdır. Rusiyanın bir neçə regionu öz iqtisadiyyatlarını Asiya-Sakit okean regionuna inteqrasiya etməyə yönəltmək əzmində olduqlarını bildirmişlər.

Bu iki güclü regionun - Sibirin və Uzaq Şərqin xarici iqtisadi fəaliyyətinin əlaqələndirilməsi bir sıra obyektiv şərtlərlə əlaqədar Rusiya üçün çox vacibdir. Koordinasiya Şərqi Sibirdə və Uzaq Şərqdə Rusiyanın ucsuz-bucaqsız ərazilərinin abadlaşdırılması üçün iqtisadi təməl yaratmaqla burada iqtisadi yüksəlişi əhəmiyyətli dərəcədə stimullaşdıra bilər; nəzərə almaq lazımdır ki, 1993-cü ildən başlayaraq Rusiya ilə ÇXR arasında xarici ticarət dövriyyəsinin həcmi ilbəil azalmışdır. Yalnız 1997-ci ilin dekabr ayında Rusiya tərəfindən Çində yüngül su ilə işləyən atom elektrik stansiyası tikilməsi barədə iri əqd bağlandıqdan sonra 1998-ci ildən etibarən xarici ticarət dövriyyəsi artmağa başlamışdır.

Hal-hazırda Rusiya-Çin münasibətləri XXI əsrdə qarşılıqlı strateji fəaliyyətə yönəlmiş etimada əsaslanan bərabərhüquqlu tərəfdaşlıq münasibətləri statusunu daşıyır. Onlar hər iki ölkənin əsas mənafelərinə tamamilə cavab verən, Asiya-Sakit okean regionunda və bütün dünyada sülhə və təhlükəsizliyə şərait yaradan, üçüncü ölkələrə qarşı yönəlməmiş yeni tipli uzunmüddətli beynəlxalq əlaqələr kimi xarakterizə edilir.

IV Fəsil

CƏNUBİ VƏ CƏNUB-ŞƏRQİ ASİYA REGİONUNUN GEOSTRATEGİYASI

4.1. Asiyanın dirçəlişi

Asiya dünya məkanının sürətlə inkişaf etməkdə olan regionudur. Bu regionda Hindistan və Pakistanın nüvə silahı var, Çin əsl "iqtisadi möcüzə" göstərmişdir. *Çinin* iqtisadi baxımdan yüksək sürətlə inkişaf etməsi isə belə nikbin proqnozlar üçün əsas verir ki, yaxın 30-40-ildə onun Ümumi Daxili Məhsulunun (ÜDM) həcmi Amerikanın müvafiq göstəricisini üstələyəcəkdir. 1978-2003-cü illərdə Çində adambaşına ÜDM orta hesabla hər il 6,1 faiz artmış, 25 il ərzində 337 faizə bərabər olmuşdur *[Wolf, 2005]*.

Çində iqtisadi yüksəlişin başlanğıcında adambaşına ÜDM ABŞ-dakı müvafiq göstəricinin 1/20-nə bərabər idi. Lakin hətta indi - 25 il davam etmiş sabit tərəqqidən sonra Çində adambaşına ÜDM ABŞ-ın göstəricisinin cəmi 15 faizini təşkil edir.

Hindistan müasir dövrdə iqtisadiyyatı sabit inkişaf edən və informasiya-kommunikasiya texnologiyalarının intensiv inkişaf potensialına malik olan regional dövlətdir. Multimilli korporasiyaların əksəriyyəti Hindistan ərazisindən istehsalat birliklərinin yerləşdirilməsi üçün münasib məkan kimi istifadə edir, çünki burada işçi qüvvəsi Avropa və ya Amerikada olduğundan xeyli ucuzdur.

Digər Asiya dövləti - Pakistanın son illərdə istər regionda, istərsə də beynəlxalq aləmdə rolu və əhəmiyyəti xeyli artmışdır.

Yaponiya, Cənubi Koreya, Sinqapur kimi ölkələr texnoloji cəhətdən yüksək dərəcədə inkişaf etmişdir. 1993-cü ildə Dünya Bankı "Şərqi Asiya möcüzəsi" adlı hesabat dərc etmişdir. Bu hesabat 1965-1990-cı illərdə fasiləsiz artım reytinqinə nail olmuş səkkiz ölkəni - Yaponiyanı, "dörd pələngi" - Honkonq, Cənubi Koreya, Sinqapur və Tayvanı, habelə üç "yeni peyda olmuş pələngi" - İndone-

Xəritə 39. *Asiya*



ziya, Malayziya və Tailandı əhatə edir. Həmin səkkizliyə Filippini də daxil etmək olar.

Ən sürətli inkişaf edən ölkələrin reytinqini hazırlayan və təcrübəsini öyrənən Artım və İnkişaf Komissiyasının[1] 2010-cu ilin sonunda təqdim olunan "Davamlı artım və inkluziv inkişaf üzrə Strategiya hesabatı"nda 13 ən sürətli iqtisadi inkişaf tempi göstərən dövlətlərin siyahısına Cənubi Koreya, Çin, Tailand, Honqkonq (Çin), Tayvan (Çin), Yaponiya, Malayziya, Sinqapur və İndoneziya daxil edilib.

[1] 2006-cı ildən fəaliyyət göstərən Komissiyanın sədri Nobel mükafatı laureatı *Maykl Spensdir*. Quruma Dünya Bankı ilə yanaşı həm də Avstraliya, İsveç, Niderland və Birləşmiş Krallıq hökumətləri, habelə "William" və "Flora Hewlett" fondları dəstək verir. Komissiya ötən 5 il ərzində İkinci Dünya müharibəsindən sonra sürətlə inkişaf edən 13 dövlətin təcrübəsinə əsaslanaraq sıçrayışlı artım və yoxsulluğun ixtisarı siyasətinin təhlilini aparır.

S.Hantinqton "Asiyanın dirçəlişi" haqqında yazarkən bu porsesi Asiya ilə Qərb arasında, xüsusən Asiya ilə ABŞ arasında balansın dəyişməsinə doğru labüd hərəkət kimi səciyyələndirirdi. O, "Sivilizasiyaların toqquşması" əsərində yazırdı ki, *Asiyanın transformasiya sürəti heyrət doğurur, çünki "əhalinin hər nəfərinə düşən gəlirləri ikiqat artırmaq üçün Britaniya və Birləşmiş Ştatlar, müvafiq surətdə qırx səkkiz və qırx yeddi il sərf etməli olmuşdur, halbuki Yaponiya bu işi otuz üç ildə, İndoneziya on yeddi ildə, Koreya on bir ildə, Çin isə on ildə görmüşdür"* [*bax:* Жириновский, 2003, səh. 152].

4.2. Hindistan: geosiyasətdə yeni meqatrendlər

Hindistan son illərdə özünün regional çəkisini əhəmiyyətli dərəcədə artırmağa və iqtisadi inkişafı təkmilləşdirməyə nail olmuşdur. Təhlilçilərin bir çoxunun fikrincə, gələcəkdə Hindistan XXI əsrin ən mühüm məsələlərinin həllinə - Asiyada sabitliyin təmin edilməsinə, genişlənmiş Yaxın Şərqin siyasi baxımdan modernləşməsinə və qloballaşma prosesinin idarə olunmasına təsir göstərmək imkanı əldə edəcəkdir. Son illərdə Dehli özünün bilavasitə qonşuları ilə münasibətlərini dəyişmək, Çin və Pakistanla (regionda özünün əsas rəqibləri ilə) dinc yanaşı yaşamaq üsullarını tapmaq və "yaxın xaricdə" - Afrikanın, Mərkəzi və Cənub-Şərqi Asiyanın bəzi hissələrində, Fars körfəzi və Hind okeanı regionlarında öz mövqelərini bərpa etmək üçün gərgin fəaliyyət göstərmişdir. Eyni zamanda, Hindistan böyük dövlətlərlə, xüsusən ABŞ-la münasibətlərini dərinləşdirmişdir *[Kılıçkap, 2007, səh. 186]*.

Böyük dövlətlər arasında köhnə rəqabət, eləcə də Hindistanın özünün Pakistan və Çinlə münasibətlərində gərginlik yaranması Hindistanın regionda təhlükəsizliyi təmin etmək səylərinə mane olurdu. Hazırda ABŞ və ÇXR də daxil olmaqla, bütün böyük dövlətlər Hindistanın regional iqtisadi inteqrasiyanı inkişaf etdirmək səylərini dəstəkləyir. Bununla belə, Kəşmirlə bağlı Hindistan-Pakistan münaqişəsinin həlli üçün xarici şərait heç vaxt indiki qədər əlverişli olmamışdır.

4.2.1. Minillik ənənələrə malik ölkə


Hindistan dünyanın ən qədim ölkələrini təmsil edir. Təxminən 200 il ingilis müstəmləkəçilərinin hakimiyyəti altında olmuş Hindistan xalqı bu müddətdə öz azadlığı uğrunda əzmlə mübarizə aparmışdır. Bu dövrün ən əlamətdar hadisələri 1857-59-cu illərin xalq üsyanı (sipahilər üsyanı), *M.Qandi* və *C.Nehru* başda olmaqla milli azadlıq hərəkatı (1918-22, 1928-33 və 1942-ci illər) və 1946-cı ildə hindli hərbi dənizçilərin üsyanı olmuşdur. 1947-ci il avqustun 15-də Hindistan dominion statusu əldə edərək müstəqilliyə nail olmuşdur. 1950-ci il yanvarın 26-da ölkə respublika elan edilmiş və rəsmən Hindistan Respublikası adlanmışdır. Ərazisinə (3,3 mln. kv.km) görə dünyada yeddinci yeri, əhalisinin sayına (1 212 641 000 nəfər) görə dünyada ikinci yeri tutan Hindistan əhalisinə görə dünyada ən böyük demokratik ölkədir.

Hindistan qərbdə Pakistanla, şimal-şərqdə Çin, Nepal və Butanla, şərqdə Banqladeş və Myanma (Birma) ilə həmsərhəddir. Bundan əlavə, Hindistanın cənub-qərbdə Maldiv adaları, cənubda Şri-Lanka və cənub-şərqdə İndoneziya ilə dəniz sərhədləri var. Mübahisəli Cammu və Kəşmir ştatının ərazisi isə Əfqanıstanla həmsərhəddir.

Hindistan Millətlər Birliyinin tərkibində federativ respublikadır. 1950-ci il Konstitusiyasına əsasən dövlət başçısı Prezidentdir; o, parlamentin hər iki palatasının və ştatların qanunverici məclislərinin seçkili üzvlərindən ibarət seçicilər kollegiyası tərəfindən 5 il müddətinə seçilir. Qanunverici hakimiyyət Prezidentdən və iki palatadan (Ştatlar şurası və Xalq palatası) ibarət parlamentə məxsusdur. İcra hakimiyyəti Prezidentə və hökumətə məxsusdur. Hökumət Xalq palatası qarşısında məsuldur.

Hindistan müstəqillik əldə etdikdən bəri iqtisadi və hərbi inkişafda böyük uğurlar qazanmışdır. XX əsrin axırlarında Hindistan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf etməkdə olan iqtisadiyyatlardan birinə çevrilmişdir. ÜDM-in nominal həcminə görə Hindistan dünyada 12-ci yeri, alıcılıq qabiliyyətinin paritetinə görə isə dünyada 4-cü yeri tutur.

Xəritə 40. ***Hindistan***



Hindistan Hind çayı vadisi sivilizasiyasının və digər qədim sivilizasiyaların vətənidir. Tarixən uzun bir dövr ərzində mühüm ticarət marşrutlarının mərkəzi rolunda çıxış etmiş Hindistan öz sərvətləri və yüksək mədəniyyəti ilə bütün dünyada şöhrət tapmışdır.

Hinduizm, buddizm, siqhizm, caynizm kimi dinlər Hindistanda yaranmışdır. Eramızın birinci minilliyində zərdüştilik, iudaizm,

xristianlıq və islam dinləri də Hindistan subkontinentinə yol tapmış və regionda müxtəlif mədəniyyətlərin formalaşmasına çox böyük təsir göstərmişdir.

Ən qədim insan sivilizasiyalarından birinin zəminində meydana gəlmiş hind fəlsəfəsinin minillik ənənələri indiyə qədər mövcuddur. Hind ədəbiyyatı dünyanın ən qədim və zəngin ədəbiyyatlarındandır. Hindistanın memarlıq və təsviri sənət nümunələri Şərq və Qərb incəsənətinin qədim ənənələrini özündə yaşadır.

Eramızdan əvvəl III minillikdə Hindistan ərazisində ilk geosiyasi fikirlər və mülahizələr meydana gəlmişdir. Bu dövrdə bəhs olunan ərazidə Harappa mədəniyyəti əsasında ümumhindistan sivilizasiyası formalaşmağa başlayır. Həmin sivilizasiya e.ə. II minilliyə qədər davam edir. E.ə. II minillikdə ari tayfalarının bu əraziyə daxil olması və burada dövlət strukturu yaratması ilə qədim Hindistanın geosiyasi, mədəni və hərbi strategiyası meydana gəlir.

Bu dövlətin rəhbərlərinin geosiyasi düşüncələrini əks etdirən qədim ari mənbələri Veda mədəniyyət abidələrində saxlanmışdır. Bu abidələrdə dünya xüsusi səbətlərdə güllərin üzdüyü böyük okean kimi təsvir olunur. Tədqiqatçılar hesab edir ki, bu səbətlər və güllər mövcud planetar ərazilərin (qitələrin) əlaməti idi və hindistanlıların geocoğrafi təsəvvüründəki böyük okean və onun içərisindəki ərazilər planetin və subkontinental ərazilərin (yarımadaların) və Şimal torpaqlarının təsviri idi.

Qədim Hindistan sivilizasiyasının memarlarından biri - tarixçi, ədəbiyyatçı və digər mədəniyyət sahələrinə aid çoxsaylı ideyalar müəllifi *Arthaşastra Kautilyanın* "Dövlət idarəçiliyi elmi" kitabında (e.ə. IV əsrdə yazılmışdır) və siyasi elmlə bağlı digər əlyazmalarında çox qiymətli geosiyasi ideyalar və fikirlər əks olunmuşdur. Müəllifin səmərəli dövlət idarəçiliyi, idarəçilik və hüquq, müharibə və diplomatiya problemləri, boş torpaqların məskunlaşdırılması və yaxud istilası ilə bağlı irəli sürdüyü çoxsaylı fikirlər, o cümlədən geosiyasi düşüncələr bu gün də dünya geosiyasətçilərinin heyrətinə səbəb olur. Xüsusən onun, məskunlaşdırmanın mərkəzi hakimiyyət tərəfindən aparılması, əhalinin müvafiq torpaqlarla təmin

edilməsi, sərhədlərin və xarici aləmdən qorunma istehkamlarının qurulması və s. haqqında ideyaları dövrünün ən qabaqcıl nəzəri fikirləri hesab oluna bilər.

4.2.2. Dinc yanaşı yaşamanın prinsipləri

Xarici siyasət sahəsində Hindistan ənənəvi olaraq bloklara qoşulmama, bütün ölkələrlə dinc yanaşı yaşama və əməkdaşlıq kursu yeridir. Rusiya ilə Hindistanın sosial-siyasi quruluşlarındakı fərqlərə baxmayaraq, beynəlxalq aləmdə sülhün qorunub saxlanması və möhkəmlənməsi, xalqlar arasında dinc əməkdaşlığın inkişaf etdirilməsi sahəsində bu iki ölkənin qarşılıqlı əlaqələri uğurla inkişaf edir. Hindistan Asiya qitəsində vəziyyətin hərtərəfli normallaşdırılmasının tərəfdarıdır. Bir tərəfdən Hindistan, digər tərəfdən Banqladeş və Nepal arasında bəzi mübahisəli məsələlər artıq ötən əsrdə həll edilmişdir. Müxtəlif dövrlərdə Dehlidə və Pekində Hindistanla Çin arasında gedən danışıqlarda konkret nəticələr əldə edilməsə də, tərəflər danışıqları davam etdirmək barədə razılığa gəlmişlər.

Hindistan hökuməti qətiyyətlə beynəlxalq vəziyyətin kəskinləşməsinə qarşı, sülh və gərginliyin azaldılması tərəfdarı kimi çıxış edir. Bloklara Qoşulmama Hərəkatının fəal üzvü kimi Hindistan Yaxın Şərqdə vəziyyətin normallaşdırılması, bölgədə müharibələrə son qoyulması barədə konkret təkliflər vermiş, Hind okeanının sülh zonasına çevrilməsi və Hind okeanına dair beynəlxalq konfransın tezliklə keçirilməsi təklifini yenidən irəli sürmüşdür.

1947-ci ildə müstəqillik əldə etdikdən sonra Hindistan dünyanın əksər ölkələri ilə dostluq münasibətləri saxlayır. 1950-ci illərdə Hindistan Afrika və Asiyada Avropa müstəmləkələrinin müstəqilliyi uğrunda çıxış edərək beynəlxalq aləmdə mühüm rol oynamışdır. 1987-1990-cı illərdə Hindistan ordusu qonşu ölkələrdə - Şri-Lankada iki qısamüddətli sülhyaratma missiyası və Maldiv adalarında "Kaktus" əməliyyatı adlı əməliyyat keçirmişdir. Hindistan Millətlər Birliyinin üzvü və Bloklara Qoşulmama Hərəkatının təsisçi üzvüdür. 1962-ci ilin payızında Çin-Hindistan sərhəd müharibəsindən və 1965-ci ilin avqust-sentyabr aylarında ikinci Hindis-

tan-Pakistan müharibəsindən sonra Hindistan ABŞ ilə əlaqələri kəsmək bahasına Sovet İttifaqı ilə xeyli yaxınlaşmış və "soyuq müharibə" başa çatana qədər bu siyasəti davam etdirmişdir. Mübahisəli Kəşmir ərazisi ilə əlaqədar Pakistanla Hindistan arasında üç hərbi münaqişə baş vermişdir. Bundan əlavə, bu iki ölkə arasında 1984-cü ildə Siaçen buzlağı ilə əlaqədar toqquşma və 1999-cu il Karqil münaqişəsi baş vermişdir.

Son illərdə Hindistan Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiasiyasında[1] *(ing. Association of South East Asian Nations - ASEAN),* Regional Əməkdaşlıq üzrə Cənubi Asiya Assosiasiyasında[2] *(ing. South Asian Association for Regional Cooperation - SAARC)* və Dünya Ticarət Təşkilatında mühüm rol oynamaqda davam edir. Hindistan Birləşmiş Millətlər Təşkilatının təsisçi üzvlərindən biri və bu təşkilatın sülhyaratma missiyalarının fəal iştirakçısıdır. Dünyanın dörd qitəsində sülhün qorunması üçün BMT tərəfindən aparılmış 35 əməliyyatda 55.000-dən çox hind əsgəri iştirak etmişdir. Müxtəlif tənqidlərə və hərbi sanksiyalara məruz qalmasına baxmayaraq, Hindistan Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Edilməsi haqqında Müqaviləni və Nüvə Silahının Yayılmaması haqqında Müqaviləni imzalamaqdan daim imtina edir, nüvə proqramları üzərində tam nəzarəti saxlamağı, milli raket-nüvə çəkindirmə potensialını inkişaf etdirməyi üstün tutur. Son dövrlərdə Hindistan hökuməti xarici siyasət sahəsində ABŞ, Çin və Pakistanla qarşılıqlı münasibətləri yaxşılaşdırmağa səy göstərir. İqtisadi sahədə Hindistan Cənubi Amerika, Asiya və Afrikanın inkişaf etməkdə olan ölkələri ilə yaxın münasibətlər saxlayır.

Qlobal maraqlara malik olan və dinamik inkişaf edən, dünyada baş verən proseslərə təsir göstərmək üçün mühüm amillərə malik olan böyük dövlət kimi, Hindistan tədricən öz beynəlxalq mövqe-

[1] Subregional siyasi-iqtisadi təşkilat; Bruney, İndoneziya, Malayziya, Sinqapur, Tailand, Filippin, Vyetnam, Kamboca, Laos və Myanmanı öz tərkibində birləşdirir. Assosiasiya 9 avqust 1967-ci ildə Banqkokda təsis edilib.

[2] 1985-ci ildə yaradılıb. Hazırda 8 bölgə ölkəsini: Banqladeş, Butan, Əfqanıstan, Hindistan, Maldiv Respublikası, Nepal, Pakistan və Şri-Lankanı özündə birləşdirir.

lərini gücləndirir. 2004-cü ilin mayında hakimiyyətə gəlmiş Birləşmiş Mütərəqqi Alyans (BMA) hökuməti ölkənin xarici siyasətində çeviklik və praqmatizm meyillərini möhkəmlətməyə çalışır, bloklara qoşulmama, kollektiv təhlükəsizlik və demokratik çoxqütblü dünya nizamı prinsiplərinə sadiqliyini əzmlə davam etdirir, BMT-nin mərkəzi əlaqələndirici rol oynaması şərtilə beynəlxalq hüquq mexanizmlərinin və təsisatlarının nüfuzunu və həyat qabiliyyətini dəstəkləyir.

Son vaxtlar Dehli qloballaşma problemlərinə və onları müşayiət edən yeni təhdid və çağırışlara birgə cavablar axtarışı istiqamətində təşəbbüskar addımlar atır. Beynəlxalq məsələlərdə özbaşınalığın və birtərəfli hərəkətlərin təhlükəli olmasını dərk edən Hindistan böhranlı vəziyyətlərin siyasi-diplomatik metodlar əsasında tənzimlənməsinə çoxtərəfli yanaşmaları dəstəkləyir, BMT-nin marginallaşma cəhdlərinə qətiyyətlə müqavimət göstərir, ardıcıl olaraq BMT-də islahatlar keçirilməsinə tərəfdar olduğunu bildirir və bununla bərabər, BMT Təhlükəsizlik Şurasının tamhüquqlu daimi üzvünə çevrilmək iddiasını da gizlətmir.

Son vaxtlar xarici siyasətdə iqtisadi diplomatiya rıçaqlarından getdikcə tez-tez istifadə edən Dehli Asiya məkanında bir sıra mühüm inteqrasiya proseslərində iştirak etməyə maraq göstərir.

Beynəlxalq terrorizmə qarşı mübarizə Hindistanın xarici siyasətinin ən mühüm prioritetləri sırasına aid edilmişdir. Hindistanın terrorizmə münasibətdə ikili standartları, bunu azadlıq mübarizəsi motivləri ilə əsaslandırmaq cəhdlərini fəal pisləməsi, terror təhlükəsinə qarşı mübarizənin beynəlxalq hüquqi əsaslarının möhkəmlənməsinə sadiqlik nümayiş etdirməsi onun qlobal antiterror koalisiyasının fəal və nüfuzlu üzvünə çevrilməsinə səbəb olmuşdur. Hindistanın əcnəbi tərəfdaşlarla qarşılıqlı fəaliyyəti, əsasən, birgə işçi qruplar formatında həyata keçirilir.

Cənubi Asiya ölkələri ilə münasibətlər Hindistanın xarici siyasətində mühüm yer tutur. 2004-cü ilin yanvarında Hindistanın Baş naziri *A.B.Vacpai* və Pakistan Prezidenti *P.Müşərrəf* Kəşmir məsələsi də daxil olmaqla iki ölkə arasında bütün mübahisəli problem-

lərin həllinə yönəlmiş kompleks dialoq təşəbbüsü ilə çıxış etmişlər. 2004-cü ilin sentyabrında Hindistanın Baş naziri *M.Sinqh* ilə Pakistan Prezidenti *P.Müşərrəfin* görüşü hər iki tərəfin dinc dialoq prosesinin davam etdirilməsi və etimad tədbirlərinin praktikada həyata keçirilməsi əzmini daha da möhkəmlətməyə imkan vermişdir. Bununla bərabər, Dehli Cammu və Kəşmirdə transsərhəd terrorizminə tamamilə son qoyulmasını, eləcə də Pakistanın nəzarəti altında olan ərazilərdə yaraqlıların hazırlanması üzrə düşərgələrin ləğv olunmasını israrla tələb edir, bu məsələləri ikitərəfli danışıqların uğurla nəticələnməsinin başlıca və zəruri şərtləri hesab edir.

Hindistan Cənubi Asiyanın kiçik dövlətləri ilə əməkdaşlığın fəallaşdırılması məsələsini daim diqqət mərkəzində saxlayır. Nepal Krallığında siyasi vəziyyətin qeyri-sabitliyinin aradan qaldırılması, Butan Krallığının cənubunda ekstremist qruplaşma düşərgələrinin ləğv edilməsi, Şri-Lankada siyasi vəziyyətin normallaşdırılması, Banqladeşdən qeyri-qanuni immiqrasiya probleminin tənzimlənməsinə dair Dəkkə ilə konstruktiv dialoqun tənzimlənməsi və transsərhəd terrorizminə qarşı mübarizə məsələlərinin həlli Hindistan siyasətində prioritet yer tutur. Dehli SAARC və Benqal Körfəzi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı[1] *(ing. Bangladesh India Myanmar Sri Lanka Thailand Economic Cooperation (BIMSTEC))* kimi regional inteqrasiya strukturları çərçivəsində təşəbbüskar mövqe tutmağa çalışır.

Hindistan-ABŞ münasibətləri dinamik inkişaf edir. İkitərəfli münasibətlərin bütün spektri üzrə mübadilələr fəallaşır. Hindistan Amerikanın müdafiə texnologiyalarından daha geniş istifadə etməkdə maraqlıdır. Vaşinqtonun və Dehlinin strateji tərəfdaşlıq istiqamətində növbəti addımlar atılması barədə təşəbbüsü nüvə energetikasından mülki məqsədlər üçün istifadə edilməsi sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi, kosmosun dinc məqsədlərlə öyrənilməsi və yüksək texnoloji məhsullar ticarəti məsələlərini nəzərdə tutur. Bu təşəbbüsün həyata keçirilməsi çərçivəsində

[1] 1997-ci ildən fəaliyyət göstərir.

ABŞ-ın Hindistana münasibətdə ixraca nəzarət rejiminin tədricən liberallaşdırılması istiqamətində müəyyən irəliləyişlər nəzərə çarpır. Hərbi-texniki əməkdaşlıq, təhlükəsizlik və terrorizmə qarşı mübarizə sahələrində qarşılıqlı əlaqələrin infrastrukturu formalaşır. Praqmatizm mülahizələrini rəhbər tutan Birləşmiş Mütərəqqi Alyans hökuməti xarici siyasətin prinsipial əhəmiyyətli məsələlərində Vaşinqtona güzəştə getməyə meyil etmir.

Hindistan Böyük Britaniya, Almaniya, Yaponiya və Fransa ilə qarşılıqlı münasibətlərdə öz iqtisadi mənafelərini əsas götürür, eyni zamanda, Cənubi Asiyada regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi məsələlərinin həlli üçün bu ölkələrin diplomatik resurslarını cəlb etməyə çalışır.

Dehli Əfqanıstanın sosial-iqtisadi və hərbi-siyasi reabilitasiyasında mühüm rol oynamaq və orada öz təsirini gücləndirmək iddiasındadır. Bu halda o, öz ənənəvi tərəfdaşları ilə sıx qarşılıqlı əlaqələri daha da gücləndirməyə çalışır.

Hindistanın öz enerji təhlükəsizliyinin təmin edilməsi perspektivləri Mərkəzi Asiya ilə Dehlini bağlayır. Bu regionda Hindistanın siyasəti nəzərəçarpacaq dərəcədə fəallaşmışdır. Hindistanın Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəaliyyətinə marağı artır.

Hindistan-Çin münasibətləri mehriban qonşuluq və praqmatik tərəfdaşlıq prinsipləri əsasında qurulur. Bu münasibətlərdə davamlı pozitiv dinamika yaranmışdır. Yüksək səviyyədə müntəzəm əlaqələr qarşılıqlı etimadın artmasına kömək edir, ikitərəfli münasibətlərdə üst-üstə yığılmış problemlərin, o cümlədən sərhəd nizamlanması məsələlərinin həlli üçün yeni siyasi şərait yaradır. Sərhəd məsələlərinə dair xüsusi nümayəndələr səviyyəsində danışıqlar mexanizmi işə salınmışdır.

Müxtəlif sahələrdə ikitərəfli Rusiya-Hindistan əməkdaşlığının inkişaf səviyyəsi Dehlini qane edir. Bu əməkdaşlığın əsasını təşkil edən qarşılıqlı siyasi-iqtisadi maraqlar iki ölkənin strateji tərəfdaşlığının hərtərəfli genişləndirilməsi və möhkəmləndirilməsi üçün onların qarşısında duran məsələləri uğurla həll etməyə imkan verir. Hindistanın xarici siyasi əlaqələrinin şaxələndirilməsi meyili

ilə yanaşı, müasir dövrdə böyük dövlətlər arasında bu ölkənin elə bir tərəfdaşı yoxdur ki, Hindistanın həmin dövlətlə münasibətləri qarşılıqlı əlaqələrin etimad dərəcəsinə və keyfiyyətinə görə onun Rusiya ilə münasibətlərinə bərabər tutula bilsin.

Hindistan üçtərəfli Rusiya-Hindistan-Çin qarşılıqlı fəaliyyətində həvəslə iştirak edir, qlobal və regional gündəlikdəki məsələlərə oriyentasiya etməklə bu əlaqələrin praktiki səmərəliliyinə üstünlük verir. Yada salaq ki, 1998-ci ilin dekabr ayında Rusiya hökumətinin ovaxtkı sədri *Y.Primakov* Moskva-Dehli-Pekin "strateji üçbucağı" yaratmaq təşəbbüsü ilə çıxış etmişdi. Rusiya tərəfinin fikrincə, bu ittifaq, sadəcə, üç ən iri qeyri-Qərb dövlətinin hərbi-siyasi alyansı deyil, yeni, çoxqütblü dünyanın "təməl daşı" olmalı idi. Onun hər bir "bucağı", öz növbəsində planetin başqa dövlətləri ilə çoxsaylı analoji "çoxüzlü" münasibətlərlə bağlı olmalı idi. Rusiyanın qəti inamına görə (Hindistan və Çin də bu fikrə şərik idi), yeni çoxqütblü dünyada əsas rolu hegemon fövqəldövlət deyil, dünya birliyinin bütün üzvlərinin mənafelərini nəzərə alan münsif - demokratik beynəlxalq təşkilat olan BMT oynamalıdır [Mehdiyev, 2008, səh. 271]. Lakin Kremlin bu təklifi həyata vəsiqə ala bilmədi, yalnız təhlilçilərin təfəkküründə və bəzi siyasətçilərin baxışlarında qaldı. Aydındır ki, "Hindistan, Çin və Rusiya istər mədəni-sivilizasiya baxımından, istərsə də iqtisadi baxımdan vahid konqlomerat təşkil etmir və təşkil edə bilməz" *[Ефремова]*.

"Yeni Şərq siyasəti" deyilən siyasət çərçivəsində Dehli Hindistan-ASEAN sərbəst ticarət zonası yaradılması perspektivi baxımından ASEAN ölkələri ilə strateji yaxınlaşma oriyentasiyasını həyata keçirir. 2002-ci ildən başlayaraq Hindistan-ASEAN formatında müntəzəm sammitlər keçirilir. Dehli ASEAN regional forumunun fəal iştirakçısıdır.

Hindistan hökuməti Fələstin xalqının öz dövlətini yaratmaq hüququnun gerçəkləşdirilməsinin tərəfdarı kimi, Yaxın Şərqdə tarazlaşdırılmış siyasi kurs həyata keçirməyə çalışır, İsraillə tərəfdaşlıq münasibətləri saxlayır, Yaxın Şərq böhranının beynəlxalq vasitəçi-

lər "dördlüyünün" işləyib hazırladığı plana müvafiq olaraq tənzimlənməsinə tərəfdar çıxır.

Hindistan, həmçinin İraqda vəziyyətin tənzimlənməsində və onun suverenliyinin tezliklə bərpa edilməsində BMT-nin öncül rolunu ardıcıl dəstəkləyir, bu ölkədə öz iqtisadi iştirakını möhkəmlətməkdə marağı olmasını nümayiş etdirir.


4.3. Əfqanıstan-Pakistan: çağırışlar və təhlükələr

1978-ci ildə Əfqanıstanın başçısı *Məhəmməd Davud* öldürülür (XX əsrdə bu ölkənin on hökmdarından yeddisi qətlə yetirilmiş, üçü isə ölkədən çıxıb gedərək öz əcəli ilə ölmüşdür). Hakimiyyətə gəlmiş rejimi müdafiə etmək üçün 1979-cu ildə ölkəyə sovet qoşunları yeridilir. Müxtəlif yerli qruplaşmalar arasında daxili ədavət daha da şiddətlənir. O vaxtdan bəri Əfqanıstanda müharibə demək olar ki, səngimir. 80-ci illərin axırlarında Pakistan da vətəndaş müharibəsinə qoşuldu.[1] Bu islam respublikasının hərbi-siyasi rəhbərliyi 80-ci illərin axırlarında Mərkəzi və Cənubi Asiyada öz liderliyini möhkəmlətmək arzusu ilə Pakistanda və Əfqanıstanda puştun icmasına çox güclü təsiri olan təşkilatların köməyi ilə əfqan qaçqınları düşərgələrində hərb elmini öyrənməyə qabil olan və dini bayraq altında Əfqanıstanın azad edilməsi uğrunda döyüşmək istəyən

[1] 1893-cü ildə Böyük Britaniya onun nəzarəti altında olan puştundilli rayonları Əfqanıstandan ayıran Dürand xətti (Britaniyanın Hindistanda müstəmləkə administrasiyasının xarici işlər katibi ser *H.M.Dürandın* adı ilə adlandırılıb) boyunca sərhəd çəkmişdir. Lakin Kabil hökuməti Dürand xəttini heç vaxt rəsmi dövlət sərhədi kimi qəbul etməmişdir. Kabil əvvəlcə 1950-ci illərdə, sonra isə 1970-ci illərdə şimal-qərbi sərhəd əyalətində puştunların separatçı səylərini təqdir etməyə çalışmış, hətta Puştunistan adlı dövlət yaratmaq təklifi ilə çıxış etmişdir. Lakin Əfqanıstan özü bir zəif qonşu kimi Pakistanı ciddi narahat etmirdi. 1978-ci ildə mühafizəkar islamçıların Əfqanıstanda yeni, solçu baxışlara üstünlük verən hökumətə qarşı çıxışları və 1979-cu ildə sovet ordusunun bu ölkəyə daxil olması nəticəsində vəziyyət əsaslı şəkildə dəyişdi. Bir neçə ildə Əfqanıstandan Pakistana üç milyon qaçqın gəlmişdir. Ən başlıca məsələ isə ondan ibarət idi ki, Əfqanıstan Hindistanın potensial müttəfiqi kimi Pakistanın təhlükəsizliyi üçün real qorxu mənbəyinə çevrilə bilərdi. Buna görə də 1980-ci illərdə əfqan qiyamçıları Pakistan ərazisində etibarlı sığınacaq və öz hərbi düşərgələrini yaratmaq imkanı əldə etmişdir. ABŞ-dan və Səudiyyə Ərəbistanından buraya mücahidlər üçün silahlar Pakistandan daxil olurdu. Pakistanın özünə də hərbi yardım göstərilirdi. 1988-1989-cu illərdə sovet hərbi kontingenti Əfqanıstandan çıxarılandan sonra müqavimət hərəkatı döyüşçüləri vətəndaş müharibəsinə başladılar. Qonşu Pakistan bu müharibəyə son qoymaq və düşmən qruplaşmalar arasında barışığa nail olmaq üçün səylərini səfərbər edir.

adamları seçmişdi. Həmin dövrdə ölkədə sovet qoşunları yox idi, buna görə də vəhhabilərin məqsədi ilk dövrdə etnik tacikləri, özbəkləri və xəzəriləri Əfqanıstan rəhbərliyindən qovmaq idi. Bu məsələdə sonralar taliblər mühüm rol oynadılar.

Xəritə 41. ***Əfqanıstan və Pakistan***



Taliblər ilk andan etibarən öz hakimiyyət strukturlarını yaradır və hakimiyyəti heç kimlə bölüşdürmək haqqında düşünmək belə istəmirdilər. Onlar azad etdikləri rayonlarda özlərinin islam "qaydaları"nı yaradırlar: qızların təhsil alması, qadınların işləməsi qadağan edilir, nəticədə dul qadınlar acından ölmək həddinə çatırlar; əhali gündə beş dəfə namaz qılmağa məcbur edilir, kişilər saqqallarını uzatmalı, qadınlar şəriət qanunları üzrə geyinməlidirlər və s. Bu tədbirlərin çoxu antitalib əhval-ruhiyyənin güclənməsinə səbəb

olur, rejimin yaraqlı əleyhdarları isə dərhal bu vəziyyətdən istifadə etməyə başlayırlar. 1997-ci ilin yayında onlar Kabula hücum edirlər. Qanlı döyüşlər nəticəsində taliblərdən bir neçə min nəfəri ələ keçirilir.

Pakistan beş qonşu ölkənin - İran, Pakistan, Tacikistan, Özbəkistan və Türkmənistanın nümayəndələrinin iştirakı ilə Əfqanıstana dair regional konfrans keçirilməsi təşəbbüsü ilə çıxış etməyə məcbur olur. Lakin döyüşən tərəflər arasında ciddi fikir ayrılıqları ucbatından danışıqların nəticəsi çox cüzi olur və vətəndaş müharibəsi, tərəflərin qüvvələr nisbəti tez-tez dəyişməklə, hələ də davam edir. Əfqanıstan-Pakistan oxu boyunca yaranmış geosiyasi problemlərin həllində Əfqanıstanın bütün etnik qrupları arasında ən çoxsaylı tayfa olan puştun tayfaları üstün mövqeyə malikdirlər. Puştunlar tarixən müstəmləkəçilərlə mübarizədə, dövlət yaradılmasında çox mühüm rol oynamışlar və indi də belədir.

Taliban rejimi devrilməndən sonra beynəlxalq birlik Əfqanıstan iqtisadiyyatının bərpa olunmasında və başqa məsələlərin həllində (terrorizm qalıqlarının ləğv edilməsi, təhlükəsizliyin təmin edilməsi, milli silahlı qüvvələr yaradılması, qadınların emansipasiyası uğrunda mübarizə, narkobiznesə, işsizliyə qarşı mübarizə və s.) ona kömək etmək barədə razılığa gəlmişdir. Əfqanıstan hadisələrində dünya birliyinin bu cür geniş miqyasda iştirak etməsi onun daxili və xarici siyasi vəziyyətinə təsir göstərməyə bilməzdi. Beynəlxalq birliyin bu ölkədə geniş miqyasda iştirak etməsi şəraitində onun daxili və xarici siyasəti əcnəbi iştirakçılar tərəfindən müəyyən təsirə məruz qalır. Həmin iştirakçıların çoxu, ilk növbədə, Əfqanıstanın qonşuları burada öz nüfuz dairəsini yaratmaq istəyi ilə çox vaxt rəqiblər kimi çıxış edir, bu isə Əfqanıstanın daxili və xarici vəziyyətinin sabitləşdirilməsinə yönəlmiş səyləri zəiflədir.

Pakistan Asiyanın böyük dövlətlərindən biridir. Pakistan qərbdə İranla, şərqdə Hindistanla, şimalda və şimal-qərbdə Əfqanıstanla həmsərhəddir. Ölkənin cənub sərhədi Hind okeanının Ərəbistan dənizi sahilləri boyunca keçir. Bundan əlavə, Pakistan qoşunları

1949-cu ildən Kəşmirin bir hissəsini tutmuşdur. Bu ərazi cənubda Hindistanın nəzarətində olan Cammu və Kəşmir ştatı ilə, şərqdə isə Çinlə həmsərhəddir. Buna görə də de-fakto Pakistan Çinin Sinszyan-Uyğur muxtar rayonu ilə ümumi sərhədə malikdir və Əfqanıstanı Hindistandan ayırır.

1947-ci ildə Pakistan BMT-yə qəbul edilmiş və elə həmin ildə Britaniya Millətlər Birliyinin üzvü olmuşdur. 1972-ci ildə Böyük Britaniya və Millətlər Birliyinin üzvü olan digər ölkələr Banqladeşin müstəqilliyini tanıyanda Pakistan Birliyin tərkibindən çıxmış və yalnız 1989-cu ildə yenidən oraya qayıtmışdır. Pakistanın xarici siyasəti, ilk növbədə, onun qonşu Hindistan və Əfqanıstanla münasibətləri ilə müəyyən edilir. Bu, hətta fövqəldövlətlərlə diplomatik əlaqələrin xarakterində də öz əksini tapmışdır. Pakistan 1970-ci ildən İslam Əməkdaşlıq Təşkilatının, 1979-cu ildən Bloklara Qoşulmama Hərəkatının, 1985-ci ildən Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyasının, habelə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvüdür.

Bu ölkə dünyada özünün inkişaf sürəti və siyasi çəkisi ilə seçilir. Pakistanın nüvə silahına malik olması onu mühüm dövlətlər sırasına keçirmiş, islam dünyası ilə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi və dərinləşdirilməsini xarici siyasətin əsas prioriteti kimi müəyyən etmişdir. Pakistan İslam Əməkdaşlıq Təşkilatının işində çox fəal mövqe tutur. İslamabad *Enlightened Moderation* - islam dünyasında elmin, təhsilin, mədəniyyətin və mənəviyyatın rolunun artırılmasına yönəlmiş maarifçi modernləşmə təşəbbüsü ilə çıxış etmişdir (2002) [bu barədə *bax:* Musharraf, 2004].

Hazırda Pakistan dünya səhnəsinə Qərbin coğrafi hüdudlarından kənarda yerləşən, çox geniş əraziyə, iqtisadiyyata, tərəqqi etməkdə olan mədəniyyətə, əhəmiyyətli etnik və dini müxtəlifliyi ilə fərqlənən əhaliyə malik olan demokratik ölkə kimi çıxır. Yüksəlməkdə olan Pakistanın Asiyada aparıcı aktora çevrilmək və qarşıdakı onilliklərdə böyük siyasi mübarizələrdə mühüm rol oynamaq üçün potensial imkanı vardır.

Pakistanın beynəlxalq münasibətlərində ABŞ-la əlaqələr mühüm yer tutur. Pakistanın coğrafi mövqeyi - Mərkəzi və Cənub-Qərbi Asiya, həmçinin Körfəz bölgəsi ilə yaxınlığı, xüsusilə İran və Çinlə sərhəddə yerləşməsi ABŞ-ın diqqətini cəlb edir. Son illər ABŞ-ın xarici siyasətində Pakistan məsələsi xüsusi aktuallıq kəsb etməyə başlamışdır. Bu, ilk növbədə, Pakistanın nüvə proqramı və onun taleyi ilə bağlıdır. ABŞ-ın bu regionda daim iqtisadi və strateji maraqları olmuşdur. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra Əfqanıstanda Taliban rejiminə və Əl-Qaidə təşkilatına qarşı müharibədə və ondan sonra terrorçuların Pakistan ərazisində həbs edilməsində Pakistanın dəstəyi olmadan ABŞ-ın tez bir zamanda uğurla öz istəyinə nail olması mümkün deyildi və Amerika hökuməti bunu yaxşı anladığı üçün Pakistanla sıx əlaqələr yaratmağa başlamışdı. Pakistanın terrora qarşı mübarizəyə qoşulması ABŞ tərəfindən qiymətləndirilmiş və İslamabada 5 il müddətinə 3 milyard dollar yardım ayrılmışdır.

Pakistan regionun nəhəng dövlətlərindən olan Çinlə sıx əməkdaşlıq edir. İki ölkə arasında tarixi dostluq əlaqələri mövcuddur. Bu əlaqələrin səviyyəsi "Himalay zirvəsi qədər uca və Ərəb dənizi kimi dərin" adlandırılır. Pakistan-Çin müttəfiqlik münasibətlərinin inkişafı ötən əsrin 60-cı illərindən başlayır. Çin Pakistanı əksər sahələrdə, xüsusilə Kəşmir məsələsində müdafiə edir. Pakistan da öz növbəsində həmişə mühüm məsələlərdə, xüsusilə insan hüquqları, Honkonq (Syanqan), Tayvan və Tibet məsələlərində Çinin mövqeyini dəstəkləyir. İki ölkə arasında enerji, telekommunikasiya, hidroelektrik stansiyalarının inşası, müdafiə sənayesi və kənd təsərrüfatı sahələrində əlaqələr gündən-günə inkişaf etməkdədir.

Pakistanla Hindistan arasında mövcud mübahisəli Kəşmir problemi iki ölkənin münasibətlərində mürəkkəb məsələ kimi qalmaqda davam edir. Pakistanın Kəşmir məsələsinə dair mövqeyi ondan ibarətdir ki, rəsmi İslamabad məsələnin BMT tərəfindən qəbul edilmiş qətnamə əsasında öhdəliklərə uyğun olaraq həll edilməsini istəyir. Pakistan BMT-nin problemin həllində tərəf kimi tanın-

masını bəyan edir və qonşu Hindistanı kəşmirlilərin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə əsasən öz müqəddəratını təyinetmə hüquqlarını tanımağa çağırır. İslamabad daim Kəşmirə mənəvi və diplomatik yardım edir və gələcəkdə də bu köməyi davam etdirmək niyyətindədir. Digər tərəfdən, Hindistan Kəşmir problemini özünün daxili məsələsi kimi qələmə verərək, Kəşmir məsələsində vasitəçilərin rolunu qəti şəkildə rədd edir. Eyni zamanda, Pakistan Kəşmir məsələsinin həllində BMT-nin qətnamələrinə uyğun olaraq, referendumun keçirilməsi ilə bağlı tutduğu mövqeyinin dəyişməyəcəyini bildirir.


"Soyuq müharibə" dövründə SSRİ-nin Hindistanla daha yaxşı münasibətləri vardı. Beynəlxalq təşkilatlarda müzakirə olunan məsələlərdə SSRİ ilə Hindistanın fikirləri həmişə üst-üstə düşürdü. Kəşmir məsələsində də SSRİ Hindistanı dəstəkləyir, bu məsələnin harada, hansı beynəlxalq təşkilatda müzakirəsindən asılı olmayaraq onu müdafiə edirdi. SSRİ-nin dağılması bir çox sahələrdə olduğu kimi, Rusiya ilə Pakistan arasında da köklü dəyişikliklər yaratmışdır. Pakistanın regionda və islam dünyasında çəkisini nəzərə alan Rusiya üçün Pakistan ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir.

Əfqanıstanın ərazi bütövlüyü və suverenliyinə hörmət prinsipi Pakistanın xarici siyasətinin mühüm istiqamətlərindəndir. Bu ölkə Əfqanıstanın sülh və sabitlik şəraitində yaşamasına tərəfdar olduğunu dəfələrlə bəyan etmişdir. Pakistan Əfqanıstanın inkişafında çox maraqlıdır və bu ölkəyə bərpa işləri üçün milyonlarla dollar həcmində maliyyə vəsaiti ayırmışdır. Pakistan, eyni zamanda, minlərlə əfqan qaçqınını öz ərazisində yerləşdirmişdir. Pakistan-Əfqanıstan münasibətlərinin normal məcrada davam etdirilməsi məqsədilə hər iki ölkə rəsmiləri qarşılıqlı təmaslar qururlar.

4.4. Çinin geostrateji doktrinası

Çin Mərkəzi və Şərqi Asiyada yerləşir. Şimaldan Rusiya və Monqolustan, qərbdən və cənubdan Qazaxıstan, Qırğızıstan, Tacikistan, Əfqanıstan, Pakistan, Hindistan, Nepal, Butan, Myanma,

Xəritə 42. ***Çin***



Laos və Vyetnam, şərqdən KXDR ilə həmsərhəddir. Şərqdə Sakit okeanın Sarı, Şərqi Çin və Cənubi Çin dənizləri ilə əhatələnir. Çin ərazisinin sahəsinə görə Rusiya, Kanada və ABŞ-dan sonra dünyada 4-cü yerdədir. Sahəsi 9,6 mln. kvadratkilometr, quru sərhədlərinin uzunluğu təqribən 20 min kilometr, sahil xəttinin (adalarla) uzunluğu 21 min kilometrdir. Çin ərazisinə 3200-dən çox ada (ən böyükləri: Tayvan və Haynan) daxildir. Əhalisinin sayına görə Çin dünyada birinci yerdədir. Əhalisi təqribən 1,3 milyard nəfərdir. İnzibati cəhətdən 23 əyalətə, 5 muxtar rayona və mərkəz tabeliyində olan 4 şəhərə (Pekin, Şanxay, Tyantszin, Konqcinq) bölünür.

Çin xalq respublikasıdır. 1982-ci il Konstitusiyası qüvvədədir. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri

Məclisidir (ÜXNM); o, qanunvericilik hakimiyyətini həyata keçirir. Səlahiyyət müddəti 5 ildir. ÜXNM 5 il müddətinə ÇXR Sədrini və onun müavinini seçir, sessiyalararası dövrdə onun Daimi Komitəsi fəaliyyət göstərir. İcra hakimiyyəti Dövlət Şurasına (mərkəzi xalq hökuməti) məxsusdur, Dövlət Şurası ÜXNM qarşısında məsuldur və ona hesabat verir; səlahiyyət müddəti 5 ildir.

Çinin geosiyasi doktrinasının məğzini *"bir ölkə - iki sistem"* prinsipi əsasında dövlətin bütün hissələrinin vahid sərhədlər daxilində birləşdirilməsi təşkil edir. Honkonq və Makaonun kontinental Çinə birləşdirilməsindən sonra həll edilməmiş qalan əsas problem Tayvan məsələsidir. Qüdrətini artırmaqda olan Çin "seçilmişlərin klubuna" - "Böyük yeddiliyə" qoşulmaqdan imtina etsə də, fövqəldövlət olmağa real namizəddir.

Çin - Böyük Çin nizamı fəlsəfəsinin əsasında Böyük sivilizasiya geosiyasətini yaratmış yeganə dövlətdir. Çin yüzilliklər boyu dövlətin və sivilizasiyanın vahid sərhədlərinin toxunulmazlığını təmin etməyə, qapılarını xarici aləmə müəyyən qədər açmaqla yanaşı, Çin mentalitet və ənənələrini yad təsirlərdən qorumağa da səy göstərmişdir.

Qədim çinlilərin geosiyasi düşüncələrinə əsasən bu ölkə "səma altında dünyanın mərkəzi" (Çin dilində "tyan") idi. Əslində, Çin adı da məhz "Orta imperiya" sözündən yaranaraq Çjunqo - Çin (Orta dövlət) sözündən meydana gəlmişdir.

4.4.1. Çinin inkişafının spesifik şəraiti


Çinin böyük dünya dövləti statusuna qədər ucalması XX əsrin son onilliyində daha aşkar müşahidə olunmuşdur. Bu ölkənin dünya geosiyasətində birinci mövqelərə çıxması beynəlxalq münasibətlərin bütün coğrafiyasını dəyişmişdir.

Çinin inkişafının spesifik şəraitini bir neçə amil təşkil edir:

- bu amillərdən ən əhəmiyyətlisi təbii ehtiyatların məhdudluğu, insan potensialının çox böyük və işçi qüvvəsinin dəyərinin aşağı olmasıdır;

- investisiyaların və cəmiyyətin həyatının iqtisadi sahəsinin inkişafının dövlət tərəfindən planlı şəkildə tənzimlənməsi;
- dinamik artan ixrac potensialının, yüksək texnologiyaların mənimsənilməsinin (ilk növbədə) planlaşdırılması;
- Avrasiyada ən iri bazar;
- hərbi qüdrətin sürətlə artırılması;
- qlobal ekoloji vəziyyətə təsirin getdikcə artması və s.

İqtisadi inkişafın yüksək sürəti[1] (XX əsrin 80-ci illərindən başlayaraq ümumi daxili məhsul hər il təqribən 10% artır. 1978-2003-cü illərdə Çində adambaşına ümumi daxili məhsul orta hesabla hər il 6,1% artmış, 25 il ərzində 337%-ə bərabər olmuşdur. (daha geniş məlumat üçün aşağıdakı **cədvəllərə** *bax*) ilə əlaqədar




Cədvəl 20. ***1952-2005-ci illərdə Çində ÜDM-in nominal ifadədə artım meyili***

(http://www.economics.harvard.edu/faculty/perkins/files/Chap20_Appendix_Ref.pdf)

Çin Xalq Respublikası ən mühüm təbii qazıntıların - kömür, dəmir və mis filizi, alüminium alınması üçün xammal, gübrələr və s. qıtlığını getdikcə daha kəskin hiss edir. Çin dəmir filizini, qara

[1] Hazırda dünyada iqtisadi artımın 16%-i Çinin payına düşür.



Cədvəl 20.1. ***1990-1998-ci və 1990-2006-cı illərdə dünyanın mühüm ölkələrində ÜDM-in artımı***

(http://www.economics.harvard.edu/faculty/perkins/files/Chap20_Appendix_Ref.pdf)

və əlvan metal qırıntılarını, gübrələri və s. məhsulları idxal etməyə məcburdur.

Çində işləyən əhalinin təqribən 40%-i kənd təsərrüfatında çalışır. Onların böyük əksəriyyəti əkinçilik və heyvandarlıq hesabına dolanır. Lakin torpaq sahələrinin qıtlığı kənddə məşğulluğun artmasını məhdudlaşdırır. Buna görə də hər il milyonlarla insan iş tapmaq üçün şəhərlərə miqrasiya edir. Şəhərlərdə rəsmi (4,3%) və gizli (fəhlə və qulluqçuların ümumi sayının 15-20%-i) işsizlik mövcuddur. Əgər ən yaxın illərdə şəhərlərə miqrasiyanın dinamikası azalmasa, şəhər oraya yeni köçüb gələnlərin bu miqdarını "həzm edə bilməyəcək". Rəsmi dairələr bu problemin müəyyən dərəcədə həllini "Böyük Çin" yaradılmasında görürlər. Mahiyyət etibarilə bu, Asiya-Sakit okean regionuna daxil olan ölkələr bazasında iqtisadi və geosiyasi inteqrasiya deməkdir. ÇXR əhalisinin həyat və fəaliyyət şəraiti Pekini XX əsrin axırlarında Çin və Tayvan, Çin və Honkonq (1997-ci ildə ÇXR-ə birləşəndən sonra Syanqan) və digər Asiya-Sakit okean regionu ölkələri arasında siyasi və


ideoloji ziddiyyətlərə göz yummağa məcbur edir. Çinin cənub qonşuları olan ölkələrlə inteqrasiyası xarici kapitalın cəlb edilməsi yolu ilə mümkündür. Son 15 ildə ÇXR bu vəsaitlərin köməyi ilə bir sıra sosial və iqtisadi problemləri yüngülləşdirmək və ya həll etmək imkanı qazanmışdır.

Dünya Bankının proqnozlarına görə, XXI əsrin birinci yarısında Honkonq (Syanqan) və Tayvanla birlikdə Çinin özəl idxalı təqribən 650 milyard dollar təşkil edəcəkdir. Müqayisə üçün: Yaponiyada bu göstərici 530 milyard dollardır. Həmin vaxtda "Böyük Çin"in ümumi daxili məhsulu 10 trilyon dollara yaxın, ABŞ-da isə müvafiq göstərici 9,7 trilyon olacaqdır. ÇXR ən iri iqtisadi qütbə çevriləcəkdir. Çinlilər özləri bəyan edirlər ki, XXI əsr Çin sivilizasiyası əsri olacaqdır. Onların fikrincə, Çin sivilizasiyası özünün əsas xarakteristikalarına görə humanist sivilizasiya olacaq, başqa sivilizasiyaları üstələyəcək, bu isə XXI əsrdə Çinin təntənəsini təmin edəcəkdir.

Əlbəttə, Çin artıq geosiyasi meydanların və qüvvələrin inkişafının əsas vektorlarını müəyyən edən dövlətlər sırasına daxildir.

ÇXR-in hərbi sahədə uğurları böyükdür. Hərbi xərclərin miqyasına görə Çin dünyada ABŞ, Rusiya və Yaponiyadan sonra dördüncü yerə çıxmışdır. XX əsrin axırlarında təkcə Sinszyan qoşun qruplaşması öz döyüş potensialına və səfərbərlik imkanlarına görə müstəqil Qazaxıstan dövlətinin silahlı qüvvələrindən üstün olmuşdur. XXI əsrdə Çin güclü iqtisadi potensiala malik olan nüvə fövqəldövlətinə çevriləcəkdir.

Bir sıra ekspertlər vurğulayır ki, XXI əsrin əvvəllərində, Çinin iki hərbi-siyasi blok arasında keçən əsrin 60-80-ci illərində oynadığı özünəməxsus tarazlayıcı rolu azalmışdır. Həmin bloklardan biri dağılmış, digəri isə həlledici geosiyasi qüvvəyə çevrilmişdir. Onun qarşılığı kimi Asiya-Sakit okean regionunda çox böyük insan ehtiyatlarına və iqtisadi resurslara, gücünə görə dünyada üçüncü texnoloji və hərbi-strateji nüvə potensialına malik olan Çin başda olmaqla, yeni geosiyasi qüvvə güclənməkdədir *(bax:* ***xəritə 43****)*.



Xəritə 43. ***Çinin təsir sferalarının və ziddiyyət məkanlarının potensial cizgiləri***

↔ Potensial güc münaqişələri

▬ Çinin regional hökmranlıq zonası

▪▪▪▪ Çinin qlobal güc kimi təsir zonası

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

Çin əsrlər boyu ekspansiya və geosiyasi oyunların obyekti olmuşdur. Monqollar tərəfindən işğal ediləndən XX əsrin 30-40-cı illərində yapon ekspansiyasına qədər keçən müddətdə Çin "yatmışdır". Vaxtilə *Napoleon Bonapart* demişdir: *"Orada bir nəhəng uzanıb. Qoy yatsın. O oyananda dünyanı lərzəyə gətirəcək" [Gannes, 1937, p. 3].* XIX əsrin axırlarında ABŞ-ın sabiq dövlət katibi *C.Hey* də oxşar fikir söyləmişdir: *"Yer üzündə sülh Çinə arxalanır. Kim Çini sosial, siyasi, iqtisadi, dini baxımdan başa düşürsə, qarşıdakı beş əsrdə dünya siyasətinin açarı onun əlindədir" [Gannes, 1937, p. 3].*

Lakin bu yol Çin üçün çox əhəmiyyətli olan başqa problemləri - resurs problemlərini həll etməyə imkan vermir. Bu, kənd təsərrüfatı, şumlanan torpaqlar, dənli bitkilərin becərilməsi üçün istifadə olunan torpaqlara lazım olan su, eləcə də sənayenin və şəhərlərin əhalisinin ehtiyaclarını təmin etmək üçün içməli su ehtiyatlarına daha çox aiddir: ÇXR şəhərlərinin yarıdan çoxu içməli su çatışmazlığından əziyyət çəkir.

Şumlanan torpaqlar sarıdan vəziyyət daha pisdir. Çində əhalinin hər nəfərinə düşən şumlanan torpaq sahəsi dünya üzrə orta göstəricidən 3,3 dəfə, keçmiş SSRİ üzrə müvafiq göstəricidən 9,5 dəfə azdır. Becərilən torpaq sahələri daim şaqren dərisi kimi kiçilir, çünki yeni zavodlar, fabriklər, elektrik stansiyaları tikilir, yeni nəqliyyat magistralları çəkilir və s. Torpaq böhranı, ilk növbədə, strateji məhsul olan dənli bitkilərin həcminə təsir göstərir. Çində əhalinin hər nəfərinə düşən meşələrin sahəsi dünya üzrə orta göstəricidən təqribən 7,5 dəfə azdır. Çəmənliklər sarıdan eyni mənzərə yaranmışdır. Bu sahədə müvafiq göstəricilər dünya göstəricilərindən 3 dəfə aşağıdır. Yeni torpaqların mənimsənilməsi üçün külli məbləğdə maliyyə vəsaiti tələb olunur.

Çin öz problemlərini həll etmək üçün Avstraliya və Rusiyadan, ABŞ və Kanadadan, təbii ki, Asiya-Sakit okean regionu ölkələrindən də xammal, enerji daşıyıcıları, filiz, taxta-şalban alır.

Çin komsomolçularının "Çjunqo tsinnyan bao" qəzeti, necə deyərlər, ilk sınaq şarı ataraq bəyan etmişdir: *"9,6 milyon kvadratkilometr ərazi çinliləri daha qane edə bilməz. Zaman özü bizi... dənizlərin ucsuz-bucaqsız ərazilərinə nəzər salmağa çağırır... yalnız ucsuz-bucaqsız dənizlərin mənimsənilməsinə biganə qalmayan çinlilər gələcək nəsillərin hörmətinə layiqdir" [The China Jornal, 1995, p. 7].*

"Dövlətin mavi üfüqləri" - 3 milyon kvadratkilometrdən çox ərazi deməkdir. Bu əraziləri tutan adalarda zəngin qaz, neft və fosfor ehtiyatları var. Lakin məsələ burasındadır ki, həmin mavi ərazilərə Vyetnam, Filippin, Malayziya, Tailand və Bruney də iddia

edir. Bu problemi həll etmək üçün gənclər hərbi dəniz qüvvələrinin modernləşdirilməsini sürətləndirməyə çağırır.

ÇXR-də əsas enerji daşıyıcısı daş kömürdür. Ölkədə elektrik enerjisi sarıdan kəskin qıtlıq yaranmışdır (azı 20%). Kömürü yandırmaq ekoloji mühiti zəhərləmək deməkdir. Yaxın gələcəkdə ÇXR atmosferin hava hövzəsini çirkləndirən əsas dövlətə çevriləcək, bu isə suya tələbatın daha da artmasına gətirib çıxaracaq. Çində və dünyada atmosferin istiləşməsi son dərəcə mürəkkəb vəziyyət yaradır. Əgər istixana effektini azaltmaq nəticəsində dünya okeanının səviyyəsinin artmasının qarşısını almaq mümkün olmasa, 2050-ci ildə Çjutszyan çayının deltasında 14 şəhərin, Şərqi Çində 30 şəhərin və uyezdin tamamilə suya qərq olması təhlükəsi yaranacaqdır.

4.4.2. ÇXR-in xarici iqtisadi əlaqələri

Çin planlı iqtisadiyyatı olan sosialist ölkəsidir. Lakin bu xarici investorları çəkindirmir. ÇXR-in siyasi və iqtisadi sistemləri sabitdir və ölkəyə xarici kapital axını ilbəil artır. Buna müvafiq olaraq xarici kapitalın iştirakı ilə yaradılmış müəssisələrin sayı və investisiyaların kontrakt həcmi də artır.

Çin iqtisadiyyatına birbaşa investisiya qoyan əsas sərmayədarlar Tayvan, Syanqan və Sinqapurdur, yəni çinlilərin daha çox yaşadığı ölkələrdir. Dünyanın bütün başqa ölkələrinin işgüzar dairələrinin sərmayə qoyuluşlarının ümumi məbləğinin 60-80%-i bu sahibkarların payına düşür.

Son illərdə Tayvan ÇXR iqtisadiyyatında Honkonqdan sonra ikinci əsas investora, Honkonq Çinin geosiyasi sisteminə daxil olduqdan sonra isə ÇXR-in bir nömrəli investoruna çevrilmişdir.

Çində ixrac çox sürətlə - hər il təxminən 25-30% artır. Bunun nəticəsində 2010-cu ildə Çin dünyanın bir nömrəli ixracatçısına çevrilmişdir. 1979-cu ilə ölkənin ümumi daxili məhsulunun 10%-dən az hissəsi xarici ticarətdə formalaşırdısa, 1993-cü ildə bu göstərici təqribən 36%, 1998-ci il üçün 45%-dən çox olmuş *[Чжунго цзинцзиннянь, 1998, стр. 827-828, 840]*, son üç ildə isə 60% təşkil etmişdir *[Сайт Института Дальнего Востока Российской*

Академии Наук www.ifes-ras.ru/.../261-будущее-китая-ресщится-в-близщажещие-две-пйатилетки]. Cənub-Şərqi Asiyada böhranla əlaqədar Çin Avropa, Afrika və Latın Amerikası bazarlarını fəal mənimsəməyə başlamışdır. 2010-cu ildə ÇXR-dən Avropa İttifaqı ölkələrinə ixrac 25,5%, ABŞ-a 18,1%, Afrikaya 44,7%, Latın Amerikasına ixrac 38,1% artmışdır.

Yaponiya kimi, Çinin də ABŞ ilə ticarətdə saldosu müsbətdir (ildə 30 milyard dollardan çox). Bu göstəriciyə görə o Yaponiyadan sonra ikinci yeri tutur.

Yaponiya ilə Çin arasında əlaqələr XX əsrin 60-cı illərində SSRİ ilə Çin arasında, həmçinin Çin ilə Vyetnam arasında "soyuq müharibə" və xüsusən "qaynar müharibə" dövründə (Damansk adasındakı döyüşlər) yeni məzmun kəsb etmişdir. Yaponiya Çin üçün, əsasən, kreditor qismində çıxış edir və hazırda Çinin əsas ticarət tərəfdaşıdır. Çin Yaponiyadan texnika, texnologiya və əmtəə alır.

ÇXR-in ASEAN ölkələri və "dörd balaca əjdaha" ilə münasibətlərinin səciyyəvi cəhəti rəqabət, cazibə və qarşılıqlı itələmə proseslərdir. Bununla belə, "balaca əjdahalarla" münasibətlərin əsas xətti iqtisadi və istehsal kooperasiyasının təşəkkülüdür. ASEAN ölkələrinə münasibətdə rəqabət üstünlük təşkil edir. ASEAN ölkələri Çin tərəfindən hərbi təhlükə yaranacağından ehtiyat edirlər. Qərbli mütəxəssislərin fikrincə, Tayvanda işlənib hazırlanmış uzunmüddətli inkişaf proqramı onu Asiya-Sakit okean regional iqtisadi mərkəzinə çevirməyi nəzərdə tutur. Bu halda Tayvan nəinki Asiya-Sakit okean regionunda, hətta dünyada əsas yerlərdən birini tuta biləcək, üstəlik, Tayvan yerli və xarici şirkətlərin investisiya və sahibkarlıq fəaliyyətinin əməliyyat bazasına çevriləcəkdir. Bundan əlavə, proqram müəlliflərinin fikrincə, Tayvan regionda emal sənayesi, maliyyə, telekommunikasiya və nəqliyyat fəallığı mərkəzinə, yəni regional iqtisadi inteqrasiyanın inkişafında liderə çevrilməlidir *[Полис, 1995, стр. 43]*.

Çində də buna oxşar bir plan - *"Pudun planı"* hazırlanmışdır. Bu plana görə, Şanxay rayonunda nəhəng (yüz milyon nəfəri əha-

tə edən) beynəlxalq sənaye, maliyyə, ticarət, nəqliyyat və mədəni mərkəz yaradılmışdır. Həmin mərkəz Asiya-Sakit okean regionunda lider rol oynamağa qabil olacaqdır.

4.4.3. Çinin demoqrafik siyasəti

Çinin sənaye-iqtisadi strategiyasının əsasını resurslara qənaət konsepsiyası təşkil edir. Çin rəhbərliyi dünyanın inkişaf etmiş ölkələrinin maddi təminat səviyyəsinə çatmaq məqsədini elan etmişdir. Lakin bunun üçün ÇXR-ə "Yer adlı daha bir planetin" təbii resursları lazımdır. Buna görə də "demoqrafik imperializm" tezisi irəli sürülmüşdür. Bu tezisin müəllifləri *U.Qoquan* və *Van Çjaotszyun* "Den Syaopindən sonrakı Çin: on ümdə problem" kitabında yazırlar ki, çinlilərin heç olmasa 10%-i öz ölkəsinin hüdudlarından kənara getsə dünyanın istənilən ölkəsi çox böyük çətinliklə üzləşəcəkdir. Əgər Pekin "bir ailə - bir uşaq" demoqrafik siyasətini sərtləşdirməyə nail olsa belə, 2015-ci ilə qədər ÇXR əhalisinin sayı minimum 300 milyon nəfər artacaqdır. Muzdlu işçilər ordusu isə təqribən 125-140 milyon nəfər artacaqdır.

ÇXR həlli çətin olan problemlərin xeyli hissəsini aradan qaldırır. Məsələn, rəsmi məlumata görə, Çində yaşlı şəhər əhalisinin təqribən dördə bir hissəsi işsizdir. Bu isə az qala 350 milyon nəfər deməkdir. Bu mürəkkəb sosial vəziyyət mühacirət əhval-ruhiyyəsi doğurur. Çində həm rəsmi, həm də qeyri-leqal mühacirət var. Çinlilər son dərəcə əməksevər xalqdır. Onlar yeni şəraitə tez uyğunlaşır, hətta ekstremal şəraitə də asanlıqla adaptasiya edirlər. Yemək məsələsində şıltaq deyildirlər, istiyə və soyuğa asanlıqla davam gətirirlər və s. Çinin işsiz sakininin mühacirət etməyə hazır olmasının əsas səbəblərindən biri də onların öz qüvvələrinə inamı, hər yerdə yaşamağa qabil olmasıdır. Ekspertlərin hesablamalarına görə, Rusiya ərazisində, xüsusən Uzaq Şərqdə və Zabaykalyedə təqribən 2 milyon çinli qeyri-leqal vəziyyətdə yaşayır. Onlar ticarətlə, əkinçiliklə məşğul olur, ailə qürur, müvəqqəti pasport alırlar. Bütövlükdə isə çinlilər dünyanın 70-dən artıq ölkəsində məskunlaşmışlar.

4.4.4. "Böyük Çin"ə inteqrasiya

Çinin mövcudluğu və inkişafı üçün yuxarıda adlarını çəkdiyimiz və başqa problemlər onu yaranmış mürəkkəb demoqrafik, sosial, ekoloji və iqtisadi vəziyyətdən çıxış yolları axtarmağa məcbur edir. Buna görə də Çinin geostrategiyası təkcə Rusiyanı deyil, onunla həmhüdud olan başqa cənub və cənub-şərq ölkələrini, Asiya-Sakit okean regionu ölkələrini də maraqlandırır. XXI əsrin əvvəllərində Asiya-Sakit okean regionunun geosiyasi əhəmiyyəti daha da artmışdır. O, beynəlxalq münasibətlər sistemində əsas geosiyasi və iqtisadi elementlərdən birinə çevrilməkdədir. Keçən əsrin 90-cı illərində Çinin, Tayvanın, Malayziyanın, Filippinin, Tailandın iqtisadiyyatının artım göstəriciləri dünyada ən yüksək göstəricilər olmuşdur. Bu, çox cəhətdən Asiya-Sakit okean iqtisadi birliyinin yaradılması sayəsində mümkün olmuşdur. Çinin, Tayvanın, Syanqanın (Honkonq), Aomenin (Makao) və Sinqapurun daxil olacağı "Böyük Çin" və ya Çin ümumi bazarının formalaşmasının bütün əlamətləri görünür.

Bu ölkələr və ərazilər arasında ümumi milli və mədəni bazaya əsaslanan sıx istehsal-iqtisadi əlaqələr yaranır və möhkəmlənir, "Böyük Çin"in təməli qoyulur. Potensial "Böyük Çin"in subyektləri olacaq elementlər öz aralarında rəqabət aparmaqla sıx inteqrasiya yolu ilə irəliləyirlər. Perspektivdə XXI əsrin birinci yarısında dünya arenasına ən qüdrətli superdövlət çıxa bilər. Strateji əhəmiyyətli geosiyasi məkanda yerləşən bu superdövlətin əhalisi bütün Yer kürəsi əhalisinin dördə bir hissəsi qədər olacaqdır. O, təkcə "Böyük Çin" ərazisində yaşayan etnosların deyil, bütün dünyaya səpələnmiş çoxsaylı Çin icmalarının həyatını tənzimləyə biləcəkdir.

Hazırda Asiya-Sakit okean regionunda dünyanın bir sıra dövlətlərinin, ilk növbədə, Çinlə 4000 kilometrlik sərhədi olan Rusiya da daxil olmaqla sənaye və maliyyə cəhətdən inkişaf etmiş dövlətlərin maraqları kəsişir.

Beləliklə, XXI əsrdə "Böyük Çin" obyektiv reallığa çevrilə bilər. Bu geosiyasi birlik (ÇXR, Tayvan, Syanqan, Aomen, Sinqapur)

öz makroiqtisadi göstəricilərinə görə artıq indi Almaniya, Fransa, İtaliya və Böyük Britaniyanın birlikdə götürülmüş göstəricilərindən xeyli üstündür ("Asiaweek" jurnalı ən mühüm makroiqtisadi göstəricilər sırasına ixracı, qızıl ehtiyatları nəzərə alınmadan valyuta ehtiyatlarını, cari əməliyyatlar balansını, fond birjalarında əməliyyatların həcmini daxil edir).

Deyə bilərik ki, Asiya-Sakit okean regionunda cərəyan edən coşqun iqtisadi və siyasi proseslər nəticəsində burada "Böyük Çin"in "yetişdiyi" prinsipcə yeni geosiyasi vəziyyət yaranmışdır.

4.4.5. Çinin geosiyasətinin mahiyyəti

Çinin geosiyasəti əsrlər boyu ikili xarakter daşımışdır. Bu ondan irəli gəlir ki, bir tərəfdən, "Orta səltənət" "Rimlənd"ə, Sakit okeanın sahil zonasına mənsub olmuşdur, digər tərəfdən Çin heç vaxt talassokratik dövlət olmamışdır, çünki o həmişə kontinental arxetiplərə yönəlmişdir. Tarixi "Orta imperiya" adının özü də Çinin tellurokratik meyilli olmasına dəlalət edir.

XIX əsrin əvvəllərindən başlayaraq Çin tədricən Qərbin (əsasən Böyük Britaniyanın) təsiri altına düşür. Buna görə də XIX əsrin əvvəlindən ta 1949-cu il oktyabrın 3-nə qədər (kommunistlərin rəhbərliyi ilə Çin xalqının Homindan üzərində qələbəsi) Çinin geosiyasəti əsasən atlantist geosiyasət olmuşdur. Ölkə Qərbin Avrasiyadakı sahil bazası kimi çıxış edirdi. Homindan üzərində qələbədən və Çin Xalq Respublikası elan ediləndən (3 oktyabr 1949-cu il) sonra 10 il müddətində Çin sovetmeyilli, mahiyyətcə Avrasiya siyasəti məcrasında olmuşdur. Sonra ÇXR "avtarkiya" - öz gücünə güvənmə ideologiyasını seçmişdir. 70-ci illərin ortalarında *Mao Tszedun* vəfat edəndən sonra ÇXR yenidən atlantist geosiyasət yoluna daxil oldu. Bu, Çində islahatların banisi *Den Syaopinin* və onun tərəfdarlarının praqmatik fəlsəfəsi ilə şərtlənmişdi. Çinin Qərblə əlaqələri onun SSRİ ilə, indi isə Rusiya ilə əlaqələrindən daha çox dividend gətirirdi. Əvvələn, Qərbdə ÇXR-in sənaye cəhətdən inkişaf etməsi üçün zəruri olan pul, kredit, texnologiyalar var. İkincisi, Çin rəhbərliyi gələcəyə, XXI əsrə baxırdı: üçüncü minilliyin ortalarında Çin əhalisinin sayı 1,5 milyard nəfərdən çox

olacaqdır. Bu qədər insanın yaşaması üçün isə Çində yer yoxdur. Yaxınlıqda yerləşmiş Sibir və Uzaq Şərqdə isə insanın yaşaması üçün yer çoxdur. Deməli, Çinin Rusiya ilə yaxınlaşması onun gələcək ümidlərini puça çıxara bilər. Məhz buna görə də bəzi rus geosiyasətçiləri Çində baş verən hər cür hərc-mərcliyi alqışlayır, onun kiçik müstəqil dövlətlərə, məsələn, müsəlmanlar yaşayan Sinszyan-Uyğur bölgəsinə, tibetlilərin yaşadığı Tibetistana bölünməsinə tərəfdar çıxırlar. Başqa sözlə desək, rus geosiyasətçiləri Çində separatizm əhval-ruhiyyəsinin qızışdırılmasına üstünlük verirlər. Onlar Çini Avrasiya kontinental federasiyasına qaytarmaq istəyirlər. Çin isə Pekinin rəhbərliyi altında yeni siyasi-iqtisadi qurum yaratmaq istəyir.

Bir qrup rus geosiyasətçiləri isə, əksinə, ABŞ əleyhinə Çin ilə Rusiyanın yaxınlaşmasına üstünlük verirlər. Məsələn, *A.Mitrofanovun* fikrincə, yaxın gələcəkdə Moskva-Pekin-Dehli siyasi oxunu qüvvətləndirmək lazımdır *[Митрофанов, 1997, стр. 211]*. Amma Rusiyadan fərqli olaraq, Çin nəyinsə xatirinə kimlərləsə birləşmək istəmir, o öz qüvvəsinə arxalanıb irəliləmək, inkişaf etmək istəyir.

ÇXR-in xarici siyasəti iqtisadi və hərbi sahələrdə strateji cəhətdən faydalanmaq istiqamətində inkişaf edəcək. Bu isə Çinin fövqəldövlətə çevrilməsinə imkan yaradacaq *[Zhao, 1996, p. 165]*. Bu layihə isə o vaxt reallaşa bilər ki, Makao, Syanqan, Tayvan tam surətdə onunla birləşsin və Çin vahid dövlət kimi idarə olunsun. Asiya-Sakit okean regionunda Çinin geostrateji məqsədi Filippin və İndoneziyadan tutmuş, Myanmaya qədər böyük bir regionda hegemonluq funksiyalarını əlində saxlamaqdır. Şimalda rəsmi Pekinin xarici siyasəti Monqolustan və Rusiyaya tərəf istiqamətlənib. Çin cidd-cəhdlə ona nail olmağa çalışır ki, Monqolustan onunla "xüsusi münasibətlər" qurulmasına tərəfdar çıxsın, başqa sözlə, 1,5 milyon kvadratkilometr ərazidə yaşayan 2 milyonluq xalq öz razılığı ilə Çinlə birləşsin. Bundan başqa, Çin dost ölkələri özünə münasibətdə əlverişli ticarət-investisiya siyasəti yürütməyə sövq edir.

ÇXR geosiyasətində indiyə qədər həllini tapmamış problemlər qalmaqdadır. Bunlardan ən mühümləri Tayvan və Tibet məsələsinin rəsmi Pekinin istədiyi kimi həll olunmamasıdır *[Zhao, 1999, p.92]*. 2005-ci ilin əvvəllərində Ümumçin Xalq Nümayəndələri Məclisi ölkənin parçalanmasının qarşısının alınması, birləşmə imkanlarının sülh yolu ilə baş tutmaması zəminində Tayvana qarşı hərbi qüvvələrdən istifadə etməklə ölkənin birləşməsinə nail olmaq barədə qanun qəbul etmişdir. Başqa sözlə desək, əgər Tayvan adasının separatçı qüvvələri Çinlə sülh yolu ilə birləşməyə razı olmasa, onda rəsmi Pekin hərbi yoldan istifadə etmək məcburiyyətində olacaq.

Hüquqi qüvvəyə malik bu sənəddə göstərilir ki, Tayvan məsələsinin həllində ÇXR üçüncü tərəfin, xüsusilə xarici qüvvələrin iştirakını qəbul edilməz sayır. Sənəddə göstərilir ki, bu məsələnin həlli Çinin daxili işidir. Hərbi yoldan, güc vasitələrindən istifadə etmək hüququ isə ÇXR Dövlət Şurasına və Mərkəzi Hərbi Şuraya verilir. Maraqlıdır ki, bu qanun Tayvanda separatçı qüvvələrlə sülh yolu ilə birləşmək tərəfdarları arasında qarşıdurmanın güclənməsi zamanı baş vermişdir. Əgər Eritreyanın Efiopiyadan ayrılmasına təkan verən amil milli və dini ayrı-seçkilik olmuşdursa, Çin ilə Tayvan arasında milli və dini ayrı-seçkilik yoxdur.

Qeyd etmək lazımdır ki, 1949-cu ildən sonra Homindan partiyasının rəhbərliyi altında idarə olunan Tayvan bir müddət beynəlxalq aləmdə Çini təmsil edirdi. Sonradan ABŞ Prezidenti *R.Niksonun* Pekinə gözlənilməz rəsmi səfəri və bu hadisədən sonra ÇXR-in dünya diplomatiyasına, beynəlxalq münasibətlərə sürətli inteqrasiyası Tayvanın siyasi mövqeyini bir qədər də sarsıtdı *[Chung, 2004, p.321]*.

Qanun qəbul edildikdən sonra Tibetin Dalay-laması özünün separatçı tələblərindən rəsmi surətdə əl çəkdiyini, həmçinin Tibetin müstəqilliyi uğrunda mübarizədən əl çəkdiyini və Tibetin ÇXR-in bir hissəsi, onun muxtar rayonu olduğunu bildirdi. 1959-cu ildən Hindistanda mühacirətdə yaşayan *Dalay-lamanın* belə şok açıqlamalarını gözləməyən geosiyasətçilər onun fikirlərinin 180 dərəcə dəyişdiyini bildirdilər.

4.4.6. Çinin xarici siyasəti. Tayvan problemi

Çin sivilizasiyasının eramızdan beş min il əvvəl yarandığı ehtimal olunur. Çin ərazisində ilk dövlət birliklərinin təşəkkülü eramızdan əvvəl II minilliyin əvvəllərinə təsadüf edir. E.ə. XVIII əsrdə Şan tayfası ölkəni öz hakimiyyəti altında birləşdirmişdi. E.ə. XIV əsrdə Qədim Çində yaranmış İn dövləti e.ə. XI əsrdə çjoular tərəfindən işğal edilmişdir. Çjou dövləti e.ə. VII əsrdə bir sıra müstəqil çarlıqlara parçalandı. E.ə. III əsrin sonunda Çində mərkəzləşdirilmiş Çin imperiyası yarandı, tezliklə onu Xan imperiyası[1] əvəz etdi. III-VI əsrlərdə Çin bir sıra müstəqil dövlətlərə parçalandı. VI əsrin sonunda ölkə Suy sülaləsinin hakimiyyəti altında birləşdirildi. XII əsrdə köçəri çjurçjen tayfaları tərəfindən işğala məruz qalan Çin XIII əsrdə monqolların əsarəti altına düşdü. Xalqın mübarizəsi 1368-ci ildə monqol əsarətinin ləğv olunması ilə nəticələndi. Min sülaləsi hakimiyyətinin (1368-1644) son illərində kəndli üsyanı baş verdi. Üsyanı yatırmaq üçün ölkəyə dəvət olunmuş mancur hakimləri Çində öz hökmranlıqlarını qurdular (mancur Sin sülaləsi 1644-1911-ci illərdə hakimiyyətdə olmuşdur). 1840-cı ildə Böyük Britaniya ilə müharibədə məğlub olduqdan sonra Çin ilk qeyri-bərabər hüquqlu müqavilə bağlamağa məcbur edildi (1842-ci ildə Honkonq da Çindən alındı). Yaponiya ilə müharibədən (1894-1895) sonra Çin Koreyanın müstəqilliyini tanıdı və Tayvan adasını itirdi. XIX əsrin sonunda ölkə xarici dövlətlərin təsir dairələrinə bölündü. 1911-1913-cü illər Sinxan inqilabı Sin sülaləsini devirdi. 1925-1927-ci illər inqilabı *Çan Kayşi* başda olmaqla Homindan

[1] Tarixi ədəbiyyatda qədim Çin dövlətinin inkişafında Xan sülaləsinin hakimiyyətinə (e.ə. 206-23) xüsusi diqqət ayırırlar. Geosiyasi anlamda mühüm əhəmiyyət kəsb edən və diqqət çəkən məsələ Xan sülaləsinin bu dövlətin fəaliyyətində əksini tapmış real geostrateji proqramının mövcud olması idi. Əsasını üç dəyişməz amilin - Çinin ərazi bütövlüyü, əhali tərkibinin getdikcə artımı tələbi və ictimai yaşayış normalarının, iyerarxiyalı idarəçiliyin dəyişməz qaydalarının təşkil etdiyi bu geostrateji xətt bəhs olunan sülalə hakimiyyətinin müvəffəqiyyətli idarəçiliyini və Çinin XVIII əsrə qədərki sabit inkişafını təmin edən həqiqi bir geostrateji kod kimi dəyərləndirilə bilər *[Зенгер, 1995]*.

Partiyasının hakimiyyətə gəlməsi ilə başa çatdı. Çin Kommunist Partiyasının rəhbərlik etdiyi qoşunların qalıqları inqilabi dayaq bazaları yaratmağa başladılar. 1931-ci ildə Yaponiya Şimal-Şərqi Çini işğal etdi. 1945-ci ildə yapon Kvantun ordusu təslim olduqdan və Şimal-Şərqi Çin azad edildikdən sonra Çin Kommunist Partiyasının silahlı dəstələri Homindan ordusunu darmadağın etdi; *Çan Kayşi* qoşunların qalıqları ilə Tayvana qaçmağa məcbur oldu. 1949-cu il oktyabrın 3-də Çin Xalq Respublikası elan edildi. 1950-ci ildə Tibet tutuldu. Kommunist Partiyasının 6-cı qurultayı (1956) Çində sosializmin əsaslarının qurulmasının baş xəttini təsdiq etdi. Çin Kommunist Partiyası rəhbərlərinin həyata keçirdiyi "böyük sıçrayış" (1958-1960), "mədəni inqilab" (1966-1976) siyasəti ölkənin inkişafına mənfi təsir göstərdi. 1965-ci ildə Çin-SSRİ münasibətlərində soyuqluq yarandı və bu, 1969-cu ildə iki ölkə sərhədində silahlı münaqişənin baş verməsi ilə nəticələndi. 1997-ci ildə Böyük Britaniya Honkonqu və 1999-cu ildə Portuqaliya Makaonu ÇXR-ə qaytardı.

Milli mənafelərə uyğun müstəqil xarici siyasət yürüdən ÇXR milli iqtisadiyyatı inkişaf etdirmək üçün Qərb dövlətləri və Üçüncü dünya ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü olan ÇXR beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığa can atır. ÇXR Koreya yarımadasında sabitliyin qorunub saxlanılması üçün səylərini əsirgəmir. ASEAN dövlətləri ilə sıx əməkdaşlıq edən Çin, eyni zamanda, ASEAN regional forumunun üzvüdür. Son illərdə Çin sülhməramlı əməliyyatlarda fəallıq göstərir.

ÇXR-in xarici siyasətində Rusiya ilə münasibətlərin inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir. 2001-ci ilin iyul ayında iki ölkənin Prezidenti dostluq və əməkdaşlıq haqqında müqavilə imzalamışlar. Həmçinin Rusiya, Çin, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Çində yaradılmışdır. Rusiya Prezidenti *D.Medvedevin* 2010-cu ilin sentyabrında Pekinə rəsmi səfəri zamanı iki ölkə arasında dostluq münasibətlərinin və strateji tərəfdaşlığın dərinləşdi-

rilməsinə dair sənədlər imzalanmış, həmçinin terrorizmə, separatizmə və ekstremizmə qarşı birgə fəaliyyət barədə razılıq əldə olunmuşdur. Tərəflər Rusiya ilə Çin arasında enerji sahəsində əməkdaşlıq barədə protokola da dəyişiklik etmişlər.

ÇXR-in Rusiya, Hindistan, Yaponiya və Vyetnamla bir sıra ərazi və sərhəd problemləri olsa da, bunların həll edilməsi istiqamətində müəyyən addımlar atılmışdır. Pekin digər ölkələrlə münasibətlərin qurulmasında "vahid Çin" prinsipinin, yəni Tayvan əyalətinin ÇXR-in ayrılmaz hissəsi olduğunun həmin ölkələr tərəfindən qəbul edilməsini əsas şərt kimi irəli sürür, eləcə də aşağıdakı prinsipləri rəhbər tutduğunu bəyan edir:

- *Müstəqillik prinsipi.* Çin həm daxili, həm də xarici siyasətində müstəqil mövqe tutmağa üstünlük verir.
- *Dünyada sülhün qorunması prinsipi.* Çin bəyan etmişdir ki, silahlanma yarışına girməyəcək, hərbi yolla ərazilərini genişləndirməyəcək, hegemonçuluğa qarşı olacaq, heç bir ölkənin daxili işlərinə qarışmayacaq.
- *Dostluq və əməkdaşlıq münasibətlərinin qurulması prinsipi.*
- *Mehriban qonşuluq münasibətlərinin inkişaf etdirilməsi prinsipi.* Ərazi, sərhəd məsələləri danışıqlar və dialoq yolu ilə həll olunmalıdır.
- *İnkişaf etməkdə olan ölkələrlə əməkdaşlığın inkişaf etdirlməsi prinsipi.*
- *Xarici dünyaya açıq olmaq prinsipi.* Çin həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrlə bərabərlik və qarşılıqlı faydalılıq əsasında beynəlxalq əməkdaşlığı təşviq edir.

Tayvan problemi Çinin əsas problemi kimi qalmaqdadır. Pekin 1950-ci ildən başlayaraq bu problemin həlli üçün müxtəlif səviyyələrdə ardıcıl fəaliyyət göstərir.

Məsələnin mahiyyəti ondan ibarətdir ki, 1945-ci ildə Çin Xalq Respublikası uzun müddətdən sonra Yaponiya müstəmləkəsindən azad olmuş, bütün Çin ərazisində, o cümlədən Tayvan adasında mərkəzi hökumətin strukturları bərpa edilmişdir. Koreya müharibəsinin başlanması ilə ABŞ adaya özünün 7-ci donanmasını gön-

dərmişdir. 1954-cü ildə Vaşinqton Tayvanda yerləşən Homindan hakimiyyəti ilə "müştərək müdafiə sazişi" imzalamışdır. Beləliklə, faktiki olaraq, Tayvan adası Çin Xalq Respublikasından ayrılmışdır. 1972-ci ilin fevralında ABŞ Prezidenti *R.Niksonun* ÇXR-ə səfəri zamanı Şanxay bəyannaməsi adlı sənəd qəbul olunmuşdur. Bu sənəd ÇXR ilə ABŞ arasında rəsmi diplomatik əlaqələrin yaranmasının əsasını qoymuşdur. 1979-cu il yanvarın 1-də rəsmi diplomatik əlaqələr qurulmuş və nəticə etibarı ilə ABŞ Pekini Çinin bütün ərazisində qanuni hökumət kimi qəbul etmişdir. Bu tarixdən etibarən Tayvan da Çinin ayrılmaz hissəsi kimi bəyan edilmiş və Ağ ev bu ada ilə diplomatik əlaqələri kəsmişdir. Eyni zamanda, ABŞ hökuməti yuxarıda qeyd olunan "müştərək müdafiə sazişi"nin qüvvədən düşməsini və adadan özünün bütün silahlı qüvvələrinin çıxarılmasını bəyan etmişdir. Yaranmış vəziyyətdə Çin hökuməti tarixi reallığı və ölkənin milli mənafelərini nəzərə alaraq Tayvanla əlaqələri tənzimləyən *"sülh yolu ilə birləşmə və ya bir dövlət - iki sistem"* adlı yeni konsepsiyasını irəli sürmüşdür.

Konsepsiyanın əsas mahiyyəti dörd maddədən ibarətdir:

- *Vahid Çin.* Tayvan adası Çin Xalq Respublikasının ayrılmaz hissəsidir, mərkəzi hökumət Pekində yerləşir.
- *İki sistemin birgə mövcudluğu.* Vahid Çinin tərkibində sosializmin ölkənin əsas hissəsində, kapitalizmin isə Tayvanda birlikdə mövcudluğu və inkişafı.
- *İdarəetmənin ən yüksək səviyyəsi.* Tayvan mərkəzi ərazi ilə birləşdikdən sonra xüsusi inzibati rayon statusunu əldə edəcək və yüksək idarəetmə səviyyəsinə xas olan bütün hüquqlardan istifadə edə biləcəkdir.
- *"Sülh yolu ilə birləşmə və ya bir dövlət - iki sistem".* Bu konsepsiya ilə yanaşı, Çin hökuməti güc tətbiq edilməsini də istisna etmir.

Çin Xalq Respublikasının xarici siyasətinin əsas istiqamətini təşkil edən bu konsepsiya bu günə qədər Çin-ABŞ münasibətlərində həlledici amildir. Ağ ev administrasiyasının vaxtaşırı Tayvana silah satmasını Pekin "ölkənin daxili işlərinə qarışaraq sabitliyi

pozmaq" kimi qiymətləndirir. Qeyd olunan məsələ ilə əlaqədar Çin hökuməti ABŞ rəhbərliyini "vahid Çin" prinsipinə sadiq qalmağa və Tayvanın müstəqilliyinin tərəfdarlarına "siqnallar" göndərməməyə çağırır.

Tayvan probleminin həlli üçün Çin rəhbərliyi bir neçə təklif irəli sürmüşdür. Təkliflərdən ən optimalı 1999-cu ilin sentyabr ayında Tayvan administrasiyasına təqdim edilmişdir. Bu təşəbbüsə görə adaya "geniş muxtariyyət"in verilməsi nəzərdə tutulmuşdur. Lakin bu muxtariyyət Tayvanın kontinental Çinlə birləşməsi şərti ilə sıx bağlıdır. Belə olan təqdirdə Tayvan hökuməti özünün silahlı qüvvələrinə, müstəqil prokurorluq və məhkəmə orqanlarına sahib ola bilər. Eyni zamanda, Tayvan hər hansı xarici dövlətlə iqtisadi və mədəni sahələrdə sazişlər imzalaya bilər. Sənədə əsasən Tayvan Çinin tərkibində geniş səlahiyyətlərə malik olan xüsusi inzibati rayon statusunu əldə edə biləcəkdir. Həmçinin adanın nümayəndələri Çin Xalq Respublikasının dövlət strukturlarında təmsil oluna bilərlər.

Bütün bu cəlbedici təkliflərə baxmayaraq, Tayvan Pekinin təşəbbüslərinə müsbət cavab vermək niyyətində deyil. Çin hökuməti isə xarici qüvvələr tərəfindən Tayvanın daxili işlərinə müdaxilə ediləcəyi, adada iğtişaşlar nəticəsində ictimai gərginliyin baş verəcəyi və Tayvan hakimiyyətinin adanın müstəqilliyini rəsmi şəkildə elan ediləcəyi təqdirdə Tayvana qarşı güc tətbiq ediləcəyini istisna etmir.

4.5. Yaponiyanın geosiyasəti və ictimai inkişafı


Yaponiya dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ikinci böyük dövləti, Asiya-Sakit okean regionunda yüksək texnologiyalar dövrünə ilk qədəm qoymuş postindustrial ölkədir. Enerji və digər təbii ehtiyatların məhdudluğuna baxmayaraq, Yaponiya XX əsrin ikinci yarısında dinamik inkişafın yüksək səviyyəsini təmin edə bilmişdir.

4.5.1. Ruhlar diyarı

Geosiyasətin banilərindən biri olan *Karl Haushofer* Yaponiyanı *"kontinental tipli təfəkkürə malik ada ölkələri"* sırasına aid edirdi. Almaniyalı alim belə hesab edirdi ki, Yaponiya digər ada-dövlətin

- İngiltərənin tam əksidir və bu cür qarşıqoyma üçün kifayət qədər əsas vardır. İngiltərə həmişə Avropadan kənarlaşır, özünü Avropaya qarşı qoyurdu. Yaponiya isə əksinə, Asiya ilə, daha çox Asiya dövləti olan Çin ilə, Koreya ilə sıx əlaqələr saxlayır və demək olar ki, hər məsələdə - yazıdan başlamış əmək alətləri və istehsalata

Xəritə 44. *Yaponiya*



qədər bütün məsələlərdə kontinentə bağlıdır. Mənəvi həyatda da bu əlaqələri görmək çətin deyil: "Kodziki" adlanan qədim sakral mətnlər (712-ci ildə yazılmışdır) və yapon ənənələrinin cəmləşdiyi "Nixon söki", əsasən, Çin, Koreya, həmçinin Hindistan və Malayziyanın mənəvi sərvətlərindən əxz edilmişdir.

Təbii ki, bu əxzetmə milli mənlik şüurunun xüsusiyyətlərinə uyğunlaşdırılmaqla zənginləşdirilmiş, yenidən işlənilmiş və nəticə etibarilə bənzərsiz mahiyyət kəsb etmişdir. Buna görə də yaponlar haqlı olaraq öz ölkələrini sakral dəyərlərin vətəni, ruhlar diyarı, Gündoğar ölkə, mənəvi bolluq diyarı hesab edirlər. Onların nəzərində Yaponiya rəmzi ontoloji qurşaqdır. Yaponların fəlsəfi baxışları öz daxili aləminə dalmaq, yüksək dərəcədə diqqətlilik, mediativ istiqamətlənmə kimi keyfiyyətlərlə səciyyəvidir. Buddizmin "dzen" cərəyanına əsaslanan bu "həyat fəlsəfəsi" yaponların həyat və təfəkkür tərzini formalaşdırmışdır. Məişət əşyaları, adi gündəlik işlər (çay mərasimi, VI əsrdə Çindən Yaponiyaya keçmiş miniağaclar yetişdirmək sənəti (bonsay) ənənələri və s.) meditasiyanın təsirli formasına çevrilmişdir. Onlar insanın təbiətlə, Yerin ruhu ilə, kosmosla qovuşmaq fikrini vurğulayan sakral dəyərlərin parlaq təzahürüdür.

4.5.2. Kuril adalarını kim kəşf etmişdir?

Yaponiyanın geosiyasətində Rusiya ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Bu münasibətlərin tarixi üç yüz ildən artıq olsa da, o heç vaxt sabit olmamışdır. Qeyri-sabitliyə səbəb isə Cənubi Kuril adalarının hansı dövlətə - Yaponiyaya, ya Rusiyaya məxsus olması idi. Kuril adaları haqqındakı ilk məlumatı 1697-ci ildə rus səyyahı *V.V.Atlasov* vermişdir. 1745-ci ildə bu adaların böyük hissəsi Rus imperiyasının tərtib etdiyi baş xəritəyə salınır. Həm Kuril adalarında, həm də adalara yaxın yerləşmiş Yaponiyanın Hokkaydo adasında aynu adlanan xalq yaşayırdı. Bir müddət sonra adaların üzərində birdən-birə Rus imperiyasının bayrağı qaldırılır. Adaların ərazicə böyüklərində pravoslav kilsələri inşa olunur. Başqa sözlə desək, Rus imperiyası bu adaları və orada yaşayan xalqları süni surətdə ruslaşdırmağa çalışır. Hazırda Yaponiyanın iddia et-

diyi İturup, Kunaşir, Şikotan və Habomay adaları üzərində Rus imperiyasının bayrağı dalğalanır. Məhz buna görə də bütün dünya xəritələrində (Yaponiya xəritələri istisna olmaqla) bu mübahisəli dörd ada Rusiyaya məxsus adalar kimi verilir.

Yaponiya tarixinin bir mühüm məqamını vurğulamaq zəruridir. 1633-cü, 1636-cı və 1639-cu illərdə yapon hökmdarı "ölkənin bağlanması haqqında" üç fərman vermişdir. Yaponiya əcnəbilər üçün, xüsusən avropalılar üçün bağlanmışdı (avropalılar - portuqaliyalılar Yaponiyaya ilk dəfə 1542-ci ildə gəlmişlər). Qeyd etmək lazımdır ki, bu ölkə təkcə avropalılar üçün deyil, çinlilər istisna olmaqla, qonşular üçün də bağlanmışdır. Yaponların özlərinin böyük gəmilər tikməsi və qeyd edilmiş sahilyanı zonadan uzağa getmələri qadağan edilmişdir. Gündoğar ölkəni 1854-cü ildə "kəşf edən" kapitan *M.Perrinin* komandanlığı ilə Amerika kreyseri olmuşdu. Simoda və Hakodate limanları avropalılar üçün açılmışdı.

Lakin yenidən Rusiya-Yaponiya münasibətlərinə qayıdaq. *I Pavelin* 8 iyul 1779-cu il tarixli fərmanında deyilirdi ki, Kamçatkadan Yaponiyanın cənubuna doğru yerləşən adalar Rusiyanın sahibliyindədir. Həmin fərman verilməndən bir neçə ay sonra bu adalara yaponların kiçik desantları çıxdı. Onlar həmin adaların Rusiyaya mənsub olması əlamətləri sayılan rus xaçlarını çıxarıb atdılar.

1853-cü ildə *Yevfimi Putyatin* başda olmaqla rus missiyası Yaponiyaya gəldi. Rusiya imperatoru *I Nikolay* Putyatinə verdiyi təlimatda göstərirdi ki, Rusiya İturupdan Yaponiyaya qədər ərazidə yerləşən adaları, yəni Yaponiyanın indiki hökumətinin təkidlə iddia etdiyi dörd adanı da Kuril adaları qrupuna aid edir.

1855-ci ildə bağlanmış Rus-Yapon müqaviləsinə görə İturup adasından şimalda yerləşən bütün Kuril adaları Rusiyanın ərazisi elan edilirdi. 1875-ci il Rus-Yapon müqaviləsinə əsasən daha 18 ada Yaponiyaya bağışlanır. Rus-Yapon müharibəsində (1904-1905) məğlub olan Rusiya, Portsmut müqaviləsinə əsasən 4 adanı - İturup, Kunaşir, Şikotan və Habomay adalarını və Saxalin adasının yarısını Yaponiyaya qaytarır. İkinci Dünya müharibəsindən

sonra müharibədə qalib gəlmiş SSRİ həmin adaları və Saxalinin cənubunu yaponlardan təmizləyir və burada yenidən əvvəlcə sovet, sonradan rus bayrağı dalğalanmağa başlayır.

4.5.3. Rusiya-Yaponiya münasibətlərinin tarixi

Yaponiya və Rusiya arasında hərbi münaqişələr bu iki ölkənin münasibətlərinə təsir göstərmişdir. Əlbəttə, həmin münaqişələr təkcə geosiyasi maraqlarla bağlı olmayıb, həm də çox cəhətdən bu dövlətlərin daxili iqtisadi və siyasi inkişafının, onların hərbi sahədə rəqabətinin gedişi ilə müəyyən edilmişdir.

Yaponiyada kapitalist münasibətlərinin inkişafı *"Meydzi isin"* ("Meydzinin yeniləşməsi") dövrü ilə bağlıdır. İmperator *Mutsuxitonun* burjua hökuməti (1867) burjua sosial-iqtisadi dəyişikliklər yoluna qədəm qoymuş, yeni xammal mənbələri (Yaponiyada faydalı qazıntı yataqları, enerji ehtiyatları azdır) və satış bazarları axtarmağa başlayır. Samurayların xəlfələri ən yaxın qonşuları olan Koreya və Çinin ərazilərinə göz dikirlər. İngiltərə və ABŞ isə Çində artıq "sürünən müstəmləkəçilik" siyasəti yeridirdi. Yaponiya da bu müstəmləkə piroqunun bölünməsinə qoşulur və 1894-cü il noyabrın 22-də Port-Arturu tutur. Çin hökuməti yapon toplarının lülələri altında Simonosek sülh müqaviləsini (1895) imzalamağa məcbur olur. Bu müqaviləyə görə Gündoğar ölkə Port-Arturla birlikdə bütün Lyaodun yarımadasına, Tayvan və Penxulidao adalarına da sahib çıxır. Lakin Yaponiyanın Uzaq Şərqdə siyasi fəallığından qorxuya düşən Rusiya bir sıra fəal diplomatik addımlar atmaqla Lyaodun yarımadasının Çinə qaytarılmasına nail olur.

Yaponiyanın Koreya və Çində fəallaşması Avropa dövlətlərini (ilk növbədə İngiltərəni) də narahat edirdi. İngilislər Lyaodun yarımadasının "mənimsənilməsi" və Port-Arturun tutulması üçün plan hazırlamağa başlayır. 1897-ci il dekabrın 1-də rus kəşfiyyatının əldə etdiyi məlumatlara görə ingilislərin Port-Artura gəlməsi ehtimal edilirdi. Dekabrın 4-də kontr-admiral *Reunovun* komandanlığı ilə rus eskadrası Port-Artura daxil olur. Ertəsi gün, yəni 1897-ci il dekabrın 5-də isə İngiltərənin "Dafne" kanenor

qayığı orada peyda olur, lakin ingilislər rus gəmilərini orada görən kimi dərhal geri dönürlər. 1897-ci il dekabrın 8-də "Dmitri Donskoy" kreyseri, "Sivuç" və "Qremyaşşiy" kanoner qayıqları Taliyevane limanına (sonradan Dalni limanı) daxil olurlar. Dekabrın 17-də iki ingilis kreyseri həmin limana gəlir. İngilislər Andreyev bayraqlarını gördükdə başa düşürlər ki, onlar yenə gecikiblər.

Port-Arturdan 30 mil məsafədə strateji əhəmiyyətli Myao-Dao adalar qrupu yerləşirdi. "Dmitri Donskoy" kreyserindən həmin adalara desant çıxarılır, Rusiya bayrağı qaldırılır. Lakin 1904-1905-ci illər müharibəsinin başlanmasından bir neçə gün əvvəl yaponlar adaları tuturlar və Port-Arturu mühasirəyə almaq üçün bunlardan istifadə edirlər. 1904-cü il yanvarın 26-da gecə yapon minadaşıyan gəmiləri xarici reyddə dayanmış "Sesareviç", "Retvizan" və "Pallada" kreyserlərinə hücum edirlər. Bu, Yaponiya ilə müharibənin başlanğıcı idi. Məlum olduğu kimi, Rusiya həmin müharibədə uduzur, dörd adanı və Saxalinin cənubunu güzəştə gedir.

Meydzi dövründən başlayaraq, xüsusən XX əsrin 30-cu illərində, Yaponiyanın siyasəti onun coğrafi və siyasi mövqeyinin xüsusiyyətlərini əks etdirirdi və indi də əks etdirir. Bir tərəfdən, ölkənin adalarda yerləşməsi, çox sıx məskunlaşması, təbii ehtiyatların azlığı, digər tərəfdən, dinamik inkişaf edən güclü sənayeyə, xammal və satış bazarlarına kəskin tələbat Yaponiyanın dünyada öz potensialına layiq yer tutmaq cəhdlərini müəyyənləşdirmişdir. Buna nail olmaq asan deyildi, lakin Gündoğar ölkənin siyasətçilərinin uzaqgörənliyini etiraf etmək lazımdır. Onlar hələ 1934-cü ildə elan edilmiş *Panasiya doktrinasını* həyata keçirmişlər və indi də bunu təkidlə davam etdirirlər. Həmin doktrinada deyilirdi: *"Yaponiya Uzaq Şərqdə sülh və asayiş üçün özünü bilavasitə cavabdeh hesab edir, Uzaq Şərqdə heç bir başqa dövlətin istismarçı siyasət yeritməyə haqqı yoxdur; Yaponiya Çində özünün mənafelərinə düşmən hesab etdiyi əcnəbilərin hərəkətlərinə müqavimət göstərəcəkdir" [Нарпов, 1999, стр. 255].*

1981-ci ildə isə Yaponiya ilə ABŞ arasında sülh və təhlükəsizlik müqavilələri imzalanır. Bu müqavilələr Yaponiyanın hərbi-siyasi qüdrətinin daha da güclənməsinə təkan verir. XX əsrin 80-ci illərinin ortalarında Yaponiyanın 260 mindən çox yaxşı təlim keçmiş peşəkarlardan ibarət silahlı ordusu vardı. Bu peşəkarlar tağımdan başlamış korpusa qədər müxtəlif qoşun qruplarına və birləşmələrinə komandanlıq etməyə qabil idi. Yaponiyada silahlı qüvvələr yaradılması isə cəmi bir neçə günlük və ya bir neçə həftəlik iş idi. Buraya hərbi hazırlıq keçmiş rezervistlər cəlb edilə bilərdi.

Yaponiya ilə Rusiyanın münasibətlərində gərginliyi şərtləndirən başqa bir amil həmhüdud ərazilərin hərbisizləşdirilməsi problemidir. 1993-cü il oktyabrın 13-də Prezident *B.Yeltsin* tərəfindən imzalanmış Tokio bəyannaməsinə görə (sənədin bu hissəsi qapalı xarakter daşıyırdı), Rusiyanın Cənubi Kurildəki hərbi hissələri - bir atıcı diviziya, bir artilleriya alayı və bir qırıcı aviasiya alayı oradan evakuasiya edilir.

Rusiya Kuril adalarının ona məxsus olmasını aşağıdakı arqumentlərlə əsaslandırmağa çalışır:

1) Kuril adaları XVII əsrdə ruslar tərəfindən kəşf edilmiş və öyrənilmişdir. Adaların yerli əhalisi (aynu xalqı) rus çarının təbəəliyini qəbul etmişdir. Yeri gəlmişkən, yaponlar israrla qeyd edirlər ki, adalar onlar tərəfindən daha əvvəl, XVI əsrdə kəşf olunmuşdur.

2) 1855 və 1875-ci illərdə imzalanmış müqavilələr hər iki tərəfi mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyə çağırırdı. Lakin 1904-cü ildə Yaponiya Rusiyaya hücum edəndən, Qərbin köməyi ilə Portsmut sülh müqaviləsini Rusiyaya zorla qəbul etdirəndən və həmin müqaviləyə əsasən Yaponiya Cənubi Saxalini ələ keçirəndən sonra bu müqavilələr öz qüvvəsini itirmişdir.

3) Kuril adaları barədə Yalta müqavilələri öz gücünü saxlayır. Həmin müqavilələrdə Kuril adalarının SSRİ-yə verilməsi tələb olunur. 1991-ci ildə San-Fransisko (ABŞ) şəhərində bağlan-

mış sülh müqaviləsinin şərtlərinə əsasən Yaponiya rəsmi şəkildə Kuril adalarından əl çəkdiyini bildirir.

4) Müharibəni Yaponiya başlamış və o məğlub olmuşdur. Onun nümayəndələri (almanlar kimi) Yalta konfransına göndərilə bilməzdi. Yaponiya danışıqsız təslim olmaqla qalib gəlmiş müttəfiq dövlətlərin qərarlarını qəbul etmişdir. Bu qərarların tanınması dörd Kuril adasına da şamil edilir. Yaponiya 1951-ci ildə San-Fransisko sülh müqaviləsini imzalamaqla Kuril adalarından rəsmən imtina etmişdir. Amerikada müxtəlif illərdə çap edilmiş, 1969-cu ildə Yaponiyada təkrar nəşr olunmuş coğrafi xəritələrdə Habomay və Şikotan da daxil olmaqla bütün Kuril adaları Sovet İttifaqına mənsub olan vahid ərazi kimi göstərilmişdir.

5) 1956-cı ildə Moskvada SSRİ və Yaponiya arasında imzalanmış Birgə bəyannamədə sülh müqaviləsinin imzalanması şərti ilə SSRİ iki adanı Yaponiyaya qaytarmağa hazır olduğunu bəyan etmişdir. Lakin ABŞ-ın bu dövrdə hakimiyyətdə olan rəhbərliyinin yürütdüyü siyasət nəticəsində adaların Yaponiyaya qaytarılması baş tutmamışdır. 2001-ci ildə Rusiya Prezidenti Putin və Yaponiya Baş naziri Mori arasında imzalanmış İrkutsk bəyanatında tərəflər problemi bundan əvvəl imzalanmış sənədlər əsasında həll etmək niyyətində olduqlarını qeyd etmişlər. Yaponiya tərəfi problemin 1997-ci ildə əldə olunmuş Krasnoyarsk bəyanatı əsasında həllini nəzərdə tutur (bəyanatın məzmunu məlum deyildir). Krasnoyarskda keçirilmiş qeyri-rəsmi sammitin nəticələrinə görə, iki ölkə arasında sülh müqaviləsinin imzalanması üzrə Müştərək komitə yaradılmışdır. Həmin komitəyə hər iki ölkənin xarici işlər nazirləri başçılıq edirlər.

Müxtəlif səviyyələrdə keçirilən görüşlərdə tərəflər sülh müqaviləsinə dair danışıqları əvvəl əldə olunmuş bütün razılaşmalar paketi əsasında aparacaqlarını, imzalanacaq müqaviləyə dair dialoq üçün əlverişli şəraitin yaradılması məqsədilə iki ölkə arasında etimadın yaradılması tədbirlərinin həyata keçirilməsinin

zəruriliyini vurğulamışlar. Həmin tədbirlər Cənubi Kuril adalarında birgə iqtisadi fəaliyyətin qurulması sahəsində əməkdaşlıq imkanlarının araşdırılması, vizasız gediş-gəlişin həyata keçirilməsi və balıqçılıq sahəsində əməkdaşlığın gerçəkləşdirilməsindən ibarətdir. Yaponiya tərəfi ərazi məsələsində Tokionun əsas mövqeyinə qayıtmaq haqqında bəyanat vermişdir. Bu mövqe dörd Cənubi Kuril adasının Yaponiyaya məxsus olmasından ibarətdir. ABŞ bu mübahisədə Yaponiyanın irəli sürdüyü iddiaları dəstəkləyir.

Yaponiya tərəfinin mövqeyi aşağıdakı kimidir:

1) Şimal əraziləri Yaponiyanın suveren ərazilərinin ayrılmaz hissəsi kimi Rusiya tərəfindən qeyri-qanuni olaraq işğal edilmişdir.

2) Yaponiya hökuməti, həmvətənlərinin Rusiya rəsmiləri tərəfindən verilən vizalarla Şimal əraziləri ilə bağlı məsələnin həllinə qədər qeyd olunan ərazilərə daxil olmamasını xahiş etmişdir.

4.5.4. Kuril adaları təbiətin bəxşişidir

Görünür, aşağıdakı sualın cavabının da yuxarıda adlarını çəkdiyimiz və digər amillərlə bağlılığı var: nə üçün Yaponiya "Şimal ərazilərinin qaytarılmasını" bu dərəcədə təkidlə israr edir? Əlbəttə, burada əsas səbəb xammal qıtlığıdır (mineral və bioloji, dəniz xammalı). Geoloqların hesablamalarına görə, İturup adasında yüksək keyfiyyətli dəmir, titan-vanadium filizləri, qızıl və gümüş yataqları kəşf edilmişdir. Bu və digər adalarda, ilk növbədə, Kunaşirdə yarıqiymətli daşlar, sink və qurğuşun filizi, şüşə xammalı ehtiyatları var. Nadir torpaq polimetalları - ən yüksək keyfiyyətli, tərkibində titan, fosfor və vismut ehtiyatları olan limonit filizləri tapılmışdır. Bundan əlavə, Kunaşirdə qızıl və gümüş yataqları, kükürd ehtiyatları mövcuddur. Cənubi Kuril adalarının elektroenergetik potensialının bir neçə min kilovata bərabər olması güman edilir. Bu adalar şelfində "qara qızıl" da var.

Yaponiya Rusiyaya məxsus dəniz akvatoriyasında 11 min ton nərə balığı ovlamaq üçün lisenziya əldə etmişdir. Bütövlükdə, Uzaq Şərq zonasında Yaponiya hər il 95 min ton balıq ovlayır. Ov-

lanmış bioloji sərvətlərin dəyəri isə 2 milyard ABŞ dolları həcmindədir. Rusiya Cənubi Kuril adalarını Yaponiyaya verəcəyi təqdirdə isə illik məcmu ziyan 6,6 milyard dollardan çox olacaqdır. Buraya onu da əlavə etmək lazımdır ki, Saxalin, Xabarovsk diyarı və Primorsk limanlarından ticarət gəmilərinin Kunaşir, Yekaterina və Friz boğazlarından Sakit okeana keçməsi pullu olacaqdır. Bu isə hər il daha 500 milyon dollardan artıq vəsait deməkdir. Bu halda Rusiyanın hərbi dəniz donanması Oxot dənizinin buzlu sularında qapanıb qalacaqdır.

Bundan əlavə, Rusiya onun üçün çox böyük strateji əhəmiyyət kəsb edən, donmayan dörd boğazdan məhrum olar, külli miqdarda faydalı qazıntı ehtiyatları, eləcə də Cənubi Kuril rayonu - ən mühüm balıqçılıq təsərrüfatı rayonlarından biri itirilərdi. Rusiyada dəniz məhsulları ovunun ümumi həcminin 10%-i bu rayonun payına düşür. Perspektivdə balıq və digər dəniz məhsulları hasilatının həcmi asanlıqla ikiqat artırılaraq ildə 2 milyon ton və daha çox ola bilər. Rusiyada ovlanan qızıl balığın 15%-ni Kuril adaları verir, qiymətli su yosunlarının 7%-ə qədəri bu rayonda hasil edilir. Cənubi Kuril adalarında təkcə balıq sənayesi hesabına əldə edilən hazır məhsulun dəyəri ildə 1 milyard ABŞ dollarından çoxdur. Beləliklə, Rusiyanın Cənubi Kuril adalarını itirməsi təkcə ölkənin iqtisadiyyatına deyil, həm də bu strateji əhəmiyyətli rayonda geosiyasi maraqlarına zərər vura bilər.

1992-ci ildən Yaponiya sakinlərinin, o cümlədən əvvəllər adalarda yaşamış sakinlərin və adalarda daimi yaşayan rusiyalıların qarşılıqlı vizasız səfərləri başlanmışdır. 1998-ci ildən etibarən yaponlar Cənubi Kuril sakinlərinə yapon dilini pulsuz öyrədirlər. Bu məqsədlər üçün hər il Gündoğar ölkənin dövlət büdcəsindən milyonlarla dollar vəsait ayrılır. 1998-ci ildə Yaponiya hökuməti vizasız mübadilənin artırılması haqqında növbəti qərar qəbul etmişdir. Yaponlar köhnə avtomobil yollarını, dörd adanın hamısında limanları, rabitə xətlərini yenidən qurur, yenilərini tikirlər.

4.5.5. Həlli vacib problemlər

Beləliklə, *XXI əsrin əvvəllərində* Rusiya-Yaponiya münasibətlərində üç mühüm problem aydın hiss olunur: *birincisi* - "Şimal əraziləri" problemi, *ikincisi* - iqtisadi, əsasən, xammal problemi, *üçüncüsü* - hərbi-siyasi və geosiyasi problemlər.

Yaponiya hökuməti həmişə özünün itirilmiş "Şimal əraziləri" problemini həll etməyi ön plana çəkir. Yaponiyanın sabiq Baş nazirlərindən biri "Şimal əraziləri" probleminin həlli barədə demişdi: "Biz bu məsələnin həllini öz övladlarımızın və nəvələrimizin çiyninə qoymamalıyıq". Onun bu cür arxayınlığı buna əsaslanır ki, 1993-cü il oktyabrın 13-də Rusiya Prezidenti və Yaponiyanın Baş naziri "İturup, Kunaşir, Şikotan və Habomay adalarının mənsubiyyəti haqqında məsələyə dair" ərazi disputunun "qanuni və ədalətli" olması haqqında bəyanat imzalamışlar *[Наш современник, 1992, стр. 111].*

Rusiya-Yaponiya münasibətlərində ikinci problem ondan ibarətdir ki, Yaponiya tərəfi dəqiq müəyyən edilmiş iqtisadi münasibətləri möhkəmlətməyə çalışır. Yaponiya, ilk növbədə, Sibirdə və Uzaq Şərqdə "enerji ehtiyatlarının mənimsənilməsi haqqında Yaponiya ilə Rusiya arasında dialoqun" tərəfdarıdır (bu problemə Yaponiya ilə bərabər, "böyük yeddilik" üzvü olan başqa ölkələr də ciddi maraq göstərir). Yaponiya bu məsələdə Rusiyanı ancaq xammal satan bir ölkə kimi görmək arzusundadır. Yaponlar enerji layihələri üzərində nəzarəti öz əllərində saxlamağa çalışır, hasil edilən enerji daşıyıcılarını isə ixraca yönəltmək niyyətindədirlər. Rusiya üçün isə enerji ehtiyatlarını Sibirin və Uzaq Şərqin inkişafına sərf etmək daha vacib hesab edilir. Bildirilir ki, Rusiya ərazisində dərin neft və qaz yataqlarının işlənməsi neftayırma zavodları və kimya kompleksləri şəbəkəsini tənzimləməyə, on minlərlə insana iş və əməkhaqqı verməyə, büdcənin gəlirlərini, valyuta səmərəsini əhəmiyyətli dərəcədə artırmağa imkan verərdi.

Rusiya-Yaponiya münasibətlərinin üçüncü problemi NATO-nun Şərqə doğru genişlənməsi ilə sıx əlaqəlidir. 1997-ci ilin iyun ayında müdafiə sahəsində Yaponiya-Amerika əməkdaşlığının əsas isti-

qamətlərinə dair saziş imzalanmışdır. Bu sənəddə mahiyyət etibarilə Yaponiyanın müdafiəsindən deyil, ona bitişik geniş regionlarda birgə Amerika-Yaponiya hərbi əməkdaşlığından söhbət gedir. Məsələn, "müharibə vəziyyətində olan Koreya yarımadasında" əlavə Amerika qoşunlarının yerləşdirilməsi, yaxud "Çinin Tayvana qarşı blokadasını aradan qaldırmaq üçün" Amerika-Yaponiya kooperasiyası, regionda "ərazi mübahisələrinin tənzimlənməsi" məsələsində Amerika-Yaponiya əməkdaşlığı nəzərdə tutulur.

Yaponiyanın ən yeni hədəfi Mərkəzi Asiya və Qafqazda siyasi və iqtisadi mövqelərini möhkəmlətməkdir. Bunu o, Mərkəzi Asiyadan keçməklə Uzaq Şərqdən Avropaya gedən qədim yolları əvvəlcə bərpa etmək, sonra isə onlara nəzarət etməklə həyata keçirmək istəyir.

XXI əsrdə Rusiya ilə Yaponiya arasında yeni münasibətlər qurmaq üçün hər iki ölkənin xalqlarının qarşılıqlı maraqları nəzərə alınmaqla tərəflər bir-birinə doğru addım atmaqda qərarlıdırlar. Beləliklə, siyasi dialoq daimi olmalı və etimada əsaslanmalıdır, əks halda çətin və mürəkkəb problemlərin siyasi yolla həllinə ümid etməyin mənası yoxdur.

Rusiya ilə Yaponiya arasında geosiyasi münasibətlərin tənzimlənməsi üçün parlament üzvləri, sahibkarlar, alimlər, jurnalistlər, mədəniyyət xadimləri, ayrı-ayrı regionların nümayəndələri arasında humanitar və mədəni mübadilələrin genişləndirilməsinə xüsusi əhəmiyyət verilir. Bu, həm də onunla əlaqədardır ki, mədəni mübadilələr bu ölkələrin bir-birinə marağını daha asanlıqla artıra bilər.

4.5.6. Yaponiyanın çoxvektorlu xarici siyasəti

BMT Təhlükəsizlik Şurasının üzvü kimi dünya siyasətinə əsaslı təsir imkanlarına malik olan, elmi-texniki sahədə yüksək nailiyyətlər qazanmaqla dünya iqtisadiyyatının ağırlıq mərkəzinə çevrilən Yaponiya müstəqil xarici siyasət yürüdür.

ABŞ-la münasibətlər müttəfiqlik əlaqələrini möhkəmləndirmək və öz siyasətini sıx ikitərəfli dialoq vasitəsilə əlaqələndirməkdən ibarətdir. Yaponiya-ABŞ əlaqələri müharibədən sonrakı

dövrdə sürətlə inkişaf etməyə başlamışdır. İki ölkə arasında mövcud olan təhlükəsizlik münasibətlərinin əsası 1951-ci ildə imzalanmış San-Fransisko müqaviləsi ilə qoyulmuş və bu əməkdaşlıq hal-hazırda təhlükəsizlik razılaşmaları əsasında qurulur. Yaponiyanın xarici siyasəti baxımından Yaponiya-ABŞ müttəfiqlik əlaqələri Asiya və Sakit okean regionunda sülh və təhlükəsizliyin təmin olunması üçün mühüm hesab olunur. Hər iki ölkənin regionda xarici siyasətinin tənzimlənməsi üçün Məşvərət komitəsi fəaliyyət göstərir.

Qərbi Avropa ölkələri ilə münasibətlər Yaponiya-ABŞ əlaqələri qədər intensiv olmasa da, güclü və tarazlaşdırılmış üçtərəfli əlaqələrə duyulan ehtiyac Yaponiyanı Avropa ilə əlaqələrini qüvvətləndirmək məcburiyyəti ilə üzləşdirmişdir.

Yaponiyanın Asiya-Sakit okean regionuna daxil olan ölkələrlə əlaqələri sadəcə coğrafi yaxınlıqla deyil, eyni zamanda, mədəni və tarixi baxımdan da əhəmiyyətli hesab edilir. Çoxsaylı yapon şirkətlərinin xarici ölkələrdə fəaliyyət göstərməsi, Cənub-Şərqi Asiya Dövlətləri Cəmiyyətinə (ASEAN) üzv olan ölkələrdən Yaponiyaya ixracın artması, Yaponiya ilə Asiya-Sakit okean bölgəsi arasında insan mübadiləsinin yüksəlməsi ilə Yaponiyanın son illərdə adıçəkilən regionla münasibətləri xüsusilə yaxınlaşmışdır.

Çin Xalq Respublikası ilə əlaqələr Yaponiya üçün xüsusi əhəmiyyət kəsb edir. Yaponiya bu ölkə ilə bütün sahələrdə hərtərəfli əməkdaşlıq əlaqələrinə malikdir. Yaponiya Tayvanı ÇXR-in ayrılmaz hissəsi kimi tanısa da, qeyri-hökumət qurumları səviyyəsində Tayvanla əlaqələrə malikdir. İki ölkə arasında əlaqələrə mənfi təsir göstərən məsələ Senkaku/Dyao-Yu-Tai adalar qrupunun hansı ölkəyə məxsus olması ilə bağlı tərəflər arasında mövcud olan problemdir. İkitərəfli münasibətlərdə daha bir problem Dünya Ticarət Təşkilatında gedən proseslərə və Cənub-Şərqi Asiya ölkələri ilə iqtisadi sahədə əlaqələrin qurulmasına münasibətdə fərqli yanaşmaların mövcud olmasıdır.

Koreya Respublikası 1948-ci ildə müstəqillik əldə etdikdən sonra iki dövlət arasında müntəzəm olaraq danışıqlar aparılmış və 1965-ci ildə tərəflər arasında münasibətlərin normallaşdırılması haqqında müqavilə imzalanmışdır.

Yaponiyanın Koreya Xalq Demokratik Respublikasına münasibətdə həyata keçirdiyi siyasət iki istiqaməti ilə fərqlənir. Bu istiqamətlərdən birincisi Yaponiyanın nüvə silahlarına dair mövqeyi, ikincisi isə 1970-1980-ci illərdə KXDR-in qaçırdığı 13 Yaponiya vətəndaşının taleyi ilə bağlı mövcud olan problemlərdir.

Asiya ölkələri ilə münasibətlərin inkişafında Yaponiyanın Türkiyə ilə ənənəvi dostluq və əməkdaşlıq əlaqələri mühüm yer tutur. 1980-ci illərdən başlayaraq iki ölkə arasındakı münasibətlər sürətlə inkişaf edir və qarşılıqlı şəkildə yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri həyata keçirilir. Yaponiyanın Türkiyə ilə münasibətlərinə yanaşması ondan ibarətdir ki, Türkiyə reallıq və tarazlıq prinsiplərinə əsaslanan və regional sabitliyə dəlalət edən xarici siyasət həyata keçirməklə yanaşı, Qərbi və Şərqi Avropa və eləcə də yeni müstəqil dövlətlərlə dostluq və əməkdaşlıq əlaqələri saxlayır. Eyni zamanda, Türkiyə coğrafi nöqteyi-nəzərdən Asiya, Yaxın Şərq və Avropanın kəsişməsində yerləşdiyinə görə müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan, Türkiyə Yaponiyanın yardım göstərdiyi dövlətlər siyahısında ən vacib ölkələrdən biri hesab olunur.

Şərqin digər böyük dövləti İranla münasibətlər də dinamik şəkildə inkişaf edir. Yaponiyanın İrana münasibətdə həyata keçirdiyi siyasət, ilk növbədə, enerji təhlükəsizliyinə və nüvə silahlarına dair üç prinsipə əsaslanır. ABŞ-İran əlaqələrinin gərgin olmasından asılı olmayaraq, Yaponiya İranla dostluq münasibətlərini qoruyub saxlamaqla bu əlaqələri daha da inkişaf etdirməkdədir. Yaponiyanın 1979-1999-cu illər ərzində İrana qoyduğu birbaşa sərmayələrin həcmi 529 milyon ABŞ dolları təşkil etmiş, kreditlər üzrə əməkdaşlıq çərçivəsində isə qeyd olunan rəqəm 617 milyon ABŞ dollarına qədər yüksəlmişdir. İran, öz növbəsində Yaponiya ilə regional məsələlərdə, o cümlədən Əfqanıstanda həyata keçirilən bərpa işlərində ikitərəfli əməkdaşlığın genişləndirilməsinə çalışır.

Yaponiya diplomatiyasında Yaxın Şərq istiqaməti mühüm yerlərdən birini tutur. Ötən əsrin 90-cı illərindən başlayaraq Yaponiya Yaxın Şərq sülh prosesində fəal rol oynayır, sülh prosesinin çoxtərəfli danışıqları çərçivəsində iqtisadi və ətraf mühit məsələlərinin həllində iştirak edir. Ərəb dünyası ilə (xüsusən Səudiyyə Ərəbistanı və Misirlə) əməkdaşlığın möhkəmləndirilməsi və bu istiqamətdə ideyaların araşdırılması məqsədilə qeyri-rəsmi vasitə kimi Yaponiya-Ərəb Dialoqu Forumu yaradılmışdır.

Yaponiya enerji istehsal edən ölkələrlə müxtəlif səviyyəli strateji tərəfdaşlıq əlaqələri qurmağa səy göstərir. Ümumiyyətlə, enerji məsələlərində Yaponiyanın həyata keçirdiyi siyasət üç prinsipə - iqtisadi inkişaf, enerji təhlükəsizliyi və ətraf mühitin qorunması problemlərinə əsaslanır. Yaponiya beynəlxalq təşkilatlar çərçivəsində Asiyada enerji təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində iş aparır və enerji sektorunda əməkdaşlığın dərinləşdirilməsi konsepsiyasını təşviq edir.

İpək yolu diplomatiyası istiqamətində Yaponiyanın yanaşmasında siyasi, iqtisadi və mədəni aspektlər mövcuddur. İpək yolu üzərində yerləşən yeni müstəqil dövlətlərin sabitliyi geosiyasi baxımdan Avrasiya qitəsinin rifahı üçün mühüm amildir. Həmin ölkələr təbii enerji və mineral ehtiyatlarına görə Yaponiya üçün xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, Yaponiya həmin ölkələrlə mədəni əlaqələrin qurulmasına çalışır. 2002-ci ilin iyulunda Mərkəzi Asiya ölkələrinə və Azərbaycana "İpək yolu enerji missiyası"nın göndərilməsi bunun bariz nümunəsidir.

Yaponiya beynəlxalq terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəmir və bu problemin aradan qaldırılması üçün beynəlxalq təşkilatlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq edir. Yaponiya BMT-nin terrora qarşı mübarizəyə dair konvensiyalarına qoşulmuşdur və bu istiqamətdə bir sıra proqramlar həyata keçirir.


Yaponiya beynəlxalq və regional təşkilatlarla əlaqələrin genişlənməsinə və möhkəmlənməsinə xüsusi əhəmiyyət verir. Yaponi-


ya BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasını vacib hesab edir. Bununla bağlı Yaponiyanın mövqeyi ondan ibarətdir ki, dünyada sülh və sabitliyə təhlükələr yalnız çoxtərəfli səylər əsasında aradan qaldırılmalıdır. BMT yaradılan zaman Təhlükəsizlik Şurasına daimi üzv olan ölkələrin BMT büdcəsində payı 71,6% təşkil edirdisə, hazırda qeyd olunan rəqəm 38,7%-ə enmişdir (halhazırda Yaponiyanın BMT büdcəsində payı 20,6%-ə bərabərdir). Yaponiyanın BMT daxilində islahatlar problemino dair mövqeyi mərhələli prinsipə əsaslanır.

Mütəxəssislər Yaponiya iqtisadiyyatını "Yaponiyanın qeyri-kapitalist bazar iqtisadiyyatı" adlandırırlar. Yapon idarəetmə sistemi Qərbdə getdikcə populyarlaşır. Bu sistemin ən mühüm prinsiplərindən biri ondan ibarətdir ki, şirkətin bütün üzvləri qarşılıqlı öhdəliklər vasitəsilə bir növ "ailə" kimi bağlıdırlar. "Ailə" üzvü olmaq o deməkdir ki, "ailə" hər kəsin firavanlığı üçün hamının qarşılıqlı məsuliyyətinin nəzərdə tutulması prinsipini əsas götürür. Bu məsuliyyət təkcə işçiyə deyil, həm də özünün tabeliyində olanlara "böyük qardaş" kimi qayğı göstərməli olan menecerə aid edilir.

Gündoğar ölkə İkinci Dünya müharibəsindən sonra ABŞ-ın böyük maliyyə yardımından istifadə etməklə (məşhur *Marşall planı* məhz Yaponiyaya tətbiqən işlənib hazırlanmışdı) sənayenin və kənd təsərrüfatının inkişafı, əmtəə və xidmətlərin artımı sahəsində dünyada ən yüksək göstəricilərə nail olmuşdur. Bu gün dünya istehsalının 10%-i Yaponiyanın payına düşür. XX əsrin 90-cı illərinə qədər bu ölkədə ümumi daxili məhsulun orta illik artım göstəriciləri 8-10% həddində idi. Yaponiyanın sürətli iqtisadi tərəqqisini təmin edən amillər çox idi: yeni texnika və texnologiyalar, istehsalın və menecmentin təşkili sahəsində bəşəriyyətin son nailiyyətlərinə oriyentasiya, xalqın müstəsna əməksevərliyi, istehsal edilən məhsulların ən yüksək keyfiyyəti uğrunda mübarizə, ciddi qənaət - bu və digər amillər "yapon iqtisadi möcüzəsi"ni şərtləndirmiş və XX əsrin 80-ci illərinin axırlarında bu ada-dövlətin ümumi daxili məhsul istehsalına görə dünyada ikinci yeri (ABŞ-dan sonra) tutmasına

imkan vermişdir (bu barədə *bax:* **cədvəllər 21 və 21.1**). ABŞ-da ümumi əsas kapital yığımının həcmini 100% qəbul etsək, Avropada müvafiq göstərici 75-85%, Rusiyada 9%, Yaponiyada 136%-dir. Ümumi kapital yığımı müəssisələrin mənfəəti, əhalinin və bankların sərbəst vəsaitləridir. Bu vəsaitlər çox olduqda əmtəənin qiyməti aşağı düşür. Onda kredit ucuzlaşır, sərmayə qoyulmuş kapitalın gətirdiyi mənfəətin təkrar istehsalı sürətlənir, iqtisadiyyat sürətlə inkişaf edir.





Cədvəllər 21.; 21.1. ***1956-2010-cu illərdə Yaponiyada ÜDM-in real artım tempi***

Yaponiya dinamik inkişaf edən Asiya-Sakit okean regionuna güclü təsir göstərir. XX əsrin axırlarına qədər burada iqtisadi artım göstəricisi dünyanın bütün regionları arasında ən yüksək idi. Son 20 ildə Şərqi Asiya ölkələrinin demək olar ki, hamısında iqtisadiyyatın orta illik artımı 6%-dən çox olmuş, bəzən isə bu göstərici ikirəqəmli ədədlə ifadə edilmişdir. 1997-ci ildə Asiya-Sakit okean iqtisadi ittifaqının üzvü olan 18 ölkənin məcmu iqtisadiyyatı dünya üzrə ümumi daxili məhsulun yarısından çox olmuş və dünya üzrə ixracın 40%-dən çoxunu təmin etmişdir. 1978-ci ildə ABŞ-ın Asiya ilə ticarətinin həcmi ilk dəfə olaraq ABŞ-ın Avropa ilə ticarətinin həcmindən çox olmuşdur. 1997-ci ildə bu artım 1,5 dəfəyə çatmışdır. Ekspertlərin fikrincə, XXI əsrin birinci yarısında artım iki dəfəyə bərabər olacaqdır. Asiya-Sakit okean regionunun bu cür inkişafında Yaponiyanın elmi-texniki tərəqqiyə, yeni sənaye-istehsal modellərinə, əməyin və menecmentin təşkilinin yeni formalarına əsaslanması böyük rol oynamışdır.


Lakin XXI əsrin əvvəllərində Yaponiya iqtisadiyyatı böhranla üzləşmişdir. Qlobal maliyyə böhranı şəraitində ümumi daxili məhsul artımının zəif olması ölkə hökumətini altı sahədə: siyasətdə, iqtisadiyyatda, pul tədavülü, sosial təminat, maliyyə və təhsil sahələrində inzibati islahatlar aparmaq kursunu elan etməyə məcbur etmişdir.

4.6. Koreya Respublikası: iqtisadi möcüzələr ölkəsi

Koreya (Koreya dilində *Çoson* - səhər təravəti ölkəsi) Şərqi Asiyada, əsasən, Koreya yarımadasında, ona bitişik materik hissədə və adalarda yerləşir. Çin, Rusiya, Sarı dəniz və Koreya boğazı ilə sərhədlənir. Cənub və şimal hissələrinə bölünməzdən əvvəl ölkənin ərazisi 220,8 min kvadratkilometrə bərabər idi. Əhalisi çxondoqyo, siçxonqyo və digər sinkretik təriqətlərə mənsub buddistlər, az bir qismi xristianlardan ibarətdir.

Koreya Neolit dövründən başlayaraq məskunlaşmışdır. Şərqi Asiyada ən qədim yaşayış məskənlərindən biri Çxunçxon - Namdo əyalətinin Koncu şəhəri yaxınlığında Sokçanni düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmişdir. Qazma tipli bu

Xəritə 45. ***Cənubi Koreya (Koreya Respublikası)***



yaşayış yerində əmək alətləri, daş, heyvan fiqurları tapılmışdır. Qayaüstü rəsmlər, qədim maddi mədəniyyət nümunələri, zəngin təbii sərvətlər burada sivilizasiyanın min illər boyu təşəkkül və inkişafını sübut etsə də, ölkənin tarixi və mədəniyyəti ilə bağlı açılmamış sirlər, məqamlar hələ də çoxdur. Bütün Koreya yarımadasında geniş yayılmış Erkən Neolit mədəniyyəti abidələri, əsasən, eradan əvvəl VII - VI minillikləri əhatə edir. Bu dövrdə əhali çay və dəniz balıqçılığı, ovçuluqla məşğul olurdu. V minillikdən başlayaraq

əkinçilik və maldarlıq meydana gəldi. Eradan əvvəl II minillikdə koreyalılar tunc istehsalına yiyələndilər.

Koreya yarımadası Asiyanın materik hissəsi ilə Yaponiya adaları arasında bir növ körpü rolunu oynadığından Koreyanın zəngin təbii sərvətləri daim Çin və Yaponiyanın diqqətini özünə cəlb etmiş, tez-tez müharibələrə səbəb olmuşdur. Eradan əvvəl I minillikdə Koreyada ilk dövlətlər - Çoson, Puye, Maxan meydana gəldi. Çosonun yarandığı dəqiq tarix və coğrafi ərazisi barədə elmi diskussiyalar bu gün də davam edir. Koreya alimlərinin fikrincə, bu dövləti yaradan tayfalar Koreya yarımadasının şimalında müasir Çinin şimal-şərq hissəsində yaşayırdılar.

Dövrümüzədək gəlib çatmış və XIII əsrə aid edilən Samquk yusa (Üç dövlətin tarixinə dair əlavə) yazılı abidəsində öz əksini tapmış əfsanəyə görə, Göy hakimi və "qadın-ayı"nın oğlu olan *Tanqun* bizim eradan əvvəl 2333-cü ildə Çoson adı almış dövlətin əsasını qoymuşdur. Cənubi Koreya tarixçiləri məhz bu tarixə istinad edirlər.

Eradan əvvəl 109-cu ildə çinlilər Çosonu tutdular, ölkə idarəçiliyin asanlaşdırılması məqsədilə dörd hissəyə bölündü. Ölkənin bölünməsi yerli əhalinin ciddi narazılığına səbəb olduğundan üç dairə yenidən birləşdirildi. Çinlilərə qarşı mübarizənin gedişində erkən feodal dövlətləri - Koquryo, Pekçe, Silla yarandı. Koquryonun paytaxtı Ammokkan çayının orta axınında, sağ sahildə yerləşən Kunneson şəhəri idi. Eradan əvvəl 37-ci ildə yaranmış bu dövlət müasir Çinin şimal-şərq ərazilərini də özünə birləşdirmişdi. 313-cü ildə Koquryo Lolan dairəsini zəbt edərək Koreya yarımadasının şimal hissəsini tutmağa çalışdı.

Koreya yarımadasının cənubunda yaranmış "samxan" tayfa birlikləri isə cənub-qərbdə Maxan torpaqlarında Pekçe (e.ə.18-ci il) və cənub-şərqdə müasir Kyoncu şəhəri yaxınlığında Pyonxan torpaqlarında (e.ə.57-ci il) Silla dövlətinin əsasını qoydular. Bu dövrdə Naktonqan çayının münbit deltasında Kaya (Tekaya) dövlət qurumu da meydana gəldi. Eradan əvvəl I əsrdən başlayaraq eramızın VII əsrinə qədər Koreya yarımadasında hökmranlıq uğrunda bu üç

dövlət arasında gərgin mübarizə getdi. Koquryo vanı (kralı, 391-412-ci illər) *Kvanqetxo* V əsrin əvvəlində Pekçe dövlətini Xanqan çayı vadisində və əvvəllər Çinxan adı ilə tanınan bütün mərkəzi vilayətdəki torpaqlarından məhrum etdi. Lakin Koquryonun paytaxtı Pxenyana köçürməsindən sonra yarımadada güclənən qüvvələr onu arxa tərəfdən təhdid etməyə başladılar. Pekçe və Sillanın birləşməsi vəziyyəti daha da gərginləşdirdi.

500-cü ildə Koquryo Xanqan çayı hövzəsindəki əraziləri itirdi. Həmin əraziləri ələ keçirən Silla strateji üstünlük qazandı və Sarı dəniz vasitəsi ilə Çinlə birbaşa əlaqələr yaratdı. 562-ci ildə Silla Tekayanı da özünə birləşdirdi. Koquryo və Pekçeyə qarşı mübarizədə Silla Çinin Tan hökmdarları ilə əlaqə yaratmaq niyyətində idi. Suy sülaləsinin (589-619) imperatorları iki dəfə hücuma keçsələr də, Koquryo sərkərdəsi *Munduk* tərəfindən məğlubiyyətə düçar edildilər. Bu məğlubiyyətin əvəzini çıxmağa çalışan Tan hakimləri Silla krallığının müttəfiqlik təklifinə dərhal razılaşdılar. Kral *Muryol,* sərkərdə *Kim Yusin* komandanlığı altında olan ordular Tan hökmdarının köməyi ilə 660-cı ildə Pekçe, 668-ci ildə Koquryo üzərində qələbə qazandılar.

Bu üç dövlətdə mədəniyyət, elm və incəsənət yüksək inkişaf etmişdi. Pekçe mədəniyyəti qədim yapon mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir. Koquryo hökmdarlarının məqbərələri möhtəşəm naxışlarla bəzədilmişdir. Silla krallarının dəfn olunduğu məqbərələrdən nadir qızıl taclar aşkar edilmişdir. Dekorativ oymalar, qızıl məmulatlar, budda heykəlləri və digər mədəniyyət abidələri bu dövrün zəngin tarixinə işıq salır.

Tan sülaləsi Koquryo və Peçkenin torpaqlarında möhkəmlənmək niyyətində idi. Lakin geniş xalq kütlələri Tan sülaləsinə qarşı mübarizəyə qalxdı. Belə vəziyyətdə Silla dövləti də öz keçmiş müttəfiqinə qarşı çıxdı. 676-cı ildə Tan sülaləsi qovuldu və Silla Tedonqan çayından cənuba Koreya yarımadasının bütün torpaqlarını birləşdirə bildi.

Uzunsürən müharibələrə son qoyulması ölkə iqtisadiyyatının, elmin, mədəniyyətin inkişafına əlverişli şərait yaratdı, əkinçilik,

sənətkarlıq dirçəlməyə başladı. Lakin məmurlara, din xadimlərinə böyük torpaq sahələrinin verilməsi feodal mülkiyyətinin güclənməsinə, mərkəzləşmiş hakimiyyətin zəifləməsinə gətirib çıxardı. IX əsrdə feodal pərakəndəliyi başlandı.

Sərkərdə *Van Qonun* 918-ci ildə yaratdığı Koryo (Koreyanın adının bu sözdən götürüldüyü bildirilir) dövləti 935-ci ildə ölkəni birləşdirdi. 1231-ci ildə monqol qoşunları Koryo torpaqlarına hücum etdi. 1259-cu ildə ölkə monqol hakimiyyətinə tabe oldu. XIV əsrin ortalarında Koryo monqol xanlarının vassal asılılığından azad oldu. 1392-ci ildə Koryo sərkərdələrindən *Li Son Qe* özünü kral elan edərək Li sülaləsinin (1392-1910) əsasını qoydu. Bundan sonra Koryo dövləti qədim Çosonun şərəfinə Çoson adlandırıldı və paytaxt Keqyondan Xansona (indiki Seul) köçürüldü.

XVI əsrin sonunda yaponlar, XVII əsrin əvvəlində mancuriyalılar Koreyaya hücum etdilər. 1592-98-ci illərdə Koreya xalqı azadlıq mübarizəsinə qalxaraq yapon işğalçılarını qovdu.

XVII-XX əsrlərdə Koreya gah Çin, gah da Yaponiya ilə ağır mübarizə şəraitində öz varlığını qoruyub saxlamışdır.

1904-1905-ci illər Rusiya-Yaponiya müharibəsində Rusiyanın məğlubiyyəti yaponların əl-qolunu açdı. 1905-ci ildə İngiltərə-Yaponiya ittifaqı barədə müqavilənin və Yaponiya-ABŞ sazişinin imzalanması Yaponiyaya Koreya üzərində öz protektoratını yaratmaq imkanı verdi. 1910-cu ildə Yaponiya formal olaraq Koreyanı anneksiya etdi.

1945-ci ilin sentyabrında Yaponiya İkinci Dünya müharibəsində danışıqsız təslimolma aktını imzaladı və Koreya Yaponiya işğalından azad oldu. ABŞ qoşunları Cənubi Koreyaya girdilər. Yalta (fevral, 1945), Potsdam (iyul-avqust, 1945) sazişlərinin imzalanmasından və 1945-ci ilin dekabrında SSRİ, ABŞ və Böyük Britaniya xarici işlər nazirlərinin Moskva müşavirəsinin qərarından sonra Koreya 38-ci paraleldən şimala - sovet, cənuba - ABŞ zonalarına bölündü. 1948-ci il avqustun 15-də *Li Sın Man* Prezident olmaqla cənubda Koreya Respublikası, sentyabrda isə şimalda Prezident

Kim İr Sen başda olmaqla Koreya Xalq Demokratik Respublikası yaradıldı. Beləliklə, Koreya iki yerə bölündü.

Koreya Respublikası Koreya yarımadasının cənub hissəsini tutur. 1948-ci il 17 iyul Konstitusiyasına görə Koreya birbaşa, ümumi seçki yolu ilə seçilən Prezident başda olmaqla demokratik respublikadır. Dövlət hakimiyyəti üç qola bölünmüşdür: icraedici, qanunverici (birpalatalı parlament) və məhkəmə hakimiyyəti. Prezident bir dəfə və 5 il müddətinə seçilir. O, icra funksiyasını Dövlət Şurası vasitəsilə həyata keçirir. Ölkə parlamenti birpalatalı Milli Məclisdir. Parlament birmandatlı seçki dairələrindən 4 il müddətinə seçilən 227 deputatdan və səs verən seçicilərin 3 faizdən çoxunun səsini toplaya bilmiş, siyasi partiyalardan proporsional nümayəndəlik sisteminə müvafiq olaraq seçilmiş 46 deputatdan ibarətdir. Məhkəmə sistemi Ali Məhkəmədən, Yüksək Məhkəmədən və Patent Məhkəməsini, Ailə Məhkəməsini, Administrativ Məhkəməni özündə birləşdirən Dairə məhkəmələrindən ibarətdir.

1950-ci ildə Şimali Koreya Cənubi Koreyaya hücum etdi. ABŞ Cənubi Koreyanın müdafiəsi üçün BMT-nin himayəsi altında çoxmillətli silahlı qüvvələr formalaşdırdı. Çin isə Şimali Koreyanın tərəfində müharibəyə qoşuldu. 1953-cü ildə Koreya müharibəsi başa çatdı və sülh sazişi imzalandı.

Prezident seçkilərinin saxtalaşdırılmasına qarşı tələbələrin güclü çıxışları nəticəsində *Li Sın Man* istefa verməyə məcbur oldu (1960). Yaranmış vəziyyətdən istifadə edən general *Pak Çonxi* Baş nazir *Çan-Mönün* demokratik hökumətini devirərək hakimiyyətə gəldi, ölkənin iqtisadi inkişaf proqramının işlənib-hazırlanmasına başlanıldı.

"Şərqi Asiya möcüzəsi"nin ötən 40 illik dövründə Koreya misli görünməmiş inkişaf yolu keçərək dünyanın iqtisadi və ticari cəhətdən ən güclü dövlətləri sırasında 10-cu yerə yüksəlmişdir. Bu, yüksək investisiya və qənaət tarifləri, elm və təhsilin inkişafı sayəsində mümkün olmuşdur. Koreyada gənclərin 81,3 faizi kollec və uni-

versitetlərdə oxuyur ki, bu da dünyada ən yüksək göstəricilərdən biridir.

Ötən illər ərzində Koreya iqtisadiyyatının strukturu çox dəyişmişdir. Avtomobil sənayesi, elektronika, gəmiqayırma, polad və kimya sənayesi iqtisadiyyatın infrastrukturunda əsas yer tutur. Ümumi daxili məhsulun artım tempi 1999-cu ildə 9,5%, 2000-ci ildə 8,5%, 2010-cü ildə 4,6% təşkil etmişdir. Adambaşına düşən ÜDM həcmi 14,162 dollardır.

Koreya informasiya texnologiyaları sənayesinin əsas ixracat məhsulları yarımkeçirici yaddaş qurğuları, mobil telefonlar, monitorlar, maye kristal displeylər, fərdi kompyuterlər, peyk verilişləri üçün qəbuledicilər, mühüm idxal məhsulları isə bəzi yarımkeçiricilər, məlumatların ötürülməsi üçün cihazlar və iri hesablama maşınlarıdır.

Koreya Respublikası yarımkeçiricilər sənayesi sahəsində böyük uğurlar qazanmışdır və hazırda istehsal həcminə görə dünyada 3-cü yerdədir. 1998-ci ildən Koreya dinamik OZU (D-RAM) sahəsində ən iri istehsalçıdır və ZU yarımkeçiricilərinin istehsalı üzrə 2-ci yeri tutur.

Elektron-şüa borularının aparıcı istehsalçısı olan Koreya bu gün həm də düzsəthli-lövhə displeylərinin əsas istehsalçısına çevrilmişdir. 1999-cu ildən başlayaraq maye-kristal displeylərin ixracı hər il 80 faizdən çox artır.

Dünya bazarında Koreya avtomobillərinə tələbat da durmadan yüksəlir. Gəmiqayırma sənayesi üzrə Koreya dünyada ilk yerlərdən birini tutur.

İqtisadiyyatın dinamik inkişafı Koreya Respublikasının qızıl-valyuta ehtiyatlarının yüksək sürətlə artması ilə nəticələnir. Hazırda dünyanın bir çox ölkələri Koreya iqtisadiyyatına inamla investisiya yatırırlar.

Koreya təbii resurslarla zəngindir. Cənubi Koreyada daş kömür, volfram, qrafit, molibden, qurğuşun, dəmir filizi, sink, mis, marqans, nikel, qızıl, gümüş, həmçinin atom energetikası və hərbi sənayedə işlədilən monasit və torium yataqları vardır. Ötən əsrin

70-ci illərindən başlayaraq meşələrin bərpası proqramı həyata keçirilir.

Ölkənin yeni rəhbərliyi maliyyə, korporativ və dövlət sektorlarında, həmçinin əmək bazarında islahatlar aparır, azad bazar prinsiplərinin tərəfdarı kimi xarici investorların etimadını möhkəmləndirməyə çalışır. Birbaşa xarici investisiyaların cəlb olunması məqsədilə müxtəlif stimullardan, o cümlədən vergitutmadan azad edilməkdən, vergi normalarının azaldılmasından istifadə olunur.

"SAMSUNQ elektroniks","HUNDAY motors", "POSKO", "LC elektroniks" ölkənin ən iri şirkətləridir.

Ölkənin sürətli inkişafı daha qabaqcıl və dinamik tədqiqatlar və təcrübi-konstruktor işləri aparılmasını tələb etdiyi üçün Koreyada elm və texnologiya sahəsində nailiyyətlər daim artmaqdadır. Texnologiya sahəsində investisiyaların həcmi son illərdə bir neçə dəfə artmışdır. Nəticədə beynəlxalq ticarət nişanları və patent nəşrlərində, elmi ədəbiyyatın biblioqrafik istinad göstəricilərində qeydə alınmış elmi nəşrlərin sayı və həcmi artmışdır. Beləliklə, patentlərin qeydiyyatı, texnologiyaların ixracı və ümumi maarif səviyyəsi nəzərə alınmaqla BMT-nin İnkişaf Proqramı tərəfindən işlənib hazırlanmış, elmi və texnoloji inkişaf göstəricilərinə görə Koreya dünyada 5-ci yeri tutur.

V Fəsil

YAXIN VƏ ORTA ŞƏRQ DÖVLƏTLƏRİNİN GEOSİYASƏTİ

5.1. Yaxın və Orta Şərqdə geosiyasi transformasiyalar


Tarixi zənginliklərin və ifrat zorakılığın cəmləşdiyi *(F.Moro-Defarj)* Yaxın və Orta Şərq[1] öz geosiyasi dəyərini iki geotarixi amilin birləşməsindən əldə edir. İlk növbədə, söhbət Şərq və Qərb arasındakı ticarət yollarının (xüsusən də ipək və ədviyyatın hərəkət etdiyi) keçid bölgələrdən birindən gedir. Daha sonra, birinci ilə sıx əlaqədə olan ikinci amil Yaxın və Orta Şərqin imperiyaların, mədəniyyətlərin (məsələn, Roma, daha sonra Bizans və sasanilər; ərəblər və sasanilər; səlcuqilər və monqollar; Osmanlı imperiyası və İran; nəhayət, XIX əsrdə Osmanlı imperiyası, Britaniya imperiyası (Hindistan yolları) və Rusiya imperiyası (isti dənizlərə doğru yürüş) toqquşduğu və bir-birinə qarışdığı aralıq məkanlardan biri olmasıdır. Eyni zamanda, İkinci Dünya müharibəsindən 80-ci illərə qədər Yaxın və Orta Şərq ABŞ-ın (şah dövrü İranı, Səudiyyə Ərəbistanı və Fars körfəzi əmirlikləri ilə müttəfiqlik) və SSRİ-nin (heç də həmişə uğurlu olmayan formada *Səddam Hüseyn* İraqına dəstək olmaq cəhdləri) dolayı strategiyalarının həyata keçirildiyi geosiyasi səhnənin ən qeyri-sabit nöqtələrindən biri idi.

Bütövlükdə, Yaxın və Orta Şərq "barıt çəlləyi"nə bənzəyir. Bu çəllək təkcə geosiyasi sərhədləri partlatmaqla kifayətlənməyib, həm də insanların qəlblərini qızışdırır.

Tarixən bu region çoxsaylı regional müharibə və münaqişələrə məruz qalmışdır. Uzun illərdir ki, bu bölgədə elan edilməmiş müharibə gedir. İkiqütblü dünya nizamı dağılandan sonra regionun çoxölçülü (geosiyasi, geoiqtisadi, sosiomədəni, konfessional) kommunikasiya məkanı, əslində, yenidən bölünməyə başlanmışdır. Üç sivilizasiyanın sərhədində yerləşən Yaxın və Orta Şərqin transformasiyasını anlamaq üçün keçmişdəki iri geosiyasi problemlərin mahiyyətinə müraciət etmək zəruridir. Postbipolyar dünyada bir

[1] Qərbi Asiya və Şimal-Şərqi Afrikada yerləşən ərazilərə verilən ad. Türkiyə, İran, Livan, Suriya, İordaniya, İsrail, Sudan, Misir, İraq, Səudiyyə Ərəbistanı, Yəmən, Qətər, Küveyt, Oman, Kipr, BƏƏ, Bəhreyn Yaxın və Orta Şərq ölkələridir.

Xəritə 46. ***Yaxın və Orta Şərq***



neçə onillik ərzində fövqəldövlətlərin kölgəsində qalmış Yaxın və Orta Şərq məsələsi yenidən kəskinləşmiş, çoxsaylı etnik-milli və etnik-konfessional münaqişələr üzə çıxmışdır.

Geosiyasi transformasiyanın dinc ssenari çərçivəsində getməməsi milli əlamət üzrə ayrı-seçkilik kimi partlayış təhlükəli variantların ortaya atılması ilə nəticələndi. Ticarət və digər iqtisadi kommunikasiyaların yaradılmasına üstünlük vermək əvəzinə, bəzi region ölkələrinə qarşı embarqo tətbiq edildi, bu isə bölgədə qeyri-sabitliyin daha da güclənməsinə səbəb oldu, burada əhalinin xeyli hissəsi qanuni dolanışıq vasitələrindən məhrum oldu. Regionda elan edilməmiş geoiqtisadi müharibə nəticəsində dərin iqtisadi periferiya yarandı. Sivilizasiyaların sərhədlərində (titul etnoslar fərqləndirilməklə) milli dövlətlər yaratmaq üçün dəfələrlə göstərilən cəhdlər Yaxın və Orta Şərq xalqlarına saysız-hesabsız fəlakətlər gətirdi.

Zəngin təbii ehtiyatlara malik olan Yaxın və Orta Şərq regionu başqa ölkələrin və sivilizasiyaların buraya hərbi müdaxiləsi və bölgənin təbii ehtiyatlarının ələ keçirilməsi üçün sınaq meydanını xatırladır. OPEK (neft ixrac edən ölkələr təşkilatı) kimi dövlətlərarası strukturların yaradılması siyasi cəhətdən inteqrasiya etməmiş ölkələr qruplarının region üçün sərfəli, qonşu sivilizasiyaların geoiqtisadi ekspansiyasının məhdudlaşdırılmasına əsaslanan qərarlar qəbul etməsinə imkan verir. Yüksək texnologiyaların olmaması isə kənar qüvvələrə müqavimət göstərmək imkanına mənfi təsir göstərir. İraq müharibəsi (2003-2010) bunu əyani şəkildə nümayiş etdirdi.

Lakin bəzi ölkələr ya artıq nüvə silahına malikdir, ya da onu əldə etməyə çox yaxınlaşmışdır. Məsələn, Pakistan nüvə silahına malikdir. Bu, Hindistanın bu regiona təsirini zəiflətməyə imkan verir. İranın tezliklə nüvə silahı əldə etməsi isə Qərbin, xüsusən Birləşmiş Ştatların bölgəyə təsirini dayandırmaq mümkün olmasa da, heç olmasa bu prosesi məhdudlaşdırmaq ehtimalını yaradır.

Əsasən tellurokratik zona olan ərəb-islam regionu mürəkkəb geosiyasi infrastruktura malikdir. Bu yekcins olmayan bölgədə bə-

rabər qüvvəli çoxsaylı oyunçuların maraq zonalarının üst-üstə düşməməsi daim gərginliyə və münaqişələrin genişlənməsinə gətirib çıxarır. Çoxsaylı etnik və dini ziddiyyətlər regionun vahid geosiyasi meydan şəklində birləşməsinə mane olur, digər sivilizasiya təmsilçiləri isə bu vəziyyətdən istifadə edərək regionda daim ekspansiya törədirlər. Məsələn, ABŞ dəfələrlə Yaxın Şərqə müdaxilə etmiş, SSRİ Əfqanıstana qoşun yeritmiş, Hindistan isə Cammu və Kəşmir əyalətini işğal etmişdir. Beynəlxalq münasibətlərin Afrika seqmentində isə qəbilələr arasında müharibələr Şimali Afrikanın ərəb ölkələrini də bu münaqişəyə sövq edir.

Ərəb və müsəlman ölkələrinin birləşməsinin mümkünlüyü haqqında nəzəri müddəalara baxmayaraq inteqrasiya proseslərində real uğurlar yoxdur. Bununla belə, panislamizm nəzəriyyəsi əsasında mərkəzçi islam inteqrasiyası regionda fəaliyyət göstərən siyasi partiyaların çoxunun, qeyri-hökumət silahlı dəstələrinin isə demək olar ki, hamısının ideologiyasının əsasıdır. Yaxın və Orta Şərqdə ən azı *4 geosiyasi cazibə mərkəzi* vardır. Bu mərkəzlərin fərqli cəhətlərinə baxmayaraq onlar əsasən sabitləşdirici amil kimi çıxış edir. Onların geosiyasi təsir zonaları kimi inteqrasiya ssenariləri də müxtəlifdir.

Süveyş kanalının hər iki tərəfində əlverişli mövqeyə malik olan Misir (bu mövqe onun sürətlə inkişaf edən iqtisadiyyatını sosiyyələndirir) Aralıq dənizinin cənub və şərq sahillərində liderlik iddiasındadır. Bu dövlətin güclənməsi və Avropanın siyasətində iştirak etməsi perspektivdə onu Yaxın Şərq ölkələrində silahlı qüvvələr yerləşdirilməsi üçün əlverişli məkana çevirir. Suriya və Livanla inteqrasiya məsələsində öz qüvvələrini birləşdirməklə Misir ərəb dünyasının cazibə mərkəzinə çevrilə bilər.

Regional proseslərdə fəal iştirak edən Türkiyə bu bölgəyə güclü təsir göstərir, çünki onun maraq zonası həm də region ölkələrinin çoxunun maraq zonasıdır. Lakin Türkiyə və digər müsəlman ölkələrinin ortaq dinlə bağlılığı onun bölgənin digər mühüm dövləti İsraillə münasibətinə şəksiz təsir göstərir.

İran öz geosiyasi təsirini islam inqilabı nəzəriyyəsi əsasında həyata keçirir. Məsələ burasındadır ki, XX əsrin ortalarına qədər bu region Böyük Britaniya, Fransa və Almaniyanın müstəmləkə əraziləri olmuşdur. İmperiyalar süqut edəndən və bipolyar sistem yaradılandan sonra isə regionda üç qüvvə - Qərbə loyal (Səudiyyə Ərəbistanı), sosialist yönümlü (İraq, Misir) və öz ideologiyasını ya ərəb etnik identikliyi, ya da dini müsəlman identikliyi əsasında quran tradisionalistlər fəaliyyət göstərirdi. Regionun sosialist və qərbpərəst qüvvələrdən azad edilməsi İran və *Ayətullah Xomeyni* başda olmaqla islam mərkəzçiliyinin inkişafına ciddi təkan vermişdir. Vəhhabiliyin, Səudiyyə Ərəbistanının rəsmi dini olan ortodoksal islamın "ixracı" bu dövlətin nüfuz dairəsinin genişlənməsinə şərait yaratmışdır. Onu da qeyd etmək lazımdır ki, müsəlmanların müqəddəs ziyarətgahları məhz bu dövlətin ərazisində yerləşir, bu isə başqa dövlətlərin bir-birinə rəğbət və antipatiya hisslərinə təsir göstərir. Səudiyyə Ərəbistanının maraq dairəsi bəzən Ərəbistan yarımadasının hüdudlarından kənara çıxır, lakin başqa oyunçulardan fərqli olaraq bu dövlətin maraq dairəsi daha yığcamdır. Birləşmiş Ştatlarla əlaqələrin yaxşı səviyyədə olması Ər-Riyadın qonşu dövlətlərə inamla təsir göstərməsinə imkan verir.

Özünün coğrafi mövqeyi və siyasi quruluşu ilə əlaqədar İsrail Aralıq dənizi ittifaqı layihəsində ən mühüm tərəfdaş və Avro-Aralıq dənizi əməkdaşlığına dair Barselona prosesinin fəal iştirakçısıdır. Avropa İttifaqının təşəbbüsü ilə inşa edilməsi nəzərdə tutulan çox perspektivli Şimali Afrika təbii qaz kəmərinin ən mühüm tərkib hissəsi İsraildir. İsrail Avropa İttifaqı üçün olduqca perspektivli olan Şimali Afrika təbii qazını nəql edəcək gələcək qaz kəmərinin ən mühüm hissəsidir.

Yaxın və Orta Şərq ölkələrinin yüksək etnik-mədəni potensialı hazırda Şimal ölkələrinin üzləşdiyi kəskin demoqrafik problemlərin burada yaranmayacağına təminat verir. Əhalinin başqa ölkələrə miqrasiyası müsəlman elementinin demək olar ki, assimilyasiyaya məruz qalmadan onun kulturoloji meydana daxil edilməsinə imkan verəcəkdir. Əksər hallarda məhz bu amil Afrikanın Əlcəzairdən və

Sudandan cənubda yerləşən qeyri-müsəlman ölkələrində Yaxın və Orta Şərqin nüfuz dairəsinin genişlənməkdə davam etməsi üçün zəmin yaradır. Bu ölkələr arasında kollektiv təhlükəsizlik haqqında razılaşma yoxdur, lakin bu cür razılaşma olacağı təqdirdə də onu əməli şəkildə gerçəkləşdirmək hələlik mümkün deyil. Bunun əvəzinə mövcud mürəkkəb sistemdə işğala məruz qalmış ölkəyə hərbiləşdirilmiş qeyri-hökumət təşkilatlarının yaraqlıları və bəzi ölkələr tərəfindən dəstəklənən terrorçular göndərilir. Eyni zamanda, bu təşkilatlar regional siyasətə çox ciddi təsir göstərirlər, çünki bir sıra dövlətlərdə öz nümayəndəlikləri və təlim-məşq düşərgələri olan həmin təşkilatlar, əslində, beynəlxalq status əldə etmişdir.

Region ölkələrinin dəniz sərhədi baxımından çox əlverişsiz mövqeyə malik olması onların öz iqtisadiyyatını dəniz ticarətinə istiqamətləndirməsinə, iri, o cümlədən hərbi donanmaya malik olmasına imkan vermir. Aralıq dənizi donanması Cəbəllütariq (Gibraltar) boğazında mühasirəyə alına bilər, Hind okeanı sahillərində isə bu ərazidə geoiqtisadi əhəmiyyətə malik olan limanlar və yollar yoxdur. Bu fakt region iqtisadiyyatının inkişafına mənfi təsir göstərir. Qeyd etmək lazımdır ki, malik olduğu sanballı maliyyə imkanlarına və resurslara baxmayaraq, Yaxın və Orta Şərq dövlətləri hələ də iqtisadi çətinliklər çəkir və "Üçüncü dünya" ölkələri səviyyəsində qalır. Hərçənd, zəngin təbii və insan ehtiyatlarına, faydalı qazıntılara malik olan BƏƏ-ni və Səudiyyə Ərəbistanını, Türkiyəni və İsraili, Küveyti və Qətəri "inkişaf etməkdə olan ölkələr" sırasına aid etmək çətindir.

Lakin çoxmərkəzlik şəraitində Yaxın və Orta Şərq regionu dövlətlərinin perspektivi aşağıdakı səbəblərə görə olduqca maraqlıdır: 1) dünyada ən zəngin enerji ehtiyatları mənbəyinin olması; 2) geniş bir məkanı əhatə edən mühüm strateji ərazilərə malik olması; 3) əhalinin sayının get-gedə artması, yəni geodemoqrafiya amili.

5.2. Türkiyənin geosiyasəti

Regionun böyük və qüdrətli dövlətlərindən olan Türkiyə Qərbi Asiyada və Avropanın cənub-şərqində yerləşir. Ərazisinin (783,562 kv. km) təqribən 97%-i Kiçik Asiya (Anadolu) yarımada-

sında, təqribən 3%-i Avropada, Balkan yarımadasının cənub-şərqindədir. Şimal-şərqdə Gürcüstan, Ermənistan və Azərbaycanla, şərqdə İran, cənub-şərqdə İraq və Suriya, şimal-qərbdə Bolqarıstan və Yunanıstanla həmsərhəddir. Şimalda Qara dəniz, cənub-qərbdə Mərmərə dənizi, qərbdə Egey dənizi, cənubda Aralıq dənizi ilə əhatə olunur. Quru sərhədlərinin uzunluğu 2632 km (o cümlədən 11 km Azərbaycan ilə), dəniz sərhədlərinin uzunluğu 5483 km, sahil xəttinin uzunluğu 7 min km-dən çoxdur. Egey dənizində bir neçə ada Türkiyəyə məxsusdur. Bosfor və Dardanel boğazları, Mərmərə dənizi Türkiyənin Avropa hissəsini Asiya hissəsindən ayırır. Təbii ehtiyatlarla o qədər də zəngin olmayan Türkiyənin insan resurslarını illik artımı 2,2% olmaqla 75 milyon nəfər əhali təşkil edir. Əhalinin təqribən 90%-i türklərdir; kürdlər, ərəblər, çərkəzlər (adıgelər, ubıxlar, çeçenlər, osetinlər, ləzgilər və digər Qafqaz xalqları nəzərdə tutulur), azərbaycanlılar, lazlar, gürcülər, türkmənlər, bolqarlar, albanlar, ermənilər, yəhudilər və yunanlar da yaşayır.

Türkiyə parlament respublikasıdır. Dövlət başçısı - Prezident xalq tərəfindən 5 il müddətinə iki dəfə seçilir. Prezidentin fəaliyyət qabiliyyəti olmadıqda və ya vəfat etdikdə onun səlahiyyətlərini parlamentin sədri icra edir. Qanunverici hakimiyyət Türkiyə Böyük Millət Məclisinə məxsusdur. TBMM gizli səsvermə yolu ilə 550 deputat tərkibi ilə 5 il müddətinə seçilir. Deputatlar partiya siyahıları üzrə proporsional sistem ilə seçilirlər. İcraedici hakimiyyət Baş nazirin rəhbərlik etdiyi Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Baş nazir Prezidentin təklifi ilə parlament tərəfindən 4 turdan ibarət səsvermə yolu ilə seçilir. Nazirlərin siyahısı Baş nazirin təklifi ilə parlamentdə müzakirə edilir və təsdiq üçün Prezidentə təqdim olunur. Ali məşvərət orqanı - Milli Təhlükəsizlik Şurasının tərkibi, bir qayda olaraq, ümumi seçkilərdən sonra müəyyən edilir. Tərkibinə Prezident, Baş nazir, hökumətdə təmsil olunan siyasi partiyaların sədrləri, daxili və xarici işlər nazirləri, təhlükəsizlik təşkilatı və ordu rəhbərliyi daxildir. Şura ölkənin daxili və xarici siyasətinə dair hökumətə tövsiyələr verir.

Türkiyə inkişaf etmiş sənaye-aqrar ölkəsidir. Kömür, neft, xrom (dünyada ilk yerlərdən biri), dəmir, manqan, mis, bor və s. filizlər çıxarılır. Tamlı məhsullar, toxuculuq, kimya sənaye müəssisələri var, tikinti materialları istehsal edilir. Qara və əlvan metallurgiya, neft emalı, maşınqayırma inkişaf etmişdir. Kənd təsərrüfatının başlıca sahəsi əkinçilikdir; taxıl, pambıq, tütün (istehsalı və ixracına görə dünyada ilk yerlərdən biri), şəkər çuğunduru, paxla, buğda, sitrus, yağverən bitkilər, çay becərilir. Üzümçülük, meyvəçilik inkişaf etmişdir. Zeytun, əncir, qoz ağacları plantasiyaları var. Heyvandarlıq geniş yayılmışdır. Barama yetişdirilir. Balıq ovlanır, ağac tədarük edilir. Kənd təsərrüfatı, emal və hasiledici sənaye məhsulları ixrac olunur.

Son iyirmi il ərzində Türkiyədə həyata keçirilən iqtisadi islahatlar ciddi dəyişikliklərlə nəticələnmişdir. Azad bazar prinsiplərinin geniş tətbiq edildiyi ölkə iqtisadiyyatı mühüm kəmiyyət və keyfiyyət dəyişikliyinə məruz qalmış, yeni istehsal münasibətlərinin inkişafı güclü təkan almışdır. Açıq xarici ticarət siyasətinin həyata keçirilməsi ilə iqtisadiyyatın bir çox sahələrində davamlı inkişaf təmin edilmişdir. Sərt rəqabətin hökm sürdüyü dünya bazarlarında ölkə sürətlə irəli atılmışdır. Türkiyənin ixracatı son illər ərzində bir neçə dəfə artaraq 2010-cu ildə 121 milyard dollara çatmışdır. Türkiyə ixracatı XXI əsrin ilk illərində artım sürətinə görə regionun və dünyanın bir sıra ölkələrini qabaqlamışdır. Türkiyənin ixrac etdiyi məhsullar içində sənaye məhsullarının payı artaraq 85%-ə çıxmışdır. Türkiyə özünün iqtisadi inkişaf sürətinə görə də dünyanın bir çox inkişaf etmiş ölkələrini qabaqlamışdır. Hazırda Türkiyə ümumi daxili məhsulun həcminə görə (887 milyard ABŞ dolları) dünyanın 20 ən böyük dövləti arasında 17-ci yeri tutur. Bu ölkə Mərkəzi Asiyanın, habelə Gürcüstan və Azərbaycanın bazarlarında Çinlə uğurlu rəqabət aparır. Ölkə hələlik Avropa İttifaqına daxil ola bilməsə də, son yüzillik ərzində ilk dəfə olaraq Cənub-Şərqi Avropada iqtisadi ekspansiyasını həyata keçirməyə müvəffəq olmuşdur. Türk lirəsi konvertasiya olunan valyutaya çevrilmişdir. İnflyasiyaya qarşı yeridilən siyasətdə də müəyyən uğurlar əldə edilmişdir. Onun il-

Xəritə 47. *Türkiyə*



lik artım sürəti xeyli azalmışdır. Bununla yanaşı, inflyasiya amili ölkənin ictimai-iqtisadi həyatında narahatlıq doğuran bir amil kimi qalmaqda davam edir. Onun orta illik artım sürəti 10% ətrafında cərəyan edir ki, bu da az və sabit gəlirli geniş əhali kütlələrinin həyat səviyyəsinə öz mənfi təsirini göstərir.

Türkiyə Respublikası beynəlxalq aləmdə özünün xarici siyasət kursunu *Atatürkün "Yurdda sülh, cahanda sülh"* prinsipi əsasında həyata keçirir. Həmin prinsipə uyğun olaraq Türkiyə bütün dünya ölkələri və xüsusən qonşu dövlətlərlə istiqlaliyyət, hüquq bərabərliyi, ərazi bütövlüyünə hörmət etmək, bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında dostluq və yaxın qonşuluq münasibətlərini inkişaf etdirməyi qarşısına məqsəd qoymuşdur.

Türkiyə iqtisadi, siyasi və təhlükəsizlik telləri ilə sıx bağlı olduğu Avropa ölkələri və ABŞ ilə münasibətlərini qarşılıqlı mənfəətlərin balanslaşdırılması prinsipi əsasında qurur. Bununla bərabər, Sovet İttifaqının dağılmasından sonra Qafqaz və Mərkəzi Asiyada yaranan yeni müstəqil dövlətlərlə münasibətlərə, xüsusən türkdilli

ölkələr arasında əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirilir. İslam ölkələri ilə əməkdaşlıq qarşılıqlı mənfəətlərə uyğun olaraq genişləndirilir.

Xarici siyasətdə prioritet təşkil edən digər məsələ qondarma "erməni soyqırımı"nın tanınmasının qarşısının alınmasıdır.

Xarici siyasətdə problemli məsələlər Kipr problemi, Şimali İraqdakı vəziyyət, Yunanıstanla Egey dənizində ərazi suları və kontinental şelfə dair mübahisələrdir.

Avropa İttifaqına assosiativ üzv olan Türkiyənin xarici siyasət kursunda bu təşkilata üzvlük prioritet təşkil edir. Türkiyə-Avropa İttifaqı münasibətləri Ankara sazişi (1963-cü il sentyabrın 12-də imzalanmışdır) əsasında qurulan ortaqlıq rejimi çərçivəsində başlamışdır. Türkiyə 75 milyard avro ticarət həcmi ilə Avropa İttifaqının 5-ci böyük ticarət tərəfdaşıdır. 2005-ci il oktyabrın 3-də Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə bağlı danışıqlara başlanması haqqında razılıq əldə edilmişdir. Türkiyə 2007-ci il aprelin 17-də "Avropa İttifaqı qanunvericiliyinə adaptasiya proqramını (2007-2013)" elan etmişdir.

Türkiyənin xarici siyasətində ABŞ-la münasibətlər xüsusi əhəmiyyətə malikdir. Türkiyə və ABŞ müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq əsasında inkişaf edən münasibətlərin iqtisadi və ticari münasibətlərlə dəstəklənməsinə böyük önəm verirlər. Türkiyə-ABŞ strateji tərəfdaşlığını inkişaf etdirmək məqsədi ilə 2006-cı il iyulun 5-də "ortaq baxış və təşkilatlandırılmış dialoq" sənədi imzalanmışdır.

Türkiyə - qonşuları Suriya və İranın beynəlxalq əməkdaşlığa cəlb olunması, həmçinin Əfqanıstan, İraq, Livan və Yaxın Şərq sülh prosesində beynəlxalq ictimaiyyətlə əməkdaşlıq edilməsi istiqamətində fəaliyyət göstərir. Türkiyə, eyni zamanda, Fələstin probleminin həllində Yaxın Şərq sülh danışıqlarını, BMT Təhlükəsizlik Şurasının 1397 (2002-ci il) saylı qərarında qeyd olunan təhlükəsiz və tanınmış sərhədlər daxilində İsrail və Fələstinin mövcud olmasını dəstəkləyir. Türkiyə 1988-ci ildə Fələstin dövlətini ilk tanıyan ölkələrdən biri olmuşdur. İqtisadi əməkdaşlığın tərəflər ara-

sında etimadı artıracağına inanan Ankaranın təşəbbüsü ilə 2006-cı ildə Türkiyə, İsrail və Fələstin iş adamlarını bir platformada birləşdirən "Ankara forumu" yaradılmışdır.

Türkiyə İranın nüvə proqramı məsələsinin diplomatik həllini dəstəkləyir və İranı bu sahədə beynəlxalq əməkdaşlığa təşviq edir.

Türkiyənin İraq siyasəti, İraqın ərazi bütövlüyü çərçivəsində ölkədə sabitlik və asayişin bərqərar olması, İraq xalqının öz müqəddəratını bütün qrupların iştirakı ilə demokratik yollarla azad şəkildə təyin etməsi istiqamətində qurulmuşdur. Türkiyə Kərkükün bütün İraq xalqına aid olması, heç bir qrupun təkbaşına Kərkükə siyasi və idarəçilik cəhətdən iddia etməməsi fikrini müdafiə edir. 2003-cü ilin yanvar ayından etibarən Türkiyənin təşəbbüsü ilə İraqla qonşu ölkələrin toplantıları keçirilməyə başlanmışdır. Bu günə qədər xarici işlər nazirləri səviyyəsində rəsmi və qeyri-rəsmi görüşlər keçirilmişdir. Yenə Türkiyənin təşəbbüsü ilə bu forum Aİ, İslam Əməkdaşlıq Təşkilatı, BMT Təhlükəsizlik Şurası, "Böyük səkkizlik" ölkələrini əhatə edəcək şəkildə genişləndirilmişdir.

İsraillə strateji əməkdaşlığa əhəmiyyət verilir. 1991-ci ildə başlayan Yaxın Şərq sülh prosesi ikitərəfli münasibətlərin normallaşması, eləcə də siyasi, iqtisadi, elmi-texnoloji və hərbi əməkdaşlığın inkişafına təkan vermişdir. Türkiyə bölgədə həm İsrail, həm də Fələstin tərəfinin etimadını qazanmış nadir ölkələrdən biridir.

Son vaxtlar bir tərəfdən İsrailin bəzi iddialarından geri çəkilməməsi, Türkiyənin isə regional proseslərdə liderliyə can atması bu iki dövlət arasında münasibətlərdə bir gərginlik yaratmışdır.

Balkan bölgəsi Türkiyənin xarici siyasətində xüsusi yer tutur. Tarixi və mədəni əlaqələrin mövcudluğuna görə Türkiyə Balkan bölgəsinin bir hissəsi kimi qiymətləndirilir. Türkiyənin Balkan ölkələri ilə münasibətləri suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət və daxili işlərə qarışmama prinsipləri üzərində qurulmuşdur. Balkan ölkələrində türkdilli icmalar, həmçinin Türkiyədə Balkan ölkələrindən köçmüş qruplar yaşamaqdadır.

Türkiyənin Mərkəzi Asiya ilə yaxın mədəni və ortaq dil bağları mövcuddur. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşləri Türkiyə, Azərbaycan və Mərkəzi Asiya dövlətləri (Tacikistan istisna olmaqla) arasında ən yüksək məsləhətləşmə mexanizmidir. Bölgəyə texniki yardım göstərmək məqsədilə Türk Əməkdaşlıq və İnkişaf Agentliyi (TİKA) yaradılmışdır. Bölgə ölkələrinin paytaxtlarında təmsilçiliyi fəaliyyət göstərən TİKA tərəfindən təhsil, səhiyyə, nəqliyyat, idarəetmə və s. sahələrdə həyata keçirilən layihələrin dəyəri 100 milyon ABŞ dollarına yaxındır.

SSRİ dağıldıqdan sonra Türkiyə hər üç Cənubi Qafqaz ölkəsinin müstəqilliyini tanımış, Ermənistan istisna olmaqla Azərbaycan və Gürcüstanla diplomatik münasibətlər qurmuşdur. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi Türkiyənin Ermənistanla sərhədlərini bağlamasına səbəb olmuşdur. Türkiyə rəsmiləri dəfələrlə bəyan etmişlər ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Türkiyə-Ermənistan münasibətlərinin normallaşması bir-biri ilə bağlıdır və proseslərin hər ikisində paralel olaraq irəliləyişin əldə edilməsi zəruridir. Əgər bu münaqişədə irəliləyiş əldə olunmasa, nə Türkiyə-Ermənistan münasibətlərinin yeni mərhələyə daxil olmasından, nə də Cənubi Qafqazda sabitliyin yaranmasından söhbət gedə bilməz. Türkiyə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələrinin dövlətlərin ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə ədalətli həllinə tərəfdardır. Türkiyənin Baş naziri *Rəcəb Tayyib Ərdoğan* Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasını irəli sürmüşdür. Türkiyənin təklif etdiyi bu əməkdaşlıq platforması bölgədəki etnik münaqişələrin həllinə kömək etmək məqsədi daşıyır. Yeni təşəbbüsün mahiyyətini açıqlayan *Rəcəb Tayyib Ərdoğan* vurğulamışdır ki: *"İlk növbədə, bu platforma coğrafi əsasda olmalıdır. Platforma bölgənin sülh və təhlükəsizliyini hədəfləməli, iqtisadi işbirliyini və enerji təhlükəsizliyini təmin etməlidir. Bu platforma ATƏT-in prinsiplərinə əsaslanmalı və istənilən problemin birgə həllini və idarəetmə mexanizmini əhatə etməlidir. Platforma bölgədə sabitlik və əməkdaşlığı daha da gücləndirəcəkdir.*

Hər hansı bir problem, sıxıntı yaşandıqda isə, bunları bu platformanı qəbul edən ölkələr əsas prinsiplər və mexanizmlərlə həll etməlidir. ...Türkiyə, Azərbaycan və Gürcüstan arasında önəmli əməkdaşlıq mövcuddur. İnanıram ki, bunun həmin platforma çərçivəsində daha da inkişaf etdirilməsi gerçəkləşəcəkdir. Rusiya və Gürcüstan tərəflərinin bu təklifə müsbət yanaşdığını məmnuniyyətlə müşahidə etdik. Azərbaycanın da bu təklifə müsbət yanaşması bizi sevindirmişdir" [Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri. Mətbuat üçün bəyanatlar. *"Azərbaycan" qəzeti, 20 avqust 2008].

Türkiyə Qafqazın taleyində önəmli rol oynayır. Hələ qədim zamanlardan bu ölkə özünün Qafqaz siyasətinə çox ciddi əhəmiyyət vermiş və bölgədə cərəyan edən hadisələrə fəal müdaxiləsi ilə seçilmişdir. Keçən əsrin ortalarından isə Türkiyə Qafqazda təkcə öz maraqlarını deyil, həm də bütöv Qərb dünyasının, NATO üzvü olan dövlətlərin də birgə mənafeyini qorumaq missiyasını öz üzərinə götürmüşdür.

Türkiyənin Qafqaz siyasətində həm strateji maraqlar (NATO blokunun ümumi strateji maraqları), həm Türkiyənin *öz milli mənafeləri*, həm etnik (Qafqazda yaşayan türkdilli xalqların dəstəyini qazanmaq, onlara lazımi himayə göstərmək), həm də dini amillər özünü daim qabarıq şəkildə büruzə vermişdir.

Türkiyə BMT-nin, NATO-nun, Avropa Şurasının, ATƏT-in, İslam Əməkdaşlıq Təşkilatının, Dünya Ticarət Təşkilatının, Avropa Sərbəst Ticarət Birliyinin üzvüdür. 1992-ci ildə Türkiyə və bölgənin 10 dövləti regional ticarət və əməkdaşlığı genişləndirmək məqsədi ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatını (QİƏT) təsis etmişdir. 1964-cü ildə Türkiyə, İran və Pakistan arasında regional iqtisadi əməkdaşlığı inkişaf etdirmək məqsədilə yaradılan İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) 1992-ci ildə Azərbaycan, Əfqanıstan və Mərkəzi Asiya dövlətləri üzv olmuşdur. Türkiyə üçün İqtisadi Əməkdaşlıq Təşkilatı, bu qurumun həm də digər türkdilli dövlətlərlə birgə üzv olduğu yeganə regional iqtisadi təşkilat olması baxımından əhəmiyyət kəsb edir. Türkiyənin təşəbbüsü və İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriyanın iştirakı ilə 1997-ci ildə "İnkişaf etməkdə olan 8 dövlət" (D-8) təşkilatı yaradılmışdır. Türkiyə Qərbi Avropa ölkələri qrupundan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. İKT-nin 3 daimi komitəsindən biri olan İqtisadi və Ticari Əməkdaşlıq Daimi Komitəsi (COMCEC) Türkiyədə yerləşir. Komitənin daimi sədri Türkiyə Respublikasının Prezidentidir. Komitə İKT-yə üzv ölkələrin iqtisadiyyat və xarici ticarətə məsul olan nazirləri səviyyəsində ildə bir dəfədən az olmayaraq Türkiyədə toplanır.

Türkiyə beynəlxalq sülhyaratma əməliyyatlarında fəal iştirak edir. Türk Silahlı Qüvvələri hazırda NATO çərçivəsində Əfqanıstan (ISAF) və Kosovo (KFOR) əməliyyatlarında, Aralıq dənizi Aktiv Fəaliyyət Hərəkatında və İraq Təlim Missiyasında, həmçinin Avropa İttifaqının rəhbərliyi altında Makedoniya və Bosniya-Herseqovinada həyata keçirilən polis missiyalarında, BMT çərçivəsində Livanda həyata keçirilən UNİFİL missiyasında iştirak edir.

Türkiyə 630 min əsgər və zabitdən ibarət böyük orduya və regionda ən qüdrətli hərbi dəniz donanmasına malikdir. NATO daxilində Türkiyə quru qoşunlarının sayı baxımından ABŞ-dan sonra 2-ci yerdə (17,5%), orta miqyaslı hərbi dəniz ünsürlərinə görə 5-ci yerdədir. Türkiyə, eyni zamanda, NATO-ya aid hərbi təyyarələrin 10,5%-nə, kəşfiyyat ünsürlərinin 22,5%-nə və yük təyyarələrinin 20%-nə sahibdir.

Türkiyə Amerika Dövlətləri Təşkilatı, Karib Dövlətləri Birliyi və Afrika Birliyində daimi müşahidəçi statusuna malikdir. Ərəb Dövlətləri Liqası və Cənub-Şərqi Asiya Dövlətləri Təşkilatı ilə də münasibətlərin inkişafı istiqamətində səylər davam etdirilir.

Yaxın və Orta Şərqdə, həmçinin Qafqazda güc mərkəzinə çevrilmək istəyən Türkiyənin müasir geosiyasi vəziyyətinə təsir edən amillər çoxdur. Buraya Kipr problemi, NATO-da aktiv iştirak məsələsi, enerji ehtiyatları ilə zəif təmin olunma, boğazlardan keçid qaydalarına yeni düzəlişlər etmək arzusu, Avropa İttifaqına üzvlük məsələsi və s. daxildir.

Qeyd etmək lazımdır ki, son beş ildə Türkiyənin xarici siyasətində müəyyən geosiyasi xətt dəyişikliyi müşahidə olunmaqdadır. Xüsusən, Ədalət və İnkişaf Partiyası (AKP) hakimiyyətə gələndən sonra Türkiyə dünyada və bölgədə bir qədər fərqli, daha müstəqil geosiyasi xətt yürütməyə cəhd göstərir, öz milli maraqlarının təmin olunmasını, xarici ölkələrlə, beynəlxalq geosiyasi aktorlarla münasibətlərini, özünün bu və ya digər siyasi addımlarını yeni keyfiyyətdə - "müstəqil dünya dövləti" statusu ilə reallaşdırmağa çalışır. Əsasında "dünya və region ölkələri ilə sıfır problem - maksimum inteqrasiya", "Türkiyənin Avropa İttifaqına ehtiyacı - onun Türkiyəyə olan ehtiyacından çox deyil", "harada bir türk varsa, orada Türkiyənin milli maraqları mövcuddur", "Türkiyə dünya müsəlman xalqlarının və dövlətlərinin himayədarı kimi" və s. strateji yanaşmanın dayandığı bu geosiyasət xətti nəticələrini göstərməkdədir *[Ali Külebi, 2010]*.

5.3. İran: yeni geosiyasi reallıq

Son vaxtlar Yaxın və Orta Şərq ölkələrində "islamın dirçəlişi" fenomeninə dünyada maraq getdikcə artır. 1979-cu ildə İranda şah rejiminə qarşı inqilab islam amilini dünya siyasətinin birinci dərəcəli problemləri sırasına çıxarmış həlledici təkan oldu. İctimai qüvvələr arasında münasibətlərin gərginləşməsi, İranın özündə və dünyada siyasi ehtirasların coşması, *Məhəmməd Rza Pəhləvi* rejiminə qarşı mübarizədə verilmiş qurbanların sayı Üçüncü dünya ölkələrində presedenti olmayan göstəricilərdir. Bu inqilab islam dünyasının bütün ölkələrinə çox güclü təsir göstərmişdir.

İran islam inqilabı və İran İslam Respublikasının yaranması iki-qütblü dünyanın mövcudluğu ilə bir zamanda baş vermişdir. Qeyd edək ki, İranda yeni yaranmış rejim ilk gündən, "nə Qərb, nə də Şərq", yəni nə Qərbin, nə də SSRİ başda olmaqla sosializm sistemi ölkələrinin arxasınca getmədiyini, müstəqil siyasət yürütmək istədiyini bildirdi. Amma, əslində, bu istək İranın beynəlxalq aləmdən təcrid olunmasına gətirib çıxardı. İranda baş vermiş inqilabdan az sonra İraqla üzücü müharibə başlandı.

Xəritə 48. *İran*



Şərqin inkişaf etmiş dövlətlərindən biri olan İran İslam Respublikası Asiya qitəsinin cənub-qərbində yerləşir. Şimalda Azərbaycan, Ermənistan və Türkmənistanla, qərbdə Türkiyə və İraq, şərqdə Əfqanıstan və Pakistanla həmsərhəddir. Şimaldan Xəzər dənizi, cənubdan Fars və Oman körfəzləri ilə əhatə olunur. Keşm, Hürmüz, Xark və s. adalar İrana məxsusdur. Sahəsi 1,65 milyon kvadratkilometr, əhalisi təqribən 70 milyon nəfərdir. İran yüksək təbii artıma malik ölkələrdəndir. Milli tərkibinə görə ölkə əhalisi yekcins deyil. Belə ki, burada 30-dan artıq xalq yaşayır. Farslarla yana-

şı, ölkənin ən böyük etnik vahidlərindən birini azərbaycanlılar (30 milyon nəfər) təşkil edir. Dəqiq olmayan rəsmi məlumatlara görə, İranda kürdlər, lurlar, gilanlılar, mazandaranlılar, bəxtiyarilər, bəluclar, talışlar, tatlar, cəmşidilər, əfqanlar, taciklər, türkmənlər, qaşqaylar, həmçinin ərəblər, ermənilər, assuriyalılar, yəhudilər, brahuilər, gürcülər, qaraçılar və b. da məskunlaşmışlar. Rəsmi dil fars dilidir. Dövlət dini islamdır. Əhalinin 90 faizindən çoxu şiələrdir. Şiələrin əksər hissəsi üsuli məktəbini davam etdirən imamilərdir; imamilərin az bir hissəsi əxbari məktəbinə rəğbət bəsləyir, başqa şiə təriqətlərinin tərəfdarları da vardır. Sufi cəmiyyətləri yayılmışdır. Sünni təriqətinə etiqad bəsləyənlər bəluclar, türkmənlər, braquilər, kürdlərin və ərəblərin əksər hissəsi, farsların və azərbaycanlıların az bir hissəsi, Xorasanın bəzi xalqlarıdır. Sünnilik əsasən iki məzhəblə - hənəfi və şafii məzhəbləri ilə təmsil olunmuşdur.

1979-cu il fevralın 12-də İranda monarxiya üsul-idarəsi ləğv olunmuş, martın 30-31-də keçirilən ümumxalq səsverməsi nəticəsində ölkədə islam respublikası elan edilmişdir (1979-cu il aprelin 1-dən). 1979-cu ilin dekabrın 2-3-də keçirilmiş ümumxalq referendumunda yeni konstitusiya qəbul edilmiş, ruhanilərin ölkə həyatındakı rəhbər rolu təsbit olunmuşdur. 1989-cu il iyulun 28-də konstitusiyaya dəyişikliklər edilmişdir. Konstitusiya respublika quruluşunun yaranmasını, bütün hakimiyyətin dini-siyasi dairələrin nümayəndələrinə keçməsini hüquqi cəhətdən təsdiq etmişdir. İran İslam Respublikasında dövlət hakimiyyəti bir-birindən asılı olmayan qanunverici, icraedici və məhkəmə hakimiyyətləri vasitəsilə ölkənin ali rəhbərinin nəzarəti altında həyata keçirilir. Ali rəhbər vəzifəsini *Ayətullah Ruhulla Xomeyninin* ölümündən sonra, konstitusiyaya əlavələrə əsasən, seçkili orqan - Ekspertlər Şurası tərəfindən təyin olunan ən ədalətli, mömin, maarifpərvər fəqih (islam hüquqşünası) tuta bilər. Ali rəhbərin səlahiyyətlərinə İranın xarici siyasətinin əsas istiqamətlərinin müəyyən olunması və bu xəttin düzgün həyata keçirilməsi üzərində nəzarət, silahlı qüvvələr üzərində Ali baş komandanlıq, müharibə və sülhün elan

edilməsi, bir sıra vəzifəli şəxslərin vəzifəyə təyin və vəzifədən kənar edilməsi, seçildikdən sonra Prezidentin vəzifəyə təyin olunması haqqında fərmanın imzalanması, amnistiya və ya hökmlərin yüngülləşdirilməsi daxildir. Dövlətdə ən yüksək rəsmi şəxs Prezidentdir. O, ümumi, birbaşa, gizli səsvermə yolu ilə dörd il müddətinə seçilir. Prezidentin səlahiyyətlərinə konstitusiya maddələrinin icrası üzrə məsuliyyət, bilavasitə ali rəhbərin səlahiyyətinə aid olan məsələlər istisna olunmaqla, icraedici hakimiyyətə rəhbərlik daxildir. Prezident, həmçinin dövlət planlaşdırılması, büdcə, inzibati işlər və icra məsələlərinə görə məsuliyyət daşıyır. Başqa dövlətlərlə müqavilə və saziş imzalayır, xarici dövlətlərin səfirlərindən etimadnamələri qəbul edir. Prezident Nazirlər Kabinetinə başçılıq edir, nazirləri təyin edir və təsdiq üçün İslam Şurası Məclisinə (parlamentə) təqdim edir. Konstitusiyaya görə ali qanunverici hakimiyyət orqanı ümumi, birbaşa, gizli səsvermə yolu ilə dörd il müddətinə seçilən birpalatalı İslam Şurası Məclisidir. Məclis 290 deputatdan ibarətdir. Məclis qərarlarının islamın müddəaları və İranın əsas qanunu ilə uyğunluğunun təmin edilməsinə nəzarət - Nəzarət Şurası tərəfindən həyata keçirilir. Şura Məclisin bütün qərarlarına nəzarət edir, Ekspertlər Şurasının seçilməsi və Məclis seçkiləri, həmçinin ümumi referendumun keçirilməsi üzərində nəzarəti həyata keçirir.

İran konstitusiyası və 1981-ci ildə qəbul edilmiş qanuna əsasən ölkədə qeyri-islami siyasi partiya və təşkilatların fəaliyyəti qadağan olunmuşdur.

"Soyuq müharibə"nin başa çatması və Avrasiya məkanında baş vermiş dəyişikliklər yeni siyasi şəraitdə İrana əlverişli geosiyasi perspektivlər vəd edir. Zəngin karbohidrogen ehtiyatlarına və enerji istehsalına malik olması, dini baxımdan regionun müsəlman əhalisi ilə dərin qohumluq köklərinin mövcudluğu və bir sıra digər amillər İrana bölgədə nüfuzlu qüvvə kimi meydan açır. Rusiya ilə nüvə sahəsində prinsipial əməkdaşlıq isə İranın yeni güc mərkəzinə çevrilməsi ehtimalını artırır. *Zbiqnev Bjezinski* müasir İranı Av-

rasiyada yalnız mühüm geosiyasi mərkəz kimi deyil, eləcə də fəal geostrateji ölkə kimi xarakterizə etmişdir.

Hazırda İranın öz xarici siyasətini yeni dəyişikliklərə uyğunlaşdırmağa çalışması göz qabağındadır. "İslam birliyi" şüarının arxa plana keçməsi və *Ayətullah Xomeynin*in "nə Qərb, nə Şərq" siyasətinin artıq yeni forma alması da buna işarədir. Çünki hazırda klassik anlamda nə Qərb, nədə Şərq mövcuddur.

İran xarici siyasətdə ikitərəfli münasibətlərə və regional təşkilatlar çərçivəsində əməkdaşlığa üstünlük verməklə yanaşı, siyasətini formalaşmaqda olan müxtəlif güc mərkəzlərinə də uyğun qurur.

İranın hazırda həyata keçirdiyi xarici siyasətin əsasları kompleks şəkildə dünyada və regionda baş verən proseslərin və gerçəkliklərin dərk edilməsi, ölkənin milli təhlükəsizliyinin qorunması və əsas ehtiyaclarının təmin olunması üzərində qurulmuşdur. İranın milli təhlükəsizliyi üzrə dövlət konsepsiyası daim dəyişməz qalmışdır, lakin beynəlxalq və regional miqyasda, habelə ölkənin daxili həyatında baş verən dəyişikliklər İranın xarici siyasətinə təsir göstərmək iqtidarındadır.

İran özünün xarici siyasətində region ölkələri və islam dünyası ilə əlaqələrə üstünlük verir. Körfəz Əməkdaşlığı Şurası ölkələri, xüsusilə Səudiyyə Ərəbistanı ilə İranın münasibətləri son illərdə xeyli yaxşılaşmışdır. Tehran İraq məsələsində müvəqqəti hökumət şurasını dəstəkləmiş, lakin dövlət hakimiyyətinin tez bir zamanda bütünlüklə İraq xalqına verilməsinin zəruriliyini bildirmişdir.

İran Əfqanıstanın yenidən qurulmasının tərəfdarı olduğunu bəyan etmişdir. Tehran bununla ölkədə yaşayan 2,5 milyona yaxın əfqan qaçqınının tezliklə Əfqanıstana qayıtmasına və Əfqanıstan ərazisindən İrana narkotik maddələrin daşınmasının qarşısının alınmasına çalışır.

Son illərdə İran Yaxın və Orta Şərqdə, Mərkəzi Asiyada, Cənubi Qafqazda və Rusiyanın müsəlmanlar yaşayan bölgələrində geo-

siyasi mövqeyini xeyli qüvvətləndirə bilmişdir. İran rəhbərliyi Qərb ölkələri ilə də yaxınlaşmağa cəhd göstərir.

Qərb geosiyasətçilərinin böyük əksəriyyəti XXI əsrin ortaları üçün İranın Yaxın və Orta Şərq regionunda lider dövlət, güc mərkəzi ola biləcəyini vurğulayırlar. Onların fikrincə, bu regiondan başqa, İran Cənubi Qafqazda, Mərkəzi Asiyada sözükeçən dövlətlərdən birinə çevriləcəkdir.

İranın şimal sərhədlərində iki münaqişə ocağı var: Əfqanıstan və Qafqaz münaqişələri. Ölkənin qərbində isə İraqda müharibə gedir. İran bu münaqişələrə son qoyulmasında maraqlı olduğunu bəyan etmişdir. Geosiyasi baxımdan Şimali Afrika və Cənub-Qərbi Asiya regionlarını əhatə edən "qeyri-sabitlik qövsü"ndə baş verən bu münaqişələrin genişlənməsi İranın mənafelərinə uyğun deyil.

İran vasitəçilik funksiyalarına xüsusi əhəmiyyət verir; Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində və Tacikistanda vətəndaş müharibəsində İran məhz bu cür hərəkət etmiş və münaqişə tərəflərinin qüvvələr balansına nail olmağa çalışmışdır.

Ölkələrin geosiyasi münasibətlərini təşkil edən çoxsaylı komponentlər arasında iqtisadi komponent də az rol oynamır. Bizim tarixi qonşumuz olan İran unikal islam dövləti quruluşuna malik olan ölkədir. Burada 80 milyona yaxın insan yaşayır, ümumi məhsulun dəyəri isə 809-810 milyard dollar təşkil edir. İran Yaxın və Orta Şərqin hər hansı başqa ölkəsindən daha zəngin təbii ehtiyatlara malikdir. Dünyada ən iri neft və qaz yataqlarından biri, metal (dəmir, mis, sink, qurğuşun, xromitlər, manqan) filizləri yataqları, inşaat daşı və su ehtiyatları burada yerləşir. 1989-1998-ci illərdə ümumi daxili məhsulun orta illik artım tempi 5%-dən çox olmuşdur. Bu artımın əsasını istehsal sahələrində, ilk növbədə emal sənayesi, metallurgiya, energetika və nəqliyyatda istehsalın həcminin artması təşkil edir. Ölkə iqtisadiyyatı, xüsusən investisiyalar planlaşdırılır. Ümumi daxili məhsulun demək olar ki, dördə bir hissəsi iqtisadiyyata təkrar investisiya edilir, bu isə ölkənin investisiya baxımından cəlbediciliyinə dəlalət edir.

İranın valyuta daxilolmalarının çox hissəsi xam neft satışından əldə edilir. Adambaşına ümumi daxili məhsul ildə 11000 dollara yaxındır. Keçən əsrin 80-ci illərində ölkə əhalisinin sürətlə - ildə 3,1%-ə qədər artması (bu, dünyada ən yüksək artım göstəricilərindən biridir) nəticəsində ümumi daxili məhsulun artım effekti aşağı düşmüşdür. Lakin 90-cı illərdə əhalinin artım göstəricisi xeyli azalmış və XX əsrin axırlarında ildə 2% olmuşdur. Cəmiyyətin sosial vəziyyətinin göstəricilərindən biri olan uşaq ölümü xeyli azalmışdır. Əhaliyə tibbi yardım əsasən pulsuzdur. Savadlılıq göstəricisi 90%, yaxud təkcə Üçüncü dünyada deyil, bütün planetdə ən yüksək göstəricilərdən biridir. Beləliklə, bu ölkədə siyasi və sosial vəziyyət sabitdir, ölkənin güclü potensialı dinamik demoqrafik strukturla möhkəmlənir: iranlıların yarısının yaşı 15-dən aşağıdır. Yaxın onilliklərdə ölkə əhalisinin sayı sürətlə artacaqdır. Beynəlxalq təcridə son qoyulsa, daxili potensial fəallaşdırılsa ümumi daxili məhsulun artım sürətinin daha artıq səviyyəyə çatacağı proqnozlaşdırılır. Ölkənin iqtisadi inkişafına dair 5 il müddətinə qəbul edilən planlar, heç şübhəsiz, bu artıma kömək edir. Həmin planlarda neft-qaz sahələrinə xüsusi diqqət yetirilir.

Ölkədə neft sənayesi yaxşı inkişaf etmiş, Fars körfəzində neft kəmərləri və terminallar yaradılmışdır. Neft sənayesinə İran Milli Neft Şirkətinin timsalında dövlət sahiblik edir. Xəzər dənizinin bu ölkəyə məxsus sektorundakı və başqa yataqlardakı neft və qaz ehtiyatlarının mənimsənilməsi ilə əlaqədar İranın həm investisiyalara, həm də dəniz qazma işləri ilə əlaqədar texnologiya və avadanlıqlara güclü marağı var. İran qaz ehtiyatlarının həcminə görə dünyada ikinci yeri tutur və bu sahəni ixrac sahəsinə çevirməyi arzu edir.

5.4. Səudiyyə Ərəbistanının regionda rolu

Səudiyyə Ərəbistanı Cənub-Qərbi Asiyada yerləşir. Ərəbistan yarımadasının üçdə ikisini, Qırmızı dənizdə və Fars körfəzindəki yaxın adaları əhatə edir. Şimaldan İordaniya, şimal-şərqdən İraq və Küveyt, cənubdan Yəmən Respublikası, cənub-şərqdən Birləşmiş Ərəb Əmirlikləri və Qətərlə həmsərhəddir. Cənub-qərbdən Qırmızı dəniz, şimal-şərqdən Fars körfəzinin suları ilə əhatə olunmuşdur. Quru sərhədlərinin ümumi uzunluğu 4,431 km, dəniz sərhədlərinin uzunluğu 2,640 km, sahəsi isə 2,140,690 kv. km-dir (Səudiyyə Ərəbistanı sahəsinə görə Asiyada ən böyük ərəb dövlətidir). Əhalisi 26 milyon nəfərdir. Dövlət quruluşu mütləq monarxiyadır. Al Saud nəslinin üç min şahzadəsi arasında dövlətin əsasını qoyan *İbn Saudun* oğul və nəvələrindən otuzu və iri qəbilə başçıları hakimiyyət sistemində mühüm rol oynayırlar. Hakimiyyət başında olan ailənin digər üzvləri isə orduda və milli qvardiyada xidmət edir, dövlət və inzibati aparatda müxtəlif vəzifələrdə çalışırlar. Dövlətin başçısı Kraldır; qanunverici, icraedici və məhkəmə-dini hakimiyyət Krala məxsusdur. O, həm də ölkənin Baş naziri, Silahlı qüvvələrin Ali baş komandanı və Ali Məhkəmənin sədridir. İcraedici orqan kimi Nazirlər Şurası 1954-cü ildən fəaliyyət göstərir. Hökumətin üzvləri Kral tərəfindən təyin edilir və onun qarşısında məsuliyyət daşıyır. Aparıcı nazir vəzifələrini Kral ailəsinin üzvləri tuturlar. Ali qanunverici orqan - Məşvərət Şurasının üzvləri Kral tərəfindən təyin edilir. 2001-ci ildə Səudiyyə Ərəbistanı Kralının əmri ilə Məşvərət Şurasının yeni dördillik müddətə təyin olunması haqqında qərar qəbul edilmiş, məclis üzvlərinin sayı 90-dan 120 nəfərə qədər artırılmışdır. Ali qanunvericilik səlahiyyətlərinin Kral tərəfindən həyata keçirilməsinə baxmayaraq, bu hadisə ölkədə baş verən demokratik dəyişikliklərin təzahürü kimi qiymətləndirilir. Yeni məclis üzvləri ölkənin demək olar ki, bütün bölgələrini təmsil edir. Səudiyyə Ərəbistanında siyasi partiyaların və həmkarlar ittifaqlarının fəaliyyəti qadağan olunmuşdur. Lakin mövcud rejimə müxalifətdə duran siyasi, ictimai, dini təşkilatlar gizli şəkildə fəaliyyət göstərirlər. Onların ölkənin siyasi həyatına təsiri son dərəcə məhduddur.

"Qara qızıl" diyarı olan Səudiyyə Ərəbistanı islamın vətəni, milyonlarla müsəlmanların ən müqəddəs ziyarətgahları olan Məkkənin və Mədinənin yerləşdiyi ölkədir. Səudiyyə Ərəbistanı təkcə ərəb, islam dünyasında deyil, bütün beynəlxalq aləmdə xüsusi yer tutur. Onu haqlı olaraq ərəblərin böyük evi hesab edirlər. Problem-

Xəritə 49. ***Səudiyyə Ərəbistanı***



lər burada həll edilir, ziddiyyətlər burada tənzimlənir, ehtiyacı olanlara burada yardım göstərilir. Bu dövləti bütün müsəlmanlar üçün də böyük ev adlandırmaq olar, çünki o, islam həmrəyliyinin möhkəmlənməsində, islam təfəkküründün yayılmasında, islam xalqlarının dəstəklənməsində və onların mənafelərinin müdafiəsində, bütün dünyadakı islam təşkilatlarına kömək göstərilməsində mühüm rol oynayır. Krallıq Üçüncü dünya dövlətlərinə yardım edən ölkələr arasında birinci yeri tutur. Ümumiyyətlə, başqa ölkələrə maliyyə köməyi sahəsində Səudiyyə Ərəbistanı ABŞ-dan sonra ikinci yeri tutur. Buna görə də bu dövlət regional və dünya siyasətinə çox güclü təsir göstərir.

XX əsrin 30-cu illərindən Səudiyyə Ərəbistanı fəal siyasi rol oynayır. O, islam tarixində ilk dəfə müsəlman ölkələrinin dövlət

başçıları səviyyəsində müşavirə çağırılması təşəbbüsünü irəli sürmüşdür. 1932-ci ildə Səudiyyə Ərəbistanı Krallığı yaradılan ilk gündə *Kral Əbdüləziz Al Saud* geosiyasi xarakter daşıyan belə bir təşəbbüslə çıxış etmişdir. Elə həmin müşavirədə Kral islam dövlətlərinin rəhbərlərini və onların xalqlarını müqəddəs Quranın qaydalarına ciddi riayət etməyə çağırmışdır.

Son 50-60 ildə Səudiyyə Ərəbistanı yoxsulluğa, savadsızlığa, xəstəliklərə qalib gəlmiş, əhalinin sosial müdafiəsi, təhsil, səhiyyə, idman və başqa sahələrdə böyük uğurlar qazanmışdır. İctimai həyatın bu və digər sahələrində qazanılmış uğurlar Krallığın sıravi sakinlərinin həyat şəraitinin yaxşılaşdırılması üçün, tərəqqinin nəticələrindən istifadə etmək üçün imkanlar yaratmaqla gələcək inkişafın möhkəm təməlini qoymuşdur.

Son bir neçə onillikdə ölkə bir mühüm prinsipə ciddi riayət edir: səudiyyəli inkişafın hərəkətverici qüvvəsi, səudiyyəli inkişafın son məqsədidir. Təhsil, elm ölkə hökumətinin siyasətində əsas yerlərdən birini tutur. Ölkədə savadsızlıq praktiki olaraq ləğv edilmiş, pulsuz orta ixtisas və ali təhsil şəbəkəsi (kolleclər və universitetlər) yaradılmışdır. Xaricdə təhsil almaq istəyənlər üçün xüsusi dövlət fondları və özəl fondlar vardır.

Səhiyyə sahəsində böyük uğurlar qazanılmışdır. Ölkədə uşaq ölümü göstəricisi dünyada ən aşağı göstəricilərdən biridir. Ötən əsrin 70-ci illərində bir həkim orta hesabla 6000 pasiyentə xidmət edirdisə, 90-cı illərdə müvafiq rəqəm 1500 olmuşdur.

Səudiyyəlilər kənd təsərrüfatının inkişafında da çox böyük uğurlar qazanmışlar. Krallıq kənd təsərrüfatı məhsullarının idxalatçısından onların ixracatçısına çevrilmişdir. İqtisadiyyatda kənd təsərrüfatı sektoru öz əhəmiyyətinə görə neftdən sonra ikinci yeri tutur. Son 30 ildə ölkədə buğda istehsalı min dəfə artırılmışdır və hazırda dənli bitkilər istehsalının 95%-i buğdanın payına düşür. 40 milyon hektardan çox torpaq sahəsi təmənnasız olaraq kəndlilərin istifadəsinə verilmişdir. Kənd təsərrüfatı bankı onlara faizsiz kreditlər verir. Fermerlərin aldığı gübrələrin dəyərinin yarısını dövlət ödəyir. Kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbar-so-

yuducular da eyni şərtlərlə tikilir. Dövlət kənd təsərrüfatı məhsullarını kəndlilərdən sərfəli qiymətlərlə alır. Ərzaq məhsullarının artıq qalmış hissəsi Səudiyyə Ərəbistanının Asiya və Afrika ölkələrində regional və qlobal geosiyasətinin həyata keçirilməsində mühüm rol oynayır.

Məhəmməd Peyğəmbərin[1] vətəni olan bu islam dövlətinin siyasətində imkansızlara, yoxsullara, binəsiblərə qayğı daim mühüm yer tutur. Peyğəmbər buyurmuşdur ki, əməlisalehlər cəmiyyəti canlı orqanizmi xatırladır: onun bir hissəsi ağrıyanda bu ağrı bədənin bütün hissələrində özünü göstərir, yuxusuzluğa və əsəbiliyə səbəb olur. Hərbi qənimətlərinin və şəxsi pullarının onda bir hissəsini imkansızlara paylayan Peyğəmbərin vəsiyyətlərinə əməl edən Səudiyyə dövləti yetimlərə, ailə başçısını itirmiş qadınlara, əlillərə təqaüdlər verilməsinə ciddi nəzarət edir, əsas qida məhsulları üçün dotasiyalar ayırır, ölkədə ərzaq məhsullarının qiymətinin dünya bazarlarında olduğundan aşağı qiymətə satılmasını təmin edir. Səudiyyə Ərəbistanında əməyin təşkili və müdafiəsi sistemi dünyada bu sahədə ən mükəmməl sistemlərdən biri sayılır.

[1] *Məhəmməd Peyğəmbər* (570-632) - İslamın banisi, siyasi və dövlət xadimi, Allahın elçisi ("Rəsul-ül-lah"), sonuncu peyğəmbər. Səudiyyə Ərəbistanında Qüreyşilər qəbiləsinin Bəni Haşim nəslindəndir. Rəvayətə görə uşaq ikən yetim qalmış (hələ doğulmamışdan atası Abdullah, 6 yaşında isə anası Əminə vəfat etmişdi), gəncliyində dəniz karvanlarını müşayiət etmiş, Ərəbistanda və getdiyi başqa ölkələrdə müxtəlif dini-siyasi təlimlərlə tanış olmuşdur. 594-cü ildə varlı dul qadın Xədicəyə evləndikdən sonra onun ticarət işlərini idarə etmişdir. İlk vəhylərin gəlməsi ilə ona peyğəmbərlik verilmişdir (610). Öz dini əqidəsini geniş yaydığına görə Məhəmməd Peyğəmbər ciddi təqiblərə məruz qalmış və 622-ci ildə Məkkədən Mədinəyə hicrət edərək müsəlmanlığın ehkamlarını və ayinlərini müəyyənləşdirmişdir. O, rəsmi təhsil görməsə də, öz dühasının işığı, təxəyyülünün gücü, fikri və təşkilati istedadının çağlaması sayəsində dünya mədəniyyətinin ən qabaqcıl mənəvi dayaqlarından biri, bəşər tarixinin gedişində yeni mərhələ təşkil edən, dünya xalqlarının böyük hissəsinin ictimai-iqtisadi, siyasi və mənəvi həyatını kökündən dəyişən müqəddəs bir etiqadın və həyat tərzinin - müsəlmanlığın (islamın) yaradıcısı olmuşdur. İslamın yaradılması uğrunda Məhəmməd Peyğəmbər Ərəbistan ərazisində Mədinə və Məkkə ətrafında 84 döyüş əməliyyatı keçirmiş, 28-ində şəxsən iştirak etmiş, bunların 19-u sülh yolu ilə, yəni qan tökülmədən həll edilmişdir. 23 il (610-632) ərzində Allah tərəfindən mələk Cəbrayıl vasitəsilə Məhəmməd Peyğəmbərə müqəddəs vəhylərin (ayələrin) göndərilməsi onu istiqamətləndirmişdir. Həmin kəlamlar islamın müqəddəs kitabı - Quranda cəmlənmişdir. Məhəmməd Peyğəmbərin qəbri islam dünyasının ikinci (Kəbədən sonra) müqəddəs yeri, müsəlmanların ziyarətgahıdır.

Yuxarıda qeyd etdik ki, Krallıq təkcə islam ölkələrində deyil, bütün dünyada mühüm rol oynayır. Bütün qeyri-müsəlman ölkələri ilə münasibətlər hər iki tərəfin mənafeləri nəzərə alınmaqla qurulur. Mərhum *Kral Fəhd* demişdir: Biz böhranlı vəziyyətlərin tənzimlənməsi ilə əlaqədar bütün məsələlər barəsində ölçülüb-biçilmiş real siyasət yeridirik.


Səudiyyə Ərəbistanı ərəb ölkələrinin Fələstinin müdafiəsinə yönəlmiş birgə səylərini dəstəkləyir, özünü İsrail Dövləti ilə daimi qarşıdurma vəziyyətində hesab edir. Bununla bərabər, səudiyyəlilərin xarici siyasəti bütövlükdə ABŞ-ın təsiri altında formalaşır. Nəticədə Səudiyyə Ərəbistanı ilə bəzi islam dövlətləri, o cümlədən İran və İraq arasında mürəkkəb, bəzən isə gərgin münasibətlər yaranmışdır. Bunun bir neçə səbəbi var: vəhhabi yönümlü Krallığın ABŞ-a oriyentasiya etməsi və bununla əlaqədar Qərbin silahlı qüvvələrinin Fars körfəzində olmasına ziddiyyətli yanaşma; dünya neft bazarında rəqabət; ideoloji ziddiyyətlər və s. Gərginliyə səbəb olan daha bir amil hər il təşkil edilən Məkkə ziyarətləridir. Səudiyyəlilərin fikrincə, bu ziyarətlər dövründə başqa ölkələrdən olan dindarlar, xüsusən iranlılar Krallığın daxili işlərinə qarışmağa cəhd göstərir. Lakin XXI əsrin əvvəllərində islam dövlətlərinin öz xarici geosiyasi səylərini müəyyən dərəcədə əlaqələndirməyi tələb edən amillər də çoxdur. Bu amillərin ən vacibləri Fələstin məsələsi, enerji daşıyıcılarının qiymətlərinin azaldılmasına qarşı mübarizədə neft ixrac edən ölkələrlə birgə siyasət yeridilməsi və s. amillərdir. 1997-ci ilin dekabrında Tehranda İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşü keçirilmişdir. Həmin görüşdə qeyd edilmişdir ki, Səudiyyə-İran münasibətlərinin yaxşılaşdırılması Fars körfəzi regionunda sülh və sabitliyin bərqərar olmasına kömək edəcəkdir. Tehran konfransında qeyd edilmişdir ki, islam dövlətlərinin birgə fəaliyyətinin əlaqələndirilməsi, onların əməkdaşlığı bütün regionun təhlükəsizliyi və əmin-amanlıq üçün həyati zərurətdir.

Məhəmməd Peyğəmbərin vətəni geosiyasi qüvvələrin paylanmasında getdikcə daha ciddi rol oynayır.

5.5. İsrail - beynəlxalq mövqeyi, daxili və xarici siyasəti

İsrail Asiyanın cənub-qərbində, Aralıq dənizinin şərq sahilində yerləşir. Şimalda Livan, şimal-şərqdə Suriya, şərqdə İordaniya, cənub-qərbdə Misirlə həmsərhəddir. 1948-ci il mayın 14-də BMT Baş Assambleyasının 1947-ci il noyabrın 29-da qəbul etdiyi 181 saylı qətnaməsi (BMT-nin Fələstinin bölünməsi planı) əsasında dövlət elan edilmişdir.

Xəritə 50. ***İsrail***



Geosiyasi baxımdan İsrail dövlətinin iki əsas xüsusiyyəti var. Bu yəhudi dövləti Fələstində, ərəb dünyasının içərisində yad, Qərb anklavı kimi ortaya çıxır. Bundan başqa, Yaxın Şərqin bu bölgəsi (İsrail, Livan, Suriya, İordaniya) kiçik (İsrail özünün 1949-cu il sərhədlərində yalnız 8000 kv. km-i yararlı olan 20700 kv. km əraziyə malikdir, İordan çayının qərb sahili isə 6000 kv. km-dir) və əhali ilə sıx məskunlaşmışdır *[Philippe Moreau Defarges, 2009]*.

Müstəqillik bəyannaməsinə görə İsrail yəhudi dövlətidir. Eyni zamanda, İsrail çoxmillətli və demokratik dövlətdir. Burada ərəb-müsəlmanlar, ərəb-xristianlar, druz, bədəvi, samari və başqa dini və etnik qruplar da yəhudilərlə bərabər hüquqlara malikdirlər, məsələn, ərəb partiyaları və ərəb deputatlar Knessetdə təmsil olunmuşdur.

İsrail Dövlətinin Konstitusiyası yoxdur. Praktikada onun funksiyasını dövlət quruculuğu, vətəndaşların hüquqlarına və azadlıqlarına dair əsas məsələləri nizamlayan əsas qanunlar toplusu yerinə yetirir. Knessetin 1950-ci il 15 iyun tarixli ("Xarari kompromisi" adlı) qərarına görə, Knesset vacib olan bütün əsas qanunları qəbul etdikdən sonra onlar müvafiq giriş hissəsi də əlavə olunmaqla İsrail Dövlətinin Konstitusiyasını təşkil edir.

İsrail - parlament respublikasıdır. Dövlətin başçısı - Prezidentdir, Knesset tərəfindən gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir. İsrailin ilk Prezidenti Ümumdünya sionist təşkilatının sədri professor *Xaim Veysman* olmuşdur. Mövcud qanunvericiliyə görə Prezident praktik olaraq, real hakimiyyət səlahiyyətlərinə malik deyildir, o, dövlətin rəmzlərindən biridir və təmsilçilik funksiyasını yerinə yetirir. Prezidentin yeganə səlahiyyətləri - seçkilərdən sonra hökumətin yeni tərkibini təsdiq etmək (əgər Prezident onu təsdiq etmirsə, onda hökumətdə vəzifələr yenidən bölüşdürülür) və məhbusları əfv etməkdir (həbsxanaya düşmüş hər bir İsrail vətəndaşı ömründə bir dəfə Prezident tərəfindən əfv olunmasını xahiş edə bilər).

Ali qanunvericilik hakimiyyət orqanı - Knesset - 120 deputatdan ibarət təkpalatalı parlamentdir. Knessetin ilk tərkibi 1949-cu ilin yanvarında keçirilmiş ümumi seçkilərdən sonra fəaliyyətə başlamışdır.

Mərkəzi icraedici hakimiyyət orqanı - Baş nazirin (əslində, hökumət başçısı) rəhbərlik etdiyi hökumətdir. İsrailin ilk Baş naziri Yəhudi agentliyinin rəhbəri *David Ben-Qurion* olmuşdur.

Ali məhkəmə hakimiyyəti orqanı - Ali Məhkəmədir (Ali Ədalət Məhkəməsi). O, mülki və cinayət işlərinin baxılması üçün sonuncu instansiyadır, həmçinin ayrı-ayrı qanunvericilik aktlarının əsas qanunlara uyğunluğu barədə qərar qəbul edərək, Konstitusiya Məhkəməsi kimi fəaliyyət göstərir.

Knesset, Prezident iqamətgahı, Baş nazir dəftərxanası, Ali Məhkəmə, digər əksər nazirliklər və hökumət müəssisələri Yerusəlimdə (Qüds) yerləşir.

İsrail Dövləti "mexozot" adlandırılan altı inzibati dairəyə bölünmüşdür. Şəhərlərdə icra hakimiyyəti birbaşa səsvermə yolu ilə seçilmiş merlər tərəfindən həyata keçirilir. Bələdiyyə şuraları partiya siyahıları üzrə birbaşa səsvermə yolu ilə seçilir və icra hakimiyyətinə rəhbərlikdə, habelə nəzarətdə iştirak edir.

İsraildə din dövlətdən ayrılmamışdır və yerlərdə yerli hakimiyyətin, mərkəzi ravvinatlığın və dini işlər üzrə nazirliyin təyin etdiyi din xadimlərindən ibarət dini şuralar mövcuddur və onlar əhaliyə vətəndaşlıq vəziyyəti aktları və ibadət xidməti üzrə xidmət göstərirlər.

İsrailin əsas biznes mərkəzi almaz birjasının yerləşdiyi Ramat-Handadır. İsrail iqtisadi və sənaye inkişafına görə Cənub-Qərbi Asiyada ən inkişaf etmiş ölkə hesab edilir. Ölkə Dünya Bankının "Biznesin asan aparılması" reytinqində və Dünya İqtisadi Forumunun "Dünya rəqabət qabiliyyətliliyi" reytinqində ön mövqe tutur. 2008-ci il iyunun 26-da dərc edilmiş "Forbes" jurnalının tərtib etdiyi "Biznes aparılması üçün ən yaxşı ölkələr" reytinqində İsrail dünya üzrə 16-cı yeri tutmuşdur.

İsrail yeni yaradılmış şirkətlərin miqdarına görə dünyada ABŞ-dan sonra ikinci yeri tutur və NASDAQ şirkətlər siyahısında Şimali Amerikanın hüdudlarından kənarda ən çox nümayəndəliyi vardır.

İsrail su resurslarının və geotermal energetikanın mühafizəsi texnologiyaları üzrə dünyada liderdir. Proqram təminatı, telekommunikasiyalar, təbiət elmləri üzrə qabaqcıl texnologiyaları İsraili ABŞ-dakı *Silikon vadisinin* analoqu səviyyəsinə qaldırır. İntel və Microsoft şirkətləri hay-tek sferasının - İBM, Cisko Systems, Motorolla və başqa telekommunikasiya sahələrinin məhz burada ilk xarici tədqiqat mərkəzlərini yaratmışdır. 2007-ci ildə Amerika milyarderi *Uorren Baffet* İsrailin "İskar" şirkətini almışdır. Bu, onun ABŞ hüdudlarından kənarda 4 milyard dollara aldığı ilk şirkətdir.

Sənaye istehsalı strukturunda yüksək texnoloji məhsul, habelə kağız və ağac məmulatları, potaş və fosfatlar, yüngül sənaye, içkilər, tütün, aşındırıcı natr, sement, tikinti materialları, metal və plastik məmulatlar, kimyəvi preparatlar, almaz emalı, toxuculuq, ayaqqabı istehsalı üstünlük təşkil edir. 2007-ci ildə sənaye istehsalının artımı 4,1 faizə bərabər olmuşdur. İsrailə, əsasən, xammal, silah, istehsal vasitələri, emal olunmamış almaz, yanacaq, taxıl, istehlak malları idxal edilir. Kimyəvi preparatlar satışının həcmi İsrailin bütün sənaye məhsulunun təqribən 14 faizini təşkil edir. 2007-ci ildə İsrail şirkətləri 4,3 milyard dollar həcmində silah ixrac etmişlər ki, bu da ölkəni silah və müdafiə texnologiyaları ixracı üzrə ABŞ, Rusiya və Fransadan sonra dünyada 4-cü yerə çıxarmışdır.

İsrail Dövləti tədqiqatlar və yeni texnologiyaların tətbiqi ilə məşğul olan müəssisələrin maliyyələşdirilməsi siyasətini həyata keçirir, hər il bu məqsəd üçün 400 milyon dollara yaxın vəsait ayrılır. Sənaye və Ticarət Nazirliyi yanında Baş Elm Bürosu fəaliyyət göstərir. Məhsulun uğurlu satışı təqdirində nazirlik faiz ayırmaları şəklində kompensasiya verir.

İsrail kənardan elektrik enerjisi almır. İsraildə kənd təsərrüfatı inkişaf etmişdir, bu sahədə bordaq heyvandarlıq üstünlük təşkil

edir. İstehsalın böyük hissəsi özəl sektorda cəmləşmişdir, eyni vaxta kibbusların payı tədricən azalmaqdadır. Kənd təsərrüfatının ən mühüm sahələrini sitrus, tərəvəz, pambıq, ət, quş əti, süd istehsalı təşkil edir. Öz kənd təsərrüfatı sektoru İsraili 95 faiz ərzaq məhsulları ilə təmin edir, eyni zamanda, xeyli miqdarda məhsul ixrac edilir. Ölkəyə bəzi taxıl və yağ bitkiləri, ət, qəhvə, kakao və şəkər tozu idxal edilir. Ölkənin işləyən əhalisinin 3,5 faizi kənd təsərrüfatı ilə məşğuldur. Bu bölmədə çalışan hər bir şəxs 95 həmvətənini yedirdib saxlamağa qadirdir. Müqayisə üçün bu göstərici ABŞ-da - 1:79, Rusiyada - 1:14,7, Çində - 1:3,6-ya bərabərdir.

İsrail dünyanın 163 ölkəsi ilə diplomatik münasibətlər yaratmışdır. Onun 94 diplomatik missiyası vardır. Ərəb Dövlətləri Liqasının üzvlərindən yalnız ikisi İsrail ilə qarşılıqlı münasibətləri tənzimləmişdir. Birinci olaraq, İsrail ilə Misir arasında 1979-cu ildə, İsrail ilə İordaniya arasında 1994-cü ildə sülh müqaviləsi imzalanmışdır. Mavritaniya İsrail ilə tamdəyərli diplomatik münasibətləri 1999-cu ildə tənzimləmişdi, lakin 2009-cu ilin yanvar ayında Qəzzə bölgəsində İsrailin keçirdiyi əməliyyatlarla əlaqədar, Mavritaniya İsrail ilə siyasi və iqtisadi münasibətləri dondurduğunu bildirmiş, martın 6-da isə bu ölkənin hakim dairələri İsrailin Nuakşotdakı səfirliyinin əməkdaşlarının ölkəni tərk etməsi üçün onlara 48 saat möhlət vermişdir. Ərəb Dövlətləri Liqasının digər iki üzvü - Mərakeş və Tunis 2000-ci ilə qədər İsrail ilə diplomatik münasibətlər saxlayırdı, lakin ikinci İntifada başlandıqda həmin münasibətlər müvəqqəti dayandırılmışdır. Bununla belə, 2003-cü ildən etibarən Mərakeşlə İsrailin münasibətləri yaxşılaşmağa başlamış və İsrailin xarici işlər naziri bu ölkəyə səfər etmişdir. İsrail qanunlarına görə Livan, Suriya, Səudiyyə Ərəbistanı və Yəmən İsrailə düşmən dövlətlərdir və Xarici İşlər Nazirliyinin xüsusi icazəsi olmadan İsrail vətəndaşları həmin ölkələrə səfər edə bilməzlər. 1995-ci ildən İsrail Aralıq dənizi hövzəsindəki yeddi ölkə və NATO-nun üzvləri arasında

qarşılıqlı fəaliyyəti stimullaşdıran Aralıq dənizi dialoqu təşkilatının üzvüdür.


İsrailin ən yaxın müttəfiqləri ABŞ, Böyük Britaniya, Almaniya, Hindistan və Türkiyədir. ABŞ SSRİ-dən sonra İsraili tanımış ilk dövlət olmuşdur. İsrail NATO-dan kənarda ABŞ-ın əsas müttəfiqi statusunu almışdır. 1991-ci ilə qədər Türkiyə ilə İsrail arasında tam qarşılıqlı diplomatik münasibətlər olmamışdır, hərçənd, 1949-cu ildən, Türkiyə İsraili tanıdığı vaxtdan etibarən onların arasında hər cür qarşılıqlı əlaqələr mövcud olmuşdur. Lakin Türkiyə və digər müsəlman ölkələrinin ortaq dinlə bağlılığı onun İsrailə münasibətinə şəksiz təsir göstərir. İsrail ilə Almaniya arasında sıx əlaqələr elm, təhsil, hərbi tərəfdaşlıq məsələlərində qarşılıqlı fəaliyyəti və sıx iqtisadi əlaqələri əhatə edir. Hindistan 1992-ci ildə İsrail ilə tamdəyərli diplomatik münasibətlər saxlamağa başlamışdır və o vaxtdan bu iki ölkə arasında hərbi və mədəni əməkdaşlıq təşviq olunur. İsrail Dövləti yarandığı andan Böyük Britaniya onunla tammiqyaslı diplomatik münasibətlər və güclü ticarət əlaqələri saxlayır. İsrail Böyük Britaniyanın iri ticarət tərəfdaşları arasında 23-cü yeri tutur. İsrail Rusiya ilə də sıx əlaqələr qurmuşdur. İranda Pəhləvi sülaləsinin hakimiyyəti dövründə İsrail ilə diplomatik münasibətlər olmuşdur, lakin İran inqilabından (1979) sonra bu ölkə İsrail ilə bütün əlaqələri kəsmişdir.

5.6. İraq - bölgənin narahat ölkəsi

Bu narahat regiondakı daha bir ölkə - İraq da çox maraqlı tarixə malikdir. Bibliyadakı rəvayətlərə görə, cənnət Dəclə və Fərat çayları arasında yerləşirmiş. Allah əvvəlcə Adəm və Həvvanı yaradıb onları cənnətdə məskunlaşdırmışdır.

İraq planetdə ən qədim sivilizasiyaların vətəni, zəngin ərəb mədəniyyətinin varisidir. Ərəb Xilafətinin paytaxtı olmuş Bağdad müdriklik mərkəzi, təbabətin və riyaziyyatın yüksək dərəcədə inkişaf etdiyi bir məkan olmuşdur. Ərəblər deyirdilər ki, alimin mürəkkəbi şəhid qanı qədər qiymətlidir. Məhz ərəblərin sayəsində

Xəritə 51. *İraq*



bəşəriyyət qədim yunan və Roma filosoflarının fikirləri ilə tanış ola bilmişdir.

Müasir İraqın ərazisində qədim Şumer və Akkad dövlətləri, Babilistan və Assuriya (Aşşur) padşahlıqları mövcud olmuşdur. Ərəblərin gəlişi ilə VII əsrdən başlayaraq islam dini və ərəb dili yayılmağa başlamışdır. XVII əsrin 30-cu illərindən Birinci Dünya müharibəsinə qədər Osmanlı imperiyasının tərkibində olmuşdur. Birinci Dünya müharibəsi zamanı İngiltərə qoşunları İraqı işğal etmiş və 1920-ci ildə İraq Böyük Britaniyanın mandatlığına keçmişdir. İraq Bağdad paktının (1955-ci ildən SENTO) əsasını

qoyan ölkələrdən biridir. 1958-ci il iyulun 14-də İraqda inqilab baş vermiş, mütləqiyyət devrilmiş və respublika idarə üsulu elan olunmuşdur.

Sovet İttifaqı ilə İraq arasında uzun müddət çox sıx dostluq münasibətləri mövcud olmuşdur. Bu ölkə Yaxın Şərqdə SSRİ-nin əsas tərəfdaşı idi.

Ölkədəki bütün sənaye obyektlərinin 70%-i sovet, o cümlədən Azərbaycan mütəxəssislərinin əli ilə yaradılmış, elektrik stansiyaları, dəmir yolları və başqa obyektlər tikilmişdir. Lakin 1991-ci il müharibəsinin gedişində SSRİ faktiki olaraq ABŞ-ın və onun müttəfiqlərinin tərəfinə keçəndən sonra sovet-İraq münasibətlərində bir soyuqluq yaranmışdır.

1990-cı ilə qədər İraq ilə SSRİ arasında ticarətin illik həcmi 8 milyard dollara çatırdı. Bu ölkə ilə iqtisadi əlaqələr: neft və qaz hasilatında, energetikada əməkdaşlıq, spesifik kənd təsərrüfatı məhsulları almaq imkanı və s. indi də böyük əhəmiyyət kəsb edir. İraq gündə 50-70 milyon dollarlıq neft hasil etmək və satmaq imkanına malikdir. O, neft yataqlarının kəşfiyyatı və neft hasilatı üçün dünyanın iri neft şirkətləri ilə kontrakt bağlamışdır.

Lakin İraqın indiki vəziyyəti çox ciddidir. Ölkə rəhbərliyi gündəlik sabit və təhlükəsiz həyat haqqında düşünməli olur. 2003-cü ildə ABŞ və Böyük Britaniyanın rəhbərliyi ilə koalisiya qüvvələri tərəfindən *Səddam Hüseyn* rejimi devrildikdən sonra ölkədə vətəndaş müharibəsini xatırladan şiddətli qarşıdurmalar səngimək bilmir. 1 milyondan çox insan bu qarşıdurmaların qurbanına çevrilmişdir.

VI Fəsil

AFRİKA VƏ LATIN AMERİKASI ÖLKƏLƏRİNİN ƏNƏNƏLƏRİ VƏ GEOSİYASƏTİ

Tarixin gedişi Afrika və Latın Amerikası ölkələrinin həyatında, ənənələrində və geosiyasətində səciyyəvi izlər qoymuşdur. Bu qitələrdə cərəyan edən geosiyasi (regional və subregional) prosesləri təhlil edərkən Böyük coğrafi kəşflər dövrünü, çoxəsrlik müstəmləkəçiliyi, onun nəticələrini, o cümlədən süni şəkildə yaradılmış sərhədləri, dəhşətli yoxsulluğu, savadsızlığı və digər sosial bəlaları nəzərə almamaq olmaz. Müstəmləkəçilər, bir qayda olaraq, gedəndə də keçmiş müstəmləkələrin və dominionların əhalisini silah gücünə olmasa da, maliyyə əsarəti hesabına metropoliyalara bağlayaraq, əslində yenə orada qalırdılar.

6.1. Afrika - qaynar qitə


Afrika dünya birliyinin mühüm tərkib hissəsidir. Onu çox vaxt "oyanmış qitə" adlandırırlar. Bu gün bu qitə qarşısında çox mürəkkəb geosiyasi problemlər qamması dayanır. Həmin problemlərin bəziləri, məsələn, müstəmləkəçilik, kölə alveri və s. çoxəsrlik tarixə malikdir. Digərləri yaxın vaxtlarda yaranmış və ya kəskinləşmişdir. Onlar nisbətən qısa dövrü əhatə edirlər. Məsələn, SSRİ dağılandan sonra dünyada geosiyasi qüvvələrin balansı pozulmuşdur, bu qitənin həyatının sosial-iqtisadi, siyasi və mənəvi sahələri dəyişir. Afrika xalqlarının çoxu nisbətən yaxın vaxtlarda siyasi müstəqillik əldə etmişlər (*bax:* **53-cü və 54-cü xəritələr**), lakin iqtisadi və sosial baxımdan real pozitiv dəyişikliklərə onların əksəriyyəti nail ola bilməmişdir.


Afrika ölkələrinin bəzilərində qərbləşmə konsepsiyası, yəni onların Qərbin, xüsusən ABŞ-ın sosial təsisatlarına, hüquq etalonlarına oriyentasiyası dəstəklənməmişdir. Eyni zamanda, Afrikanın

(adanın) Avrasiyaya, o cümlədən Sovet İttifaqına geosiyasi meyili kifayət qədər inkişaf etməmişdir.

Afrika planetin ən münaqişəli geosiyasi ərazisi reputasiyasını qazanmışdır. Ötən əsrin son dörddə birində sabitliyin azalması meyili güclənmişdir. Qitədə 35 iri silahlı münaqişə qeydə alınmışdır. Bu münaqişələrdə 10 milyondan çox insan həlak olmuşdur. Onların 90%-dən çoxu mülki əhalidir. Bütün dünyadakı qaç-

Xəritə 52. ***Afrika***






Xəritə 53. ***Müstəmləkələrə bölünmüş Afrika***
(Global Issues, http://www.globalissues.org/article/84/conflicts-in-africa-introduction)

qınların təqribən yarısı (müxtəlif hesablamalara görə 7 milyondan 10 milyona qədəri), məcburi köçkünlərin 60%-i (təqribən 20 milyon nəfər) bu qitədədir (bu barədə *bax:* **22-ci və 23-cü cədvəllər**).


Bu, müxtəlif etnik, konfessional ayrı-seçkilik kimi konfliktogen amillər, sosial-iqtisadi və siyasi xarakterli ziddiyyətlər və başqa sə-



Xəritə 54. ***Afrikada müstəqil dövlətlərin yaranması***
(Global Issues, http://www.globalissues.org/article/84/conflicts-in-africa-introduction)

bəblərlə bağlıdır. Bir sıra tədqiqat işlərində bu problem xeyli bəsitləşdirilir, Afrikanın konvulsiv (tib. konvulsiya - qıc, qıc olma) inkişafı bəzən bayağı sxemə çevrilir. Məsələn, inkişaf nəzəriyyəsinin əsasını qoymuş ilk əsərlərdən biri *S.Hantinqtonun* "Transformasiya cəmiyyətlərində yeni siyasi qayda haqqında" kitabı olmuşdur. Müəllif deyir: *"Kütlələrin siyasətə soxulması gərginliyə səbəb olur.*

Cədvəl 22




Source: *Virgil Hawkins, New World Maps Stealth Conflicts, December 30, 2008*

Bu, siyasi sabitlik üçün və nəticə etibarilə inkişafın özü üçün təhlükə yarada bilər" [Право.., 1991, стр. 9].

SSRİ-nin, Rusiyanın, Qərb ölkələrinin, Afrikanın özünün elmi ədəbiyyatında Afrikanın geosiyasi vəziyyətinin dərin təhlilinə həsr edilmiş fundamental araşdırmalar demək olar ki, çox azdır. Lakin, bununla belə, geosiyasətin və siyasətşünaslığın ayrı-ayrı istiqamətlərini dərk etmək, məsələn, XX əsrin axırlarında Afrika ölkələrinin sosial-siyasi inkişaf yolunu seçməsi problemlərinin, diktator rejimlərinin və ordunun qitə həyatında rolunun, münaqişələrin öyrənilməsi və onların tipologiyası, mənəvi-siyasi həyatda din amilinin rolu, mədəniyyət və cəmiyyətin, ənənəvi və müasirin sintezi, XXI əsrdə Afrikanın geosiyasi inkişaf perspektivlərinin öyrənilməsi üçün cəhdlər göstərilmişdir.

1991-ci ilin mayında Namibiyada "Afrikanın müstəqilliyinin 30 ili: yekunlar və perspektivlər" mövzusunda konfrans keçirilmişdir. Konfransda ümumiləşdirici nəticə kimi qeyd edilmişdir ki, müstə-

Cədvəl 23



Source: *UNHCR, accessed November 30, 2009*

qilliyin 30 ili bu kontinentə nə demokratiya gətirmişdir, nə də tərəqqi, Afrikada iqtisadi və siyasi böhran daha da dərinləşmişdir.

Müasir Afrika dövlətlərinin sosial-siyasi və sosial-iqtisadi inkişaf istiqamətləri müxtəlifdir. Lakin sosial oriyentasiyadan, ictimai inkişafın dərəcəsindən asılı olmayaraq, çoxəsrlik geriliyin aradan qaldırılması uğrunda, öz sosial suverenliyini, iqtisadi müstəqilliyini, sosial tərəqqini möhkəmlətmək uğrunda mübarizə, öz yeraltı sərvətləri, insan və maliyyə resursları barəsində sərəncam vermək hüquqları uğrunda mübarizə Afrika ölkələrinin səciyyəvi cəhətidir.

Etnik ziddiyyətlər əsrlər boyu Afrikanı sarsıtmışdır. Bu ziddiyyətlərin ən qanlısı 1994-cü ildə Ruandada başlanmış və demək olar ki, iki il davam etmişdir. Hutu qəbiləsinin hakimiyyətdə olan radikal əhval-ruhiyyəli nümayəndələri bu qəbiləyə "düşmən" olan tutsi qəbiləsinin kütləvi şəkildə məhv olunmasını təşkil etməklə mil-

li məsələni birdəfəlik "bağlamağı" qərara almışdır. Bu təşəbbüsü irəli sürənlər 1 milyonda çox insanı qətlə yetirmişdilər. Bunu yalnız faşistlərin cəza tədbirləri və ya Kambocada "qırmızı khmerlər"in hərəkətləri ilə müqayisə etmək olar.

Qitə ölkələrinin inkişafının səciyyəvi cəhəti formasiya proseslərinin başa çatmamasıdır. Onlar siyasi müstəqillik əldə etdikdən sonra nisbətən az vaxt keçmişdir. Qitədə iqtisadi münasibətlərin patriarxal icma növlərindən başlamış kapitalist və sosialist növlərinə qədər müxtəlif tipləri mürəkkəb, bəzən də əcaib şəkildə qovuşmuşdur. Cəmiyyətin sosial-sinfi diferensiasiyası zəifdir. Sosial strukturda icma-qəbilə və hətta tayfa münasibətlərinin qalıqları hiss olunur. Siyasi sistemdə hakimiyyətin müxtəlif növləri mövcuddur: avtoritar-hərbi-diktator, birpartiyalı, çoxpartiyalı, demokratik və monarxik hakimiyyət növlərinə rast gəlmək olar. Mənəvi-ideoloji həyat sahəsində ənənəvi Afrika mədəniyyətləri və etiqadlarından başlamış müsəlman və xristian dinlərinə, burjua və sosializm ideyalarına qədər müxtəlif baxışların geniş spektri müşahidə olunur. Afrika bütün başqa qitələrdən fərqi olaraq, ətraf aləmdən, xüsusən transmilli korporasiyalardan, beynəlxalq maliyyə mərkəzlərindən siyasi və iqtisadi cəhətdən asılı vəziyyətdə qalır. Bu asılılıq aclıq, yoxsulluq, xəstəliklər, savadsızlıq, xalqın siyasi və ümumi mədəniyyət səviyyəsinin aşağı olması, kəskin iqtisadi və siyasi böhranlar, etnoslararası və dini ziddiyyətlərin kəskinləşməsi kimi qlobal sosial problemlər hesabına daim stimullaşdırılır.

Siyasi baxımdan müasir Afrika, əsasən, avtoritar rejimlərdən ibarətdir (90-cı illərin ortalarında tropik Afrikadakı 45 dövlətin 38-də bu rejimlər hökm sürürdü). Bunun həm daxili, həm də xarici səbəbləri var. Daxili səbəblərə iqtisadi gerilik, cəmiyyətin sosial-sinfi diferensiasiyasının zəif olması, müstəmləkə sistemindən qalmış miras (diktatorlar - qəbilələrin, xalqların rəhbərləri - müstəmləkə administrasiyasının əlaltıları), vətəndaş cəmiyyəti və hüquqi dövlət elementlərinin olmaması, əhalinin siyasi mədəniyyətinin aşağı

səviyyəsi, etnoslararası ziddiyyətlər, arxaik infrastruktur: yolların, rabitənin pis vəziyyətdə olması və s. aiddir.

Avtoritar rejimlərin formalaşmasına daxili səbəblərlə yanaşı, bu kontinentdə təsir dairələri uğrunda iki dünya sisteminin - kapitalizmin və sosializmin mübarizəsi də şərait yaratmışdır. Afrika 30 il müddətində bu iki sistemin müxtəlif formalarda rəqabət apardığı meydan olmuşdur. Bu sistemlər müxtəlif diktatorları hakimiyyətdə saxlayır və yedirdir, onlar da həmin sistemlərin mənafelərini həyata keçirirdi. Bir qayda olaraq, diktatorların hakimiyyətə hansı yollarla gəlməsinin fərqinə varmadan xalq onlara danışıqsız tabe olurdu. Milli elita istisna olmaqla əhali siyasətin və geosiyasi münasibətlərin subyekti deyil, obyekti idi. Buna görə də Afrikada həyatın bütün sahələrində qeyri-sabitlik yaranmışdır: 1960-cı ildən sonra qitənin müstəqil dövlətlərində 100-dən artıq hərbi çevriliş baş vermişdir. Bəzən bu çevrilişləri xaricdən dəstəklənən serjantlar və leytenantlar həyata keçirirdi.

Ordunun və müxtəlif separatçı hərəkatlardan təşkil olunmuş siyasi müxalifətin xüsusi rolu Afrika ölkələrinin əksəriyyəti üçün spesifik fenomen olaraq qalır. Ordu xalqın nəzərində hələ də dövlət müstəqilliyinin təminatçısı və rəmzi, ölkə daxilində az da olsa qayda yaratmağa və onu gözləməyə, xarici aləmlə az-çox bərabərhüquqlu münasibətlər yarada biləcək təşkilat kimi təsəvvür edilir. Afrikanın praktiki olaraq, bütün ölkələrində - istər Nigeriya, Zair, Sudan, Efiopiya, Çad, Somali kimi iri dövlətlərdə, istərsə də kiçik ölçülü ölkələrdə ordu hakimiyyətin dayağı və rıçağıdır.

Daha güclü (sayca çox, təlim keçmiş, silahlanmış) orduya və sanballı insan potensialına malik olan ölkələr, təbii ki, Afrikada regional geosiyasi qüvvələrin paylanmasında böyük rol oynayır. XX əsin sonlarında qitədə təqribən 2 milyona yaxın silahlı ordu var idi. Ən iri ordular aşağıdakılar olmuşdur: əhalisi 60 milyondan çox olan Misirin 440 minlik, əhalisi 28 milyondan çox olan Mərakeşin 196 minlik, əhalisi 28 milyondan çox olan Əlcəzairin təxminən 122 minlik, əhalisi 50 milyona yaxın olan Efiopiyanın 120 minlik,

əhalisi 10 milyondan çox olan Anqolanın 82 minlik, əhalisi 40 milyona yaxın olan Cənubi Afrika Respublikasının 79 minlik ordusu vardı.

Afrika qitəsinin geosiyasi vəziyyətinə güclü təsir göstərən növbəti spesifik amil etnoslararası münasibətlərdir. Afrikanın etnik tərkibi müxtəlif millətlərin, milliyyətlərin, qəbilələrin son dərəcə rəngarəng mozaikasıdır. Qitədə təqribən 50 millət və milliyyət, müxtəlif dildə danışan 300 qəbilə vardır *[bax:* Нартов, 1999, səh. 293]. Afrika ərazisinin müstəmləkələr arasında bölüşdürülməsi nəticəsində dövlət sərhədləri ilə təbii-coğrafi sərhədlər və əhalinin yaşadığı tarixi sərhədlər arasında heç bir ümumi cəhət yoxdur. Sərhədlərin 44%-i meridianlar və paralellər boyunca, daha 30%-i düz xətlər və qövsvarı xətlər boyunca çəkilmişdir. Ərazinin bu cür bölünməsi bir növ gec işə düşən minaya bənzəyir, etnoslararası münaqişələr və müharibələr üçün əsas verir. Bu münaqişə və müharibələri Şərq ilə Qərb arasında qarşıdurma, sosial inkişaf yolunun, geosiyasi oriyentasiyanın seçilməsi kimi amillər qızışdırır. Bu isə təkcə lokal etnoslararası münaqişələrin deyil, həm də qanlı müharibələrin baş verməsinə şərait yaradır. Bu barədə yuxarıda söhbət açmışdıq.

XX əsrin 90-cı illərinin əvvəlindən qitədə ictimai şüurda regionlararası və kontinentlərarası əməkdaşlıq ideyaları kök salmağa başlamışdır. Tanzaniyanın paytaxtı Darüssəlamda münaqişələrin tənzimlənməsi üzrə Afrika mərkəzi yaradılmışdır. Mərkəzin əməkdaşlarının sözlərinə görə, məqsəd afrikalıları əcnəbilərin vasitəçiliyinə ümid etmək əvəzinə, öz problemlərini müstəqil həll etməyə sövq etməkdir *[Daily news, 1991]*.

Bununla belə, mondializm nümayəndələrinin çoxunun fikrincə, həmin mərkəzin nüfuzu o qədər böyük olacaqdır ki, Afrika qitəsinin əhalisini öz orbitinə cəlb edəcəkdir. Lakin əsərləri haqqında əvvəlki fəsillərdə bəhs etdiyimiz *S.Hantinqton* bununla əlaqədar yazır: *"Sovet kommunizminin iflasa uğramasından sonra Qərbin dünyanı həmişəlik fəth edəcəyini düşünmək ağılsızlıq olardı"*.

Onun fikrincə, dünya geosiyasətini müxtəlif sivilizasiyaların qarşıdurması müəyyənləşdirəcəkdir. Burada Qərb və qeyri-Qərb sivilizasiyaları həlledici rol oynayacaqlar. Bildiyimiz kimi, *Hantinqton* qeyri-Qərb sivilizasiyalarına konfusiçilik, slavyan-pravoslav, latın amerikan və Afrika sivilizasiyalarını aid edirdi. Subregional, kontinental və qitələrarası səviyyələrdə güc meydanlarının bölünməsinə və qarşılıqlı münasibətlərinə təsir göstərən amillər çoxdur. Lakin *Hantinqtonun* fikrincə, *"həlledici əhəmiyyət kəsb edən amil ondan ibarətdir ki, müxtəlif sivilizasiyalara mənsub olan xalqların Allah ilə insan arasında, fərdlə qrup arasında, vətəndaşla dövlət arasında qarşılıqlı münasibətlər haqqında, hüquq və azadlıqların, azadlıq və hakimiyyətin, bərabərlik və iyerarxiyanın qarşılıqlı nisbəti haqqında təsəvvürləri müxtəlifdir. Bu fərqlər çoxəsrlik tarixə malik olub, siyasi ideologiya və rejimlərin fərqlərindən daha dərin məna kəsb edir"* [*bax:* Демократия.., 1995, səh. 12].

Afrikanın taleyi tarixən bütün dünyanın tarixi ilə bağlıdır. Bu qitə bəşəriyyətə çox güclü sivilizasiyalar (ən qədim Misir, Ərəb Xilafəti və s.) bəxş etmiş, lakin müstəmləkəçilik dövrü Afrika xalqlarının inkişafını xeyli ləngitmiş, onları dünyanın təsirindən təcrid etmişdir. Afrika ölkələrinin hər biri müstəqillik əldə etdikdən sonra kapitalist və ya sosialist inkişaf yolunu özü seçirdi. Lakin həyat göstərdi ki, bu qitənin reallıqlarını nəzərə almayan inkişaf modelləri iqtisadi böhranın, sosial və siyasi qeyri-sabitliyin daha da dərinləşməsinə, regional və etnik (o cümlədən hərbi) münaqişələrə, aclığın, yoxsulluğun güclənməsinə, müttəfiq ölkələrdən asılılığın artmasına gətirib çıxarır. Məsələn, XX əsrin ortalarında tropik Afrika ölkələrində əmtəə və xidmətlər istehsalının ümumi həcmi Avropanın kiçik bir ölkəsi olan Belçikada istehsalın həcminə bərabər idi. Rusiya Elmlər Akademiyası Afrika İnstitutunun iqtisadçılarının hesablamalarına görə, XX əsrin axırlarında Afrikada adambaşına ümumi daxili məhsul inkişaf etmiş kapitalist ölkələrindəki müvafiq göstərici ilə müqayisədə 20 dəfədən çox aşağı olmuşdur. Başqa sözlə desək, Afrika ölkələrinin əksəriyyəti XXI

əsri sistemli böhran vəziyyətində qarşılamışdır. Nəticədə, insanlar doyunca yemir, hətta aclıq çəkir, savadsızlıq, uşaq ölümü göstəricilərinin dəhşətli həddə çatması, epidemiyalar 10 milyonlarla insanın həyatına son qoyur. Bütün bunlara fəlakətli dərəcədə pisləşməkdə olan ekologiyanı və ətraf mühitin mühafizəsi üçün vəsaitin demək olar ki, tamamilə mövcud olmamasını da əlavə etmək lazım gəlir. Adlarını çəkdiyimiz və digər sosial bəlalar sürətlə silahlanmanı, hərbi münaqişələri daha da kəskinləşdirir. Məsələn, qitə ölkələrinə xaricdən göstərilən kömək ildə 11 milyard dollar təşkil etdiyi halda, silahlanma və hərbiçilərin saxlanması üçün məsrəflər 12 milyard dollardan çoxdur. Efiopiya, Anqola, Zair, Mozambik, Sudan, Somali və bəzi başqa ölkələr, əslində milli fəlakət həddindədirlər.

Afrikanın geosiyasi durumu, onun beynəlxalq münasibətlər sistemində mövqeyi, əsasən, dünya iqtisadi sisteminin köklü dəyişməsi ilə bağlıdır. Afrika ölkələri dünya birliyinin iqtisadi qurumlarından güzəştli imtiyazlar gözləyirlər.

Sadaladığımız bütün problemlərə baxmayaraq, Afrika geosiyasi baxımdan Qərbə meyil etmək istiqamətinə üstünlük verir.

6.2. Latın Amerikası: geosiyasi proseslər

Latın Amerikası dedikdə, Şimali Amerikanın cənubunda və Cənubi Amerikada dövlətlər qrupu nəzərdə tutulur. Regional baxımdan Latın Amerikası 3 müstəqil subregiona ayrılır: Mərkəzi Amerika, Vest-Hind və Cənubi Amerika. Latın Amerikası anlayışı şərtidir. Bu anlayış buradakı rəsmi və ya dövlət dillərinin latın dili əsasında (ispan və portuqal dilləri) yarandığını bildirir. Latın Amerikasının ümumi sahəsi 21 milyon kvadratkilometrdir. Burada 590 milyon nəfərdən çox əhali yaşayır.

Tarixən ABŞ iqtisadi, hərbi və maliyyə cəhətdən qüvvətləndikcə Latın Amerikasının tədricən onun geosiyasi təsir dairəsinə düşməsi də sürətlənirdi. Hazırda faktiki surətdə Latın Amerikasının bütün dövlətləri Birləşmiş Ştatların həm siyasi, həm də iqtisadi təsiri altındadır. Latın amerikalıların ABŞ-ın nüfuz dairəsinə daxil edilməsi XIX əsrin birinci yarısından başlamışdır.

Xəritə 55. ***Latın Amerikası***



XIX əsrin ilk onilliklərində Mərkəzi və Cənubi Amerikada ingilis koloniyaları azadlıq əldə etdikdən sonra Latın Amerikası xalqlarının müstəqillik hərəkatı (*bax:* **xəritə 56**) genişlənməyə başladı. *Napoleonun* 1808-ci ildə İspaniyanı işğal etməsi Latın Amerikasının inqilaba başlaması üçün işarə rolunu oynadı. 1822-



Xəritə 56. ***Latın Amerikası dövlətlərinin müstəqillik hərəkatı***

ci ildə *Simon Bolivarın, Fransisko Merandanın, Joze dö San Martinin* və *Migel Hidalqonun* başçılığı altında bütün İspaniya Amerikası, cənubda Argentina və Çilidən tutmuş, şimalda Meksika və Kaliforniyaya qədər müstəqillik əldə etdilər. Birləşmiş Ştatlar Avropa diktatına son qoymaq işində onların öz təcrübələrinin təkrarı kimi görünən bu hala dərin maraq göstərirdi. Latın Amerikasında müstəqillik hərəkatları onların özünüidarə inamını təsdiq edirdi. 1822-ci ildə Prezident *Ceyms Monro* xalq kütlələrinin güclü təzyiqi altında Latın Amerikasının bütün yeni dövlətlərini, o cümlədən keçmiş Portuqaliya müstəmləkəsi Braziliyanı tanıdı və tezliklə bu dövlətlərlə diplomatik nümayəndəliklər mübadiləsi həyata keçirdi.

Məhz elə bu zaman Rusiya, Prussiya və Avstriya Müqəddəs İttifaq adlı bir birlik təşkil etdi ki, özlərini inqilabdan qorusunlar. İttifaq ümid edirdi ki, bu yolla monarxiya üçün təhlükə törədən xalq hərəkatlarının və inqilabların qarşısını alacaqdır. Nə qədər ki, Müqəddəs İttifaq öz fəaliyyətini Köhnə dünya ilə məhdudlaşdırırdı, bu, Birləşmiş Ştatlarda heç bir narahatlıq doğurmurdu. Lakin elə ki, İttifaq İspaniyanın keçmiş koloniyalarını ona qaytarmaq niyyətində olduğunu elan etdi, amerikalılar çox ciddi narahatçılığa başladılar. Britaniya da, öz növbəsində qərara gəldi ki, İspaniyaya öz imperiyasını bərpa etməyə mane olsun, çünki Latın Amerikası ilə ticarət Britaniyanın ticarət mənafeyi üçün çox vacib idi. London Latın Amerikasında İngiltərə-Amerika təsirinin genişlənməsində təkid edirdi, lakin dövlət katibi *Con Kuinsi Adams* Prezident *Monronu* inandırdı ki, o birtərəfli hərəkət etsin: *"Britaniya hərbi gəmisinin yedəyinə bağlanmış qayıqda getməkdənsə, bizim prinsiplərimizin nədən ibarət olduğunu aydın və müfəssəl şəkildə Rusiyaya və Fransaya açıq etiraf etmək daha səmimi və daha ləyaqətli olardı".*

1823-cü ilin sonlarında Prezident C.Monro Konqresə xüsusi müraciətnamə göndərdi. Sonradan *"Monro doktrinası"* adını almış bu müraciətnamədə Prezident öz ölkəsinin xarici siyasətinə ümumi qiymət verdikdən sonra ABŞ-ın gələcək siyasətinin nəzə-

ri və təcrübi əsaslarını yaratmışdır. Bu, eyni zamanda, Amerikada Avropa dominionunun genişlənməsinə qarşı mövqe idi: *"Amerika koloniyaları... hər hansı bir Avropa ölkəsi tərəfindən gələcək müstəmləkə halına salına biləcək obyekt hesab edilməməlidir. Biz bu yarımşarın hər bir hissəsinə onların [siyasi] sistemini genişləndirmək üçün hər cür cəhdlərini bizim əmin-amanlığımız və rahatlığımıza təhlükə hesab edəcəyik. Hər hansı bir Avropa dövlətinin mövcud müstəmləkələrinin və ya ondan asılı qurumlarının işlərinə qarışmırıq və qarışmayacağıq. Lakin öz müstəqilliyini elan etmiş və onu müdafiə edən və müstəqilliyini... tanıdığımız hökumətə gəldikdə isə, onun taleyini hansı yolla olursa-olsun başqa bir tərzdə öz nəzarəti altına alan Avropa dövlətinin hərəkətinə Birləşmiş Ştatlara qarşı düşmənçilik meyillərinin ifadəsi işığından başqa ayrı cür baxa bilmərik".*

Monro doktrinası Latın Amerikasının yeni yaranmış müstəqil respublikaları ilə həmrəylik ruhu ifadə edirdi. Bu dövlətlər də, öz növbəsində, konstitusiyalarını bir çox məsələlərdə Şimali Amerika modeli əsasında yaratmaq yolu ilə özlərinin Birləşmiş Ştatlarla siyasi yaxınlıqlarını etiraf edirdilər. Monro doktrinasının 7-ci bəndində qeyd edilir ki, müstəqillik əldə etmiş Amerika qitəsinin dövlətləri siyasi müstəqilliklərini itirməmək, yenidən Avropa dövlətlərinin müstəmləkələrinə çevrilməmək üçün ABŞ-ın ətrafında birləşməlidirlər. Monro doktrinasının əsas qayəsi "Amerika amerikanlar üçündür" şüarı idi. Əslində, Birləşmiş Ştatlar Köhnə dünya ölkələrinə bəyan edirdi ki, avropalılar Amerika qitəsinə müstəmləkəçilik gözü ilə baxmağı tərgitməlidir. Odur ki, Yeni dünyada Avropanın siyasi təsirini hər vasitə ilə yaymaq cəhdi Birləşmiş Ştatlar tərəfindən "əmin-amanlığımıza və təhlükəsizliyimizə hədə kimi qiymətləndiriləcək". Birləşmiş Ştatlar Avropanın daxili işlərinə, orada gedən müharibələrə qarışmaq fikrində deyil, - əmindir ki, Avropa da Şimali və Cənubi Amerikanın işlərinə müdaxilə etməkdən vaz keçəcəkdir. Bu doktrinanın dəqiq siyasi istiqamət almağından ötrü on illər gərək olsa da, hər halda vaxtilə *Monro* tərəfindən müəyyən edilmiş amerikan müstəqil

xarici siyasət prinsipi o dərəcədə uğurlu oldu ki, sonra gələn iqtidarlar belə, o qəlibdən çıxa bilmədilər. Qeyd etmək lazımdır ki, həmin siyasətin bir uğuru da onun amerikan maraqları ilə yanaşı, britan maraqlarına da uyğun gəlməsi idi və həmin siyasət sonrakı 100 il ərzində ingilis hərbi dəniz donanması tərəfindən müdafiə olunurdu.

Monro doktrinası, əslində, qonşu dövlətlər hesabına ABŞ torpaqlarını genişləndirmək, yeni müstəmləkə mülkləri ələ keçirmək üçün diplomatiya pərdəsi altında həyata keçirilən yeni müstəmləkəçilik siyasəti idi. Bu sənəd Birləşmiş Ştatlara bütöv materikdə bir növ hegemon dövlət olmaq hüququnu verirdi. Başqa sözlə desək, Monro doktrinası digər dövlətlərlə müqayisədə ABŞ-a "üstünlük hüququ" verirdi. ABŞ bu "üstünlük hüququ"ndan bəhrələnməklə 1924-1926-cı illərdə Kuba və Puerto-Rikonu öz təsiri altına keçirmiş, XIX əsrin 40-cı illərində o vaxta qədər Meksikaya məxsus olan Texas, Oreqon və Kaliforniya bölgələrini ələ keçirərək öz tərkibinə qatmışdır.

Hələ 1895-ci ildə "beynəlxalq polis qüvvələri" və yaxud "dünyanın dəyənəyi" missiyasını öz üzərinə götürmüş ABŞ (bu o vaxtkı dövlət katibi *R.Olninin* ideyası olub) 1904-cü ildə Prezident *Teodor Ruzveltin* dili ilə belə bir fikir irəli sürmüşdür: *"Monro doktrinasına dəstək verən Birləşmiş Ştatlar Qərb yarımkürəsinin hər hansı bir bölgəsində qarışıqlıq baş versə, bu məsələyə müdaxilə etməyi özünə borc bilir".* Məhz bu ideyadan ruhlanan ABŞ sonradan Kuba, Meksika, Haiti, Dominikan Respublikası, Nikaraqua, Panama və digər ölkələrdə dövlət rəhbərləri vəzifəsinə öz adamlarını gətirə bilmişdir. Bütün bunlara baxmayaraq, ötən əsrin 70-ci illərindən başlayaraq Latın Amerikası ölkələrində dəyişikliklər hiss olunmağa başlayır. Yəni bu ölkələr təkcə ABŞ orbitinə deyil, dünya orbitinə çıxmağa, dünya ölkələri ilə inteqrasiya olunmağa çalışırlar. Latın Amerikası ölkələrinin əksəriyyətinin ən böyük problemi iqtisadiyyatlarının zəif inkişaf etməsidir.

Dünya iqtisadiyyatında keyfiyyət dəyişiklikləri prosesi getdiyi bir şəraitdə elmi-texniki inqilab iqtisadiyyatın aparıcı sahəsinə çevrilmişdir. Əlbəttə, dünya iqtisadiyyatında gedən inteqrasiya siyasəti Latın Amerikası xalqlarına bəzi sərfəli məqamlar da gətirmişdi, *yəni inflyasiyanın* sürətli artımının qarşısı alınmış, ölkələrdə iqtisadi dirçəliş xeyli artmışdır. Məsələn, 10 il (1986-1997) ərzində region ixracının həcmi dəyərcə 3, idxalınkı isə 4 dəfə artmışdır. Bu illərdə regiona 330 mlrd. ABŞ dolları həcmində kapital daxil olmuşdur *[Hapmoв, 1999, cmp. 298]*. Amma fasadın arxasında çoxlu neqativ hallar və tendensiyalar gizlənir. İlk növbədə, idxal dəyərinin, ixrac dəyərindən artıq olması ön plana çəkilməlidir. Çünki bu xoşagəlməz amil xarici borcları artırır. Braziliya, Argentina, Kolumbiya, Çili, Peru xarici borclar içində boğulur. Bundan başqa, region ölkələri dünya bazarında möhkəm yer tuta bilmirlər. Onların istehsal etdikləri sənaye və kənd təsərrüfatı məhsulları dünya bazarlarına ayaq açа bilmir. Dünya ticarət dövriyyəsində onların payı son 30 ildə bir faiz aşağı düşmüşdür.

İdxalın dəyərcə sürətli artımı milli istehsalçıların vəziyyətini çətinləşdirərək müflisləşmə, işsizlik hallarının, bunlar isə öz növbəsində sosial gərginliyin artmasına səbəb olur. Latın Amerikasının bütün əsas göstəricilərinə görə ən böyük ölkəsi Braziliyadır. Böyük əraziyə və qiymətli sərvətlərə malik olan bu ölkə, eyni zamanda, dünyanın iqtisadi cəhətcə geri qalmış dövlətlərindən biridir. Braziliyanın dünya iqtisadiyyatında və siyasətində xüsusi çəkisini qeyd etmək çətindir. Mütəxəssislər hesablamışlar ki, region ərazisinin təqribən yarısını tutan Braziliya öz təbii və iqtisadi potensialına görə təqribən 1,0 mlrd. nəfəri gündəlik ərzaqla təmin edə bilər. Bu gün isə ölkə sayı 203 mln.-a çatmış əhalisini doyunca yedizdirə bilmir.

1964-cü ilin 1 aprelində burada baş vermiş hərbi çevriliş ölkənin inkişafına deyil, gerilməsinə səbəb oldu. Doğrudur, indi Braziliyada hakimiyyət mülki şəxslərin əlində olsa da, gerilikdən yaxa qurtarmaq üçün radikal işlər görülməlidir. XX əsrin sonları üçün

Braziliyada hərbi-bürokratik hakimiyyət ilə dövlətin büdcə vəsaitlərini dağıtmış iri sahibkarlar arasında simbioz əlaqələr yaradılmışdır. Buna oxşar proseslər ötən əsrin 70-90-cı illərində Argentina və Çilidə də baş vermişdir.

XX əsrin axırlarında qitədə qüvvələr nisbətində dəyişikliklər baş vermişdir. Siyasətdə, iqtisadiyyatda əsasən elmi-texniki tərəqqinin sürətlənməsi, transmilli şirkətlərin yaranması və başqa səbəblərlə şərtlənən yeni proseslər yaranmışdır və bunlar fəallaşmaqdadır. Bu dəyişikliklərin mühüm xüsusiyyəti ondan ibarətdir ki, dünyanın bütün ölkələri həmin dəyişikliklər orbitinə cəlb olunur. Latın Amerikası da yeni şəraitin həm müsbət, həm də mənfi təsirlərini öz üzərində tam həcmdə hiss edir. Qitə ölkələri, ilk növbədə, obyektiv səbəblər üzündən dünya iqtisadiyyatına inteqrasiya yolları axtarırlar. İnteqrasiyanın daxili səbəbləri Latın Amerikası ölkələrinin iqtisadiyyatında durğunluq (bu, qitə dövlətlərinin əksəriyyəti üçün səciyyəvidir), onların məhsullarının dünya bazarında rəqabət qabiliyyətinə malik olmaması, təsərrüfatçılığın qeyri-sabit inkişafı, işsizliyin, inflyasiyanın, sosial gərginliyin artması və s. ilə bağlıdır. Ən mühüm xarici səbəb kimi dünya iqtisadiyyatının qloballaşmasını göstərmək olar. Bu, müasir dünya təsərrüfat sistemində ən mühüm proseslərdən biridir. Dünya iqtisadiyyatının keyfiyyətcə transformasiyası baş verir. Bundan əlavə, qloballaşma elmi-texniki tərəqqinin, istehsalın yeniləşməsinin, məhsuldar qüvvələrin artımının sürətlənməsinin, beynəlxalq iqtisadi mübadilənin bütün formalarının (beynəlxalq ticarət, kapital ixracı, elmi-texniki əməkdaşlıq və s.) qarşılıqlı təsirinin güclənməsi proseslərinin hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Lakin qloballaşma qitənin bütün subregionlarında rəqabətin kəskinləşməsinə, iqtisadi qeyri-sabitliyin güclənməsinə səbəb olur: təsərrüfat konyunkturunun dəyişmələri sürətlənir, işsizlik, müflisləşmə halları artır, fəhlə və qulluqçuların əməkhaqqı azaldılır.

Əlbəttə, dünya iqtisadiyyatına inteqrasiya siyasəti Latın Amerikası xalqlarına müəyyən xeyir də vermişdir: inflyasiyanı azaltmaq,

iqtisadi artımı bərpa etmək, ticarətin genişlənməsinin nisbətən yüksək sürətini təmin etmək imkanı yaranmışdır (on il ərzində - 1987-1996-cı illərdə ixrac təqribən üç dəfə, idxal isə dörd dəfə artmış, həmin dövrdə bu ölkələrə xarici kapital axını təqribən 330 milyard dollara bərabər olmuşdur). Lakin zahiri maddi rifahın arxasında neqativ hallar və meyillər də çox idi: idxalın artım sürəti ixracı qabaqlayırdı (buna görə də ticarətdə passiv saldo daha çoxdur). Braziliya, Kolumbiya, Peru və Dominikan Respublikasında xarici ticarət kəsiri xüsusilə yüksəkdir. İxracın inkişaf etməsi daxili iqtisadi tərəqqi üçün hərəkətverici qüvvəyə çevrilməmişdir. Region ölkələri dünya bazarında möhkəm mövqe tuta bilməmişlər. Ümumi daxili məhsulun artımı iqtisadiyyatın dövlət tərəfindən tənzimləndiyi 50-70-ci illərin müvafiq göstəricisi ilə müqayisədə xeyli aşağı olmuşdur (50-70-ci illərdə məcmu milli məhsulun artımı 4,8-5,3% olduğu halda, 90-cı illərdə 2,7%-ə düşmüşdür). 90-cı illərin ortalarında dünya üzrə əmtəə dövriyyəsində region ölkələrinin xüsusi çəkisi 70-ci illərin axırlarındakı səviyyə ilə müqayisədə 0,5% azalmışdır.

İdxalın kəskin artması milli istehsalçıların vəziyyətini mürəkkəbləşdirmiş, müflisləşmələr dalğasında, işsizliyin və sosial münaqişələrin artmasına səbəb olmuşdur. Bu, emal sənayesi və yüngül sənaye sahələrinə (ayaqqabı, paltar, mebel, alətlər istehsalı) daha ciddi zərər vurmuşdur. Bu istehsal sahəsinə aid müəssisələrin yarısı müflisləşmişdir. İqtisadiyyatın sənayeləşdirilməsi və struktur yenidənqurması prosesi başlanmışdır. Dünya bazarının təsiri altında bu region getdikcə daha artıq dərəcədə mineral xammalın və kənd təsərrüfatı məhsullarının istehsalına və ilkin emalına istiqamətlənir. Ölkələrin əksəriyyətində metal emalı, maşınqayırma, elektrotexnika və qabaqcıl sənaye istehsalının digər sahələri qapalı istehsal dövrəsindən imtina edərək idxal olunmuş detallardan və qovşaqlardan məhsul montajına və yığılmasına keçirlər.

Latın Amerikası ölkələri arasında dialoqun intensivləşməsində Amerika Dövlətləri Təşkilatı (ADT) mühüm rol oynayır. Bu təşki-

lat Qərb yarımkürəsində siyasi və inteqrasiya proseslərində öz təsirini daim artırır. Regionda çoxtərəfli əsasda əməkdaşlıq imkanlarının genişlənməsində iki iri iqtisadi birlik - NAFTA və MERKOSUR səmərəli fəaliyyət göstərir. Şimali Amerika sərbəst ticarət assosiasiyası (NAFTA) 1992-ci ildə yaradılmışdır. Buraya ABŞ, Kanada və Meksika daxil idi. Nəzərdə tutulur ki, kontinentin Alyaskadan başlamış Odlu torpağa qədər bütün ölkələri NAFTA-ya daxil olacaqlar. Belə güman etmək olar ki, dünya geosiyasətində qüvvələr nisbətinə NAFTA-nın təsiri (ilk növbədə iqtisadiyyat vasitəsilə) artacaqdır.

MERKOSUR *(isp.: Mercado Comьn del Sur, ing.: Southern Common Market) - Cənubi Amerika ölkələri bazarı* - 1991-ci ildə yaradılmışdır. Əvvəlcə bu quruma Braziliya, Argentina, Paraqvay və Uruqvay daxil idi. 1996-cı ildə daha bir ölkənin - Çilinin bu qrupa qoşulması onun geosiyasi simasını əhəmiyyətli dərəcədə dəyişmişdir: o, Sakit okean regionuna çıxmış, onun siyasi və iqtisadi imkanları artmışdır.

Latın Amerikası ölkələrinin əksəriyyəti qarşısında müxtəlif problemlər: yoxsulluq, yüksək urbanizasiya, xarici borcların böyük məbləği, ətraf mühitin mühafizəsi və s. məsələlər durur. Regionda siyasi sabitlik yaransa, onların daxili işlərinə xaricdən müdaxilə olunmasa bu problemləri tədricən aradan qaldırmaq mümkün olar.

VII F ə s i l

QAFQAZ VƏ MƏRKƏZİ ASİYADA GEOSİYASİ MÜNASİBƏTLƏR

7.1. Qafqaz Avrasiyanın geosiyasətində: mürəkkəb miras

Qafqazda geosiyasi münasibətlər bu regionun Avrasiyadakı böyük əhəmiyyəti ilə birbaşa əlaqəlidir. Bu vəziyyət Avrasiyada güc mərkəzlərinin fəallığını şərtləndirmiş və Qafqazın etniksiyasi vahidləri arasında dostluq və ya düşmənçilik konturlarının tarixən formalaşmasına təsir göstərmişdir. *S.Kornell* yazır: *"Qafqazda mərkəzləşmiş strateji bloklaşmanı tamamilə başa düşmək üçün onun Avrasiya miqyasında daha geniş strateji bloklanmada rolunu qiymətləndirmək zəruridir" [Cornell, 2001, p. 399].*


Tarixən Avrasiyanın böyük dövlətlərinin Qafqaza nəzarət uğrunda mübarizəsi daxili birləşdirici qüvvənin olmadığı regionda etnik və dini müxtəliflik şəraitində cərəyan etmişdir. Mütəmadi tayfa davaları, təcridçilik bu regionu xeyli zəiflətmiş, bununla da regiona kənardan təsir göstərmək imkanlarını genişləndirmişdir. *R.Veyrinenin* qeyd etdiyi kimi, fraqmentlərə bölünmüş heterogen regionlar xarici siyasi qüvvələrin tabeliyinə tez düşür *[bax: Vəyrynen, 1984, səh. 339].*

Qafqazda təsir dairəsi uğrunda "ənənəvi xarici üçbucaq" dövlətləri (Rusiya, Türkiyə və İran) arasında mübarizənin vaxtaşırı kəskinləşməsi həmin dövlətlər arasında cari qüvvələr balansını əks etdirir, region daxilində sabitliyin dərəcəsinə təsir göstərir. (Rusiya, Türkiyə və İranın maraqlarının fərqli xarakteri **58-ci xəritədə** göstərilmişdir: Rusiya ilə bağlı halda onun geosiyasi təzyiqi cənuba - Azərbaycana və Qazaxıstana istiqamətlənmiş iki oxla; Türkiyə ilə bağlı halda - Azərbaycan və Xəzər dənizindən keçməklə Mərkəzi Asiyaya istiqamətlənmiş bir oxla; İranla bağlı halda - Azərbaycan istiqamətində şimala və Türkmənistan, Əfqanıstan və Tacikistan istiqamətində şimal-şərqə yönəlmiş iki oxla göstərilmişdir. Bu oxlar yalnız kəsişmir, onlar bir-biri ilə də toqquşa bilərlər). Postsovet dövründə geosiyasi mübarizə regional siyasi münasibətlərin əsas determinantı kimi qalmaqda davam edir. Bu mübarizədə ən çox tətbiq edilən vasitələr mədəni və ideoloji təbliğat, qərəzli hərbi və iqtisadi dəstək, etnosların birini digərinə qarşı yönəltmək, onların bir qismini öz tərəfinə çəkmək və əslində bu cür alyanslar yaratmaq, etnik separatizm manipulyasiyaları kimi vasitələrdir.

Xəritə 57. ***Qafqaz və Mərkəzi Asiya***



Postsovet dövründə Avrasiyanın geosiyasətində Qafqazın imperativliyini müəyyən etmiş ənənəvi atributların qorunub saxlanması ilə yanaşı həm də bu atributlara müvafiq geosiyasi aktorların daha güclü fəallığını stimullaşdıran yeni atributlar əlavə olunmasını söyləmək mümkündür. Stimulyator rolu oynayan bu atributları fərqləndirmək çətin deyil.



Xəritə 58. ***Rusiya, Türkiyə və İranın rəqabətdə olan maraqları***
Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

Beləliklə, Qafqazın imperativliyi ilk növbədə onunla əlaqədardır ki, Qafqaz geosiyasi baxımdan çox mühüm bir qovşaqdır. Regionun coğrafi mövqeyi onun siyasi inkişafını müəyyənləşdirən ən mühüm amil olaraq qalır. Coğrafi yolayrıcı olan Qafqaz tarixən istər Cənub-Şimal xətti boyunca, istərsə də Şərq-Qərb istiqamətində münasibətlərdə vasitəçi olmuşdur[1] [*bax:* Gachechiladze, 2002, səh. 115]. Qafqaz üzərində nəzarətə nail olmaq Avrasiyanın daha geniş ərazilərinə nəzarət etməyə imkan verir. Qafqazın tarixi taleyini müəyyən-

[1] R.Qaçeçiladze bunları deyərkən yalnız Qafqazın mərkəzi hissəsinə diqqəti cəlb edir, lakin bizim fikrimizcə, həmin geosiyasi xarakteristika bütün Qafqaza aid edilməlidir.

ləşdirən də məhz bu məsələdir. Region uzun müddət Rusiya, İran və Türkiyə arasında sərt mübarizə obyekti olmuşdur. *Klassik geosiyasi nəzəriyyənin nümayəndələrindən K.Haushofer coğrafi mövqe amilindən istifadə etməklə Qafqazı Bosfora, Cəbəllütariqə (Gibraltar), Süveyş kanalı zonasına bərabər tutula biləcək tarixi qarşıdurma zonalarından biri hesab edirdi* [*bax:* Хаусхофер, 2001, səh. 127]. Bu mübarizə bir qədər dəyişmiş formada indi də davam edir.

Postsovet dövründə Xəzər dənizinin və Mərkəzi Asiyanın enerji ehtiyatlarından istifadə yollarının axtarışı ilə əlaqədar bu regionun əhəmiyyəti daha da artmışdır. Avrasiya "Hinterlənd"inin enerji ehtiyatları və ixrac yolları üzərində nəzarət "soyuq müharibə" dövründən sonra sürətlə ən mühüm siyasi məsələlərdən birinə çevrilməkdədir. Xəzər hövzəsində və Mərkəzi Asiyada kifayət qədər sanballı neft-qaz ehtiyatları mövcuddur. Lakin ötən yüzillikdə tamamilə Rusiyanın, sonra isə SSRİ-nin nəzarəti altında olmuş Mərkəzi Asiyanın ənənəvi geosiyasi qapalılığı bu gün də regiondakı enerji daşıyıcılarının mənbələri üzərində birtərəfli nəzarət etməyə şərait yaradır[1] [*bax:* Нурша, 2001, səh, 72]. Klassik geosiyasi nəzəriyyənin digər nümayəndəsi *A.Mehen* Rusiyanın təbii üstünlükləri haqqında hələ XX əsrin əvvəlində yazırdı: *"30-cu və 40-cı paralellər arasında yerləşən Mərkəzi Asiyanın gələcəyinə kontinental qüvvənin nəzarət etməsi baxımından Rusiyanın üstünlükləri müstəsna təbii şərait yaradır" [Mahan, 1900, p. 47 (sitat: Андрианова, 1996, səh. 54)].*

SSRİ-nin dağılması və Rusiyanın təsirinin zəifləməsi nəticəsində bu regionun geosiyasi müstəmləkəçilikdən xilas olması Qafqazın unikal bir körpüyə çevrilməsi üçün çox əlverişli şərait yaratmışdır. Bu körpü Mərkəzi Asiyanın təbii ehtiyatlarından istifadəni asanlaşdırır.

[1] Mərkəzi Asiyanın coğrafi xüsusiyyətləri sayəsində başqa ölkələrlə müqayisədə geosiyasi nəzarət baxımından Rusiya üçün daha əlverişli imkanlar yaranmışdır. Region üç tərəfdən təbii sərhədlərlə: qərbdən Xəzər dənizi ilə, şərqdən və cənub-şərqdən - gediş-gəlişi çətinləşdirən sıra dağlarla, cənub-qərbdən - qumlu səhralarla əhatə olunmuşdur. Regionun şimal tərəfindən Rusiyanın cənub sərhədlərindəki təbii maneələr müqayisəyəgəlməz dərəcədə cüzi hiss edilir. Ona görə də regiona şimaldan kontinental ekspansiya baş verəcəyi halda o tamamilə aciz qala bilər.

Qafqazın kommunikasiya potensialının geosiyasi əhəmiyyəti Mərkəzi Asiya və Xəzəryanı regionun hüdudlarından kənara çıxır. Bu məsələ bütövlükdə Avrasiya miqyasında nəzərdən keçirilir. Öz coğrafi mövqeyi sayəsində Qafqaz tədricən transkontinental kommunikasiyalar sisteminin keçəcəyi əlaqələndirici qovşağa çevrilir. Transavrasiya kommunikasiyalarının səmərəli sisteminin yaradılmasına dair layihələr, Qərb-Şərq, ya Şimal-Cənub kommunikasiya xəttinin baza kimi qəbul edilməsindən asılı olmayaraq, Qafqazdan yan keçə bilməz.

Beləliklə, Qafqazın kommunikasiya potensialını qiymətləndirərkən iki əsas aspekt-məqam nəzərə alınmalıdır: geoiqtisadi və geosiyasi. Təbii ki, bu məqamlar arasında çox sıx əlaqə var. Hətta bunlardan hansının daha üstün olması məsələsinin qoyuluşu da məntiqə ziddir. Avrasiya məkanı çərçivəsində dövlətlərarası münasibətlərin ümumi cari təbiətini müəyyən edən məhz onun geoiqtisadi və geosiyasi tərkib hissələrinin bir-biri ilə sıx əlaqədar olmasıdır.

Problemin *geoiqtisadi* aspekti hər şeydən əvvəl Xəzər dənizinin və Mərkəzi Asiyanın yuxarıda qismən toxunduğumuz enerji potensialı ilə bağlıdır. Bu bölgədə enerji daşıyıcıları ehtiyatlarının çox olması karbohidrogenlərin dünya bazarlarına nəql edilməsi üçün səmərəli kommunikasiyalar sisteminin yaradılması məsələsini hədsiz dərəcədə aktuallaşdırır.

Qafqazda çoxvariantlı boru kəmərləri sistemi yaradılması ilə bağlı mühüm mərhələ artıq həyata keçirilmişdir. Xatırladaq ki, proseslər başlayanda əsas boru kəmərinin bir neçə istiqaməti müzakirə edilirdi. Həmin istiqamətlərdən birincisi (Şimal istiqaməti) Bakı-Novorossiysk marşrutunu nəzərdə tuturdu. İkinci (Qərb) istiqamət Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə boru kəməri çəkilməsini nəzərdə tuturdu və bu variant daha məqbul oldu.[1]

Qafqazdan keçən boru kəmərləri sistemi yaradılması haqqında qərar əvvəlcə Azərbaycan neftinin nəql edilməsi ilə bağlı idi.

[1] Bakı-Tbilisi-Ceyhan əsas neft nəqli dəhlizinin fəaliyyətinə rəsmən 2005-ci ilin may ayında start verilmişdir. Bakı-Supsa neft kəməri də fəaliyyətdədir. Bundan əlavə, İran ərazisindən keçən Cənub marşrutu da müzakirə edilmişdir.

1994-cü ildən başlayaraq Azərbaycan Xəzərdə özünün neft yataqlarının istismarına dair xarici korporasiyalarla bir sıra sazişlər bağlamışdır. Mərkəzi Asiyanın neft və qaz kəmərlərinin bu sistemə qoşulması, o cümlədən Transxəzər boru kəməri çəkilməsi karbohidrogenlərin dünya bazarlarına çatdırılması problemini həll etməyə imkan verir. Buna görə də asanlıqla görmək olar ki, postsovet Mərkəzi Asiya regionunda Atlantika dövlətlərinin ən mühüm vəzifələrindən biri burada formalaşmaqda olan neft və qaz boru kəmərləri sistemi üzərində hər hansı regional qüvvə tərəfindən inhisarçı nəzarətin qarşısının alınmasıdır. *S.Kornel* yazır: *"Türkiyə ərazisindən keçən boru kəməri layihəsi həm ABŞ administrasiyası, həm də Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Özbəkistan liderləri tərəfindən fəal dəstəklənmişdir. Bu onunla bağlıdır ki, İran ərazisindən və Rusiya ərazisindən keçməyən boru kəməri həmin dövlətlər üçün Qərb dünyası ilə həyati əhəmiyyətli əlaqə yaratmaq və bu halda həmin iki müttəfiqdən asılı vəziyyətə düşməmək deməkdir" [Cornell, 2001, p. 60].*

Qafqazdan Qara dənizə doğru Transxəzər kommunikasiyaları (o cümlədən neft-qaz kəmərləri) perspektivdə, ilk növbədə, Mərkəzi Asiya və Cənubi Qafqaz dövlətlərinin özləri üçün ən sərfəli variantdır. Qərbin sənaye cəhətdən inkişaf etmiş ölkələrini Mərkəzi Avrasiyanın öz iqtisadi inkişafının mürəkkəb dövrünü yaşayan dövlətləri ilə birləşdirən Avrasiya kommunikasiyaları sistemi təkcə energetika sahəsində deyil, bir sıra mühüm iqtisadi sahələrdə, gələcəkdə isə həm də sosial-mədəni sahələrdə əməkdaşlıq üçün əlverişli şərait yaradacaqdır. *A.Nurşa* bununla əlaqədar yazır: *"Müxtəlif nəqliyyat-kommunikasiya layihələrində, transkontinental avtomobil yolları və dəmir yollar şəbəkəsi, Xəzər sahillərini birləşdirəcək dəniz dəhlizləri yaradılmasında Mərkəzi Asiya və Qafqaz dövlətlərinin iştirak etməsini onların təcrid olunmuş vəziyyətini aradan qaldırmaq cəhdi hesab etmək lazımdır. Bu cür layihələrin həyata keçirilməsi həmin ölkələrin əlverişsiz geosiyasi mövqeyini kompensasiya etməyə və dünya təsərrüfat sisteminə daha fəal qoşulmağa imkan verəcəkdir. Onların inteqrasiya istəklərini aparıcı geosiyasi mərkəzlər də dəs-*

təkləyir, çünki bu sonuncular regiona gediş-gəliş imkanı əldə etmək və transkontinental nəqliyyat axınlarına nəzarət etmək istəyirlər" [Нурша, 2001, стр. 72]. Bu məqsədlərə yalnız Qafqazdan keçən Qərb-Şərq baza xəttinə uyğun kommunikasiyalar sistemi yaradılması yolu ilə nail olmaq mümkündür: *"Neft-qaz sənayesini idarə edən onlarca transmilli korporasiya regiona külli məbləğdə sərmayə qoyur və sürətlə genişlənməkdə olan nəqliyyat-kommunikasiya şəbəkəsi Avropa İttifaqının Şərq-Qərb nəqliyyat dəhlizi yaratmaq səyləri sayəsində Xəzər regionu ölkələri ilə ətraf aləm arasında əlaqələrin güclənəcəyinə ümid yaradır" [yenə orada].*

Qafqazın kommunikasiya potensialı aşkar ifadə olunmuş klassik geosiyasi xarakteristikalarla səciyyəvidir. Avrasiyada müvafiq vəziyyəti müəyyən edən geosiyasi münasibətlər sistemində bu regionun mühüm rol oynaması məlumdur.

Geosiyasətdə kommunikasiyaların əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir. Tarix boyu səmərəli qarşılıqlı əlaqələr sisteminin mövcud olması dövlətlərarası alyansların və geosiyasi blokların həyat qabiliyyətini təmin edən ilkin şərtlərdən biri olmuşdur. Adətən Atlantika dövlətlərinin dəniz kommunikasiyalarına birinci dərəcəli maraq göstərməsi və bunun nəticəsində onların yaratdığı Atlantika blokunun daxilində səmərəli kommunikasiyalar sistemi, eləcə də xarici dəniz kommunikasiyaları üzərində güclü nəzarət "soyuq müharibə" dövründə Atlantika blokunun zəfərlərini təmin edən əsas amillərdən biri olmuşdur.

SSRİ-nin dağılmasının əsas geosiyasi nəticələrindən biri ondan ibarət idi ki, geosiyasi mübarizə səhnəsi qlobal miqyasdan Avrasiya kontinenti çərçivəsinə keçmişdir. Lakin qarşıdurmanın miqyasının dəyişməsinə baxmayaraq, "soyuq müharibə" başa çatandan sonra bu mübarizənin ümumi geosiyasi təbiətində prinsipial dəyişiklik olmamışdır. Keçmiş kontinental nəhəngin yerində yeni geosiyasi bloklar yaratmaq üçün cəhdlər başlanmışdır. Rusiya indi də belə layihələrin əsas təşəbbüskarı kimi qalır. SSRİ dağılandan sonra Rusiyada üç geostrateji variantın yaranmasını qeyd edən *Z.Bjezinski* həmin variantlardan birini "Amerikanın Avrasiyada üstünlüyünü azaltmaq məqsədilə Avrasiya antiamerika koalisiyası yaradılmasını nəzərdə tutan kontralyans" adlandırır [*bax:* Бжезинский, 1999, səh. 121]. Postsovet dövründə Rusiya isteblişmenti mühitində ən populyar doktrinalardan biri "Moskva-Pekin-Tehran" strateji üçbucağının yaradılmasına dair *"Primakov doktrinası"* idi (1996). *Z.Bjezinski* yazır ki, həmin doktrinanın məqsədi dünyanın aparıcı slavyan dövlətlərini, ən döyüşkən islam dövlətini, əhalisinin sayına görə dünyada ən iri və Asiyada ən güclü dövləti bir yerə toplayaraq güclü koalisiya yaratmaq idi *[yenə orada, səh. 140].* Lakin Rusiya, İran və Ermənistan arasında geosiyasi bloka əsaslanan model daha realist təsir bağışlayırdı. *S.Kornell* postsovet dövründə Avrasiya geosiyasi bloklarının Qafqazdan keçən vektorlarını səciyyələndirərək iki bir-birinə əks oxun mövcud olmasını qeyd edirdi. Onlardan biri yuxarıda göstərilən üç ölkədən ibarət Şimal-Cənub oxu, ikincisi isə "...Birləşmiş Ştatlardan başlayan, Türkiyə, Gürcüstan və Azərbaycandan keçərək Mərkəzi Asiyada Özbəkistana qədər genişlənən Qərb-Şərq oxudur" *[Cornell, 2001, p. 398].*

Rusiya, İran və Ermənistanın tarixi qarşılıqlı münasibətləri, regionda onların ortaq düşmənlərinin olması, hərbi-siyasi və iqtisadi sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün güclü təməl - bütün bunlar həmin üç dövlətdən ibarət blok yaradılmasına kömək edən çox mühüm amillərdir. "Soyuq müharibə" başa çatandan sonra Ermənistanın rolu nəzərdə tutulmaqla Rusiyanın və İranın əsas güc mərkəzləri kimi fəallaşması (1990-cı illərin əvvəlində Rusiyada liberal siyasətçilərin hakimiyyətdə olduğu qısa dövr istisna olmaqla) Atlantik impulsunun qarşısının alınmasına və müvafiq kontinental alternativin stimullaşdırılmasına yönəlmişdir. *A.Duqinin* fikrincə, Rusiya, İran və Ermənistan arasında geosiyasi alyans yaradılması Avrasiya (kontinental) impulsunun inkişafı və geniş yayılması üçün zəruri elementdir.


7.2. Mərkəzi Asiya. Geostrateji vəziyyət

Mərkəzi Asiya geosiyasi regionuna Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan və Qırğızıstan daxildir. Regionda zəngin

neft, qaz yataqları və digər təbii ehtiyatlar vardır. Lakin bu regionda siyasi sabitliyə və iqtisadi tərəqqiyə nail olmaq məsələsinin həlli çox çətindir. Çin, ABŞ və Rusiya arasında münasibətlər, eləcə də Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) gələcəkdə bu regionda sabitliyə güclü təsir göstərəcəkdir.

"Hartlənd" kimi, Mərkəzi Asiya da geosiyasətdə çox vaxt *Böyük Avrasiya çölü* ilə assosiasiya edilir. Şərq ilə Qərb arasında nəhəng təbii kommunikasiya dəhlizi olan bu çöldə vaxtilə xalqlar qasırğa kimi tüğyan edirdi. Bu dəhlizin ucqarlarındakı toqquşmalar nəticəsində mədəniyyətlərin qarşılıqlı təsiri və qarşılıqlı zənginləşməsi baş verir, yeni etnoslar, imperiya və sivilizasiyalar yaranırdı. Böyük tarixi çaylar qədim sivilizasiyaların əsas kommunikasiya oxu olduğu kimi, Avrasiya çölü də sivilizasiyalararası dialoqun *"əridici qazanı"* kimi xidmət edirdi. Bu ucsuz-bucaqsız çöl böyük çaya deyil, okeana bənzəyir. Təmas funksiyalarının miqyasına görə yalnız Köhnə və Yeni dünyanı birləşdirən Atlantik okeanı onunla müqayisə edilə bilər. Çölün okean kimi qavranılması köçəri xalqlara təsir göstərmişdir. Təsadüfi deyil ki, Avrasiyanın tarixi ikinci minilliyin ən böyük sərkərdəsi *Temuçinin,* Avrasiya çölünün Qərb sahillərinə yürüşdən əvvəl okeanın böyük xanı elan edilmiş *Çingiz xanın* adı ilə bağlıdır (türkcə "tengiz" - okean, dəniz deməkdir). Böyük Avrasiya çölü üçüncü minilliyin əvvəllərində də kontinentin əsas kommunikasiya oxu kimi qalmaqdadır. Bu ox boyunca Qərb ilə Şərq arasında intensiv maddi, mədəni və informasiya mübadiləsi həyata keçirilir. Qərbi Avropada və Asiya-Sakit okean regionunda iqtisadi və texnoloji inkişaf qütbləri arasında nəqliyyat kommunikasiyaları buradan keçir. **Tarixən sərbəst ticarət və sivilizasiyalar arasında mədəni dialoqun kommunikasiya qovşaqları Avrasiya çölündə yerləşir. Kim Avrasiya çölünə malik olsa, o iqtisadi tranzitin və sivilizasiyalararası dialoqun ötürücüsü funksiyalarını yerinə yetirəcəkdir. Avrasiya sivilizasiyalarının sərhədində imperiyaların dağılması və çoxsaylı münaqişələr bu həqiqətin unudulmasının nəticəsi olmuşdur.**

Regionun geostrateji vəziyyəti burada azad ticarətin və sənətkarlığın inkişafına kömək etmişdir. Keçmişdə yerli sakinlər bir-birindən dil mənsubiyyəti əlamətinə görə deyil, yaşadıqları yerə görə fərqlənirdi. Ucsuz-bucaqsız okeanı xatırladan çöllərdə və səhralarda köçəri xalqlar əsasən şəhər mədəniyyətinin çiçəkləndiyi vadiləri xatırladan "adalarda" yaşayan oturaq əkinçilərlə qonşuluq edirdi. Səmərqənd, Xocənd, Daşkənd, Buxara və ticarətin, sənətkarlığın geniş inkişaf etdiyi başqa paytaxtlarda mədəni dialoqun əsas translyatoru türk dili idi (*bax:* **xəritə 59**). Sovet hakimiyyəti illərində köçəri türk xalqları arasında ən imtiyazlı dil özbək dili idi. *Stalinin* milli siyasəti yerli xalqları və yerli dilləri müəyyən ərazilərə




Xəritə 59. ***Türk etnolinqvistik zonası.***

Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

təhkim etməklə postsovet məkanında gec partlayan "minalar" qoymuşdu. Ümumilikdə bu region etnik mozaikanı xatırladır (*bax:* **60-cı xəritəyə və 24-cü cədvələ**). Region dövlətlərinin sərhədləri 1920-30-cu illərdə, müvafiq sovet respublikaları rəsmi olaraq yaradılan dövrdə, sovet xəritə tərtibatçıları tərəfindən əsaslandırılmamış surətdə çəkilmişdi. Bu dövlətlərin sərhədləri əsas etibarilə etnik prinsipə uyğun çəkilmişdi, lakin bunlar həm də daxili ziddiyyətlərin saxlanması və beləliklə də cənub regionunun Rusiya imperiyasına daha çox tabe olması ilə bağlı Kremlin maraqlarını əks etdirirdi.

Mərkəzi Asiyanın dinamik inkişaf edən ölkəsi Türkmənistan öz dövlətçiliyini zəngin enerji ehtiyatları əsasında qurur. Tacikistanda dövlət quruculuğu prosesi hələ davam edir. Burada milli və kommunistpərəst dövlət quruculuğunun tərəfdarları arasında münaqişə qonşu Əfqanıstanın və Rusiyanın təsiri ilə daha da mürəkkəbləşir. Qırğızıstanın və digər Mərkəzi Asiya ölkələrinin transformasiyası ixtisaslı rusdilli əhalinin mühacirəti ilə müşayiət olunur. Qırğızıstan daha çox inkişaf etmiş Şimal ilə geridə qalmış Cənub arasında



Xəritə 60. ***Mərkəzi Asiyada əsas etnik qruplar***
Mənbə: Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997.

Cədvəl 24

Mərkəzi Asiya dövlətləri

Əhali	Qazaxıstan	Qırğızıstan	Özbəkistan	Tacikistan	Türkmənistan
(2011-ci il, mln. nəfər)	15,5	5,6	28,1	7,7	5
Orta yaş həddi	68,5	68,1	68,8	66,3	68,5
Millətlər	qazaxlar (63,1%) ruslar (23,7%) özbəklər (2,8%) ukraynalılar (2,1%) uyğurlar (1,4%) tatarlar (1,3%) almanlar (1,1%) başqaları (4,5) (2009-cu il)	qırğızlar (64,9%) özbəklər (13,8%) ruslar (12,5%) dunqanlar (1,1%) uyğurlar (1%) başqaları (5,7%) (1999-cu il)	özbəklər (80%) ruslar (5,5%) taciklər (5%) qazaxlar (3%) qaraqalpaqlar (2,5%) tatarlar (1,5%) başqaları (2,5%) (1996-cı il)	taciklər (79,9%) özbəklər (15,3%) ruslar (1,1%) qırğızlar (1,1%) başqaları (2,6%) (2000-ci il)	türkmənlər (85%) özbəklər (5%) ruslar (4%) başqaları (6%) (2003-cü il)
ÜDM (mlrd.dollar)*	196,4	12,02	85,85	14,74	36,9
Əsas ixrac məhsulları	neft və neft məhsulları, qara metal, rəngli metal, kimya məhsulları, buğda, yun, ət, kömür	yun, kimya məhsulları, pambıq, qara metal, rəngli metal, ayaqqabı, maşın avadanlığı, tütün	enerji məhsulları, pambıq, qızıl, təbii qaz, mineral gübrələr, qara metallar, tekstil, ərzaq, avtomobillər	pambıq, alüminium, meyvə, bitki yağları, tekstil	təbii qaz, neft məhsulları**, kimya məhsulları, pambıq**, elektrik enerjisi, tekstil, xalça

* Alıcılıq qabiliyyətinin pariteti <https://www.cia.gov> saytının 2011-ci il üçün qiymətləndirməsi əsasında verilmişdir.
** Türkmənistan dünyada onuncu ən iri pambıq istehsalçısıdır, təbii qaz ehtiyatlarına görə dünyada dördüncü yeri tutur və əhəmiyyətli neft ehtiyatlarına malikdir.

dövlətin kommunikasiya karkasını qoruyub saxlamaqla əlaqədar çətinliklərlə üzləşir, Rusiya ilə Çin arasında, eləcə də Mərkəzi Asiyadakı iri qonşu dövlətlər - Özbəkistan və Qazaxıstan arasında öz mövqeyini tarazlamağa çalışır.

Qazaxıstanın geosiyasi koduna Rusiya (daha çox üstünlük verilən), Çin (assimilyasiya təhlükəsi) və islam vektorları (dünyəvi dövlətin itirilməsi, islamlaşma təhlükəsi) daxildir. Prezidentin təşəbbüsü ilə Qazaxıstanın yeni paytaxtı və eyni zamanda, Avrasiya çöl kontinentinin kommunikasiya mərkəzlərindən biri olan Astananın fəlsəfi-futuroloji layihəsi həyata keçirilmişdir. Bu ölkə iqtisadi cəhətdən müstəsna dərəcədə cəlbedicidir. Kontinentin iki nəhəng dövləti - Çin və Rusiya ilə həmsərhəd olan Qazaxıstan həm onlarla mehriban qonşuluq münasibətlərini, həm də Qərb ilə, ilk növbədə, ABŞ-la strateji tərəfdaşlıq münasibətlərini saxlamağa çalışır.

Qazaxıstanın bütövlüyü həm də tük və slavyan əhali arasında münasibətlərdən, yerli elitanın cəmiyyətdə konsolidasiya yaratmaq qabiliyyətindən asılıdır. Millətin təşəkkülünün başa çatmaması üç qəbilə birliyinin - Böyük, Orta və Kiçik juzların klanlararası münasibətləri, daxili etnik-milli və etnik-konfessional sərhədlər hesabına daha da mürəkkəbləşir. Ölkə əhalisinin 63%-ə yaxını qazaxlar, 23%-dən bir qədər çoxu ruslardır. Qazaxıstanın şimalında rus, Ukrayna və alman icmaları mütləq üstünlüyə malikdir və sənaye fəhlələrinin əksəriyyəti bu icmaların üzvləridir. Bu xüsusiyyətlərə etinasız münasibət ölkənin geosiyasi iflası ilə nəticələnə bilər. Buna görə də əhalisinin çoxu qazax-müsəlman və pravoslavlar olan Qazaxıstan Rusiya ilə daha sıx iqtisadi inteqrasiyanın tərəfdarıdır.

Özbəkistan region ölkələri arasında xüsusi yer tutur. Mərkəzi Asiyada regional lider roluna əsas namizəd faktiki olaraq Özbəkistandır. Bu ölkə regionda hərbi-siyasi sabitliyin yaranması və Əfqanıstandakı vəziyyətin normallaşması istiqamətində səylərini əsirgəmir. Özbəkistan Əfqanıstanda aparılan yenidənqurma işlərində yaxından iştirak edir, dəmir yolları, enerji istehsalı, dağ-mədən sənayesi, kənd təsərrüfatı, inşaat materialları, gübrə və qida məhsulları ilə qonşusunu təmin edir.

Bu gün Özbəkistan enerji istehsal edən ölkədən daha çox tranzit ölkə kimi fəaliyyət göstərir. Əfqanıstandan keçərək Cənub-Şərqi Asiyaya istiqamətlənən boru xətlərində Özbəkistan mühüm tranzit rolunu oynaya bilər.

Mərkəzi Asiya özünün zəngin enerji və digər ehtiyatları, Qərb ilə Şərq arasında kommunikasiyalarda sərbəst tranzit ticarət imkanları ilə beynəlxalq biznesin diqqətini cəlb edir. Böyük İpək yolunun bərpa edilməsi bu regionun beynəlxalq əmək bölgüsünə fəal qoşulmasına kömək edəcəkdir. Avrasiyada geosiyasi vəziyyətdən asılı olaraq transkontinental yolun marşrutları Çindən Avropaya, Xəzər dənizindən bir qədər şimaldan və bir qədər cənubdan keçməklə Mərkəzi Asiyada iri kommunikasiya qovşağı yaradılmasını təmin edə bilər.

Ən iri qonşular - Rusiya, Çin, Türkiyə və İran Mərkəzi Asiyada geosiyasi vəziyyətə bilavasitə təsir göstərirlər. Bjezinskinin fikrincə, Rusiyanın bu regiona tam nəzarət etməsi və oraya başqa kənar qüvvələri buraxmaması üçün o, siyasi cəhətdən çox zəif və yoxsuldur. Birləşmiş Ştatlar burada dominantlıq etmək üçün çox uzaq, lakin kənarda qalmaq üçün çox güclüdür. Buradan belə nəticə çıxır ki, Amerikanın əsas məqsədi, ilk növbədə həmin geosiyasi məkana heç bir dövlətin nəzarət edə bilməyəcəyi, dünya birliyinin isə bu məkanın maliyyə-iqtisadi imkanlarından maneəsiz istifadə edə biləcəyi şəraiti təmin etməkdən ibarətdir. Nəqliyyat dəhlizləri, o cümlədən neft və qaz kəmərləri Xəzər regionunu və Mərkəzi Asiyanı dünyanın iri iqtisadi mərkəzləri ilə birləşdirəndə regionda geosiyasi plüralizm reallığa çevriləcəkdir. Bjezinskinin fikrincə, Amerika tərəfindən ən yüksək geosiyasi dəstəyə layiq olan Özbəkistandır. Rusiyanın təzyiqindən "sipər" rolu oynayan Qazaxıstana beynəlxalq kömək lazımdır. Regionda Amerikanın geostrateji maraqlarına qərbpərəst Türkiyə, İran və Çin də şərikdir. Sovet İttifaqının süqutu Türkiyənin qarşısında regional böyük dövlətə və dirçəlməkdə olan türk sivilizasiyasının liderinə çevrilmək üçün unikal bir imkan yaratmışdır. Lakin Mərkəzi Asiyada Türkiyənin imkanları məhduddur, onun Qafqazda nüfuzu isə ölkənin avropalaşmasının nə dərəcədə uğurlu olacağından asılıdır. İslam fundamentalizminin mövqeləri İranın rolunu daha da problemli edir.

VIII F ə s i l

AZƏRBAYCAN MÜASİR REGİONAL GEOSİYASƏT KONTEKSTİNDƏ


8.1. Dəyişən dünyada Azərbaycan: milli inkişafın prioritetləri

Azərbaycan Şərqlə Qərbin, Şimalla-Cənubun kəsişdiyi coğrafi məkanda yerləşən, zəngin mədəni irsə və adət-ənənələrə malik qədim diyardır. Azərbaycan özünün coğrafi-siyasi mövqeyinə görə həmişə sivilizasiyaların qovuşuğunda olmuş və geniş mənada istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur *[Heydər Əliyev. Minilliklərin qovuşuğunda. Bakı, 2001]*.

Məlumdur ki, tarixən sivilizasiyalar dəniz kənarlarında təşəkkül tapmışdır. Dəniz təkcə müxtəlif coğrafi regionları bir-biri ilə birləşdirməyib, həmçinin inkişafın çoxvariantlılığına da əlverişli şərait yaradan coğrafi amil olmuşdur. Xəzər belə dənizlərdəndir. Onun sahilində yerləşən Azərbaycan Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpü rolunu oynayır.


Azərbaycan ərazisində ilk dövlət qurumları hələ e.ə. IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq Urmiya hövzəsində yaranmışdı *(bax: Mahmudov, 2005, səh. 8)*. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanla Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Aşşur (Assuriya) dövlətləri, habelə Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardı.

E.ə. I minillikdə - b.e. I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında *Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Al-*



Xəritə 61.

baniya kimi qüdrətli dövlətlər mövcud olmuşdur *(Mahmudov, 2005, səh. 9)*. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəldilməsində, ölkənin iqtisadi-mədəni tarixində, eləcə də vahid xalqın təşəkkülü prosesində mühüm rol oynamışlar.



Xəritə 62. ***Manna dövləti***

Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994

III əsrdə Azərbaycanı Sasani-İran imperiyası, VII əsrdə isə Ərəb xilafəti işğal etdi. Bu, Azərbaycan tarixinin ən ağır sınaq dövrlərindən biri olsa da, işğal rejimi və təqiblər Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini məhv edə bilmədi.

IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycanda yeni siyasi dirçəliş başlandı: Azərbaycan torpaqlarında *Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər* dövlətləri yarandı.

Müstəqil dövlətlərin yaranması nəticəsində siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində oyanış baş verməkdə idi. Azərbaycan tarixinin İntibah dövrü başlanırdı.



Xəritə 63. ***Atropatena dövləti***

Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994

600 ilə qədər davam edən Sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin yaranması, islam dininin bütün ölkə ərazisində əsas təkallahlı dinə çevrilməsi Azərbaycan xalqının etnik təkamülündə, vahid dilin və mədəniyyətin təşəkkülündə mühüm rol oynadı.

XV-XVIII əsrlərdə və bundan sonrakı dövrdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili *Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacar imperiyaları* bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil Azərbaycanın daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, ölkənin və xalqın hərbi-siyasi təsir dairəsini,




Xəritə 64. ***Albaniya dövləti***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994



Xəritə 65. ***Arran və Azərbaycan Ərəb xilafətinin tərkibində***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994

Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı. Bəhs olunan dövrdə Azərbaycan dövlətləri Yaxın və Orta Şərqin beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, Avropa-Şərq münasibətlərində də çox fəal iştirak edirdilər.



Xəritə 66. *Azərbaycan IX-X əsrlərdə*
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994


Azərbaycanın böyük dövlət xadimi *Uzun Həsənin* (1423-1478) hakimiyyəti illərində Ağqoyunlu imperiyası bütün Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi amilə çevrildi. *Uzun Həsən* bütün Azərbaycan torpaqlarını əhatə edən güclü mərkəzləşdirilmiş dövlət yaratmaq siyasəti yeridirdi. O, bu məqsədlə xüsusi "Qanunnamə" hazırlatmışdı *(bax: Mahmudov, 2005, səh. 29).*

XV əsrin sonu - XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. *Uzun Həsənin* nəvəsi görkəmli dövlət xadimi ***Şah İsmayıl Xətai*** (1487-1524) babasının başladığı işi başa çatdırdı, Azərbaycan torpaqları-


nı öz hakimiyyəti altında birləşdirə bildi. Paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti - Səfəvi dövləti meydana gəldi.

Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının həyata keçirdikləri uğurlu islahatlar, daxili və xarici siyasət nəticəsində Səfəvi dövləti Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi.


Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi ***Nadir şah Əfşar*** (1688-1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. Azərbaycanın əfşar-türk elindən çıxmış bu böyük hökmdar 1739-cu ildə Dehli də daxil olmaqla Şimali Hindistanı da ələ keçirdi. Lakin Azərbaycan hökmdarının bu geniş ərazidə qüdrətli mərkəzləşdirilmiş dövlət yaratmaq planları baş tutmadı.




Xəritə 67. *Azərbaycan XI-XII əsrlərdə*
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994



Xəritə 68. ***Azərbaycan XIII-XIV əsrlərdə***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994



Xəritə 69. ***Azərbaycan XV əsrdə***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994




Xəritə 70. ***Azərbaycan XVI əsrdə***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994

Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı. Hələ *Nadir şahın* sağlığında ikən azadlıq mübarizəsinə qalxan və müstəqilliyə can atan Azərbaycan torpaqlarında yerli dövlətlər yarandı. Beləliklə, XVIII əsrin II yarısında Azərbaycan xırda dövlətlərə - xanlıqlara və sultanlıqlara parçalandı.

XVIII əsrin sonunda Azərbaycan sülaləsi olan *Qacarlar* (1796-1925) İranda hakimiyyətə gəldilər. Qacarlar vaxtilə onların ulu babaları qaraqoyunluların, ağqoyunluların, səfəvilərin və nəhayət, *Nadir şahın* hakimiyyəti altında olmuş bütün əraziləri, o cümlədən Azərbaycan xanlıqlarını yenidən mərkəzi hakimiyyətə tabe etmək siyasəti yeritməyə başladılar.

Beləliklə, Qacarlarla Cənubi Qafqazı işğal etməyə çalışan Rusiya arasında uzun sürən müharibələr dövrü başlandı.

Azərbaycan iki böyük dövlət arasında qanlı müharibələr meydanına çevrildi.




Xəritə 71. ***Azərbaycan XVII əsrdə***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994

Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan iki imperiya arasında bölüşdürüldü: Şimali Azərbaycan Rusiyaya, Cənubi Azərbaycan isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı.


Rusiya Cənubi Qafqazda özünə dayaq yaratmaq üçün işğal etdiyi Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq rayonlarına, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə erməni əhalisi köçürdü. Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan torpaqlarında - keçmiş İrəvan, Naxçıvan xanlıqlarının ərazisində süni surətdə və xüsusi məqsədlə "Erməni vilayəti" yaradıldı. Bununla, Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin əsası qoyuldu *(bax: Mahmudov, 2005, səh. 35-36).*

Bundan əlavə, Rusiya 1836-cı ildə müstəqil Alban kilsəsini ləğv etdi və onu erməni Qriqorian kilsəsinin tabeçiliyinə verdi. Bununla da Azərbaycanın qədim əhalisi olan xristian albanların qriqorianlaşdırılmasına və ermənileşdirilməsinə daha əlverişli şərait yaradıldı. Ermənilərin azərbaycanlılara qarşı yeni ərazi iddialarının əsası qoyuldu. Bütün bunlarla kifayətlənməyən çar Rusiyası daha çirkin siyasətə də əl atdı: ermənilər silahlandıraraq türk-müsəlman əhali üzərinə qaldırdı və azərbaycanlılara qarşı kütləvi qırğınlar törədilməsinə başlandı. Bununla azərbaycanlılara və Cənubi Qafqazın bütün türk-müsəlman əhalisinə qarşı soyqırımları dövrü başlandı *(Mahmudov, 2005, səh. 36).*

Şimali Azərbaycanda azadlıq mübarizəsi misli görünməmiş faciələrlə nəticələndi. Burada hakimiyyəti ələ keçirən *S.Şaumyanın* daşnak-bolşevik hökuməti 1918-ci ilin martında Azərbaycan xalqı-



Xəritə 72. ***Azərbaycan xanlıqları XVIII əsrin ikinci yarısında***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994




Xəritə 73. ***Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994

na qarşı dəhşətli soyqırımı həyata keçirdi. Qardaş Türkiyə Azərbaycana kömək əlini yetirdi. Azadlıq hərəkatı qalib gəldi. 1918-ci il mayın 28-də Şimali Azərbaycanda Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı.

Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi (1920). Müstəqil Azərbaycan dövlətçiliyinə son qoyuldu.

Ümummilli lider *Heydər Əliyevin* Azərbaycana rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasının, milli köklərə qayıdışın yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi qəbul etmək lazımdır. Məsələ bundadır ki, *Heydər Əliyevin* bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Qalan hər şey, o cümlədən də iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli düşüncənin dərin qatlarını üzə çıxarmalı, milli dirçəlişin təməlinə çevrilməli idi. Həqiqətən də, Azər-



Xəritə 74. ***Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər)***
Mənbə: Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994

baycanı müstəqil dövlət qurmağa doğru aparan yol, əslində, 1969-cu ildən - məhz *Heydər Əliyevin* hakimiyyətə gəlişindən sonra başlanır.

1993-cü ildə *Heydər Əliyevin* hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Azərbaycan xalqının ümummilli lideri *Heydər Əliyev* xalqı, dövləti milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi, ölkənin müstəqilliyin itirilməsi təhlükəsi aradan qaldırıldı.

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanmışdır. Azərbaycanda hökm sürən sabitlik, həyata keçirilən islahatlar, quruculuq işləri xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrilmişdir.

Qafqazın cənub-şərqində yerləşməklə çox əhəmiyyətli geosiyasi mövqeyə malik olan Azərbaycanın Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistan ilə birbaşa, Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya dövlətləri ilə sərhədlərə malik olması onun regiondakı geosiyasi rolunu daha da artırır. Ərazi, əhalinin sayı, həmçinin sosial və iqtisadi göstəricilərə görə Azərbaycan Qafqazda həlledici rola malikdir.

Azərbaycanın geosiyasi mənsubiyyəti və mövqeyi geosiyasi nəzəriyyələrdə dəqiq müəyyənləşdirilmişdir. Məsələn, *H.Makinderin* 1904-cü ildə yaratdığı konsepsiyaya görə Azərbaycanın yerləşdiyi ərazi "tarixin coğrafi oxu" adlanan mərkəzin geosiyasi məkanına aiddir. *Makinderin* 1919 və 1943-cü illərdə növbəti dəfə tamamladığı nəzəriyyədə həmin geosiyasi məkanın ("Hartlənd") sərhədləri nisbətən dəyişsə də, Azərbaycan yenə də tam olaraq onun tərkibində - *Makinderin* "Şərqi Avropadan tutmuş Çinə qədər uzanan Avrasiyanın mərkəzi torpağı" adlandırdığı bu geniş ərazinin tam ortasında yerləşir.

Makinderdən sonra dünyanın geosiyasi bölgüsünü təsvir etmiş bütün geosiyasət nəzəriyyəçiləri Azərbaycanı "Hartlənd"ə daxil etmişlər.

Azərbaycanın coğrafi yerləşməsinin bir çox strateji aspektlərini görməmək mümkün deyil. Azərbaycanın mühüm geosiyasi məkan olması təkcə neft və qaz ehtiyatlarının, ölkə ərazisindən keçən nəqliyyat arteriyaları və boru kəmərlərinin mövcudluğu və perspektivdə yeni boru kəmərlərinin çəkilməsi ilə deyil, həmçinin Azərbaycanın Şimalla Cənubun, Şərqlə Qərbin, yəni müxtəlif geosiyasi qütblərin, sivilizasiyaların və dinlərin qovuşduğu, regional və qlobal maraqların üst-üstə düşdüyü məkan kimi fövqəladə əhəmiyyəti ilə şərtlənir. Bütün bunlar ölkəni unikallığı ilə fərqləndirir və dünyanın təhlükəsizlik arxitekturasının formalaşmasında Azərbaycanın səmərəli iştirakını vacib edir.

Son illər Azərbaycan yeni dövlət neft strategiyasını, - onun yaradılması Azərbaycan xalqının ümummilli lideri *Heydər Əliyevin* adı ilə qırılmaz surətdə bağlıdır, - həyata keçirərək, XXI əsrin real-

lıqlarını və ilk növbədə, milli mənafeləri nəzərə alaraq, öz coğrafi strategiyasını və coğrafi siyasətini onun əsasında qurur. Hazırda bu amil xarici siyasətin, milli təhlükəsizliyin, iqtisadi rifahın və qlobal sabitliyin mühüm tərkib hissəsinə çevrilmişdir. Qlobal transformasiyaların indiki mürəkkəb şəraitində Azərbaycan özünün müstəqil daxili və xarici siyasəti, modernləşmiş iqtisadiyyatı, vətəndaş cəmiyyəti və liberal ənənələri olan ölkə qurmaq istəyini ortaya qoyur *[Mehdiyev, 2009]*.

Məlumdur ki, Azərbaycanın tarixi əsas etibarilə müxtəlif regional güclər arasındakı müharibələr və real müstəqillik uğrunda gedən davamlı mübarizə tarixindən ibarətdir. Azərbaycan xalqı özünün bütün çoxəsrlik tarixi boyu mürəkkəb sınaqlardan keçərək, dövlət suverenliyinə nail olmuş, demokratikləşməni milli inkişafın ən mühüm sosial amili kimi müəyyən etmişdir. Son illərdə ölkədə milli demokratikləşmənin aydın bazisi formalaşmışdır. Geniş səpkidə yanaşdıqda, demokratikləşmənin təkamül və suveren xarakteri siyasi sistemin səmərəli inkişafını, rəqabətədavamlı bazar iqtisadiyyatının formalaşdırılmasını və vətəndaş cəmiyyətinin sabit inkişafını təmin etməyə imkan verir. Bu prosesdə dövlət aparıcı və istiqamətləndirici rol oynayır. Azərbaycanda məhz hakimiyyətin mərkəzləşdirilməsi sayəsində müstəqillik prinsiplərinə əsaslanan milli dövlətçilik yaratmaq mümkün olmuşdur. Dövlət müstəqilliyi də öz növbəsində institusional demokratiyanın formalaşması üçün dayaq nöqtəsi idi. Beləliklə, dövlətçiliyin prioritetliyi demokratik transformasiya üçün zəmin yaratmışdır. İqtisadiyyatın liberallaşdırılması, ölkənin geosiyasi və geoiqtisadi çəkisinin artması, vətəndaş ilə dövlət arasında vahid birliyin, ahəngdarlığın bərqərar olması Azərbaycanın intensiv inkişafını təmin etmiş oldu.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, təmsilçi demokratiyanın əsasını sərbəst bazarın təşəkküründə ifadə olunmuş iqtisadi demokratiya təşkil edir. Qeyd etmək lazımdır ki, davamlı iqtisadi sistem labüd olaraq ictimai şüurun daha çox demokratikləşməsinə doğru aparır.

Bu anlamda, demokratik inkişaf iqtisadi təkamüllə sıx bağlıdır. Azad vətəndaş, ilk növbədə, maddi və maliyyə baxımından azaddır, bu da ona siyasi azadlıq verir. Adətən, varlı cəmiyyət və müstəqil qərarlar qəbul etməyə qadir olan imkanlı vətəndaşlar kütləvi şüurun və cəmiyyətin sosial-mədəni bazisinin postindustrial dəyərlər və demokratik ənənələr məcrasına mərhələli transformasiyasının əsası kimi çıxış edir. Məhz iqtisadi rifah milli demokratik keçidin mahiyyətini və uğurunu irəlicədən müəyyənləşdirir. Bu keçid Azərbaycan cəmiyyətində qlobal transformasiyanın tələbləri və şərtləri əsasında institusional islahatlar aparmağa imkan vermişdir. Məhz bu səbəblərə görə Azərbaycan dövləti belə bir məntiqi əsas götürür ki, demokratiyanı möhkəmlətməyin ən yaxşı üsulu sərbəst bazar münasibətlərinin təşviq edilməsidir. Yalnız sərbəst bazar fəaliyyətini təmin edən demokratik rejim, ictimai inkişafın rəqabətə və alternativliyə əsaslanmasını şərtləndirən açıq vətəndaş cəmiyyəti və ənənələr formalaşdırmağa imkan verə bilər.

Hazırkı mərhələdə Azərbaycanın siyasi və iqtisadi yüksəlişinin əsas oriyentiri demokratik təsisatların və ənənələrin möhkəm sisteminin formalaşmasına və modernləşməyə yönəlmişdir. Modernləşmənin həm ölkənin, həm də hər bir vətəndaşın arzu və istəyinin reallaşmasına xidmət etməsi əsas məqsəd olduğundan bu istiqamətdə ciddi tədbirlər görülür. Azərbaycanın modernləşməsi cəmiyyətin yeniləşməsi, yetərli ictimai və siyasi təsisatlar yaradılması, vətəndaş təşəbbüskarlığının artması, innovasiya sıçrayışı və XXI əsr üçün çox zəruri olan inzibati reaksiyanın sürətinin artırılması üçün güclü kadr ehtiyatları yaradılması formasında inkişaf edir. Azərbaycan cəmiyyəti üçün modernləşmə müasir inkişafın əsas amili olmaqla, özündə milli ənənələri, qaynaqları və kökləri, əsrlər boyu keçilən tarixi yolu təcəssüm etdirir. Prezident *İlham Əliyevin* həyata keçirdiyi modernləşmə qərarlarının bütöv kompleksi Azərbaycanı davamlı siyasi sistemə malik və mərhələlər üzrə formalaşmaqda olan demokratik təsisatları, bazar sisteminə xas iqtisadi strukturu olan məkana çevirməyə imkan vermişdir. Səmərəli dövlətçilik strukturunun təşəkkülünün əsasını təşkil edən başlıca tezis Azərbaycanın regional proseslərdə rəqabətədavamlılığını və buna müvafiq olaraq Cənubi Qafqazda tam mənada iqtisadi liderliyini təmin etmək səylərindən ibarət olmuşdur.

Sosial-iqtisadi sahələrdə, dövlət quruculuğunda, insan hüquqları və azadlıqlarının təmin edilməsi yolunda qazanılmış uğurlarla yanaşı, Azərbaycan dövlətinin yeritdiyi məqsədyönlü siyasət sayəsində digər istiqamətlərdə də əldə edilmiş mühüm nailiyyətlər ölkənin inkişafına xidmət edir. Azərbaycanın silahlı qüvvələri qüdrətli bir orduya çevrilib və ölkəni hərbi təcavüzlərdən qorumaq üçün güclənib, inkişaf edibdir. Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarda tamhüquqlu üzv kimi fəaliyyəti onun beynəlxalq mövqeyinin möhkəmləndirilməsinə, dünya ölkələri sırasında öz layiqli yerini tutmasına əlverişli şərait yaratmışdır. Azərbaycanın inkişafına xidmət edən xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabər, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq, inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır. Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı surətdə faydalı siyasi, iqtisadi, mədəni və humanitar əməkdaşlıq qurmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir. Azərbaycan demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğundan, onun xarici siyasəti də dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə əks etdirir *[Həsənov, 2005, səh. 220]*.

Azərbaycan dövlətinin müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya nümayiş etdirərək özünü doğruldan, ölkənin milli və dövlətçilik maraqlarının təmin olunmasına uğurla xidmət edən çoxvektorlu müstəqil xarici siyasəti özünün konseptual bazisinə malikdir. Təməl ideyalar əsasında for-

malaşdırılmış həmin bazis ümummilli lider *Heydər Əliyev* tərəfindən 1993-2003-cü illərdə Prezident olduğu dövrdə yaradılmışdır. Onun zəngin həyat və siyasi təcrübəsindən irəli gələn optimal qərarlar qəbul etmək bacarığı, intuisiyası və uzaqgörənliyi - bütün bunlar xalqın strateji məqsədlərinə xidmət edən intellektual və mənəvi-siyasi arsenaldır. Əsası ümummilli lider *Heydər Əliyev* tərəfindən qoyulmuş, müəyyənləşdirilmiş, formalaşdırılmış bu daxili və xarici siyasət kursunu Prezident *İlham Əliyev* bu gün uğurla davam etdirir.

Qeyd etmək lazımdır ki, *Heydər Əliyevin* xarici siyasəti Azərbaycan tarixinə sülh yolu ilə əldə oluna biləcək maksimal mümkün nailiyyətlər dövrü kimi daxil olmuşdur. Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada yaranmış vəziyyətə nəzər salsaq, bu sözlərdə heç bir mübaliğənin olmadığı aydın görünər.

SSRİ və onun müttəfiqlərinin "soyuq müharibə"də məğlubiyyəti beynəlxalq münasibətlərdə böyük dəyişikliklərlə nəticələndi. Qərb cəmiyyəti çərçivəsində ABŞ alternativsiz və şəksiz lider dövlətə çevrildi. ABŞ-ın maraq və məqsədləri qlobal səciyyə kəsb etməyə başladı. Qısa bir zaman kəsiyində mühüm dəyişikliklər baş verdi. Bütün fəaliyyət sahələri sıçrayışşəkilli qloballaşdı. Əksəriyyəti genetik və funksional baxımdan Qərbə bağlı olan dünya siyasətinin transmilli şirkətlər (TMŞ), transmilli banklar (TMB) kimi subyektlərinin beynəlxalq proseslərə təsiri hədsiz dərəcədə artdı. Beynəlxalq həyatın yeni subyektləri olan dövlətlərarası və qeyri-hökumət təşkilatları xüsusi inadkarlıqla prosesləri istiqamətləndirməyə girişdilər.

Onların fəaliyyəti nəticəsində qlobal təşkilati-siyasi infrastruktur meydana gəldi ki, həmin infrastrukturun əsasında da dövlətüstü iqtisadi tənzimləməni, hərbi-siyasi əlaqələndirməni və hətta siyasi idarəetməni həyata keçirən inteqrasiya strukturları həddindən artıq fəallaşdı. NATO, Avropa Şurası, ATƏT, Avropa İttifaqı və digər qurumlar beynəlxalq münasibətlərin aparıcı və istiqamətverici qüvvəsinə çevrildilər. Yeni dünya nizamının formalaşması prosesi başladı.

1990-cı ildə Vaşinqton Beynəlxalq İqtisadiyyat İnstitutunun aparıcı elmi əməkdaşı *C.Uilyamson* milli dövlətin ənənəvi rolunun zəiflədilməsi hesabına iqtisadiyyatın liberallaşdırılmasını nəzərdə tutan *"Vaşinqton konsensusu"* terminini dövriyyəyə daxil etdi. Dünya Bankı və Beynəlxalq Valyuta Fondu yeni dövlətlərə "Vaşinqton konsensusu"nu qəbul etməsi əsasında borc ayrılması barədə razılığa gəldilər. Qeyri-Qərb cəmiyyətləri sırasına daxil olmayan dövlətlər - "İkinci dünya" ölkələri fövqəldövlətlərin maraqlarına uyğun olaraq beynəlxalq təşkilatların müəyyənləşdirdiyi qaydalar əsasında neoliberal islahatlar aparmaq məcburiyyəti qarşısında qaldılar.

Öz ruhuna və məzmununa görə beynəlxalq sistem tamam dəyişdi: eyni zamanda, dövlətlərarası münasibətlərdə ilk dəfə olaraq konstruktiv əməkdaşlıq elementləri üstünlük təşkil etməyə başladı, amma bu əməkdaşlıq birbaşa və ya dolayı təsirdən azad hesab edilə bilmədi. İkiqütblü planetin səciyyəvi xüsusiyyətlərindən ən başlıcası o idi ki, bütün beynəlxalq proseslər tərəflərin maraqları müstəvisində gedən mübarizənin girovuna çevrilir və sonda ya o, ya bu tərəfin iradəsinə uyğun həll olunurdu. Sosialist düşərgəsi, Varşava Müqaviləsi Təşkilatı dağılandan sonra bu problemin nəhayət aradan qalxacağına ümidlər böyük olsa da, belə olmadı. Maraqlar uğrunda mübarizə davam etdi, lakin bu mübarizə, demək olar ki, opponentsiz getməyə başladı. Proseslərin bu cür inkişafı isə beynəlxalq hüququn praktikadan daha çox söz səviyyəsində qərar tapmasına gətirib çıxardı. Beləliklə də, maraqlar uğrunda gedən mübarizədə öz problemlərini həll etmək istiqamətində beynəlxalq hüquqa riayət edilməməsindən əziyyət çəkən subyektlərin artıq müqavimət göstərməyə gücü qalmadı, beynəlxalq münasibətlərin demokratik təşkili məsələsi bir tərəfin iradəsindən asılı vəziyyətə düşdü. Beynəlxalq münasibətlərdə bərabərhüquqluluq, beynəlxalq demokratiya, yəni qərarların beynəlxalq hüquq əsasında qəbul edilməsi isə müasir dövrün mübahisəsiz faktına çevrilmədi. İki fövqəldövlətin mübarizəsi ilə müəyyən proseslərin və çəkişmələrin nəticəsi olaraq təmin edilən nisbi obyektivlik mühiti təhlükəli həddə qədər daraldı. Bu dəyişikliklərin nəticəsində "izqoy ölkə" və "tran-

zit ölkə" ifadələri dövriyyəyə daxil edildi. 90-cı illərin əvvəllərində "İkinci dünya" (Second World) ölkələri "countries in transition" CİT's - keçid iqtisadiyyatlı ölkələr termini ilə əvəzləndi.

Keçid dövrünü yaşayan milli dövlətlər üçün dünyanın yeni siyasi vəziyyəti prioritetlərin dəyişməsi mənasını kəsb etdi. Beynəlxalq strukturlar iqtisadi inkişaf və siyasi quruculuq məsələləri ilə məşğul olmağı tələb etməyə başladılar. Onsuz da həm mühüm geosiyasi məkanda yerləşməsi, həm təbii resurslarla zənginliyi ilə transmilli qüvvələri cəlb edən Cənub Qafqaz regionu dövlətlərin təsir dairəsi uğrunda apardıqları mübarizəni daha da gücləndirdi. Eyni zamanda, milli dövlətlərin öz xarici təhlükəsizliklərini təmin etməklə bağlı problemləri və məqsədləri kifayət qədər biganə yanaşma ilə qarşılaşaraq böyük maraqlar burulğanında kiçildilər, deklarativ bəyanatlardan başqa münasibətə layiq görülmədilər.

Burada *beynəlxalq münasibətlərdə ideoloji özünüdərkin xüsusi rolunu* qeyd etmək lazımdır. İdeoloji sistemlər dövlətdaxili, beynəlxalq, transmilli, qlobal səviyyələrdə bir-biri ilə toqquşurlar. Bir neçə onillik ərzində ikinci fövqəldövlətin mövcudluğu Qərbə əks güc mərkəzi olmuşdur. SSRİ təkcə ABŞ-ın hərbi və siyasi rəqibi deyil, həm də alternativ siyasi-ideoloji modelin daşıyıcısı idi. O, həm sosialist ölkələri, həm də Qərbin siyasi sistemi daxilində fəaliyyət göstərən subyektlər sırasında çoxsaylı siyasi və hərbi müttəfiqlərinin dəstəyindən faydalanırdı.

Yeni şəraitdə ideoloji özünüdərkin, yəni milli təcrübənin dərk edilməsinin Azərbaycan üçün rolu həddsiz dərəcədə əhəmiyyətli idi, çünki məhz 90-cı illər gələcək yolun riskli yeniliyini üzə çıxardı. 90-cı illərin əvvəllərində *Heydər Əliyev* və onun silahdaşları qarşısında ciddi ideoloji problem dayanmışdı. Həmin problemi sadə yolla bu cür ifadə etmək olar: *Qərb dünyasının əsas ideoloji məhsulu olan liberalizmi keçmiş sovet cəmiyyətinin qeyri-Qərb mentallığı ilə necə uyğunlaşdırmalı?*

Sonrakı təcrübə bu problemi bütün çılpaqlığı ilə göstərdi. Postsovet ölkələrində islahatlarla bağlı ideoloji özünüdərk, aradan tez bir zamanda qaldırılması mümkün olmayan bir ziddiyyəti ortaya çıxar-

dı. İslahatların əsas mənasına görə keçidin, yəni liberal demokratiya və bazar iqtisadiyyatı institutlarının yaradılmasının əsas subyekti milli dövlətdir, lakin həmin ölkələrdə biznes-strukturları mövcud deyildi. Şəxsi kapital və burjua sinfi ötən əsrin əvvəlindəki inqilabi çevriliş dövründə məhv edilmişdi. Bu səbəbdən də milli dövlət tərəfindən həyata keçirilən liberal islahatların obyektiv nəticəsi - islahatların aparıcı qüvvəsi kimi məhz milli dövlətin rolunun artması olmuşdur. İslahatların keçirilməsi zamanı postsovet ölkələrində iki fərqli fəaliyyət məntiqi yaranmışdı: dövlətin simasında "hakimiyyət məntiqi" və biznes-strukturların simasında "qazanc məntiqi".

Beləliklə, liberal islahatların əsas yekunlarından birinin həyata keçirilməsi mümkün olmadı, yəni, milli dövlət dərhal liberal dövlətə çevrilə bilmədi; o, öz səlahiyyətlərini məhdudlaşdırmadı, iqtisadiyyat və mədəniyyət sahələrindən çəkilmədi.

Bunun səbəblərini görmək üçün müstəqilliyin ilk ilində Azərbaycanın yaşadığı proseslərə nəzər salmaq kifayətdir. Liberal cəmiyyətə dərhal keçidin xoşbəxtlik gətirəcəyinə sadəlövhcəsinə və məsuliyyətsizliklə inanan birillik hakimiyyət Azərbaycanı siyasi-iqtisadi böhran, hərc-mərclik qarşısında qoydu. Erməni separatçılarının azğınlığı ərazilərin işğalı prosesini daha da gücləndirdi. Daxildə hakimiyyətə gəlmək üçün mübarizə aparan müxtəlif dairələr və qruplar vətəndaş müharibəsindən belə çəkinmədilər. Xaricdə isə müxtəlif qüvvələr öz planlarını həyata keçirmək imkanı qazandılar.

Ölkənin strateji əhəmiyyət daşıyan müəssisə və sahələrinin məhz Azərbaycan kimi müstəqilliyini yenicə qazanmış və çox mürəkkəb geosiyasi məkanda yerləşən zəngin ölkədə dövlətin nəzarətində qalmasının zəruriliyi uzaqgörən və müdrik mövqe olaraq öz həyatiliyini sübut etdi. Nəticədə, özəl kapital Azərbaycanda dövləti ələ keçirə bilmədi. Liberal islahatlara xas olan bu təzad Azərbaycan Respublikasının daxili və xarici siyasətinin təməlində qalmaqdadır.

Qərb analitikləri tərəfindən dərk olunan bu təzad qeyri-Qərb cəmiyyətlərində islahatların perspektivi ilə bağlı müəyyən şübhə yaratmışdı. *Frensis Fukuyama* 1989-cu ildə bildirirdi ki, *"Qərbin,*

Qərb ideyasının qələbəsi aşkardır..., liberalizmin heç bir həyatqabiliyyətli alternativi qalmamışdır". Amma 2001-ci ildə o, etiraf edirdi ki, *"müasirləşmə nəzəriyyəsi Avropa təmayüllüdür və məqsədlərin müxtəlifliyini nəzərə almır".* Bəlli oldu ki, *"belə müasirləşmənin əleyhdarlarının ideyaları öz güc və inandırıcılığını saxlayır, nəticədə bir çox insanlar azad bazar iqtisadiyyatına əsaslanmış demokratik cəmiyyətə aparan bəşəriyyət üçün yeganə inkişaf yolunun müdafiəsindən çəkindilər".* *Fukuyama* proqnozlaşdırırdı ki, "liberal demokratiyanın qarşılaşmalı olduğu əsas çətinliklər"ə qeyri-Qərb cəmiyyətlərində dərin səviyyədə - mədəniyyət səviyyəsində, yəni din, mənəviyyat, milli özünüdərk, adət-ənənə sahələrində rast gəlinir.

Əgər *Fukuyamanın* etiraflarını Azərbaycan reallığına tətbiq etsək, belə bir nəticəyə gəlmək olar: *Heydər Əliyev* kursu özünün böyük nailiyyətləri ilə bərabər, bir sıra mühüm xüsusiyyətləri ilə fərqlənir. Belə ki, *Fukuyamanın* qeyd etdiyi liberal müasirləşmənin çətinliklərinə baxmayaraq, məhz *Heydər Əliyevin* 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycan səmərəli dövlətçilik konsepsiyasına, iqtisadiyyatın dirçəldilməsi strategiyasına uyğun olaraq və xalqın sosiomədəni irsinə əsaslanaraq, liberal demokratiya yoluna qədəm qoydu. Ölkənin ictimai-siyasi, sosial, iqtisadi, mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı, vətəndaşların və dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə əsaslanan dövlətçiliyin və sosial sabitliyin təməli qoyuldu. Dövlət cəmiyyətin bütövlüyünün etibarlı təminatçısına çevrildi. Azərbaycanın gələcəyi üçün məsuliyyəti öz üzərinə götürmüş *Heydər Əliyev* hədsiz gərgin zəhmət bahasına 1993-2003-cü illərdə yeni milli inkişaf strategiyası formalaşdırmağa müvəffəq oldu. Bu strategiya *mədəniyyəttutumlu suverenlik* ideyasına əsaslanırdı.

Mədəniyyəttutumlu suverenlik Azərbaycan Respublikasının daxili və xarici siyasətinin özəyi olmuşdur. Bu, xarici siyasət sisteminin prioritetlərinin milli mədəniyyət əsasında, o cümlədən dövlət quruculuğu mədəniyyəti zəminində qurulması deməkdir. Bu gün,

18 il keçdikdən sonra biz deyə bilərik ki, 1993-cü il iyunun 15-də *Heydər Əliyevin* siyasi hakimiyyətə qayıdışı məhdud suverenliyə malik ölkə taleyindən azad olan yeni milli tarixin başlanğıcı oldu.

Heydər Əliyevin daxili siyasəti hansı konseptual məqamlardan ibarət idi? Bu, millətin iqtisadi kapitalının sərbəstləşdirilməsi istiqamətində tədricən islahatlar həyata keçirən güclü dövlətin plüralist tipli demokratiyanın inkişafı və milli mədəniyyətin qorunması ilə sintezidir. Bütün sadalanan məqsədlər və onlarla bağlı dəyər oriyentirləri hər bir milli dövlətin iki fundamental əsasına - inkişafına və təhlükəsizliyə cavab verirdi.

Mədəniyyəttutumlu suverenlikdən danışdıqda aşağıdakıları nəzərdə saxlamaq lazımdır: *Heydər Əliyev* öz nitqlərinə hər şeydən əvvəl millətin mənəvi dünyasını əks etdirən anlayışları daxil edirdi. Məlum səbəblərdən onun siyasi çıxışlarında bu məqam adətən xüsusi vurğulanmırdı. Başqa sözlə, *Heydər Əliyev* çox mühüm iş görürdü: o, liberal nitqi öz siyasətinə - vətənpərvərliyə, suverenliyə, dövlətçiliyə uyğunlaşdırırdı. *Heydər Əliyev* nitqinin bu özünəməxsusluğu ölkədaxili mövzularda daha qabarıq şəkildə gözə çarpırdı. Amma məlum olduğu kimi, xarici siyasət daxili siyasətin davamı olaraq onunla vəhdət təşkil edir və onun ehtiyacları əsasında formalaşır.

1993-cü il iyunun 15-də ilk çıxışında *Heydər Əliyev* "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin müdafiəsini, gücləndirilməsini və inkişafını" əsas siyasi və mənəvi öhdəlik adlandırır. Çıxışın əsas mahiyyətini - *"Nə olur-olsun müstəqillik itirilməyəcəkdir", "Azərbaycan Respublikası bundan sonra hər hansı bir dövlətin tərkibinə daxil olmayacaq, başqa dövlətin əsarətinə düşməyəcəkdir"* - ideyaları təşkil edir. *Heydər Əliyev* ali məqsədi açıqlayır - Azərbaycan Respublikasının müstəqilliyi. Müstəqilliyin görünən əsasları ilə yanaşı - torpaqların azad olunması və qorunması - Heydər Əliyev müstəqilliyin mental atributunu, daha dəqiq desək: "vətəndaşların öz ehtiyaclarına uyğun öz dövlətlərini yaratmaq" hüququnu müəyyənləşdirir.

Müstəqillik mövzusu 1993-cü ildən *Heydər Əliyevin* çıxışlarında daim səslənir. O, 1993-cü il iyulun 4-də "Ostankino" telekompani-

yasına müsahibəsində bildirir: *"...Azərbaycan müstəqil dövlətdir və heç vaxt kiminsə vassalı və ya müstəmləkəsi olmamalıdır. ...Mən Azərbaycanı gələcəkdə azad müstəqil dövlət olaraq görürəm".*

1993-cü il sentyabrın 14-də mətbuat konfransında *Heydər Əliyev* respublikanın çətinliklərini möhkəm dövlətçilik dayaqlarının olmaması faktı ilə əsaslandırır. Milli müstəqilliyin dönməzliyinə əmin olan Heydər Əliyev problemi "respublikanın öz dövlət siyasətini nə qədər tez həyata keçirmək və beynəlxalq miqyasda çox çətin daxili problemlərini həll etmək üçün öz dövlət və iqtisadi strukturlarını, institutlarını yarada biləcəyində" görürdü. Beləliklə, millətin lideri daxili problemlərin həllini xarici siyasətlə sıx əlaqələndirirdi.

1993-cü il oktyabrın 10-da dövlət başçısı vəzifəsinə başlayarkən *Heydər Əliyev* birinci dərəcəli praktiki məqsədləri bəyan edir: *"Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət sistemini yaratmaq, dövlət atributlarını möhkəmləndirmək və inkişaf etdirmək, ərazi bütövlüyünü və Azərbaycan Respublikasının tam suverenliyini təmin etmək, ölkəni müharibə vəziyyətindən çıxarmaq".*

Hakimiyyətdə olduğu ilk ildə *Heydər Əliyev* çox vacib bir konseptual məqamı - müasir dünya siyasi sistemində deklarativ deyil, real suverenliyə nail olmağı ön plana çəkir. 1993-cü il sentyabrın 21-də o deyirdi: *"Müstəqillik təkcə beynəlxalq təşkilatların bizi tanımasından ibarət deyil... müstəqilliyi inkişaf etdirmək, onu əldən buraxmamaq, bütün sahələrdə (rəhbər prinsip kimi) həyata keçirmək lazımdır".*

Heydər Əliyevin suverenlik konseptinin qavrayışının özəlliyini də nəzərə almaq lazımdır. Burada qeyd etməliyik ki, suverenlik anlayışı *Heydər Əliyevin* anlamında ümumi qəbul olunmuş tutumdan daha dərin məna kəsb edir. Onun leksikonunda suverenlik anlayışı tarixilik kimi bir xüsusiyyətə malikdir. Onun çıxışlarının ümumi konteksti belə deməyə əsas verir ki, "suverenlik" ifadəsi dövlətin və onun siyasi elitasının yeni dünya siyasi səhnəsində öz tarixi missiyasının yerinə yetirilməsi, daha dəqiq desək, Azərbaycanı siyasi mədəniyyət də daxil olmaqla, milli mədəniyyətə tamamilə uyğun

şəkildə müasirləşdirməklə bağlı suveren hüquqları mənasını verir. Əslində, *Heydər Əliyev* millətin siyasi elitasının müasirləşmək konsepsiyasını kənar imperativ təsirlər olmadan müəyyənləşdirmək hüququ uğrunda mübarizə aparırdı.

Onun çıxışlarında müasir Azərbaycan dövlətinin siyasətinin fövqəlsinfi səciyyə daşıdığını göstərən mənəvi tələblər öz əksini tapırdı. Sovet Azərbaycanında şəxsi kapitala imkan verilməməsi təcrübəsindən 90-cı illərdə onun yaradılmasına və təşviqinə keçid Azərbaycan Respublikasında dünya oliqarxiyası ilə saysız-hesabsız tellərlə bağlı olan yeni yaranmış oliqarxiyanın hakimlik edəcəyi kimi başa düşülmürdü. *Heydər Əliyevin* prinsipial olaraq fövqəlsinfi, antioliqarxik daxili siyasəti Azərbaycan dövlətinin davamlı xarici siyasi oriyentasiyalarının əsası oldu.

Göstərilən xüsusiyyət xarici siyasətin çoxvektorluğunda təcəssümünü tapır. Tarix göstərir ki, postsovet ölkələrində oliqarxik daxili siyasət hakimiyyətə inamda dərin böhrana və "narıncı inqilaba" sürüklənməyə səbəb olur. *2003-cü və 2005-ci illərdə "narıncıların" Azərbaycanda uğursuzluğunun səbəblərini Heydər Əliyev kursu tərəfindən yaradılmış immunitetdə axtarmaq lazımdır.*

Oliqarxlıq ehtirası ilə milli maraqlara xəyanət arasında əlaqə artıq şübhə doğurmur. Dövlətin xarici siyasəti daxili siyasətin davamı, onun təzahürüdür. Xarici siyasət, ilk növbədə, milli dövlətin digər dövlətlərlə milli maraqların müdafiəsi uğrunda mübarizəsidir. Bu maraqlar suverenliyin vəhdət təşkil edən üçəhətli konsepsiyasında - dövlət suverenliyi, milli suverenlik və xalq suverenliyində birləşmişdir. Bu səbəbdən də dövlətdə birlik nə qədər möhkəm olarsa, dövlətin xarici siyasəti bir o qədər uğurlu olur. Bununla yanaşı, ümummilli maraqların formalaşdırılması mental ənənənin, tarixi təcrübənin mütləq nəzərə alınmasını tələb edir ki, bunun da dövlət tərəfindən yerinə yetirilməsi olduqca mürəkkəb, böyük zəhmət tələb edən məsələdir. Bütün bu məqamlar *Heydər Əliyev* tərəfindən uğurla əlaqələndirilmişdir.

Ümummilli liderin xarici siyasətinin maraqlı cəhətlərindən biri də ideal və real məqamların nisbətidir. *Heydər Əliyev* milli ideolo-

giyanın mahiyyətini, zəngin təcrübəsinə əsaslanaraq yaxşı başa düşürdü. Artıq hakimiyyətdə olduğu ilk illərdə o, bu mövzunu dövlətin taleyi üçün aktual məsələ kimi qaldırırdı. 1994-cü ilin dekabrında o deyirdi: *"Biz öz milli ideologiyamız haqqında düşünməliyik. Milli ideologiya, heç şübhəsiz, bizim tarixi keçmişimizlə, millətimizin adət və ənənələri ilə, bizim xüsusiyyətlərimizlə, xalqımızın və dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır"*.

Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, dünyanın aparıcı dövlətləri ilə əməkdaşlıq modelini hazırlayarkən risk hədlərini mütləq nəzərə almaq lazımdır. Belə bir tələb də məhz bu məntiqdən doğur: Azərbaycan dövlətinin xarici siyasəti özündə mənəvi dəyərləri nümayiş etdirən məqamları əks etdirməlidir. Heydər Əliyev deyirdi: *"Biz çalışmalıyıq ki, yenidən müstəqilliyini əldə etmiş Azərbaycan bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqı bu mənada həm tarixi, həm də müasir potensiala malikdir"*. İqtisadiyyatın da aid olduğu bu potensiala *Heydər Əliyev* "bizim elmimizi, mədəniyyətimizi, ənənələrimizi və islam dinini" daxil edirdi.

Azərbaycan dövlətinin əsasını təşkil edən tarixilik, realizm, mənəvilik, mədəniyyəttutumlu müstəqillik millətin xarici siyasi mentallığı ilə təmin edilir. Bu cəhət *Heydər Əliyev* tərəfindən intuitiv olaraq nəzərə alınmışdır.

Heydər Əliyevin siyasi kursu Realpolitik ruhu ilə səciyyələnir. O, dünya reallıqlarının qiymətləndirilməsində müxtəlif resurslarla təmin edilən milli dövlətlərin maraqları mövqeyindən çıxış edir. Dünyanı maddi maraqlar idarə edir və bu, müxtəlif ideoloji sistemlərdə özünü göstərir. Realpolitik istiqamətli bu yanaşma sayəsində *Heydər Əliyev* Azərbaycan dövlətinin neft strategiyasını formalaşdırdı və bu təsəvvür bu gün də xarici siyasətin əsas konseptual cəhətini təşkil edir. Prezident *İlham Əliyevin* xarici siyasət kursunun çoxvektorluğu da Realpolitik yanaşma prinsiplərinə söykənir.

Müasir dünyanı ciddi problemlər narahat edir. Geniş mənada bunlar bəşəriyyətin yaşamaq uğrunda mübarizəsi, dünya sivilizasiyasının nailiyyətlərinin qorunub saxlanması ilə bağlıdır. Məsələn, dünyanın ən kəskin problemlərindən biri enerji təhlükəsizliyi problemidir. Azərbaycan mühüm enerji ixracatçısıdır. Azərbaycan dövlətinin bu sahədə real imkanları onun xarici siyasətinin lövbərinə çevrilərək, ona özünəməxsus məna və dəyər verir. Ölkənin enerji baxımından əhəmiyyəti həyat tərzimizi, təsisatlarımızı qoruya bilən müstəqil xarici siyasət həyata keçirməyə imkan verir və bununla da millətin öz məqsədlərini həyata keçirmək hüququnun aliliyini təmin edir. Bununla bərabər, Azərbaycanın enerji siyasəti yuxarıda adı çəkilən dəyər motivasiyalarını ehtiva edir. Bunu tarixi hadisə - "Əsrin müqaviləsi"nin imzalanması faktından görmək olar. Bu, ilk baxışdan sırf iqtisadi xarakterli akt, eyni zamanda, dünyagörüşü baxımından hadisə oldu. 1994-cü il sentyabrın 20-də *Heydər Əliyev deyirdi: "1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında mühüm dəyişikliklər baş vermişdir. Azərbaycanın iqtisadiyyatı inkişaf etmiş, respublikada güclü sənaye potensialı yaradılmışdır, bizim neft sənayemiz böyük tarixi yol keçmişdir. Mən bu gün bunu bizim qonaqlarımızın diqqətinə çatdırmağı, Azərbaycan xalqına xatırlatmağı zəruri hesab edirəm. Çünki bütün bunlar Azərbaycan xalqının fəxri və şöhrətidir, bizim xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatında böyük xidmətlərindən xəbər verir"*.

Heydər Əliyevin hakimiyyət konsepsiyasında "Əsrin müqaviləsi" onun əsas məqsədini - ictimai rifaha xidmət edən dəyər ideyasını əks etdirirdi. "Əsrin müqaviləsi" insan enerjisinin azad olunması kimi başa düşülən müasirləşmənin mühərrikinə çevrilsə də, proseslərə nəzarət dövlətin himayəsində qalırdı.

Azərbaycanın digər mühüm taleyüklü xüsusiyyəti dünya və regional maraqların kəsişməsində yerləşməsidir. Azərbaycan bir çox dövlətlər və nüfuzlu transmilli təşkilatların maraqlarının toqquşduğu mürəkkəb geosiyasi məkanda yerləşir. Çox vacib haldır ki, Azərbaycan dövləti bu gün dünya siyasətinin təhlükəli dəyişikliklərinin qarşısını almağa və konfliktogen situasiyaları müxtəlif siyasi sistemli ölkələrlə əməkdaşlıq məcrasına keçirməyə müvəffəq olmuşdur.

Azərbaycanın həyata keçirdiyi dəyərtutumlu və məqsədyönlü çoxvektorlu xarici siyasət, sözün tam mənasında, MDB-yə üzv dövlətlər üçün model ola bilər. Çünki bu kurs milli maraqların, Azərbaycan dövlətinin maraqlarının maksimal təminatına yönəlmişdir və müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya kimi özünü uğurla doğruldur. Azərbaycanın həyata keçirilməkdə olan milli və dövlət maraqları - ümumi inkişaf və tərəqqi, xalqın maddi rifahının yüksəldilməsi, eyni zamanda, Azərbaycanın dünyada mövqelərinin möhkəmləndirilməsi deməkdir. Azərbaycan dövlətinin bugünədək keçdiyi yol ümummilli lider *Heydər Əliyevin* 10 illik islahatçı fəaliyyətinin məntiqi davamıdır.

Lakin müstəqilliyin ilk illərində xarici siyasət sahəsində ölkənin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinə yönəldilmiş ardıcıl kursun hazırlanıb həyata keçirilməməsi, bəzi dövlət rəhbərlərinin beynəlxalq, regional və dövlətlərarası münasibətlərlə bağlı məsuliyyətsiz bəyanatları Azərbaycanın beynəlxalq nüfuzuna olduqca mənfi təsir göstərirdi. Bu özünü bəzi qonşu dövlətlərlə münasibətdə xüsusilə büruzə verirdi. Ermənistanla müharibə getdiyi bir şəraitdə yaxın qonşular - Rusiya, İran, Mərkəzi Asiya respublikaları ilə münasibətlər gərginləşmişdi. Hər şeydən əvvəl yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım idi. Azərbaycanın *Müstəqil Dövlətlər Birliyinə* (MDB) daxil olması bu yöndə atılmış addımlardan biri oldu və bu quruma daxil olan keçmiş sovet respublikaları ilə birbaşa ikitərəfli əlaqələrin də möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Mərkəzi Asiya respublikaları ilə əlaqələrin köklü surətdə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi. MDB ölkələri ilə iqtisadi əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi. Gürcüstan, Qazaxıstan, Özbəkistan, Ukrayna və Moldova ilə ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması öz müsbət nəticələrini verdi.

Azərbaycanın tarixən bağlı olduğu *Rusiya* ilə münasibətlər artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir və bu əməkdaşlığın

genişlənməsi davam edir. Ümummilli lider *Heydər Əliyevin* Rusiyanın Qərbin və Şərqin böyük sivilizasiyalarını özündə təcəssüm etdirən və dünya siyasətində nadir rol oynayan bir ölkə olması haqqında söylədiyi fikir Azərbaycanın xarici siyasətində Rusiyanın rolunu və yerini son dərəcə aydın müəyyən edir. Bu gün Moskva ilə Bakı arasında çox möhkəm siyasi və iqtisadi əlaqələr mövcuddur. Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə dövlətdir. İki ölkənin dostluq və qarşılıqlı səmərəli ikitərəfli və çoxtərəfli əlaqələri zamanın sınağından çıxmışdır və tarazlaşdırılmış, çoxvektorlu siyasətin əsaslılığının əyani təsdiqidir.

1993-cü ilin yayından başlayaraq *Türkiyəyə* münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf-müqabilidir. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir. Bu münasibətlərin ən mühüm cəhəti odur ki, tərəflər belə dostluğun alternativinin olmadığını yaxşı anlayırlar.

Azərbaycan qonşu *İran* dövləti ilə də hər iki ölkənin xalqlarının mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlər yaratmağa müvəffəq olmuşdur. Qərb dövlətlərinin də iştirak etdiyi neft konsorsiumunda İrana yer ayrılmış, "Şahdəniz" yatağının işlənilməsi üzrə müqavilədə bu ölkəyə pay verilmişdir. İki ölkə arasında münasibətlərin bütün sahələrini əhatə edən sənədlər imzalanmışdır.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan digər ölkələrlə də siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrini xeyli inkişaf etdirmişdir. Həmin ölkələrlə İƏT və başqa beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də ikitərəfli əməkdaşlıq məhsuldar və faydalı olmuşdur.

ABŞ, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətinin məhək daşını təşkil edir. Azərbaycan ilə həmin ölkələr arasında dostluq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı münasibətlər qurulmuşdur. Bu, planetin strateji əhəmiyyət kəsb edən qlobal məsələlərinin həllində təsir gücünə malik olan nüfuzlu dövlətlərin diqqətini Azərbaycana cəlb etmək üçün 1993-cü ilin sonundan başlayaraq aparılmış ardıcıl işin müsbət nəticəsi kimi qiymətləndirilə bilər.

Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsində, neft və qaz ehtiyatlarının hasilatı və nəqlində Amerika neft şirkətlərinin beynəlxalq neft konsorsiumunda geniş iştirakı *Azərbaycan-ABŞ əlaqələrinin* inkişaf etməsinə təkan vermişdir. Amerika-Azərbaycan münasibətləri haqqında iki ölkə Prezidentləri tərəfindən imzalanmış birgə bəyanat, Müdafiə nazirlikləri arasında müdafiə və hərbi əlaqələr üzrə əməkdaşlıq, investisiyaların təşviqi və qorunması, ticarət və kapital qoyuluşu, banklararası və digər sahələrdə əməkdaşlığı nəzərdə tutan hökumətlərarası sənədlər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli təhlükəsizliyinin təmin olunmasına və sosial-iqtisadi tərəqqisinə xidmət edir. Azərbaycan və ABŞ arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi haqqında imzalanmış xüsusi sənəd Amerika iş adamlarının Azərbaycanda fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradılmasının hüquqi bazasını təşkil edir.

Hazırda iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələri intensiv inkişaf edir. Azərbaycan ABŞ-ın rəhbərlik etdiyi antiterror koalisiyasının üzvüdür, beynəlxalq birliyin terrorizmə qarşı mübarizəsini hərtərəfli şəkildə dəstəkləyir və bu istiqamətdə bir sıra əhəmiyyətli addımlar atır. Azərbaycan ABŞ-la, habelə iqtisadi, enerji təhlükəsizliyi və demokratik inkişafın təşviqi sahələrində də əməkdaşlığın genişləndirilməsi istiqamətində iş aparır.

Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini tutur. Son illər ərzində *Böyük Britaniya* ilə ikitərəfli münasibətlər dinamik şəkildə inkişaf etmişdir. Bu gün Böyük Britani-

ya beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi səyləri dəstəkləyir.

Avropanın nüfuzlu ölkələri - *Almaniya, Fransa, İtaliya, Belçika, Niderland, Yunanıstan, Polşa, Rumıniya, Bolqarıstan və Skandinaviya ölkələri* ilə də Azərbaycan arasında tam sabit və bərabər hüquqlu əməkdaşlıq münasibətləri yaranmışdır.

Avropa ölkələri ilə münasibətlərin inkişafında *Tarixi İpək yolunun bərpasını* nəzərdə tutan *TRASEKA proqramının* həyata keçirilməsinə başlanması mühüm yer tutur. Bu nəhəng nəqliyyat dəhlizinin mərkəzində yerləşən ölkə kimi Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır. Dünyanın ən böyük dövlətlərindən biri və BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan *Çin,* həmçinin nəhəng intellektual potensiala malik *Yaponiya* ötən illər ərzində Azərbaycanın siyasi və iqtisadi tərəfdaşına çevrilmişdir ki, bu da xarici siyasətin şəksiz uğurlarıdır. Azərbaycanla *İsrail Dövləti* arasında da siyasi, iqtisadi əlaqələr genişlənməkdədir. Qərb və Şərq mədəniyyətlərini birləşdirən körpü kimi Azərbaycan *sivilizasiyalar arasındakı dialoqda* fəal iştirak edərək bu məsələyə öz töhfəsini verir.

Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində yerləşən Azərbaycan *Avropa ölkələrindən mal və xidmətlərin böyüyən Asiya bazarlarına və əksinə daşınması üçün təbii keçid imkanını təmin edir.* Bu mənada *Orta Şərq və Asiya ölkələri ilə əlaqələr* Azərbaycanın xarici siyasətində vacib yer tutur. Yaranmaqda olan siyasi güc mərkəzləri və sürətlə artan iqtisadiyyatlara malik bu regionlar iqtisadi, telekommunikasiya və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün perspektivlər açır.

Azərbaycan siyasi, sosial-mədəni baxımdan *nüfuzlu beynəlxalq təşkilatlara hərtərəfli inteqrasiya xətti* yürüdür. Hazırda dünyada təxminən dörd mindən çox beynəlxalq və regional təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökumətlərarası təşkilatlardır. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq, Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya

çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də Azərbaycan *BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, MDB, GUAM, AQEM, QİƏT, İƏT, TDB, Parlamentlərarası İttifaq* kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, *Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı* və digər təşkilatlarla da fəal əməkdaşlıq edir. Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarında fəal təmsilçilik açıq və demokratik cəmiyyət quruculuğu yolu ilə sürətlə addımlayan müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasında bu gün də aparıcı istiqamətlərdən birini təşkil edir. Ölkənin nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Bu təşkilatlarla siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və digər sahələri əhatə edən əməkdaşlıq əlaqələri çoxşaxəli xarakter daşımaqla Azərbaycanın dövlət maraqlarının daha dolğun şəkildə ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə yönəlmişdir.

Azərbaycan *BMT və onun ixtisaslaşdırılmış qurumlarının* işində fəal iştirak edir, Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsi prosesinə öz töhfələrini verir, BMT-yə üzv dövlətlərin beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində bu universal təşkilatın mərkəzi rolunun artırılmasına yönəlmiş səylərini dəstəkləyir.

Avropaya inteqrasiyanı genişləndirmək siyasəti yürüdən rəsmi Bakının *Avratlantik məkanı ilə sıx əməkdaşlığı* milli xarici siyasətin özəyi olaraq qalır. 1994-cü ildə *NATO-nun "Sülh naminə tərəfdaşlıq"* (SNT) proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Azərbaycan bu proqrama qoşulmaq haqqında çərçivə sənədini imzalamışdır. NATO ilə regional və enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qeyri-qanuni dövriyyəsi və insan alveri, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması, təhlükəsizlik və digər sahələrdə islahatlar istiqamətində əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan

sülhməramlıları NATO hərbiçiləri ilə birlikdə Kosovoda, İraqda və Əfqanıstanda sabitliyin qorunmasında, sülhyaratma əməliyyatlarında xidmət göstərmişlər. Azərbaycan NATO ilə siyasi dialoqun dərinləşdirilməsini, müdafiə və təhlükəsizlik sahələrində islahatların həyata keçirilməsini, elm və ictimai diplomatiya sahəsində əməkdaşlığı nəzərdə tutan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının (FTƏP) icrasını uğurla başa çatdırmışdır. Bu çərçivədə nəzərdə tutulan tədbirlər Azərbaycanın müvafiq dövlət qurumları tərəfindən uğurla yerinə yetirilmişdir. NATO ilə əməkdaşlıq mexanizmlərindən istifadə etməklə, Azərbaycan beynəlxalq təhlükəsizliyə töhfə vermək istiqamətində imkanlarını da ardıcıl olaraq təkmilləşdirmişdir.

Azərbaycanın xarici siyasət kursunun digər bir mühüm prioriteti *Avropa İttifaqı* (Aİ) ilə münasibətlərin inkişafından ibarətdir. Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığında milli iqtisadiyyatı səmərəli inkişaf etdirməyi, milli iqtisadiyyatın Avropanın iqtisadi və maliyyə məkanına inteqrasiyasını və Ümumavropa proseslərində, xüsusən Avropa təhlükəsizliyinin sabit və səmərəli arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmağı qarşısına məqsəd qoymuşdur. Aİ ilə Azərbaycan arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Aİ-nin göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, çoxlu sayda layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Hazırda Azərbaycanın Avropaya inteqrasiyası keyfiyyətcə yeni mərhələyə daxil olmuş, Aİ Azərbaycanı "Yeni qonşuluq siyasəti" (YQS) proqramına daxil etmiş, "enerji dialoqunun" başlanması qərara alınmış, enerji sahəsində strateji tərəfdaşlıq haqqında anlaşma memorandumu imzalanmışdır. Aİ ilə tərəfdaşlıq və yaxınlaşmanın möhkəmlənməsi prosesi "Şərq tərəfdaşlığı" təşəbbüsünün irəli sürülməsi ilə əlavə təkan almışdır. Həmin təşəbbüs azad ticarət, eləcə də qarşılıqlı şəkildə viza rejiminin sadələşdirilməsi haqqında razılaşma daxil olmaqla, ye-

ni assosiativ müqavilələr imzalamaq yolu ilə ticarət-iqtisadi, siyasi və humanitar əlaqələrin dərinləşdirilməsi üçün zəmin yaradır. "Şərq tərəfdaşlığı" proqramı üzrə Praqa zirvə görüşünün birgə bəyannaməsinin imzalanması Azərbaycan ilə Aİ arasında gələcək yaxınlaşma və əməkdaşlığın inkişafına yeni təkan vermişdir. Zirvə görüşü çərçivəsində Transxəzər enerji daşıyıcıları layihələrini dəstəkləyən və Azərbaycanın enerji təhlükəsizliyinin təminatına yönələn maraqları əks etdirən "Cənub dəhlizi[1] - Yeni İpək yolu" bəyannaməsinin qəbul edilməsi, eyni zamanda, Aİ-nin Azərbaycan ilə assosiasiya sazişi ilə bağlı danışıqlara başlaması xüsusi diqqətə layiqdir. Azərbaycanla Aİ arasında imzalanan "Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə", "Azərbaycan Respublikası və Avropa Komissiyası arasında 2011-2013-cü illər üzrə Milli İndikativ Proqrama dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikası və Avropa Komissiyası arasında hərtərəfli institusional quruculuq proqramının çərçivə sənədi üzrə Anlaşma Memorandumu" da hər iki tərəfin əməkdaşlıq əlaqələrinin genişləndirilməsindəki marağını ifadə edir. Bu sənədlərin gələcəkdə əlaqələrə yeni töhfələr verəcəyi şübhəsizdir.

Azərbaycan cəmiyyətinin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq 2001-ci ildə Azərbaycan Respublikası *Avropa Şurasına* (AŞ) tamhüquqlu üzv qəbul edilərək Ümumavropa ailəsinə qovuşmuş və burada öz layiqli yerini tutmuşdur. Bununla da Azərbaycanda hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini almışdır. Bu nüfuzlu Panavropa qurumu ilə sıx əməkdaşlıq şəraitində Azərbaycan qanunun aliliyinə əsaslanan demokratik cəmiyyət quruculuğunu uğurla davam etdirir.

ATƏT ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində mühüm yer tutur. ATƏT-in Helsinki Yekun Aktı və digər sənədlər bu təşkilata üzv olan ölkələr arasında münasibətləri tənzimləyən norma

[1] Cənub dəhlizi - Nabukko, Türkiyə-Yunanıstan-İtaliya və Trans-Adriatik qaz kəmərlərini özündə birləşdirir.

və prinsipləri müəyyən edir və kollektiv təhlükəsizliyin saxlanılması üçün əsas yaradır. Azərbaycanın ATƏT-lə əməkdaşlığı təkcə demokratik inkişaf baxımından deyil, həm də Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından vacibdir.

Azərbaycan *beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə* ilə bağlı çoxtərəfli və ikitərəfli çərçivədə beynəlxalq əməkdaşlığa fəal cəlb olunmuşdur. Terrorizmə qarşı mübarizəyə dair bütün beynəlxalq sənədlərə qoşulan Azərbaycan bu sahəyə dair daim məlumat mübadiləsi həyata keçirir. Bununla yanaşı, Azərbaycanın sülhməramlıları Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin digər üzvlərindən olan əsgərlərlə çiyin-çiyinə xidmət göstərmişlər. Azərbaycan hökuməti və şirkətlərinin Əfqanıstana yardımı və bu ölkənin bərpası ilə bağlı səyləri ehtiyac içində yaşayan əhali üçün də imkanlar yaradır.

Azərbaycanın xarici siyasət kursunun ən mühüm, strateji tərkib hissələrindən birini *ölkənin təbii ehtiyatlarından və coğrafi-strateji mövqeyinin üstünlüklərindən milli mənafelərə uyğun şəkildə bəhrələnməklə iqtisadi maraqların təmin edilməsi* təşkil edir. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adı almış irimiqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkənin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır. Dünyanın aparıcı dövlətlərinin ən nəhəng şirkətlərinin iştirak etdiyi, investisiya qoyduğu neft müqavilələri Azərbaycanın geostrateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da uğurla həyata keçirmişdir. Bu gün Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan müzakirələrin əsas tərəflərindən biri kimi diqqət mərkəzindədir.

Azərbaycanın reallaşdırdığı neft strategiyası *region dövlətləri ilə qarşılıqlı münasibətlərin* daha konstruktiv və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərmişdir. Bakı-Tbilisi-Ceyhan neft

boru kəməri layihəsinin, bütövlükdə, Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsi və Asiyanı, xüsusilə də Mərkəzi Asiyanı Avropa ilə birləşdirən ən qısa, etibarlı və iqtisadi cəhətdən faydalı Cənubi Qafqaz yolunun fəaliyyətə başlaması iqtisadi maraqları üst-üstə düşən Azərbaycanın, Gürcüstanın və Mərkəzi Asiya dövlətlərinin siyasi mövqelərinin yaxınlaşmasına və beləliklə, Azərbaycanın regional təhlükəsizliyinin möhkəmlənməsinə əlverişli şərait yaratmışdır.

Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin rifahının yaxşılaşması, ölkənin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar açmışdır. Azərbaycanın 2004-cü ildə Böyük Britaniyanın Baş naziri *Toni Bleer* tərəfindən irəli sürülmüş Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünə qoşulması da bunun bariz göstəricisidir.

Azərbaycanın mühüm rolu, uzun illər ərzində ölkənin qazandığı təcrübə və sənayenin istehsal sahələrində şəffaflıq məsələlərinə prinsipial münasibət rəsmi Bakının BMT Baş Məclisinin 62-ci sessiyasında yekdilliklə qəbul edilmiş "Sənayedə şəffaflığın artırılması" adlı qətnamə layihəsini irəli sürməsinə əsas olmuşdur. Qətnamə istehsal sənayesində şəffaflığın təmin edilməsi təşəbbüsünə beynəlxalq hüquqi əsas verilməsi və həmin sahədə düzgünlüyün, şəffaflığın və hesabatın təmin edilməsi üçün hüquqi mexanizmin yaradılması istiqamətində mühüm addım olmuşdur.

Son illər uğurla həyata keçirilən neft diplomatiyası Azərbaycanı bütövlükdə Cənubi Qafqaz və MDB dövlətləri sırasında enerji asılılığı olmayan dövlətə çevirmişdir. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri dünya miqyaslı layihələr olmaqla, Azərbaycanın enerji təhlükəsizliyinin təminatına geniş imkanlar açır. Bu layihələr, eyni zamanda, Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirir, regionda müstəqil siyasət aparmasını təmin edir.

Azərbaycanın xarici siyasət strategiyasının ən mühüm istiqamətlərindən biri *ölkənin dünya iqtisadiyyatına inteqrasiyasının* sürətləndirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq xarici ölkələrlə və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm işlər görülmüş, müxtəlif sahələrdə infrastruktur, sosial, institusional yönümlü layihələrin həyata keçirilməsi ilə bağlı sazişlər imzalanmışdır.

Azərbaycan diasporunun təşkilatlanması, dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin hüquqi, siyasi, ictimai və mədəni əsaslarının gücləndirilməsi xarici siyasət konsepsiyasında mühüm yer tutur. Müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla çoxşaxəli münasibətləri daha da möhkəmləndirmək, onları ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir.

Bu gün *Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli* ilə bağlı Azərbaycanın haqlı tələbləri bütün dünya ölkələri, beynəlxalq və regional təşkilatlar tərəfindən dəstəklənir. Bu, Azərbaycanın xarici siyasət sahəsində apardığı gərgin və məqsədyönlü işin parlaq nəticəsidir.

Bir sözlə, Azərbaycan diplomatiyasının son illərdə ölkənin müstəqilliyi, təhlükəsizliyi və ərazi bütövlüyünün təmin olunmasında, habelə bütün ölkələrlə hərtərəfli, bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr qurmaq sahəsində qazandığı böyük uğurlar onun xarici siyasət kursunun düzgünlüyünə, milli maraqları dünyada gedən proseslərlə faydalı şəkildə uzlaşdırmağa qadir olduğuna dəlalət edir.

8.2. Geniş dialoq siyasəti: qlobal və regional təşəbbüslər

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji dəhlizi üzərində böyük ticarət yollarının kəsişməsində yerləşən, zəngin təbii və in-

san ehtiyatlarına, faydalı qazıntılara malik olan Azərbaycan hazırda region və dünya dövlətləri ilə geniş siyasi, iqtisadi, mədəni və digər əlaqələr qurur, bir çox beynəlxalq iqtisadi-enerji və nəqliyyat-kommunikasiya layihələrinin əsas iştirakçılarından və təşəbbüsçülərindən biridir. Əsrin ən böyük layihələrindən olan *Bakı-Tbilisi-Ceyhan neft kəməri,* Azərbaycan qazını Avropa bazarına nəql edən *Bakı-Tbilisi-Ərzurum qaz xətti,* artıq inşa edilməkdə olan *Bakı-Tbilisi-Qars dəmiryolu* regional və beynəlxalq əməkdaşlığın parlaq nümunələridir.



Xəritə 75. ***Azərbaycanın şaxələndirilmiş neft və qaz kəmərləri şəbəkəsi***

Mənbə: Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin internet səhifəsi: http://www.socar.az/btc.html

1994-cü ildə Azərbaycanın ümummilli lideri *Heydər Əliyev* dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzalayaraq, ölkənin və regionun tarixində yeni inkişaf və tərəqqi dövrünün əsasını qoymuşdur. Bu gün də Azərbaycanın çoxvariantlı ixrac strategiyası məhz həmin siyasətin ardıcıl davamıdır.

Neft qədimdən Azərbaycanın inkişaf istiqamətini müəyyənləşdirən milli sərvəti olmuşdur. Azərbaycan müstəqil dövlət, öz təbii sərvətlərinin həqiqi sahibi olduqdan sonra, öz ehtiyatlarından ölkənin mənafeləri naminə, xalqın, dostların və tərəfdaşların xeyrinə tam istifadə edə bilmişdir.

Artıq 15 ildən çoxdur ki, Azərbaycan açıq qapı siyasəti yeridərək, xarici sərmayələri Xəzərin çox zəngin neft və qaz yataqlarının geniş miqyasda işlənilməsinə fəal cəlb edir. Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsinə dair dünyanın neft nəhəngləri ilə bağlanmış və tarixə *"Əsrin müqaviləsi"* kimi daxil olmuş müqavilə bu yolda ilk mühüm addım idi. Müqavilədə Azərbaycanla yanaşı, ABŞ-ın, Böyük Britaniyanın, Fransanın, Norveçin, Türkiyənin, İtaliyanın, Yaponiyanın, Rusiyanın, Səudiyyə Ərəbistanının nəhəng şirkətləri iştirak edir. Bütün bunlar respublikanın təbii karbohidrogen ehtiyatlarının işlənilməsi və ixracı sahəsində regionda yeni beynəlxalq mərkəzə çevrilməsinə, Qara dəniz-Xəzər hövzəsində ümdə mövqe tutmasına, başlıcası isə, möhkəm hüquqi baza əsasında çox böyük Şərq-Qərb enerji dəhlizi yaradılmasına doğru yol açmasına imkan vermişdir.

Azərbaycan neftinin dünya bazarlarına çıxması karbohidrogenlərin dünya bazarlarına nəqlinin inkişafında yeni istiqamət meydana gətirmişdir.

Azərbaycanda karbohidrogen xammalının nəqli məsələləri ilə hələ yeni neft erasından xeyli əvvəl məşğul olmağa başlayaraq, bu eranın gəlməsinə zaman-zaman hazırlaşmışlar. Təbii ki, işləməyən *Tixoretsk-Bakı boru kəmərinin* bərpası ilk vaxtlardan optimal görünürdü. Belə ki, nisbətən az xərc (təxminən 60 milyon dollar) çəkib, Qara dənizə çıxmaq şərtilə onu Bakı-Qroznı-Tixoretsk-Novorossiysk istiqamətinə yönəltmək olardı. Bu, müdrik siyasi bir qərar idi, odur ki, 1996-cı ilin yanvarında Azərbaycan neftinin *Bakı-Novorossiysk* marşrutu ilə nəql edilməsi haqqında Rusiya ilə Azərbaycan arasında hökumətlərarası saziş imzalandı. Həmin xətt 1997-ci ilin oktyabrında istifadəyə verilmişdir. İxrac boru kəmərlərinin çoxvariantlılığının böyük əhəmiyyəti olduğu nəzərə alınaraq,

1997-ci ilin martında yenə də Qara dənizə çıxmaq şərtilə, neftin *Bakı-Tbilisi-Supsa* marşrutu ilə nəqli haqqında Azərbaycan ilə Gürcüstan arasında da saziş imzalanmışdır. İki ildən sonra bu boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Lakin Azərbaycanda çıxarılan neftin həcminin kəskin surətdə artması (ildə 50 milyon tona qədər) ilə əlaqədar daha güclü boru kəməri yaratmaq lazım idi. Əsas ixrac kəməri kimi *Bakı-Tbilisi-Ceyhan* marşrutu ideyası beləcə yaranmışdır. Təklif ötən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq geniş müzakirə edilmişdir və onu həm Azərbaycan rəhbərliyi, həm də bütün maraqlı tərəflər - konsorsiumun iştirakçıları, habelə ABŞ, Türkiyə, Qazaxıstan və Gürcüstan liderləri dəstəkləmişlər. Bu, 1998-ci il 29 oktyabr tarixli Ankara bəyannaməsində əksini tapmışdır. Nəhayət, 2006-cı il iyulun 13-də bu misilsiz neft kəməri tam istismara verilmiş və beləliklə, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində və Xəzər hövzəsinin inkişafında yeni mərhələ başlanmış, *üç dənizin əfsanəsi* reallığa çevrilmişdir. İqtisadi qüdrətinə, mühəndis-texniki qurğu kimi əzəmətinə və geosiyasi dəyərinə görə müasir dünyanın ən nəhəng enerji ixrac layihəsi olan Bakı-Tbilisi-Ceyhan boru xəttinin istifadəyə verilməsi beynəlxalq əməkdaşlıq tarixində yeni bir səhifə açmışdır.

Bakı-Tbilisi-Ceyhan kəməri təkcə Azərbaycanda hasil edilmiş neftin dünya bazarına çıxışını təmin edəcək yeni bir kəmərin istifadəyə verilməsi baxımından önəmli deyil. Bu kəmərin reallığa çevrilməsi beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun güclənməsi, ölkənin regionda əsas söz sahibinə çevrilməsi, ümumilikdə Avropanın enerji təhlükəsizliyi kimi əhəmiyyətli məsələlərdə Azərbaycanın mövqeyinin önə çıxması baxımından böyük imkanlar açır.

Bakı-Tbilisi-Ceyhan neft kəməri faktiki olaraq bu gün regionda sülhün və sabitliyin, enerji təhlükəsizliyinin başlıca təminatçısına çevrilmişdir. Qazaxıstanın hasil etdiyi neftin bir hissəsini dünya bazarına çıxarmaq üçün bu layihəyə qoşulması, Rusiyanın, həmçinin digər neft ixrac edən dövlətlərin də eyni məqsədlə müxtəlif səviyyələrdə gündəmə gətirdikləri əməkdaşlıq təklifləri bu gün kəmə-


rin dünyanın enerji təhlükəsizliyi sistemində oynadığı böyük rolun, dünyada sülhün təminatına, fövqəldövlətlərin geostrateji maraqları arasında ortaq məqamların əldə olunmasına verdiyi böyük töhfələrin ifadəsidir.

Bu kəmər Azərbaycanın tranzit ölkə kimi malik olduğu imkanları da genişləndirmiş, neftin Azərbaycan cəmiyyəti üçün məqsəd deyil, vasitəyə çevrilməsinə, regionda həyata keçirilən digər qlobal enerji və kommunikasiya layihələrinin icrası prosesinə də təkan vermişdir. Neftdən əldə edilən gəlirlərin milli iqtisadiyyatın digər sferalarına yönəldilməsi bu gün Azərbaycanın dövlət başçısının qarşıya qoyduğu ən əsas prioritetlərdən biridir. "Əsrin müqaviləsi"nin ölkəyə gətirdiyi iqtisadi dividendlər hazırda sosial-iqtisadi inkişaf tempinə görə bütün dünyada öndə gedən Azərbaycanın iqtisadi tərəqqisinin nüvəsini təşkil edir. Neft vəsaitləri üzərində şəffaflığın təmin olunması məqsədi ilə Dövlət Neft Fondunu təsis edən Azərbaycanın bu sahədə əldə etdiyi təcrübə indi bütün dünyada mükəmməl nümunə kimi öyrənilir. Neft hasilatından qazanılan vəsaitlərin səmərəli istifadəsi məqsədilə ölkədə ardıcıl dövlət proqramları həyata keçirilir.

Azərbaycan iqtisadiyyatının ən mühüm sahələrindən olan yanacaq-energetika kompleksinin inkişafı davamlı xarakter almışdır. Ölkədə neft sənayesinə, neftin və qazın hasilatının artırılmasına xüsusi diqqət yetirilir. Son beş ildə neft hasilatı 2,9 dəfə, qaz hasilatı isə 3 dəfədən çox artmışdır. Azərbaycan qaz idxal edən ölkədən, onu ixrac edən ölkəyə çevrilmişdir. İndi Azərbaycan qazı Gürcüstan, Rusiya, Türkiyə, Yunanıstan və İrana ixrac olunur.

Azərbaycan Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyətə malik olan *Nabukko layihəsinə* böyük önəm verir. Xəzər hövzəsi və Mərkəzi Asiyadan, gələcəkdə isə Yaxın Şərqdən təbii qazın Avropaya nəqlini nəzərdə tutan Nabukko layihəsi ilə bağlı yaradılmış transmilli konsorsiuma Avstriyanın OMV, Macarıstanın MOL, Bolqarıstanın "Bulqarqaz", Rumıniyanın "Transqaz", Türkiyənin BOTAŞ və Almaniyanın RWE şirkətləri daxildir. Fransanın "Gaz de France" (GDF) şirkəti də konsorsiuma qoşulmaq niyyətini

bildirmişdir. Nabukko layihəsinin operatoru qismində Avstriyanın OMV şirkəti çıxış edir. Layihə dəyəri 8 milyard avro olan və ildə təqribən 26-32 milyard kubmetr qaz ötürəcək Nabukko kəmərinin inşası 2014-cü ilədək yekunlaşmalıdır. Nabukko boru kəməri ilə Azərbaycan, sonra Qazaxıstan və Türkmənistan qazının nəqli nəzərdə tutulur. Növbəti mərhələdə, 2017-ci il üçün bu kəmərlə İran, İraq və Misir qazının nəqli də istisna olunmur.




Xəritə 76. ***Nabukko layihəsi***
Mənbə: "Nabucco Gas Pipeline International GmbH" konsorsiumunun internet səhifəsi:
http://www.nabucco-pipeline.com/portal/page/portal/en/pipeline/overview

Nabukko ilk qaz xəttidir ki, dünyanın bir neçə regionu arasında əlaqə yaradacaqdır. Uzunluğu 3,3 min kilometr nəzərdə tutulan kəmərin marşrutunda əsas tranzit ölkə Türkiyə olacaqdır (2 min kilometr). Layihəyə görə kəmərin 400 kilometri Bolqarıstan, 460 kilometri Rumıniya, 390 kilometri Macarıstan, 50 kilometrə qədəri isə Avstriyanın ərazisinə düşür.

Xəzər regionunun karbohidrogen ehtiyatlarının Avropa bazarlarına çatdırılmasını nəzərdə tutan alternativ marşrutların reallaşdırılması Azərbaycanın iştirakı olmadan təsəvvür edilmir. Bu baxımdan, Nabukko layihəsinin səmərəli olması, yuxarıda deyildiyi kimi, ilk növbədə, Azərbaycan qazından asılıdır. *"Azərbaycan həmişə Nabukko layihəsini dəstəkləyib. Ümumiyyətlə, Nabukko bir*


layihə kimi Azərbaycandan Türkiyəyə qaz kəmərinin çəkilməsindən sonra ortaya çıxıb. Əgər 1996-cı ildə Azərbaycan bp və digər şirkətlərlə "Şahdəniz" qaz yatağının istismarına dair saziş imzalamasaydı və partnyorlarla birgə Bakı-Tbilisi-Ərzurum qaz kəmərini tikməsəydi, bu gün Nabukko layihəsinə dair sazişin imzalanması mümkün olmazdı. Bu gerçəklik göstərir ki, Azərbaycan Nabukkonun təşəbbüskarı olmaqla yanaşı, eləcə də əməldə diversifikasiya və nəql infrastrukturunun yaradılmasını dəstəkləyən ölkədir" - deyən Prezident *İlham Əliyev* qeyd etmişdir ki, enerji məsələləri xalqları ayırmamalı, əksinə birləşdirməli, bu amildən siyasi təzyiq aləti kimi istifadə olunmamalıdır. *İlham Əliyev,* həmçinin vurğulamışdır ki, Azərbaycan etibarlı enerji təhlükəsizliyi baxımından hasilatçı, tranzit və istehlakçı dövlətlərin öz öhdəliklərinə əməl etməsini vacib sayır.

Azərbaycan Böyük İpək yolunun bərpası ilə bağlı *Şərq-Qərb, Şimal-Cənub kommunikasiya layihələrinin* həyata keçirilməsində



Xəritə 77. ***İpək yolu***
Mənbə: AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun internet səhifəsi:
http://www.istoriya.az/gallery/x_azerbaycan.php

vacib rol oynayır. Ümummilli lider *Heydər Əliyevin* təşəbbüsü ilə 1998-ci ilin sentyabr ayında Bakı şəhərində keçirilmiş Böyük İpək yolunun bərpası üzrə beynəlxalq konfransda Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə çoxtərəfli saziş imzalanmış və iştirakçı ölkələr arasında beynəlxalq daşımaların hüquqi əsasları yaradılmışdır. Ötən dövr ərzində iqtisadi münasibətlərin, ticarət və nəqliyyat əlaqələrinin inkişafı, daşımaların təşviqi, nəqliyyat şəbəkələrinin dünya bazarlarına çıxışının təmin edilməsi istiqamətində bir sıra layihələr həyata keçirilmiş və nəticədə Avropa, Qafqaz, Asiya dövlətləri arasında beynəlxalq daşımaların həcmi əhəmiyyətli dərəcədə artmışdır. Bu müddətdə əsas çoxtərəfli saziş institusional baxımdan genişləndirilmiş və təkmilləşdirilmiş, sazişdə iştirak edən dövlətlərin nəqliyyat infrastrukturunun yeniləşdiril-



Xəritə 77. *Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi*

Mənbə: Azərbaycan Respublikası
Nəqliyyat Nazirliyinin internet səhifəsi:
http://www.mot.gov.az/download/TRACECA_MAP_A3.pdf

məsi və inkişafı, uzlaşdırılmış tarif siyasətinin aparılması, münbit investisiya mühitinin yaradılması, kadrların hazırlanması, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və daşımaların təhlükəsizliyinin təmin edilməsi sahəsində vacib regional proqramlar icra olunmuşdur.

Böyük İpək yolunun bərpasında Avropa İttifaqının texniki yardım proqramı olan *Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (TRASEKA)* böyük üstünlüklərə malikdir. Bu proqram Avropadan Qərb-Şərq oxu ilə Qara dəniz üzərindən, sonra Cənubi Qafqaz və Xəzər dənizindən Mərkəzi Asiyaya keçən nəqliyyat dəhlizinin inkişaf etdirilməsinə xidmət edir. Xəzər hövzəsində zəngin karbohidrogen ehtiyatlarının kəşfi və istismarı, Böyük İpək yolunun bərpası ideyası, Cənubi Qafqaz nəqliyyat dəhlizinin yaradılması və eləcə də yeni neft-qaz kəmərlərinin çəkilişi regionun strateji əhəmiyyətini artırmışdır. Həm regional, həm də beynəlxalq inkişaf baxımından böyük perspektivlər vəd edən bu layihələr Qara dəniz-Cənubi Qafqaz-Mərkəzi Asiya dövlətlərinin çoxtərəfli qarşılıqlı əməkdaşlığına, regional inteqrasiya proseslərinə güclü təkan verərək, bu ölkələrin sosial-iqtisadi inkişafına xidmət edir.

Beləliklə, Azərbaycanın bir çox əhəmiyyətli enerji, nəqliyyat-kommunikasiya və tranzit yükdaşıma - Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizi (TRASEKA və Böyük İpək yolu), Bakı-Tbilisi-Qars dəmiryolu və s. layihələrində iştirakı onun nəinki təkcə regiondakı geoiqtisadi əhəmiyyətini artırmış, həm də beynəlxalq enerji-nəqliyyat təhlükəsizliyinin təmin olunmasında mühüm rolu olan ölkələrdən birinə çevirmişdir. Məsələn, mərkəzində Azərbaycanın dayandığı TRASEKA layihəsinin Hindistandan və Çindən başlayaraq Portuqaliya və İspaniyaya qədər böyük bir coğrafi ərazidə yerləşən Avropa və Asiya dövlətlərini, Cənub-Şərqi Asiyadan Avropa İttifaqına qədər nəhəng iqtisadi güc mərkəzlərini əhatə etməsi və ən əlverişli marşrutla birləşdirməsi regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına böyük töhfə olmuşdur. Bu qlobal tərəfdaşlıq, həmçinin Qara dəniz və Xəzər də-



Xəritə 79. ***Bakı-Tbilisi-Qars dəmiryolu xətti***

Mənbə: Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin internet səhifəsi:

http://www.mot.gov.az/download/BTQ.pdf

nizi regionunu ədalətli və bərabər əməkdaşlıq meydanına çevirmiş, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsini təmin etmişdir.

Biz artıq qeyd etmişdik ki, XX əsrin sonu - XXI əsrin başlanğıcında Avrasiya yenidən planetin geosiyasi münasibətlər sistemində mühüm yerlərdən birini tutaraq dünya siyasətinin mərkəzinə çevrilmişdir. Bir tərəfdən böyük dövlətlərin maraq dairəsinin kəsişdiyi, digər tərəfdən dinlərin və sivilizasiyaların təmas nöqtəsi olan bu region, sözün həqiqi mənasında, dünyanın gələcək taleyinin və beynəlxalq münasibətlərin müəyyənləşdiyi bir məkan rolunu oynayır. XXI əsrin əsas enerji, nəqliyyat-kommunikasiya və digər

transmilli layihələrinin həyata keçirildiyi region da məhz Avrasiya hesab olunur.

Avrasiyanın mühüm əhəmiyyətə malik geosiyasi bölgələrindən biri Qərb və Şərq əlaqələrində keçid-körpü rolunu oynayan *Xəzər-Qara dəniz hövzəsidir.* Avrasiyanın Mərkəzi Asiya adlanan hissəsi Avropa və Asiya nəqliyyat-kommunikasiya dəhlizinin Asiya hissəsini təşkil edirsə, Xəzər-Qara dəniz hövzəsi onun Avropa hissəsini təşkil edir. Avrasiyanın Avropa hissəsinin ən böyük dövləti Rusiyadır. Rusiyadan başqa bu bölgədə Azərbaycan, Türkiyə, Ukrayna, Rumıniya, Bolqarıstan və Gürcüstan yerləşir. Bu ölkələr siyasi inkişaf, demokratik transformasiya və Qərbə inteqrasiya baxımından xeyli inkişaf etmişdir. Hövzə ölkələrindən Polşa, Rumıniya, Bolqarıstan və Türkiyə Şərqi Avropa dövlətləri çərçivəsində artıq bütün parametrlər üzrə Qərbin iqtisadi, siyasi və hərbi təhlükəsizlik sisteminə inteqrasiya olunmuş hesab edilir. Qərbin Avrasiya ilə yeni qonşuluq sərhədləri də bu ölkələrin sərhədləri bitən, Rusiya, Ukrayna, Gürcüstan, Azərbaycan, Belarus və Moldovanın sərhədləri başlanan yerlə üst-üstə düşür.

Xəzər-Qara dəniz hövzəsi təbii qaynaqlar, xüsusən enerji daşıyıcıları (neft, qaz), qiymətli metal (qızıl, mis, uran, alüminium, sink və s.) ehtiyatları ilə zəngindir. Şərq-Qərb əlaqələrində ən qısa və əlverişli nəqliyyat (quru, su, hava və dəmiryolu), kommunikasiya (telefon, rabitə, kabel-optik, enerji daşıyıcıları xətləri və kəmərləri və s.) imkanları bu bölgə ölkələrinə məxsusdur.

Bölgə dövlətlərinin xüsusi maraqları regionun sabitliyindən, xarici investisiyaların və texnologiyaların azad rəqabət şəraitində bölgəyə yönəldilməsindən, bütün qonşu ölkələrlə (Rusiya, Çin, İran, Türkiyə, Pakistan), Qərb dünyası ilə qarşılıqlı faydalı əməkdaşlıqdan keçir.

Ötən illərdə bu regionda bir çox qlobal və transmilli layihələr həyata keçirilmişdir ki, onların reallaşmasında Rusiya, Cənub-Şərqi Asiyanın inkişaf etmiş ölkələri ilə birlikdə ABŞ və Avropa dövlətləri də iştirak etmişlər. Bu layihələr region ölkələrinə özlərinin xarici aləmlə əlaqələrində daha optimal, sərfəli marşrutlar seçmək

imkanı yaratmışdır. Eyni zamanda, Qərb-Şərq əlaqələrində həlledici bir həlqəyə çevrilməklə, bölgə dövlətləri öz müstəqillikləri və milli maraqlarının qorunması baxımından əlverişli dəstəyə də nail olmuşlar.

Hövzə ölkələrinin inkişafı, bölgənin sabitliyi və sivil birgəyaşayış normaları ilə tənzimlənən beynəlxalq münasibətlərə qatılması bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıqdan, hər bir dövlətin beynəlxalq hüquq normalarına, özünün və qonşularının suveren hüquqlarına hörmətlə yanaşmasından asılıdır. Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova kimi hövzə ölkələrinin demokratik inkişaf yolunu öz daxili, Qərbə inteqrasiyanı və bərabərhüquqlu regional əməkdaşlığı isə xarici siyasətlərinin başlıca prinsipi kimi elan etməsi effektiv regional inteqrasiya üçün ciddi əsas hesab oluna bilər.

Xəzər-Qara dəniz hövzəsində ən fəal xarici siyasət yürüdən mərkəzlərdən biri ABŞ və onun Qərb tərəfdaşlarıdır. ABŞ regionla Qərbin, xüsusən Aralıq dənizi hövzəsi ölkələrinin əməkdaşlığının, enerji daşıyıcıları istehsalının, onların Qərb bazarına çoxvariantlı nəqlinin təmin edilməsinə hərtərəfli dəstək verir. Nəhayət, ABŞ region dövlətlərində vətəndaş cəmiyyətinin formalaşması, siyasi plüralizmin, demokratiyanın və insan hüquqlarının təmin edilməsi sahəsində ciddi iş aparır.

Regionda geosiyasi, geoiqtisadi, hərbi və s. proseslərdə yaxından iştirak etməyə çalışan dövlətlərdən biri də Çindir. Çin bölgəni hərtərəfli tədqiq edərək, onun xammal mənbələrinə, nəqliyyat-kommunikasiya imkanlarına, satış bazarlarına daxil olmanın və təmsilçiliyin xüsusi strategiyasını hazırlamışdır. Çin bölgəyə həm satış bazarı, həm Qərbə, Fars körfəzinə, Yaxın Şərqə çıxış üçün tranzit regionu, həm də öz ölkəsini enerji daşıyıcıları, dağ-mədən sənayesi məhsulları, metal və s. xammalla təmin edə biləcək bölgə kimi baxır.

Xəzər və Qara dəniz hövzəsinə ciddi maraq göstərən ölkələr sırasında Yaponiya, Hindistan və Pakistanı da xüsusi qeyd etmək lazımdır. Hər üç ölkə bu bölgə vasitəsilə özünün Qərbə ən yaxın

nəqliyyat keçidini təmin etməyə, regionda satış bazarlarından və xammal mənbələrindən istifadə etməyə çalışırlar. Eyni zamanda, regionun enerji daşıyıcıları da hər üç ölkəni özünə cəlb edir.

Yaponiya öz iqtisadi, maliyyə və texnoloji imkanlarına uyğun olaraq regionda daha fəal iş aparır, bu ölkələrə mühüm layihələrin reallaşmasında yardım edir, öz transmilli şirkətlərinin həmin bölgədə möhkəmləndirilməsinə səy göstərir. Hövzənin strateji əhəmiyyəti, tranzit və enerji resursları, Xəzər dənizinin zəngin karbohidrogen yataqları, Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizlərinin mövcudluğu, ilk növbədə, bütün region ölkələrinin, o cümlədən də Rusiya və İranın sağlam rəqabət maraqlarına tam uyğundur. Əlbəttə, Qərb ölkələri və ABŞ da bu regionla hərtərəfli əməkdaşlığa can atırlar, öz maraqlarını təmin etməyə çalışırlar.

Azərbaycan bölgədə inteqrasiya proseslərinin və qloballaşmanın beynəlxalq əməkdaşlıq müstəvisində inkişafına öz töhfəsini verir. Azərbaycan dünya miqyasında geostrateji əhəmiyyətə malik coğrafi mövqeyindən, ehtiyatlarından və potensialından istifadə edərək, Şərq ilə Qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir. Bu mənada, Azərbaycanın davamlı olaraq yürütdüyü dinc tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq siyasəti ona "regionda geosiyasi gərginliyi azaldan və bərabərhüquqlu əməkdaşlıq mühiti yaradan konstruktiv dövlət" imici qazandırmışdır. Bu amil dünya birliyində Azərbaycana etibarlı və sözübütöv tərəfdaş imici qazandırmış, Xəzər hövzəsi və Cənubi Qafqazda onun reallaşdırdığı transmilli layihələrə diqqəti artırmış və bölgədəki geosiyasi roluna ciddi maraq yaratmışdır.

Ancaq müxtəlif təhdidlər, problemlər, təzyiqlər, nüfuz dairələri uğrunda mübarizə Azərbaycana öz xalqının mənafelərinə və arzularına cavab verən siyasətini sərbəst şəkildə həyata keçirməyə, öz dövlətçiliyini möhkəmləndirməyə və inkişaf etdirməyə, dinc quruculuqla məşğul olmağa mane olmuşdur. Azərbaycan müstəqilliyini qazandığı ilk günlərdən bir tərəfdən dövlətçiliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq və möhkəmləndirmək, digər tərəf-

dən qlobal və regional maraqların tarazlığını təmin etmək uğrunda mübarizə aparmağa məcbur olmuşdur.

Cənubi Qafqaz müxtəlif təhdidlərin, hədələrin və risklərin aydın şəkildə təzahür etdiyi regiona çevrilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü - yüz minlərlə insana saysız-hesabsız fəlakətlər gətirmiş təcavüz Cənubi Qafqazda vəziyyətin sabitliyini pozan başlıca amildir. Bu problem nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, həm də keçən 20 ilə yaxın bir dövrdə regionda dövlətlərarası normal siyasi, iqtisadi və mədəni əlaqələr qurmağa mane olmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir.

8.3. Təhlükəsizlik məsələlərinin müasir təkamülü: Azərbaycan modeli

Bu gün təbiət və cəmiyyətin, insan və cəmiyyətin, cəmiyyət və dövlətin, ayrı-ayrı dövlətlərin bir-birinə bağlılığı və qarşılıqlı asılılığı məlumdur. Bu baxımdan istehsalın inkişaf səviyyəsi, dağıdıcı silahlanma və hərbi-texniki tərəqqi, ətraf mühitin böhranlı vəziyyəti insan, cəmiyyət və dövlətin təhlükəsizliyi ilə bağlı sistem və nəzəriyyələrin yaranmasını zəruri etdi. XXI əsr beynəlxalq, regional və milli təhlükəsizliyə konseptual yanaşmanın inkişafında yeni keyfiyyət mərhələsi kimi seçilir.

Müasir şəraitdə dövlətlərin milli maraqları bir çox təhlükələrlə üzləşir. Onların siyahısını etnik separatizm və münaqişələrdən tutmuş terrorizm, transmilli cinayətkarlığın güclənməsi, kütləvi qırğın silahlarının yayılması, Yer kürəsinin təbii ehtiyatlarının tükənməsi, əhalinin durmadan artması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi və sair problemlərə qədər uzatmaq olar. Müasir dövrün başlıca göstəricisi olan qarşılıqlı əlaqə və asılılıq bu məsələləri nəinki bir dövlətin, bütövlükdə, bütün bəşəriyyətin qarşısında duran qlobal problemlərə çevirir. Bu səbəbdən təhlükəsizliyə konseptual yanaşmada dövlətin daxili və xarici siyasəti, milli təhlükəsizliyin təmin olunmasının güc və qeyri-güc vasitələri arasında dəqiq sərhəd müəyyən etmək praktiki baxımdan mümkün deyildir. Bundan başqa, nəinki ayrı-ayrı dövlətlərin vətəndaşlarının həyatı, həm də ümumdünya sivilizasiya prosesləri, onların sürəti və istiqamətləri məhz təhlükəsizliyə yanaşmanın düzgün seçimindən asılı olur.

"Milli təhlükəsizlik" anlayışı[1] cəmiyyətin mədəni və tarixi inkişaf kontekstindən ayrılmazdır. Xarici və daxili mühitin dəyişməsi, təbiətcə müxtəlif təsirlər, təhlükələr, dəyərlər dialektikası "təhlükəsizlik" anlayışına öz təsirini göstərmişdir. Bu baxımdan "milli təhlükəsizlik" birmənalı qiymətləndirilmir. Onu "milli dövlət təhlükəsizliyi", "dövlət təhlükəsizliyi", "çoxmillətli təhlükəsizlik", "ümummilli təhlükəsizlik" adlandıranlar da var. Bu da onunla izah olunur ki, müxtəlif tarixi inkişaf mərhələlərində "millət" anlayışı sırf etnik və institusional baxımdan məzmununu dəyişmişdir.

Anqlo-roman dillərində daha çox işlənən "nation" - "millət" anlayışı "millət-dövlət" mənasında dərk olunur, yəni bu və ya digər dövlətçilik formasına malik millət-dövlət nəzərdə tutulur. Əsasən tarixi və sosial-etnik xarakteristikaya üstünlük verən keçmiş sovet doktrinasından fərqli olaraq, Qərb elmi ədəbiyyatında "millət" termini daha çox dövlət suverenliyinə və "dövlət" anlayışına yaxındır. Bu, hətta Birləşmiş Millətlər Təşkilatının adında da öz əksini tapmışdır.

Milli təhlükəsizlik terminin ikinci elementini təşkil edən "təhlükəsizlik" isə təhlükədən və zərərdən müdafiə vəziyyəti və tədbiri kimi başa düşülür. Başqa sözlə, bu, "xaricdən və daxildən millətin mövcudluğuna təhlükəyə qarşı onun kifayət qədər iqtisadi və hərbi gücünün təmin olunması vəziyyəti", "xarici təhlükədən azad olmaq üçün real qabiliyyət", "azad dünyanın pozulmasını, hər hansı bir formada təhlükəsizliyə təhdidin yaranmasını istisna edən beynəlxalq münasibətlərin vəziyyətidir".

[1] "Milli təhlükəsizlik" anlayışı ilk dəfə ABŞ-da formalaşmışdır. 1947-ci ildə ABŞ Konqresində milli təhlükəsizlik aktı qəbul edilmiş və tezliklə bu akt ABŞ-ın xarici siyasətinin əsas bələdçisinə çevrilmişdir.

Təsadüfi deyil ki, BMT Nizamnaməsində "təhlükəsizliyin təmin olunması üçün qüvvələrin birləşdirilməsi" birləşmiş millətlərin başlıca məqsədi kimi bəyan olunur.

1975-ci il Helsinki Yekun Aktı isə "təhlükəsizliyin qorunmasını təhlükə altına qoya biləcək dərəcədə vəziyyəti pisləşdirən hər hansı hərəkətdən çəkinmək" öhdəliyini müəyyən edir.

Əgər əvvəllər sovet ənənəsində "milli təhlükəsizlik" dedikdə yalnız dövlət təhlükəsizliyi başa düşülürdüsə, bu gün o, hərbi sahədə, ictimai həyatda, beynəlxalq münasibətlərdə, ətraf mühitin mühafizəsi, iqtisadiyyat və informasiya sahəsində şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyini əhatə edir. Ümumi mənada götürsək, milli təhlükəsizlik ölkənin milli dəyərlərinin, maraqlarının və milli həyat tərzinin real xarici və daxili təhlükə və təhdidlərdən qorunmasının təmin edilməsi kimi başa düşülür.

Azərbaycanın "Milli təhlükəsizlik haqqında" qanununda[1] *"milli təhlükəsizlik - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsi"* kimi müəyyən olunur. Qeyd etmək lazımdır ki, bu qanun özündə Azərbaycan dövlətinin milli təhlükəsizlik siyasətinin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirmiş və Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsaslarının müəyyən olunduğu təhlükəsizlik konsepsiyasının yaradılmasını şərtləndirmişdir.

Milli təhlükəsizlik konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq olunmuş və fəaliyyət üçün əsas götürülmüşdür.

[1] Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2004-cü ildə "Milli təhlükəsizlik haqqında" qanun qəbul olunmuş və Respublika Prezidentinin 2004-cü il 29 iyun tarixli sərəncamı ilə təsdiq olunmuşdur.

Girişdən, dörd bölmədən və yekun müddəalardan ibarət olan Konsepsiya XXI əsrdə ölkənin milli maraqlarının təmin olunması ilə bağlı hakimiyyət strukturlarının fəaliyyət istiqamətlərini müəyyən edir və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin normativ-hüquqi bazasını təkmilləşdirir.

Konsepsiyaya görə, *Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasını dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, milli maraqlarının, vətəndaşlarının hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması və təmin edilməsi təşkil edir.*

Milli təhlükəsizliyin əsas obyektlərinə vətəndaş - onun hüquq və azadlıqları, cəmiyyət - onun maddi və mənəvi dəyərləri, dövlət - onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyü daxildir.

Milli təhlükəsizliyin əsas subyektlərinə isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanları və digər təhlükəsizlik institutları aid edilir.

Hər bir ölkənin milli təhlükəsizlik siyasətinin effektivliyi və müvəffəqiyyəti ölkənin təhlükəsizlik mühitindən və beynəlxalq imicindən asılıdır. Dövlətin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqlarının təminatı, davamlı inkişafı, vətəndaşlarının sosial-siyasi hüquqlarının və rifah halının təmin olunması və milli-mənəvi dəyərlərinin qorunmasına təsir edən əsas amillər məhz *təhlükəsizlik mühiti və beynəlxalq imicdir.*

Azərbaycan müstəqil bir dövlət olaraq beynəlxalq hüququn subyekti kimi, müasir dünyanın bir hissəsidir; beynəlxalq və regional təşkilatların üzvüdür. Siyasi, sosial-mədəni baxımdan nüfuzlu beynəlxalq strukturlara hərtərəfli inteqrasiya xətti yürüdür, çoxsaylı beynəlxalq konvensiyalara qoşulmuşdur. Bütün bunlar həm onun təhlükəsizlik mühitinə, həm də beynəlxalq imicinin müəyyənləşməsinə bilavasitə təsir göstərir.

Azərbaycan Respublikasının *əsas inkişaf prioritetləri* ilk növbədə onun milli maraqlarının formalaşması və təmin olunması ilə

bağlıdır. Müasir dövrdə ölkələrin milli inkişaf tələbləri onların daxili və xarici siyasətini - sosial-iqtisadi və siyasi-hüquqi inkişafının vəzifələrini və səviyyəsini, respublikanın coğrafi və geosiyasi mövqeyini, milli-tarixi ənənələrinin qorunmasını və inkişaf etdirilməsini, dövlətin suverenliyinin və milli təhlükəsizliyinin təmin olunmasını və s. çoxsaylı vəzifələrin həyata keçirilməsini tələb edir. Bütün bunlar öz əksini geosiyasət elminin "milli maraq" kateqoriyasında tapır.

Milli maraqlar öz məzmununa görə ictimai maraqlardan bir qədər fərqlənir. Belə ki, ictimai maraqlar dövlətin daxili siyasətini müəyyənləşdirən qanunlar sistemi ilə bağlıdır və onunla tənzimlənir. Milli maraqlar isə əsasən dövlətin xarici siyasət sahəsinə aiddir və beynəlxalq aləmlə təmasda onun rəsmi fəaliyyətinin əsasını təşkil edir. Lakin bu fərqlərə baxmayaraq hər bir ölkənin ictimai və milli maraqları bir-birini tamamlayır. Çünki həm beynəlxalq aləmin və ölkələrarası münasibətlərin təsiri ictimai maraqlardan yan keçmir, həm də milli maraqlar ölkədəki sosial-iqtisadi vəziyyətdən, ictimai-siyasi sabitlikdən və mənəvi-əxlaqi mühitin sağlamlığından bilavasitə asılı olur. Keçid dövrünü yaşayan ölkələrdə isə ictimai və milli maraqlar arasındakı qarşılıqlı təsir və birbaşa bağlılıq özünü daha qabarıq şəkildə büruzə verir. Bütün bu formulaları Azərbaycan Respublikasına da şamil etmək olar.

Azərbaycanın daxili siyasətində vətəndaşların əsas maraqlarını hakimiyyət qurumları, ictimai-siyasi təşkilatlar və digər yerli strukturlar ifadə edirsə, milli maraqları beynəlxalq aləmdə və ölkə daxilində əsasən Azərbaycan dövləti və onun müvəkkil etdiyi qurumlar həyata keçirir.

Azərbaycan Respublikasının milli maraq çərçivəsi dünya ölkələrinin yuxarıda sadalanan universal təhlükəsizlik ölçülərini nəzərə almaqla yanaşı, həm də məxsusi təhlükəsizlik təhdidlərinə əsaslanan bəzi xarakterik xüsusiyyətləri ilə seçilir.

Azərbaycanın milli təhlükəsizliyinin bu gün üçün *ən əsas problemi və hərbi-geostrateji vəzifəsi* həlli uzanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına nail

olmaq, ölkənin pozulmuş ərazi bütövlüyünü və suveren dövlət hüquqlarını bərpa etmək və bu fonda regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarətdir. Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi və beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem həm də nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, eyni zamanda, həm də regionda (Qafqaz, Xəzər-Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri ilə və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi həm Cənubi Qafqazda, Avrasiya və Avropada, həm də bütövlükdə qlobal dünyada həllini gözləyən ən çətin və mürəkkəb problemlərdən biri hesab olunur.

Azərbaycanın milli təhlükəsizliyinin həyati əhəmiyyət kəsb edən *ikinci əsas məsələsi* malik olduğu təbii sərvətləri, respublikanın karbohidrogen və enerji ehtiyatlarını (xüsusən Xəzər dənizinin Azərbaycana aid olan milli sektorunda istehsal olunan neft və təbii qazı) xarici müdaxilə olmadan, özünün müəyyən etdiyi xarici tərəfdaşlarla birgə işləmək, heç kimdən asılı olmayan, təhlükəsiz və əlverişli yollarla dünya bazarlarına çıxarmaq və əldə olunan gəliri ölkənin inkişafına və digər ehtiyaclarına yönəltməkdən ibarətdir.

Bundan başqa, Azərbaycanın milli maraqları çərçivəsində həm də:

- *Ermənistanın işğalının nəticələrinin aradan qaldırılması, öz yurdundan didərgin salınmış qaçqın və köçkünlərin geri qaytarılması və məskunlaşdırılması;*
- *işğalın bir daha təkrarlanmaması üçün zəruri təhlükəsizlik tədbirlərinin görülməsi, o cümlədən milli ordunun lazımi hərbi hazırlıq vəziyyətinə gətirilməsi;*

• *Azərbaycan xalqının milli birliyinin və varlığının, bu xalqa məxsus əsrlər boyu formalaşmış adət-ənənələrin, milli-mənəvi dəyərlərin, dilin, dinin qorunması, yaşadılması və ümumbəşəri dəyərlər hesabına zənginləşdirilməsi;*

• *ölkədə hüquq normaları və qanunçuluğun, şəxsiyyət azadlığı və hüquqlarının dönmədən təmin olunması, mövcud ictimai-siyasi sabitliyin, vətəndaş cəmiyyəti normalarının, tolerant etnik və dini mühitin qorunması və inkişafı, separatçılıq, siyasi, etnik və dini ekstremizmin aradan qaldırılması;*

• *dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təmin edilməsi, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi, azərbaycançılıq ideyası ətrafında birləşdirilməsi, dünyada yaşayan soydaşlarımızın milli və vətəndaş hüquqlarının təmin edilməsi və s. problemlər də Azərbaycanın milli təhlükəsizliyinin predmeti ola bilər.*

Məkan əlamətlərinə görə Azərbaycanın milli maraq çərçivəsini:

• *Ölkənin öz ərazisi daxilində təzahür edən;*

• *Regional münasibətlərdə, yaxud beynəlxalq məkanda, qonşu ölkələrlə təmasda, hər hansı hökumətlərarası təşkilatlar çərçivəsində və s. ortaya çıxan maraqlar kimi qruplaşdırmaq olar.*

Milli maraqlar əsas və yaxud ikinci dərəcəli, daimi, yaxud əvəzlənən, uzunmüddətli, yaxud qısamüddətli maraqlara ayrılır.

Əsas və daimi milli maraqlar bir çox mühüm geosiyasi parametrlərinə - dövlətin beynəlxalq münasibətlər sistemindəki yerinə və roluna, nüfuzuna və hərbi gücünə, özünün suverenliyini qoruyub saxlamaq və vətəndaşlarının təhlükəsizliyini təmin etmək qabiliyyətinə və s. görə müəyyənləşir.

Azərbaycanın milli maraq çərçivəsi onun geosiyasi parametrlərinə, dövlətin iqtisadi, hərbi gücünə və resurs imkanlarına müvafiq olaraq formalaşır. Bu amil özündə millətin təkamül mərhələsini, iqtisadi, siyasi, sosial, milli-psixoloji və digər amillərin mürəkkəb kombinasiyası ilə reallaşan tarixi inkişaf prosesini ehtiva edir. Göstərilən amillər, eyni zamanda, həm də Azərbaycan xalqının milli iradəsini, milli dövlət quruculuğu və tarixi təcrübəsinin məz-

mununu və xarakterini əks etdirir. Bu halda milli maraqlar ictimai-tarixi fenomen kimi çıxış edir, xalqın identikliyi ilə sıx qarşılıqlı əlaqəyə girir.

Milli təhlükəsizlik anlayışı və təhlükəsizlik təhdidləri termini 1904-cü ildə ilk dəfə Amerika alimlərinə məxsus geosiyasi ədəbiyyatda istifadə olunmuşdur. "Milli təhlükəsizlik" termini sonrakı illərdə geosiyasət elmində bir çox dəyişikliklərə məruz qalmışdır. Əvvəlcə ona daxili məzmun daşıyan məsələlər - əmlakın, şəxsiyyətin və dövlətin mühafizəsi aid edilirdisə, sonradan bu sıraya beynəlxalq və milli təhlükəsizlik məsələləri də əlavə edilmişdir. Ötən əsrin 80-ci illərindən etibarən isə dünya siyasətşünaslığında milli təhlükəsizliyə insanların, cəmiyyətin və dövlətin daxili və xarici təhdidlərdən qorunmasını təmin edən inteqral anlayış kimi yanaşılmağa başlandı.

Azərbaycanın qanunvericilik və normativ-hüquqi aktlarına müvafiq olaraq milli təhlükəsizlik insanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mühüm maraqlarının, həmçinin milli dəyərlərin və həyat tərzinin daxili və xarici təhdidlərdən etibarlı müdafiəsidir. Milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin olunması sistemi öz məzmununa görə bir-birindən fərqlənir. Birincisi, maraq və təhdidlərin qarşılıqlı təsiri prosesini əks etdirən funksional nəzəri (konseptual) sistemdirsə, ikincisi milli təhlükəsizliyin təmin olunmasının praktiki məsələlərini həll etməyi nəzərdə tutan orqanlar, vasitələr, müxtəlif təşkilatlar (institusional) sistemidir.

Qeyd edək ki, maraqların həyata keçirilməsi ilə bağlı fəaliyyət zamanı geosiyasi aktorlar - fərdlər, sosial qruplar və dövlətlər arasında bəzi obyektiv ziddiyyətlər meydana çıxır. Həmin ziddiyyətlər çoxsaylı fəaliyyət sahələrindən və konkret şəraitdən asılı olaraq müxtəlif formada təzahür edir. Bir-birinə zidd maraqların (daxili, yaxud xarici) toqquşması əvvəl potensial, sonra isə real təhdidlər yaradır. Lakin maraqların üst-üstə düşən və paralellik təşkil edən digər növləri də olur ki, bunlar öz məzmununa görə pozitiv münasi-

bətlərin yaranmasına şərait yaradır, ictimai və beynəlxalq münasibətlərdə qarşılıqlı anlaşmaya nail olmaq üçün baza rolunu oynayır.

Təhdidlərin aşkar edilməsi və aradan qaldırılması, milli təhlükəsizliyin təmin olunması müvafiq qurumlardan bu məsələlərə vaxtında reaksiya verilməsini, insanların, cəmiyyətin və dövlətin maraqlarının müdafiəsinin lazımi səviyyədə, məsuliyyətlə təşkil edilməsini tələb edir.

Azərbaycanın milli təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlər müəyyən təsnifat üzrə qruplaşdırılır. Bu təsnifat təhdidlərə qarşı, onların konkret xüsusiyyətlərini nəzərə almaqla təşkilati tədbirlər görməyə lazımi imkanlar yaradır. Təsnifatın əsasında təhlükə mənbəyinin yerləşdiyi yer, təhdidin formalaşma səviyyəsi, xarakteri və s. dayanır.

Təhdidlər təhlükə mənbəyinin harada yerləşməsindən asılı olaraq daxili və xarici təhdidlərə bölünür. Əgər təhdidlər xarici dövlətdən və onun vətəndaşlarından gəlirsə, onlar xarici təhdidlər adlanır. Təhdidlərin mənbəyi dövlətin öz daxilində və onun vətəndaşları ilə bağlıdırsa, onlara daxili təhdidlər deyilir.

Formalaşma səviyyəsinə görə təhdidlər potensial və real təhdidlərə ayrılır. Potensial təhdidlər özündə təhlükənin yaranmasını, onun ilkin şərtlərinin formalaşmasını, zərər yetirmək imkanlarını ehtiva edir. Real təhdidlər isə artıq formalaşmış hadisədir və onun zərər yetirməsi üçün bir və yaxud bir neçə faktor çatışmır. Real təhdidlərin təzahür etdiyi zaman milli təhlükəsizlik sisteminin qarşısında təhdidin kəskinliyini azaltmaq və onu aradan qaldırmaq üçün lazımi tədbirlər görmək vəzifəsi dayanır.

Təhdidlər xarakterindən asılı olaraq təbii, antropogen və sosial təhdidlərə bölünür. Təhdidlərin bu cür növlərə ayrılması daha kəskin təhdidləri məqsədyönlü şəkildə aşkarlamağa, onların qarşısını vaxtında almağa, milli təhlükəsizliklə bağlı fəaliyyətin effektivliyini artırmağa imkan verir.

Ümumi təhlükəsizlik prinsiplərinə və təhdidlərin növünə, miqyasına, onların təhlükəsizlik obyektlərinə təsir vasitələrinə görə müa-

sir dövrdə Azərbaycanın milli təhlükəsizliyinin üzləşdiyi təhdidlər sırasına təhlükəsizlik konsepsiyasında aşağıdakı məsələlər aid edilir:

- *Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər;*
- *qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı yönəlmiş fəaliyyət;*
- *separatçılıq, etnik, siyasi və dini ekstremizm;*
- *terrorçuluq və kütləvi qırğın silahlarının yayılması;*
- *regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq;*
- *ölkəmizin enerji infrastrukturuna təhdidlər;*
- *xarici siyasi, hərbi və ya iqtisadi asılılıq;*
- *iqtisadi qeyri-sabitlik;*
- *peşəkar insan ehtiyatlarının çatışmazlığı;*
- *regional hərbiləşmə;*
- *ekoloji problemlər.*

Təhdidlərin bu cür bölgüsü milli təhlükəsizliyin təmin olunması sisteminin təşkilində və onun əsas fəaliyyət istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynayır.

Azərbaycanın milli maraq və milli təhlükəsizliyinin təmin edilməsi bilavasitə onun daxili və xarici maraqlarının düzgün müəyyənləşdirilməsi və onların təmin olunması mexanizmlərinin yaradılmasından asılıdır. Ölkələrin milli təhlükəsizlik maraqları və onun çərçivəsi müəyyənləşdirilərkən - SSRİ ilə ABŞ arasındakı "soyuq müharibə" dövründən və birincinin dağılmasından sonra yaranmış "müasir dünya nizamı" adlandırılan beynəlxalq münasibətlər sistemindəki mühüm dəyişikliklər və dünya geosiyasi məkanındakı indiki qüvvələr nisbətindən irəli gələn xarakterik xüsusiyyətlər nəzərə alınır.

Milli maraqların məzmunu, çərçivəsi və parametrləri cəmiyyətin dəyərlərini özündə əks etdirən "milli idealla" müəyyənləşir. Ümumi şəkildə götürdükdə millətin və xalqın ən mühüm "idealını" ilk növbədə özünüqoruma, özünüyaşatma və davamlı inkişaf (yeniləşmə, təkmilləşmə və s.) maraqları təşkil edir. Məsələn, Azərbay-

can öz milli təhlükəsizliyinin çərçivəsini və təmin edilməsi mexanizmlərini 1992-1995-ci illərin "özünüqoruma və özünüyaşatma" vəziyyətindən, 1996-cı ildən başlanan və günümüzdə də davam edən - "davamlı inkişafa qədərki" keçid dövrünün dinamikasında yarada bilmişdir.

Milli maraq çərçivəsi milli vəzifələrin əhəmiyyətinə və dərəcəsinə görə sıralanır və tez-tez istifadə olunan "həyati əhəmiyyətli maraqlar" ifadəsi ilə ifadə olunur. Qeyd edək ki, bu ifadə dünyanın müxtəlif dövlətlərinin normativ-hüquqi sənədlərində öz əksini tapmışdır. Məsələn, ABŞ-ın "Yeni Yüzillikdə Milli Strategiya"sında, Rusiyanın "Federal Təhlükəsizlik haqqında" qanununda, Azərbaycanın "Milli Təhlükəsizlik Konsepsiyası"nda və s. sənədlərdə "həyati əhəmiyyətli mühüm maraqlar" anlayışı öz əksini tapmışdır. Bu sənədlərdə bəhs olunan anlayış altında fövqəladə dərəcədə vacib olan, millətin təhlükəsizliyi və özünüyaşatmaq idealı ilə bağlı məsələlər başa düşülür. Rusiya Federasiyasının "Təhlükəsizlik haqqında" qanununda həyati əhəmiyyətli mühüm maraqlara "milli tələbatlar məcmusu" kimi baxılır ki, onların da reallaşdırılması insanların, cəmiyyətin və dövlətin mövcudluğunu, mütərəqqi inkişaf imkanlarını etibarlı şəkildə təmin edir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında göstərilir ki, milli maraqlar *"Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur"* və aşağıdakılardan ibarətdir:

- *dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;*
- *Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;*
- *vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;*
- *demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;*
- *beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizliyə, sabitliyə töhfə vermək üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;*
- *bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;*
- *təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;*
- *milli özünəməxsusluğun və dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsi;*
- *Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialın inkişaf etdirilməsi.*

Milli təhlükəsizliyin təmin olunması müasir dövrdə istənilən dövlətin daxili və xarici siyasətinin prioritet vəzifəsi hesab olunur. Milli təhlükəsizlik ölçüləri və milli maraq çərçivəsi dünyada texniki nailiyyətlərin zəfər çaldığı və qlobal inkişafın dönməz xarakter aldığı XX əsrin sonlarına qədər daha çox ölkələrin müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun və suveren dövlət idarəçiliyinin birbaşa xarici hücumlardan, hərbi müdaxilələrdən, cəmiyyət həyatı və şəxsiyyətə qarşı qəsdlərdən, xəfiyyə fəaliyyətindən və s. təhdidlərdən qorunması kimi başa düşülürdüsə, qloballaşmanın vüsət aldığı və ölkələrarası sərhədlərin şəffaflaşdığı müasir dövrdə bu anlayışa həm də:

- *regional münaqişə və transmilli mütəşəkkil cinayətkarlıq, nəzarətsiz ərazi və silahlı və mütəşəkkil silahlı dəstələrdən qaynaqlanan təhlükəsizlik təhdidlərini;*

• *dövlətdaxili ictimai həyatın (cəmiyyətin) milli, dini, sosial balansının, ölkənin demoqrafik mühitinin pozulmasını və qanunsuz miqrasiyanı;*

• *dövlətlərin iqtisadi, siyasi, sosial, ərzaq, enerji, ekoloji, nəqliyyat, maliyyə və milli valyuta təhlükəsizliyinə və makroiqtisadi mühitinə müdaxilə və xarici aktorlardan asılı vəziyyətə salmanı;*

• *ölkələrin informasiya-kommunikasiya sistemlərinə, ictimai rəyyaratma, ideoloji və mətbuat vasitələrinə total xarici, transmilli müdaxiləni və geosiyasi təsiretməni;*

• *transmilli beynəlxalq terrorizmi, kütləvi qırğın və digər silahların nəzarətdən kənar yayılması, narkotik maddələrin ticarəti və s. kimi milli təhlükəsizlik sahələrini və s. aid edirlər.*

Geosiyasi ədəbiyyatda milli təhlükəsizliyin XXI əsrdəki əsas ölçülərinin qloballaşmanın səviyyəsi və mövcud ölkənin transmilli dünyaya inteqrasiyasının dərinliyi ilə bağlı müəyyənləşəcəyini söyləyirlər. Sərhədlərin şəffaflaşması ilə mal dövriyyəsi və ticarətin, pul, texnologiya və informasiya innovasiyalarının transmilliləşməsi dövlətlərin getdikcə öz geoməkanlarını qorumaq işini çətinləşdirir. Bir çox ölkələr artıq əvvəlki kimi, sərhəd maneələri yaratmaqla yerli bazarın təhlükəsizliyini təmin etmək, dünyanın əsas transmilli şirkətlərinin, arzuolunmaz ideologiyaların, təbliğat-informasiya materiallarının onun ərazisinə daxil olmasının qarşısını almaq iqtidarını itirir. Bu vəziyyət getdikcə milli adət-ənənələrin, mənəvi dəyərlərin itirilməsinə, ənənəvi həyat tərzinin pozulması və kosmopolit mühitin formalaşmasına, ictimai, siyasi və sosial həyatın standartlaşmasına səbəb olur ki, bu da ölkənin milli varlığını bilavasitə təhlükə qarşısında qoyur. Bundan başqa, əsas məqsədi gəlir götürmək olan transmilli şirkətlər ölkələrin təbii sərvətlərini və sağlam ekoloji mühitini vəhşicəsinə istismar edir, onun təbiətini korlayır, ölkənin balanslı inkişafını pozaraq xammal mənbəyinə çevirir və əhalini gələcək iqtisadi, sosial, ekoloji və başqa geosiyasi, geostrateji və geoiqtisadi təhlükələrlə üz-üzə qoyur. Bütün bunlar və qloballaşmanın dövlətlərin milli maraqlarının təmin olunması yolunda yaratdığı digər müasir problemlər hər bir ölkədən öz

milli maraqlarını və milli təhlükəsizliyini təminetmənin xüsusi strategiyasını yaratmağı və onu dönmədən həyata keçirməyi tələb edir.

Milli maraqların və milli təhlükəsizliyin təmin olunması üçün dövlət öz sərəncamında olan bütün maddi və mənəvi vasitələrdən, daxili və xarici resurslardan - iqtisadi, siyasi, ideoloji, diplomatik və s. mexanizmlərdən istifadə edir.

Milli təhlükəsizliyin təmin olunması ölkənin sabit və davamlı inkişafında strateji əhəmiyyət daşıyır, ictimai həyatın bütün sahələrini əhatə edən dinamik dəyişikliklər prosesinə mühüm təsir göstərir.

Milli təhlükəsizliyinin təmin olunması üçün dövlət özünün həm daxili resurslarından, hən də xarici siyasət vasitələrindən - siyasi, iqtisadi, hərbi, təbliğat və informasiya və s. istifadə edir. Xarici siyasi fəaliyyətin əsas vasitəsi ilk növbədə rəsmi diplomatiya qurumları hesab olunur. Diplomatiya xüsusi institutların timsalında və beynəlxalq hüquqa uyğun olan çoxsaylı metod və vasitələrin köməyi ilə dövlətin rəsmi xarici fəaliyyətini təşkil edir və ona rəhbərlik edir.

Dövlətin malik olduğu iqtisadi vasitələr qarşıya qoyulan məqsədlərə nail olmaq üçün iqtisadi resurslardan istifadə etməyi və xarici iqtisadi imkanlardan bəhrələnməyi nəzərdə tutur. Çünki güclü iqtisadiyyata və maliyyə mənbələrinə malik olmaqla dövlətin beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirməsi mümkündür.

Hərbi vasitələrə özündə ordunu, onun sayını, silahlanmanın keyfiyyətini birləşdirən və silahlı qüvvələrdə mənəvi əhval-ruhiyyəni əks etdirən dövlətin hərbi gücü aiddir.

Xarici siyasətin təbliğat və informasiya vasitələrinə isə bütün müasir informasiya vasitələrinin fəaliyyəti və xarici diaspor qurumlarının imkanları daxildir. Sadaladığımız bütün bu vasitələr Azərbaycan dövlətinin milli maraq və milli təhlükəsizliyinin təmin olunmasında, dünya birliyində öz nüfuzunu yüksəltməsində, özünə

çoxsaylı tərəfdarlar qazanmasında və onlarla qarşılıqlı faydalı əməkdaşlıq yaratmasında böyük əhəmiyyət daşıyır.

Təhlükəsizliyin təmin edilməsində ən çox istifadə olunan daxili resurs və imkanlar dövlət orqanları və qeyri-hökumət strukturları, siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, milli elita və sairdir. Dövlət bu qurumların hər biri ilə milli təhlükəsizlik naminə xüsusi iş aparır və onların bəzi şərtlərini təmin etməklə imkanlarından milli təhlükəsizliyin təmin olunması istiqamətində istifadə edir.

Milli təhlükəsizliyin təmin olunmasının daxili şərtləri sırasına dövlətin ali orqanlarının ölkədə demokratiyanı və hüquqi dövlət maraqlarını dönmədən təmin etməsi, milli-vətəndaş birliyinə nail olunması, tolerant mühit yaratması, elmin, təhsilin, sosial həyatın inkişaf etdirməsi, milli-mənəvi dəyərlərin qorunması, iqtisadi, mənəvi, sosial tərəqqiyə nail olması və sairdən ibarətdir.

Azərbaycanın təhlükəsizlik siyasətində daxili sabitlik və sərhəd təhlükəsizliyinin təmin olunması, ölkədaxili miqrasiya, enerji, nəqliyyat təhlükəsizliyi, fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi, informasiya təhlükəsizliyi və s. məsələlərin də daim diqqətdə saxlanılmasını tələb edir.

Azərbaycanın təhlükəsizlik konsepsiyası milli təhlükəsizliyin təmin olunmasının üç məqsədini - insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunmasını müəyyən edir. **Milli təhlükəsizlik, xarici siyasət və hərbi doktrinalar kompleks şəkildə dövlətin ümumi təhlükəsizliyinin parametrlərini müəyyən edən əsas sənədlərdir.**

"Hərbi doktrina" anlayışı ilə bağlı çoxsaylı təriflər mövcuddur. NATO-nun terminlər və təriflərlə əlaqədar toplusunda *hərbi doktrina* silahlı qüvvələrin fəaliyyətini istiqamətləndirən fundamental prinsiplər kimi izah edilir. Bundan başqa, bir çox dövlətlərin hərbi doktrinalarında bu anlayışın tərifi verilmişdir. *Bütün bu tərifləri ümumiləşdirərək demək olar ki, hərbi doktrina silahlı qüvvələrin fəaliyyətinin ümumi çərçivəsini müəyyənləşdirən sənəddir.*

Azərbaycan Respublikasının hərbi doktrinasının[1] ümumi müddəalarında da qeyd edildiyi kimi, *hərbi doktrina* ölkənin milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq insan, cəmiyyət və dövlətin hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir. Başqa sözlə desək, Azərbaycan Respublikasının hərbi doktrinası Azərbaycan Respublikasının müdafiə siyasətidir.

Hərbi doktrinada hərbi təhlükəsizliyə yönəlmiş təhdidlərin müəyyənləşdirilməsi, onların təhlil edilməsi və bu təhdidlərin qarşısının alınması üçün ölkənin bütün resurslarını hazır vəziyyətə gətirərək, silahlı təcavüzün dəf edilməsi ilə bağlı məsələlərə dair Azərbaycan Respublikasının mövqeyi əks etdirilir. Doktrinada Azərbaycan Respublikasının təhlükəsizlik mühiti qlobal və regional olmaqla iki müstəvidə qiymətləndirilir. Beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq, tükənməkdə olan enerji resursları uğrunda dövlətlər arasında gərginliyin artması, istər ayrı-ayrı dövlətlərin, istərsə də qeyri-dövlət subyektlərinin kütləvi qırğın silahlarının əldə edilməsi səyləri kimi amillər Azərbaycan Respublikası üçün qlobal səviyyədə təhlükəsizlik mühiti formalaşdırır. Geosiyasi vəziyyətin qeyri-sabitliyi, həll olunmamış münaqişələrin mövcudluğu, region dövlətlərindən keçən enerji və nəqliyyat infrastrukturunun təhlükə altına alınması kimi amillər isə regional səviyyədə Azərbaycan Respublikası üçün təhlükə yaradan amillərdəndir.

Doktrinada Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi, bu ərazilərdə etnik təmizləmə siyasətinin aparılması, iqtisadi və sosial infrastrukturun dağıdılması kimi faktlar ən əsas təhlükə mənbələri kimi göstərilir və bu vəziyyətin dəyişdirilməsinin Azərbaycan Respublikasının təhlükəsizliyinin təminatı istiqamətində ən vacib məsələ olduğu xüsusi olaraq vurğulanır.

[1] Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli qərarı ilə təsdiq edilmişdir.

Doktrinanın Azərbaycan Respublikasının müdafiə siyasəti ilə bağlı maddələrində qeyd olunur ki, ölkənin müdafiə siyasəti beynəlxalq hüququn normalarına riayət etməklə bütün dövlətlərlə dinc və yanaşı yaşama, beynəlxalq münasibətlərdə bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında müəyyənləşdirilir. Azərbaycan Respublikasının müdafiə siyasəti heç bir dövlətin ərazi bütövlüyünü təhdid etmək üçün deyil, yalnız öz müdafiəsini təmin etmək üçün qurulur. Ancaq təcavüzə məruz qaldıqda beynəlxalq hüquq normaları çərçivəsində öz təhlükəsizliyini təmin etmək və təcavüzün qarşısını almaq üçün hərbi güc tətbiq etməkdən belə çəkinməyəcəyi xüsusi olaraq vurğulanır.

Doktrinada yer alan xarici hərbi bazaların Azərbaycan ərazisində yerləşdirilməsi ilə bağlı maddələr də çox əhəmiyyətli məsələlərdəndir. Burada qeyd olunur ki, ümumiyyətlə, Azərbaycan dövləti öz ərazisində hər hansı bir dövlətin hərbi bazalarının yerləşdirilməsinə yol vermir, amma hərbi-siyasi vəziyyətdən asılı olaraq, xarici hərbi iştirakın mümkünlüyünə müvəqqəti icazə vermə hüququnu özündə saxlayır. Bundan başqa, istər milli təhlükəsizlik konsepsiyasında, istərsə də hərbi doktrinada regionda xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsi həm Azərbaycanın, həm də regionun təhlükəsizliyi üçün təhdidedici amil kimi qiymətləndirilir.

Azərbaycan Respublikasının hərbi doktrinası ölkənin bu məzmunda hazırlanmış ilk hərbi sənədidir. Bu doktrinanın yekun müddəalarında da qeyd edildiyi kimi, o, təhlükəsizlik mühitinin daim dəyişən dinamikası nəzərə alınaraq yenidən baxılma, dəqiqləşdirmə və əlavələr üçün açıq sənəddir. Yəni zamanın tələblərindən asılı olaraq doktrina dəyişdirilə bilər. Bununla belə, mövcud doktrina milli təhlükəsizliyin təmin edilməsi üçün hazırlanmış ən funksional sənədlərdən biridir. Bu sənəddə əks olunan müddəalar Azərbaycanda ordu quruculuğunu təkmilləşdirməklə yanaşı, ölkənin təhlükəsizliyinin təşkilində mühüm amilə çevriləcəkdir.

8.4. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: sülh üçün perspektivlər

Dağlıq Qarabağ problemi çar Rusiyasının Azərbaycan torpaqlarını işğalı və bu zəmində həyata keçirilən Rusiya-erməni əməkdaşlığı əsasında təşəkkül tapıb. Rusiyanın hərtərəfli dəstəyinə söykənməklə "Böyük Ermənistan" dövlətini yaratmağa cəhd edən erməni millətçiləri əzəli Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarının böyük bir hissəsini ələ keçirdikdən sonra bu istiqamətdə mərhələlərlə addım-addım irəliləmiş və Qarabağın "qədim erməni torpağı" olduğunu iddia edərək, bu torpaqları da Ermənistan Respublikasına birləşdirmək üçün bütün vasitələrə, o cümlədən hərbi təcavüzə əl atmışlar.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın və eləcə də onun dağlıq hissəsinin yerli əhalisi gəlmə ermənilərdən fərqli olaraq mənşə, dil və mədəniyyət baxımından qədim zamanlardan bəri Böyük Qafqaz sıra dağları ilə Araz çayı arasında yaşamış yerli etnik qruplarla sıx bağlı olmuşdur. Burada iri etnik kütlə utilər adı ilə hələ antik dövrün yunan tarixçisi *Herodota* məlum olan və bir sıra digər tayfalardan *(qarqarlar, qellər, leqlər, udilər, kaspilər, didurlar, savderlər, qardmanlar, çilblər)* ibarət olmuşdur. Utilər adlanan alban tayfaları Kür-Araz çayları arasındakı ərazinin böyük bir hissəsini tutmaqla Uti və Artsax (Alban ölkəsinin əyalətlərindən birinin adı. Dağlıq Qarabagın qədim adıdır. Bu ad sak etnonimi ilə bağlıdır; qədim türk dillərində art "yüksəklik", "dağlıq ərazi", "aşırım" mənasında işlədilmişdir. Deməli, Artsax - sakların yaşadığı dağlıq ərazi (sak dağları) anlamındadır) əyalətlərinin əsas əhalisini təşkil etmişlər. Bu tarixi həqiqəti "erməni tarixinin atası" *Movses Xorenatsi* də etiraf edərək deyir ki, albanların əfsanəvi sərkərdəsi Aranın nəsilləri "bizim vətənimizin (yəni Ermənistanın) şimal tərəfində yaşamışlar". Aran adlanan bu ərazi Kür-Araz çayları arası torpaqları əhatə edirdi. Xorenatsiyə görə, "Araz çayından başlayaraq Kürün Xram ilə qovuşduğu yerə qədər ərazi Alban düzənliyi və onun dağlıq hissəsi adlanırdı, *Aranın* əhalisi albanlarla vahid mənşəyə malik olan utilərdən, qarqarlardan və teodlardan (Artsax-

da yaşamış etnik qrup) ibarət idi. Eramızın V əsrində yaradılan 52 hərfdən ibarət alban əlifbası qarqar dilində idi. İncil tərcümə edilmiş, sonra isə alban kilsə ədəbiyyatı yaranmışdı. Alban knyazlığının paytaxtı olan Partav (Bərdə) da Uti ərazisində yerləşirdi. Orta əsr ərəb mənbələrinə görə Aranda (Albaniyada) X əsrə qədər yerli əhali qədim alban (udi) dilində danışmışdır. Ağdərə yaxınlığındakı Seysulan kəndinin əhalisi XIX əsrin axırlarına qədər udi dilində danışaraq onu qoruyub saxlamışdı. Antik mənbələr Artsaxda ermənilərin yaşadığını qeydə almamışdır; Uti və Artsaxın ermənilyi haqqında müasir erməni millətçilərinin irəli sürdükləri uydurmaların Albaniyadakı həqiqi etnik proseslə heç bir əlaqəsi yoxdur.

Göründüyü kimi, qədim dövrdə və erkən orta əsrlərdə Qarabağ Qafqaz Albaniyasına daxil idi. Burada alban tayfaları yaşayırdılar. Qarabağ uzun müddət Sasani əsarətinə qarşı mübarizə mərkəzlərindən biri olmuşdur. Ərəb işğalından sonra (VII əsr) bu diyarın düzənlik hissəsində və şəhərlərdə yaşayan əhali islam dinini qəbul etdi. Qarabağ X əsrdən Şəddadilərin, XI əsrin ortalarından isə Səlcuqilərin hakimiyyətinə keçdi. XII əsrin ikinci yarısından etibarən Qarabağ Eldəgəzlər dövlətinin tərkibində idi.

XIII əsrin 30-cu illərində monqollar Qarabağı işğal etdilər. 60-cı illərdə Qarabağda monqol əsarətinə qarşı baş vermiş üsyan amansızlıqla yatırıldı. XIV əsrin sonlarından Qarabağ Teymurilərin hakimiyyətinə keçdi. *Teymurun* ölümündən (1405) sonra xalq kütlələrinin Teymurilərə qarşı çıxışlarından istifadə edən *Şirvanşah I İbrahim* Qarabağın düzənlik hissəsini Şirvana birləşdirdi. Lakin Qaraqoyunlularla Kür sahilində baş vermiş döyüşdən (1412) sonra Qarabağ tamamilə Qaraqoyunlu dövlətinə qatıldı. XV əsrin ikinci yarısından isə Qarabağ Ağqoyunlu dövlətinin tərkibinə keçdi. XVI əsrdə Qarabağ Səfəvilərin hakimiyyətinə qatıldı. Səfəvilər dövlətinin inzibati vahidlərindən biri də Qarabağ bəylərbəyliyi idi. Səfəvi-Osmanlı müharibələri zamanı dəfələrlə əldən-ələ keçən Qarabağ dağıntılara məruz qaldı. XVII əsrin əvvəllərində Qarabağda kəndli hərəkatı genişləndi. Səfəvilər dövründə Qarabağı Qacar tayfasından olan Ziyadoğulları nəsli idarə edirdi.

XVIII əsrin birinci yarısında Səfəvilər sülaləsinin dağılması və tayfalararası ziddiyyətlərin kəskinləşməsi nəticəsində Qarabağ bəylərbəyliyinin ərazisində iki müstəqil xanlıq - Gəncə və Qarabağ xanlıqları yarandı. Tərtər, Kür və Araz çayları arasındakı ərazidə yaranan müstəqil Qarabağ xanlığının hökmdarı onun əsasını qoyan *Pənahəli xan* oldu. O, 1750-ci ildə əlçatmaz dağ zirvəsində Pənahabad qala-şəhərini saldı. Bu qala-şəhər sonralar Şuşa adlandırıldı. Pənahəli xanın dövründə Şuşa Azərbaycanın inzibati, ticarət və sənətkarlıq mərkəzlərindən biri oldu. Şuşadan Aran vasitəsilə Qafqazı İran və digər ölkələrlə birləşdirən karvan yolu keçirdi.

XVIII əsrdən başlayaraq Rusiya Qafqaz regionunda öz strateji mənafelərini həyata keçirmək üçün fəal geosiyasi addımlar atmağa başladı. Regionun zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi barədə yetərincə məlumata malik olan çar rejimi feodal çəkişmələrindən məharətlə istifadə edərək sosial-siyasi proseslərə müdaxilə edir, antifeodal hərəkatların yatırılmasında jandarm siyasəti yeridirdi. Həmin dövrdə Rusiyanın inkişaf etməkdə olan sənayesi



Xəritə 80. ***Qarabağ xanlığı***
Mənbə: Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, 2005, səh. 11.

Qafqazda, xüsusilə Azərbaycanda istehsal edilən xammala ehtiyac hiss edirdi. Digər tərəfdən isə Rusiya İran vəTürkiyənin Qafqazda və Xəzər sahillərində möhkəmlənmək cəhdlərinin qarşısını almaq istəyirdi.

1722-1724-cü illərdə rus qoşunlarının Xəzərsahili vilayətləri ələ keçirməsi Qafqazda və Xəzər dənizi hövzəsində Rusiyanın nüfuzunun sabitləşməsində mühüm mərhələ idi. Bununla Rusiya Dərbənd keçidinə və Xəzərin mühüm limanlarına nəzarət etməyə imkan tapmış oldu.

Lakin 1735-ci ildə rus qoşunları Qafqazdan çəkilməyə məcbur oldu. Bu uğursuzluğa baxmayaraq, Rusiyanın hakim dairələri Qafqazdakı hadisələri izləməkdə davam edirdilər. *XVIII əsrin sonlarında II Yekaterinanın dövründə yenidən güclənən Rusiya yüz ildən çox İranın təsiri altında olan regionun istilasının ikinci mərhələsinə başladı.*

İranlıların Şuşaya hücuma keçmələrindən və onu mühasirəyə almalarından dərhal sonra, 1796-cı ildə *İbrahimxəlil xan* öz oğlunu rusların yanına göndərdi. Onun apardığı məktubda Qarabağ xanlığının Rusiyaya itaətə hazır olduğu bildirilirdi. Lakin rus ordusu *II Yekaterinanın* ölümü ilə bağlı təcili Rusiyaya qayıtdı, İran ordusu isə dərhal hücuma keçərək Şuşanı qarət etdi. Artıq o vaxtlar Rusiya öz siyasətində yerli xristianlara, ilk növbədə isə onun dəstəyi ilə öz dövlətlərini yaratmağa ümid bəsləyən ermənilərə bel bağlamağa başladı.

Lakin artıq Qafqazın istilasına başlayan Rusiya ordusu, yüksək dağlıq rayonlardan yan keçərək Qafqaz düzənliklərinə çıxdı, vadiləri və dağətəyi əraziləri ələ keçirməyə başladı. Şimali Qafqazın dağlı xalqlarının fəthi o vaxtlar arxa plana keçirilmişdi. Rusiyanın başlıca məqsədi Cənub dənizlərinə çıxmaq idi.

Gürcüstanın Rusiya tərəfindən tam istilası çarizmin Qafqazda geosiyasi niyyətlərinin həyata keçirilməsində ciddi hadisə oldu.

1801-ci ildə Rusiya Gürcüstanın istilasını başa çatdıraraq Azərbaycanın sərhədlərinə çatdı. 1803-cü ilin martında Qafqazdakı rus qoşunlarının komandanı general *Sisianov* o dövrdə Azərbaycanın

ən iri şəhəri olan Gəncəni mühasirəyə aldı. *Cavad xanın* başçılığı ilə əhalinin ciddi müqavimətinə baxmayaraq, rus qoşunları 1804-cü il yanvar ayının 3-də Gəncəni zəbt etdilər. İndi Azərbaycan üzərində tam hökmranlığa nail olmaq üçün Sisianov hansı yolla olursa-olsun, Cənubi Qafqazın ən qüdrətli xanlıqları olan Qarabağ, Şirvan və Şəkini Rusiyanın təsiri altına salmaq istəyirdi. Onlarsız bu diyarı zəbt olunmuş hesab etmək olmazdı.

Bu məqsədlə həmin xanlıqlarla uzun-uzadı danışıqlara başlanıldı, onlara Gəncənin alınmasından və əhalinin kütləvi qırğınından ibrət götürərək müqavimət göstərmədən Rusiyanın hərbi üstünlüyünü etiraf etmək və bu ölkənin protektoratına keçmək təklif olundu. Bununla belə, hadisələrin İranın regiondakı mənafelərinə toxunacağını və danışıqlar aparan xanlıqların yetərli hərbi potensiala malik olmalarını yaxşı başa düşən Sisianov çox da tələsmirdi.


Lakin daim "odla su arasında" qalan Qarabağ xanı 1805-ci il mayın 14-də Rusiyanın himayəsinə keçmək haqqında müqavilə imzaladı. Saziş Kürəkçay hərbi düşərgəsində imzalandığına görə Kürəkçay müqaviləsi adlandırıldı. 11 maddədən ibarət olan həmin müqavilə açıq-aydın Rusiyaya birtərəfli üstünlük verirdi. Sazişə görə, Qarabağ xanlığı Rusiyanın protektoratına keçir və onun xeyrinə olaraq hər hansı üçüncü ölkə ilə müstəqil beynəlxalq münasibətlərdən imtina edirdi. Müqavilədə ayrıca qeyd olunurdu ki, Qarabağ xanlığı qonşu xanlıqlarla da müstəqil münasibətlərə girməkdən məhrum edilir. Bundan başqa, xan hər il Rusiya xəzinəsinə o dövr üçün çox böyük məbləğ - 8 min onluq qızıl və üstəgəl baş komandanın Tiflisdəki qərargahında girov qalan nəvəsinin saxlanma xərclərini ödəməyi öhdəyə alırdı. Sənədin ən ağır şərtlərindən biri ondan ibarət idi ki, Rusiya artilleriya ilə birlikdə 500 nəfərlik hərbi kontingentini xanlığın mərkəzində - Şuşa qalasında yerləşdirmək hüququ qazanırdı. Kürəkçay müqaviləsində *İbrahim xanın* hüquqlarını əks etdirən yeganə maddə Qarabağın daxili işləri idi. Bu fakt da maraqlıdır ki, sənəd imzalandıqdan dərhal sonra İbrahim xana general rütbəsi verildi və bununla da o,

hərbiçi kimi Qafqazdakı rus qoşunlarının komandanlığına birbaşa tabe etdirildi.

Napoleon üzərindəki qələbə Rusiyanın Şərq siyasətini daha qətiyyətli etdi. 1816-cı ildə Qafqaz qubernatoru təyin edilən general A.Yermolov lap əvvəldən Azərbaycan xanlarına şübhə ilə yanaşır, onlara potensial düşmən kimi baxırdı. Məhz buna görə də o, milli müstəqillik uğrunda hərəkatın ocağına çevrilə biləcək xanlıqların formal ləğvi üçün daim fürsət axtarırdı. Bu işdə ona Şimali Azərbaycandakı canişini, milliyyətcə erməni olan general Mədətov yaxından kömək edirdi. 1819-cu ildə Şəki xanlığı ləğv edildi. 1822-ci ildə Qarabağ xanlığı Rusiyanın quberniyası elan olundu. İki il əvvəl isə sonuncu Şirvan xanı İrana qaçdı. Beləliklə də, xanlıqların ləğvi prosesi başa çatdı.


1826-cı ildə Rusiya-İran müharibəsi başladı. Yenə də əsas hadisələr Qarabağda cərəyan edirdi. İran ordusu 48 gün Şuşanı mühasirədə saxlasa da, onu ala bilmədi. *1828-ci il fevralın 22-də Təbriz şəhəri yaxınlığında, Türkmənçayda tərəflər yeni sülh müqaviləsi imzaladılar. Həmin gündən Şimali Azərbaycanın digər xanlıqları kimi Qarabağın da ərazisi, habelə İrəvan və Naxçıvan xanlıqları (bax:* ***81-ci və 82-ci xəritələr****) tamamilə Rusiyanın ərazisinə qatıldı və elə o vaxtdan da Kürəkçay razılaşması özünün hüquqi qüvvəsini və əhəmiyyətini həmişəlik itirdi. Xanlıqların statusunun itirilməsi Azərbaycanın müstəmləkəyə çevrilməsinin başlanğıcı oldu. Bu müddət ərzində Qafqazın inzibati bölgüsü bir neçə dəfə dəyişdirildi və yalnız XIX əsrin ikinci yarısında tam başa çatdı. Lakin bu bölgülər yerli əhalinin həqiqi etnoqrafik, tarixi, dini və məişət xüsusiyyətləri ilə uzlaşmırdı. Amma istənilən halda bu proses təsadüfi deyildi və ilk növbədə, Qafqazın hər hansı bir bölgəsində əhalinin bir hissəsinin digərinin zərərinə olaraq üstünlüyünün zəiflədilməsinə yönəldilmişdi. Bunu Qarabağ öz üzərində daha ağrılı hiss edirdi. Demoqrafiya getdikcə daha çox siyasi alətə çevrilmişdi.*

1828-ci ildə keçmiş İrəvan xanlığının ərazisində "erməni muxtariyyəti" formalaşdırılanda bütün əhalinin 74-75 faizini Azərbay-



Xəritə 81. ***İrəvan xanlığı XVIII əsrin ikinci yarısında***
Mənbə: Azərbaycan tarixi atlası. Bakı, 2007, səh. 34.

can türkləri təşkil edirdi. Lakin 1828-ci ildə Türkmənçay, 1829-cu ildə isə Ədirnə müqavilələri imzalandıqdan sonra Rusiyanın təşəbbüsü ilə İrandan və Türkiyədən ermənilər Qarabağa köçürüldü və regionda demoqrafik vəziyyət kəskin surətdə dəyişməyə başladı. Artıq 1832-ci ildə Qarabağda ermənilərin sayı 34,8 faiz, azərbaycanlıların sayı isə 64,8 faiz oldu. Onu da yada salmaq lazımdır ki, ermənilərin köçürülməsinə hələ 1805-ci ildə başlanmışdı, 1819-cu ildə Qarabağın şimalına hətta bir neçə yüz alman ailəsi də köçürülmüşdü. Lakin şəraitin yeniləşməsi rus hakimiyyətini ehtiyatlı davranmağa vadar edirdi. Qeyd etmək lazımdır ki, 1840-cı il aprelin 10-dək Qarabağı Qafqaz müsəlmanları əyaləti hərbi dairəsinin rəi-



Xəritə 81. ***Naxçıvan xanlığı***
Mənbə: Naxçıvan tarixi atlası. Bakı, 2010, səh. 30.

si idarə edirdi. Onun qərargahı Şuşada yerləşirdi. Başqa sözlə desək, Qarabağ xanlığı və Şuşa Rusiya imperiyası tərkibinə müsəlman torpağı və müsəlman xanlığı kimi daxil olmuşdu. Lakin görünür, artıq xəlvəti üstünlük ermənilərə verilirdi. Azərbaycanda ermənilərin sayı 1832-ci ildəki 80 mindən 1871-ci ildə 193 minə çatdı və əhalinin 15 faizini təşkil etdi. Buna baxmayaraq, Qarabağda azərbaycanlılar əvvəlki kimi yenə də əhalinin böyük əksəriyyətini təşkil edirdi.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin növbəti dalğası 1877-1879-cu illər rus-türk müharibəsi dövrünə və 1893-1894-cü illərdə Türkiyədə qanlı hadisələrə təsadüf edir. Bu köçürülmələr məqsədyönlü dövlət siyasəti xarakteri almışdı.

Ermənilər azərbaycanlıların on minlərlə kəndli torpaq payını su qiymətinə alırdılar, hətta Azərbaycanda dövlət qulluğundakı yerlərin çoxu da rusların yox, ermənilərin əlində idi. Bu işdə azərbaycanlıları barmaqla saymaq olardı.

XIX əsrin 90-cı illərində rus-erməni münasibətlərində ilk dəfə soyuqluq yarandı. 1896-cı ildə Qafqazda general-qubernator təyin olunan knyaz *Q.Qolitsın* ermənilərin təsirinin zəifləməsinə və azərbaycanlılarla münasibətin yaxşılaşmasına yönəldilmiş bir sıra tədbirlər gördü. O, dövlət qulluğunda ermənilərin sayını seziləcək dərəcədə ixtisar etdi, onların yerinə azərbaycanlıları götürdü. 1903-cü ildə isə erməni kilsəsinin əmlakını müsadirə etdi. Buna cavab olaraq ermənilər ilk dəfə artıq Rusiya imperiyasının ərazisində çar çinovniklərinə qarşı xeyli terror aktı təşkil etdilər. Nəticədə yaralanmış Qolitsın 1903-cü ildə Qafqazı tərk etdi.


1905-ci ilin mayında Qafqaz üzrə canişin təyin olunmuş *İ.Vorontsov-Daşkov* özünün ermənilərə rəğbətini gizlətmir və belə hesab edirdi ki, ermənilərlə dostluq Rusiyanın Qafqazdakı hökmranlığının əsasıdır. Artıq 1905-ci ilin mayında rus qoşunları millətlərarası münaqişədə açıq-aydın ermənipərəst mövqe tutur və çox vaxt Azərbaycan rayonlarında müsəlmanlara hücumlarda ermənilərlə birgə iştirak edirdilər. 1905-ci ilin avqustunda isə erməni kilsəsinin əmlakının özünə qaytarılması və erməni məktəbləri açılmasına icazə verilməsi haqda çar fərmanı imzalandı. 1905-ci ildə inqilabi təlatümlər dövründə Bakıda ilk dəfə erməni-azərbaycanlı toqquşması baş verdi. Bu da çox tez bir müddətdə bütün Azərbaycanı, xüsusilə Qarabağı, həmçinin İrəvan və Tiflisi əhatə etdi.

Birinci erməni-azərbaycanlı münaqişəsi minlərlə dinc azərbaycanlının həyatına son qoydu və iki xalqın münasibətində keyfiyyətcə yeni mərhələ oldu. Daha mütəşəkkil və xeyli yaxşı silahlanmış ermənilər sonralar da tez-tez terror aktları törədir, habelə "yandırılmış torpaq" və gözlənilməz hücum taktikası tətbiq edir, azərbaycanlıları öz torpaqlarından, ilk növbədə isə İrəvan quberniyası və Qarabağdan zorla didərgin salırdılar. Onu da qeyd etmək lazımdır ki, bu dövrdə 35 minədək erməni silahlıları və onlara qoşulmuş rus

əsgər və zabitləri azərbaycanlılara qarşı döyüşürdü. Üstəlik də, ermənilər Rusiyaya sədaqətləri sayəsində Qafqazda bolşevizmin də etibarlı dayağına çevrilmişdilər.

Təəccüblü deyil ki, 1917-ci ildə Bakıda sovet hakimiyyəti qurulduqda ən mühüm vəzifələri məhz ermənilər tutmuşdular. Erməni hərbi birləşmələri Qarabağda 12 kəndi viran etmiş, Bakıda, Şamaxıda və Qubada 13 minə qədər azərbaycanlını qətlə yetirmiş, İrəvan quberniyasında isə ağlasığmaz vəhşiliklər törətmişdilər. 1918-ci ilin yayında *tayqulaq Andronikin* komandanlığı altında erməni ordusu Zəngəzura soxularaq əsl vəhşilik, soyqırımı törətmiş və oktyabrın əvvəlləri üçün 115 kəndi məhv etmişdi. Həmin hücumda 7700 azərbaycanlı qətlə yetirilmiş və 50000 azərbaycanlı öz doğma yerlərini tərk etmək məcburiyyətində qalmışdı. Azərbaycanlıların məhv edilməsinin qarşısının müvəqqəti alınması sentyabrın sonunda türk ordu dəstələrinin Şuşaya döyüşsüz daxil olmasından sonra mümkün oldu. Daşnak dəstələri Qarabağın dağlıq ərazilərinə çəkildilər.

XI ordu Azərbaycanı işğal edəndə Qarabağ Azərbaycan Demokratik Respublikasının (ADR) tərkib hissəsi idi. Həmin dövrdə Dağlıq Qarabağ problemi ilə bağlı Ermənistanla Azərbaycan arasındakı qarşıdurmanı aradan qaldırmaq üçün Azərbaycan tərəfi sülhməramlı əməkdaşlıq təklifləri ilə çıxış edirdi. Müasir Ermənistanın paytaxtı olan İrəvan şəhəri isə 1918-ci il iyunun 1-də ADR Milli Şurasının qərarı ilə Ermənistana verilmişdi və bu məsələ üzrə iki dövlətin saziş imzalaması faktı da məlumdur. Qarabağ ermənilərinin ADR-ə qarşı qaldırdığı qiyamı isə hələ sovet qoşunları Bakını tutmamışdan əvvəl Azərbaycan qoşunları yatırtmışdı və Bakının işğalı məhz ona görə mümkün oldu ki, rus qoşunları şəhərə yaxınlaşarkən Azərbaycan ordusunun əsas hissələri Əsgəran yaxınlığında erməni hərbi qüvvələrini məğlub etməklə məşğul idilər. Qarabağ Azərbaycanın tam nəzarətində idi. Lakin ermənilər Dağlıq Qarabağı ələ keçirmək niyyətindən əl çəkmək istəmirdilər. Əvvəlcə 1920-ci il noyabrın 1-də Ermənistanda sovet hakimiyyətinin qurulması münasibətilə Azərbaycan K(b)P MK Siyasi Bürosunun



Xəritə 83. ***Azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımlar (1918-1920-ci illər)***

Mənbə: AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun internet səhifəsi: http://www.istoriya.az/gallery/x_azerbaycan.php

və Təşkilat Bürosunun birgə yığıncağında qəbul edilmiş qərar ilə Zəngəzur Ermənistana verildi. 1920-ci ilin noyabr ayında bir qrup erməni kommunistinin özünü inqilab komitəsi adlandırması, Ermənistanda sovet hakimiyyətinin elan olunması və XI ordunun regiona müdaxiləsi ilə Qarabağ probleminin tənzimlənməsi prosesi daha da mürəkkəbləşdi. Belə ki, Türkiyəyə qarşı mübarizədə "mətinləşmiş" daşnak dəstələri respublikanın ərazisinə soxularaq, həm sovet işğalçı qoşunlarını, həm də erməni millətçiliyini pisləyən inqilab komitəsini ölkədən qovdular. 1921-ci il iyunun 12-də Ermənistan hökumətinin qəbul etdiyi dekretdə Dağlıq Qarabağ Ermənistan SSR-in tərkib hissəsi elan edildi və diyara bu respublikanın fövqəladə komissarı təyin olundu. Lakin iyunda daşnakların Zəngəzurdan İrəvana hücumu "sovet" ermənilərinin siyasi ambisiyalarını bir qədər səngitdi. Erməni kommunistləri kompromisə girərək dekreti ləğv etdilər, Dağlıq Qarabağ və digər mübahisəli ərazilər üzrə komissiya çağırılmasını təklif etdilər. Sonra 1921-ci il iyulun 4-5-də Rusiya K(b)P MK-nın Qafqaz Bürosunun iclasında *Stalinin* iştirakı ilə Qarabağ məsələsi müzakirəyə çıxarıldı və səs çoxluğu ilə Qarabağın Azərbaycanın tərkibində qalması əleyhinə olan qərar qəbul edildi. Lakin məsələnin vacibliyi nəzərə alınaraq RK(b)P MK bu məsələni öz yurisdiksiyasına keçirdi. Ertəsi gün iyulun 5-də hər şeydən əli üzülən RK(b)P MK Qafqaz Bürosu Dağlıq Qarabağa geniş muxtariyyət verməyi Azərbaycana tapşırdı. Azərbaycan isə iki il bu qərarı yerinə yetirməyi ləngitdi. 1923-cü il iyunun 27-28-də ÜİK(b)P Zaqafqaziya Diyar Komitəsi Azərbaycan K(b)P MK-ya ultimativ formada tapşırıq verdi ki, bir aylıq müddət ərzində Dağlıq Qarabağa vilayət muxtariyyətinin verilməsini təmin etsin. Nəhayət, 1923-cü il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması haqqında dekret verdi.

DQMV-nin yaradılması erməni millətçilərinin Azərbaycana qarşı olan torpaq iddialarına son qoymadı. SSRİ yaradılandan sonra "Qarabağ məsələsi" dəfələrlə kənardan: xaricdə yaşayan erməni diasporu və Ermənistan SSR tərəfindən qaldırılmışdır. Ermənis-

tan SSR ərazisində yaşayan azərbaycanlılar sayca bir neçə dəfə DQMV-də yaşayan ermənilər üstələdikləri halda onlara muxtariyyət verilmədi, əksinə, onların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindən deportasiyası rəsmiləşdirildi.

Sonrakı illərdə də ermənilər Dağlıq Qarabağı ələ keçirmək niyyətlərindən əl çəkmədilər. 1987-ci ildə *Heydər Əliyevin* SSRİ rəhbərliyində tutduğu yüksək vəzifələrdən uzaqlaşdırılması onlarda niyyətlərinə çatmaq ümidini yenidən artırdı. Erməni millətçilərinin tələbi ilə Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla torpaq sahəsi Ermənistana "bağışlandı". Bu, xalqın böyük narazılığına səbəb oldu.

1987-ci ilin oktyabrında İrəvanda "Qarabağ komitəsi" deyilən təşkilatın ilk açıq mitinqi keçirildi. Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə *M.Qorbaçovun* əshabələrindən olan *A.Aqanbekyanın* dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. Avantürist erməni jurnalisti *Z.Balayanın* Azərbaycan xalqını təhqir edən, tarixi saxtalaşdıran "Ocaq" kitabı da iki xalq arasında nifaq salmaqda müstəsna rol oynadı. Hərəkata yenə də bir qrup millətçi erməni ziyalıları arxasından kommunist-daşnaklar, Ermənistan KP liderləri, DTK agentləri rəhbərlik edirdilər. Moskvada ermənilərin "Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi" də bu istiqamətdə fəal iş aparırdılar.

İki xalq arasında milli ədavətin ilk qurbanları bu dəfə də Ermənistanda öz dədə-baba yurdunda yaşayan azərbaycanlılar oldular. Nəticədə 200 min azərbaycanlı Ermənistandakı tarixi torpaqlarından qovuldu. Eyni zamanda, Ermənistanın rus ordusunun dəstəyi ilə Azərbaycana qarşı başladığı işğalçılıq müharibəsi və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı daha 7 rayon - Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları işğal olundu, Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovu-

lub didərgin salındı, 18 mindən çox azərbaycanlı qətlə yetirildi, 20 mindən çox dinc sakin yaralandı, 50 mindən çox adam əlil oldu, 4 mindən çox adam əsir və itkin düşdü, girov götürüldü, 877 şəhər, kənd və qəsəbə qarət edildi, dağıdıldı və yandırıldı.

İşğalçılıq müharibəsinin gedişində erməni millətçiləri azərbaycanlı əhaliyə qarşı dəhşətli soyqırımı cinayətləri törətdilər. Belə ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi növbəti genosid aktı - Xocalı soyqırımı nəticəsində Xocalı şəhəri tamamilə yandırıldı və məhv edildi, 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə öldürüldü, 487 nəfər şikəst edildi, 1275 sakin - qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qaldılar. Bir çox ailələr bütünlüklə məhv edildi. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni-tarixi irsini təşkil edən obyektləri xüsusi qəddarlıqla məhv etmiş, mədəni terror həyata keçirmişlər. Ələ keçirdikləri ərazilərdə onlar vandalizm aktları törədərək, 500-ə qədər tarixi və 100-dən çox arxeoloji abidəni, 22 muzeyi və 4 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət etmiş və yandırmış, 44 məbədi və 9 məscidi təhqir etmişlər. Dağıdılan və yandırılan 927 kitabxanada 4,6 milyon kitab və misilsiz əlyazma məhv edilmişdir.

Ermənistanın təcavüzünün başlandığı vaxtdan erməni terrorçu təşkilatları Azərbaycana qarşı 32 terror aktı törətmişlər. Terrorun obyektləri Azərbaycan şəhərlərinin və kəndlərinin dinc sakinləri, nəqliyyat kommunikasiyaları, rabitə vasitələri, ictimai infrastruktur olmuşdur. Yollarda, dəmiryolu və dəniz vağzallarında, hava limanlarında, metro stansiyalarında, avtobuslarda və digər ictimai nəqliyyat vasitələrində çoxsaylı təxribatlar törədilmişdir. Bu terror aktlarının birbaşa nəticəsi kimi 2 mindən çox Azərbaycan vətəndaşı həlak olmuş, on minlərlə adam yaralanmışdır.


Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi məqsədi ilə beynəlxalq səylər 1992-ci ilin martında

ATƏT-in Minsk qrupunun yaradılması və gələcək sülh konfransının mandatının müəyyən edilməsi ilə başlanmışdır. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası münaqişəyə dair qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb etmişdir. Bu qətnamələr münaqişənin nizama salınmasının hüquqi bazasının ayrılmaz hissəsini təşkil etmişdir.

Dağlıq Qarabağ probleminin həlli istiqamətində ən mühüm addımlardan biri atəşkəsin əldə edilməsi olmuşdur. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü il mayın 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edilmişdir. *Heydər Əliyevin* təşəbbüsü ilə 1994-cü il iyunun 27-də atəşkəs rejiminin münaqişənin siyasi həllinə nail olana kimi davam etdirilməsi barədə saziş imzalanmış, danışıqların Minsk qrupu çərçivəsində davam etdirilməsinə dair razılıq əldə olunmuşdur.

1994-cü ildə ATƏT-in Minsk qrupunun həmsədrləri simasında münaqişənin nizama salınması mexanizmi təsbit edilmişdir. BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Fransa və Rusiya hazırda Minsk qrupunun həmsədrləridir. Minsk qrupunun həmsədrləri indiyədək münaqişənin tənzimlənməsinə dair üç təklif vermişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif problemin paket həllini, həmin ilin oktyabrında verdikləri ikinci təklif isə mərhələli həllini nəzərdə tuturdu. 1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklifi - "ümumi dövlət" təklifini verdilər.

Bu təkliflərin bəzi müddəalarının beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmasına baxmayaraq, Azərbaycan Prezidenti həmsədrlərin birinci və ikinci təkliflərinin danışıqlar prosesinin konstruktiv istiqamətdə davam etdirilməsi üçün əsas kimi qəbul



edilməsinə razılıq vermişdir. Hətta belə bir vəziyyətdə də Ermənistan bu təkliflərlə razılaşmayaraq açıq-aşkar qeyri-konstruktiv mövqe tutmuşdur.

Həmsədrlərin "ümumi dövlət" təklifini Azərbaycan tərəfi qəbul etməmişdir. Çünki heç bir beynəlxalq-hüquqi bazası olmayan "ümumi dövlət" məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu "ümumi dövlət" subyekti statusu verir, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki olaraq, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirirdi.

Yaradıldığı andan ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, ümumilikdə onun bütün sonrakı fəaliyyəti istənilən nəticəni verməmişdir. Həmsədrlər, əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq bu günədək danışıqlar prosesinə beynəlxalq hüquq normaları çərçivəsində lazımi təsir göstərə bilməmişlər.

Nəhayət, 1999-cu ilin aprelindən başlayaraq Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində yeni format yarandı və o, öz fəaliyyəti ilə, əslində, ATƏT-in Minsk qrupunun işini tamamlayaraq onların qarşısında yeni imkanlar açır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqudur.

1996-cı ildə ATƏT-in Lissabon sammitində münaqişənin nizama salınması prinsiplərinin, yəni Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün təsdiq edilməsi, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək səviyyəli özünüidarə statusu verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması prinsiplərinin Ermənistandan başqa, təşkilatın üzvü olan bütün dövlətlər tərəfindən bəyənilməsi münaqişənin ədalətli həlli yolunda irəliyə doğru mühüm addım olmuşdur.

2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında Azərbaycan tərəfindən irəli sürülmüş, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bəyan edən, erməni

qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən, bu ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtma hüququnu təsdiq edən və işğal nəticəsində yaranmış vəziyyəti heç bir dövlətin qanuni hesab edə bilməyəcəyini vurğulayan qətnamə qəbul edilmişdir. Həmin sənədin Azərbaycan Respublikası tərkibində olmaqla Dağlıq Qarabağda səmərəli fəaliyyət göstərə biləcək demokratik özünüidarəetmə sisteminin yaradılması məqsədilə bölgənin azərbaycanlı və erməni icmalarının təhlükəsiz və bərabər həyat şəraitinin təmin edilməsinin zəruriliyini qeyd edən bəndini xüsusilə vurğulamaq lazımdır. Bu, regionun gələcək statusu və onun bütün əhalisinin təhlükəsizliyi ilə bağlı zəmanətə dair ATƏT-in Lissabon prinsiplərinin şərtlərinə uyğundur.

Bu kontekstdə, Rusiya Federasiyasının təşəbbüsü ilə 2008-ci il noyabr 2-də Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının üçtərəfli görüşü təşkil edilmişdir. Görüşdə prezidentlər Moskva bəyannaməsi imzalamışlar. Sənəddə Cənubi Qafqazda vəziyyətin sağlamlaşdırılması, regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin bu çərçivədə qəbul edilmiş qərar və sənədlər əsasında siyasi yolla həllinə şərait yaratmaq səyləri öz əksini tapmışdır. Münaqişə tərəfləri və rusiyalı vasitəçi münaqişənin nizamlanmasının ölkələr arasında iqtisadi əməkdaşlıq üçün zəmin yaradacağı ilə razı olduqlarını ifadə etmişlər.

ATƏT-in xarici işlər nazirləri səviyyəsində 2009-cu ildə Afinada keçirilən iclasında bu münaqişənin məhz ərazi bütövlüyü çərçivəsində həllinə dair sənəd qəbul edilmişdir. Münaqişə dövrü ərzində ilk dəfə Ermənistan bu sənədə qoşulmuş və etiraf etmişdir ki, problemin həlli ərazi bütövlüyü çərçivəsində mümkündür. Beləliklə, ərazi bütövlüyü prinsipinin xalqın öz müqəddəratını təyin etməsi problemi ilə qarşı-qarşıya qoyulduğu uzun dövr başa çatmışdır. Nəticə sadədir: öz müqəddəratını təyinetmə məsələsi ərazi bütövlüyü prinsipi çərçivəsində həll olunmalıdır.

Münaqişənin nizama salınmasının başlıca prinsiplərinin razılaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biri ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərin başçılarının 2010-cu il iyunun 26-da Kanadanın Muskoka şəhərində verdikləri birgə bəyanat olmuşdur. Birgə bəyanatda dövlət başçıları tərəfindən münaqişənin işğal altındakı ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması və digər prinsipləri nəzərdə tutan mərhələli həllinin zəruriliyi vurğulanmışdır. Buna nail olmaq üçün həmsədr ölkələrin dövlət başçıları, ilk növbədə, Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş ərazilərin geriyə qaytarılmasını əsas şərt və baza prinsiplərindən biri kimi irəli sürürlər. Sonra Dağlıq Qarabağın təhlükəsizliyini və özünüidarəçiliyini təmin edən keçid statusunun təyini, bütün qaçqınların və məcburi köçkünlərin ata-baba yurdlarına qaytarılması hüququnun tanınması və reallaşdırılması kimi baza prinsipləri sayılan məsələlərin öz həllini tapmasının vacibliyi bildirilir. Bu vacib məsələlərin həllinin ardınca müəyyən zaman çərçivəsində Dağlıq Qarabağın gələcək yekun statusunun müəyyənləşdirilməsinin mümkünlüyü göstərilir. Proseslərin bu səpkidə inkişafı Azərbaycanın maraqlarına cavab verməklə yanaşı, rəsmi Bakının qəbul etdiyi və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllini nəzərdə tutan yeniləşmiş Madrid prinsiplərinə də uyğundur. Birgə bəyanatda o da xüsusi qeyd olunur ki, göstərilən formul əsasında münaqişənin həllinə nail olmaq üçün Ermənistan və Azərbaycan tərəfi sülh sazişi layihəsinin hazırlanmasına başlamaq üçün baza prinsipləri üzərində işi başa çatdırmalıdırlar.

Həmsədr dövlətlərin başçılarının bu bəyanatında "işğal olunmuş ərazilər" ifadəsinin işlənməsi Rusiya, Fransa və ABŞ kimi dövlətlərin ən yüksək səviyyədə Ermənistanı işğalçı dövlət kimi tanımasının birmənalı təzahürüdür.

Ermənistan dövlətinin sülh danışıqları prosesində tutduğu qeyrikonstruktiv mövqe, Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etməsi, öz ərazisində xarici hərbi bazalar yerləşdirməsi, ordusunu ən müasir dağıdıcı hücum silahları ilə təmin etməsi, atəşkəs rejimini tez-tez pozması nizamasalma prosesini ləngitməyə və

mürəkkəbləşdirməyə yönəlmişdir. ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə apardığı yoxlama nəticəsində müəyyən edilmişdir ki, həmin ərazilərdə 15 mindən çox erməni qeyri-qanuni məskunlaşdırılmışdır.

Dağlıq Qarabağ bölgəsində və işğal edilmiş digər ərazilərdə qanunsuz əməliyyatlar keçirilir. Burada xüsusən silah və insan alveri aparılması, radioaktiv tullantıların basdırılması, təbii sərvətlərin vəhşicəsinə talanması, narkotik bitkilərin becərilməsi, emalı və nəqli, habelə narkotik vasitələrin istehsalından əldə edilən gəlir hesabına terrorçu dəstələrin və qanunsuz silahlı birləşmələrin hazırlanması ciddi narahatlıq doğurur. Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı yeddi rayon indi müxtəlif beynəlxalq terror təşkilatlarının fəaliyyət zonasına çevrilmişdir.

Münaqişənin nizamlanması üçün xeyli səylər göstərilməsinə baxmayaraq, indiyədək bu sahədə əsaslı irəliləyişə nail olunmamışdır. Münaqişənin aradan qaldırılması üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən səmərə verməmiş, Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərində prinsipial məsələlər üzrə razılıq əldə etmək mümkün olmamışdır. Beynəlxalq təşkilatların, vasitəçi dövlətlərin siyasi iradə nümayiş etdirməməsi, qətiyyətsiz mövqe tutması, bəzən də ikili standartlardan çıxış edib işğalçı ilə təcavüzə məruz qalmış tərəf arasında tarazlıq yaratmaq cəhdləri münaqişənin tezliklə və dinc yolla nizamlanmasını çətinləşdirmişdir. Bu vəziyyət ATƏT-in Astana sammitində (1-2 dekabr 2010-cu il) də dəyişməmişdir. Sammit çərçivəsində qəbul edilən bəyanatda münaqişənin həllinə yalnız söz və bəyanat səviyyəsində dəstək ifadə olunmuşdur.

"Böyük səkkizlik" ölkələrinin Fransanın Dovil şəhərində keçirilən sammiti (26-27 may 2011-ci il) çərçivəsində ABŞ, Fransa və Rusiya prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair birgə bəyanatla çıxış etməsi müəyyən ümidlər yaradır və münaqişənin sülh yolu ilə həll olunmasında imkanların tükənmədiyini deməyə əsas verir. *Barak Obama, Nikola Sarkozi və*

Dmitri Medvedev bəyanatda Ermənistan və Azərbaycan liderlərini "iyun ayında keçiriləcək Ermənistan-Azərbaycan sammitində siyasi əzmkarlıq nümayiş etdirməyə, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Prinsipləri üzərində işi tamamlamağa" ["Заявление президентов США, России и Франции по Нагорному Карабаху // Голос Америки http://www.voanews.com/russian/news/US-France-Russia-Gorny-Karabax-2011-05-26 122666024.html] çağırmışlar. Bəyanatda deyilir: *"Razılaşma əldə ediləndən sonra biz bu prinsiplərin rəsmən qəbul edilməsini təsdiqləməyə, sülh sazişinin işlənib hazırlanmasına kömək etməyə və sonra beynəlxalq tərəfdaşlarımızla birlikdə həmin sazişin yerinə yetirilməsini dəstəkləməyə hazırıq. Biz təsdiq edirik ki, yalnız danışıqlar yolu ilə tənzimləmə regional inkişaf və əməkdaşlıq üçün imkanlar üzə çıxarmaqla sülhə, sabitliyə və barışığa gətirib çıxara bilər"* [yenə orada].

ABŞ, Fransa və Rusiya prezidentləri əmin olduqlarını bildirmişlər ki, Dağlıq Qarabağ münaqişəsi tərəflərinin dinc tənzimləmə istiqamətində addım atmasının vaxtı çatmışdır. Minsk qrupunun həmsədrləri olan üç dövlətin rəhbərləri Ermənistan və Azərbaycan liderlərini "əhalini müharibəyə deyil, sülhə hazırlamağa" çağırmışlar. Birgə bəyanatda deyilir: *"Əsas prinsiplərin bu il martın 5-də Soçidə müzakirə edilmiş sonuncu versiyası genişəhatəli dinc tənzimlənmənin hazırlanması üçün ədalətli və tarazlaşdırılmış təməl yaradır"* [yenə orada].

Bəyanatda Soçi görüşünün nəticələrinə istinad edilməsi isə münaqişə ilə bağlı danışıqlar prosesinin Azərbaycanın milli maraqlarına cavab verən prinsiplər əsasında aparıldığını göstərir. Bununla belə, Azərbaycanın danışıqlar prosesindəki siyasi üstünlüyü və təşəbbüsü ələ alması, haqlı mövqeyini qətiyyətlə ortaya qoyması təcavüzkar Ermənistanı razı salmır. Aşkar görünür ki, tənzimləmə prosesində beynəlxalq hüquq normalarına istinad imkanları tamamilə tükənən, ideoloji, siyasi, hüquqi və iqtisadi müstəvilərdə Azərbaycana uduzan təcavüzkar tərəfin bütün səyləri hazırda mövcud "status-kvo"nun qorunub saxlanılmasına, münaqişənin "baş

vermiş fakt" əsasında həllinə hesablanmışdır. Ermənistanın beynəlxalq hüquq normalarına zidd olaraq millətlərin öz müqəddəratını təyinetmə və ərazi bütövlüyü prinsiplərini eyniləşdirməyə çalışması bunun əyani təcəssümüdür.

Qeyd etmək lazımdır ki, təcavüzkarı destruktiv mövqedən çıxış etməyə şirnikləndirən başlıca səbəblərdən biri də məhz danışıqlarda vasitəçilik edən ATƏT-in Minsk qrupu həmsədrlərinin təcavüzkar dövlətə təsir göstərmək üçün zəruri təzyiq vasitələrindən istifadə etməməsidir. Ərazi və milli-etnik separatizm zəminində baş qaldıran münaqişələrin həlli ilə bağlı beynəlxalq hüquqda konkret normalar və sivil tənzimləmə presedentləri mövcud olsa da, nədənsə həmsədrlər 17 ildən çox müddətdə "Ermənistan və Azərbaycanın siyasi razılığa gəlməsi" kimi gülünc mövqeni önə çəkir, işğalçıya və işğala məruz qalan tərəfə eyni mövqedən yanaşırlar. Belə süni balans siyasəti isə son nəticədə beynəlxalq hüquq normalarının praktik təsir gücünə əsaslı şübhə yaradır. Dünya nizamını müəyyənləşdirən fövqəlgüclərin işğal faktına liberal yanaşması, dolayısı ilə təcavüzə göz yumması bu qənaəti gücləndirir ki, hazırda dünyada etnik-milli münaqişələrin həllində beynəlxalq hüquq deyil, digər siyasi maraqlar önə çəkilir.

Buna görə də işğalçı tərəf indiyə qədər müəyyən bəhanələrlə danışıqlar prosesini uzatmağa, vaxt udmağa çalışır, bunu ən pis variantlar sırasında "ən optimal gediş" kimi dəyərləndirir. "Nə hərb, nə sülh" vəziyyəti xarici dəstək hesabına yaşayan Ermənistana milyonlar bahasına başa gəlsə də, *Sarkisyan* rejimi hələlik hakimiyyətinin ömrünü uzatmaq üçün bundan "yaxşı" variant görmür.

Bununla belə, Kazan görüşü ərəfəsində ABŞ, Fransa və Rusiya prezidentlərinin son bəyanatı, həmsədrlərin mövcud status-kvonun dəyişməsi zəruriliyi haqqında mövqeyi göstərir ki, artıq fövqəlgüclər də münaqişənin həllinin uzanmasına görə narahatlıqlarını açıq ifadə edirlər. Münaqişənin həllinə beynəlxalq səviyyədə yönəlmiş səylərin nəzərəçarpacaq dərəcədə güclənməsi, ATƏT-in Minsk qrupu səviyyəsində aparılan danışıqların xaotik məcradan çıxarılaraq konkret həll formatına salınması da rəsmi Bakının mühüm siya-

si üstünlüyü kimi vurğulana bilər. Azərbaycanın sülh danışıqları nəticə verməyəcəyi təqdirdə, münaqişənin hərb yolu ilə həlli barədə verdiyi bəyanatlar isə həm regionun, həm də Qərbin aparıcı dövlətlərini ciddi narahat edir. Bu narahatlıq ABŞ, Fransa və Rusiya prezidentlərinin birgə bəyanatında da aydın görünür.

İndiyə qədər regionda belə bir münaqişənin mövcudluğu ilə geosiyasi maraqlarını gerçəkləşdirmək imkanı qazanmağa çalışan fövqəlgüc dövlətləri hazırda Cənubi Qafqazda müharibənin yenidən alovlanmasından, qlobal layihələr üçün potensial təhdidlərin artacağından narahatdırlar. Münaqişə tərəflərinə təsir və təzyiq cəhdlərinin artması da bu narahatlığın bariz təcəssümü kimi diqqəti çəkir.

Azərbaycanın iqtisadi cəhətdən qüdrətlənməsi, hərbi büdcəsinin əhəmiyyətli dərəcədə artması fonunda danışıqlar prosesində dönüşün baş verməsi isə qaçılmazdır. Çünki problemin həllinin uzanması Ermənistanın sosial-iqtisadi, hərbi və siyasi kontekstdə daha da zəifləməsi, Azərbaycanın isə əksinə, bütün sahələrdə güclənməsi ilə müşayiət olunur.

SÖZARDI ƏVƏZİ

Müasir beynəlxalq münasibətlərdə dünya inkişafının indiki mərhələsinə tərif verməkdən daha fundamental bir məsələ tapmaq çətindir. Bu, hər bir ölkə üçün vacibdir, çünki biz öz inkişaf strategiyamızı və xarici siyasətimizi yaşadığımız dünya barədə təsəvvürlərimizlə uyğunlaşdırmalıyıq. Bizə belə gəlir ki, bu barədə konsensus, hələlik yalnız ekspertlər səviyyəsində də olsa, artıq formalaşmaqdadır. Yaranmış vəziyyət çox cəhətdən beynəlxalq birliyin təkid etdiyi debatların nəticəsidir.

Bütövlükdə, sosial inkişaf yolunun seçilməsi bəşəriyyət üçün əbədi problem olaraq qalır. Real coğrafi məkanda "işıqlı gələcəyə aparan" yolların axtarışına nə qədər enerji sərf edilmişdir! Özü də çox vaxt bu səylər növbəti mifin yaranması və ya çoxsaylı münaqişələrlə başa çatmışdır. Real zəmini olmayan ideyalar başqa sivilizasiyanın sosiomədəni məkanında dağıdıcı qüvvəyə çevrilmişdir.

Qərb sivilizasiyası dünyanın quruluşunun mərkəzinə immanent dünyanı dəyişdirən insanı qoymaqla antroposentirizmin imkanlarını nümayiş etdirmişdir. Fikrin sonsuz hərəkətini kapitalın böyük hərəkəti ilə əlaqələndirən çoxölçülü kommunikasiya məkanı yaranmışdır. Qərb həyatın yüksək keyfiyyətini təmin etmiş və bu obraz bütün dünyada cəlbedici olmuşdur. Şərq sivilizasiyaları dünyanın geosentrik (transsendent) quruluşu prinsipinə əsaslanır.

Müasir dünyada islam və Çin sivilizasiyalarının dirçəlməsi müşahidə olunur. Onların hər birinin öz inteqrasiya modeli və başqa aləmlərlə əlaqə ideologiyası var.

İslam tarixdə böyük əks-səda doğurmuş və güclü təsirə malik orijinal ideyaların təzahürüdür. O, mədəniyyətə, tarixə, incəsənətə və bir çox başqa sahələrə dərindən nüfuz etməklə yanaşı, ən əsası, düşüncələrin, mənəviyyatların inkişafı istiqamətində bir sıra qaranlıq qatların işıqlanmasına səbəb ola bilmiş, geniş üfüqlər açmışdır. İslam mədəni-coğrafi bölgəsinin kifayət qədər böyük məkan-

ları əhatə etməsinə baxmayaraq, başlanğıcını ondan almış ideyaların sərhədləri daha genişdir.

İslam sivilizasiyasının əsasını insanın transsendent iradəsi təşkil edir. Burada ictimai həmrəylik və fərdi özünüməhdudlaşdırma üstün sayılır. Bunlar islam inteqrizminin səciyyəvi cəhətləridir. Orta əsrlərdə Avrasiya sivilizasiyalarının etnik-siyasi hüdudlarında islam dövlətçiliyinin himayəsi altında polikonfessional və polietnik dözümlülük modeli işlənib hazırlanmış, bu isə sərbəst ticarətin kommunikasiya funksiyalarının inkişafına və sivilizasiyalararası dialoqa şərait yaratmışdır.

Zaman etibarilə ən sürəkli olan Çin sivilizasiyası sosial harmoniyaya və ədalətə əsaslanan Böyük qaydaya immanent şəkildə istiqamətlənmişdir. Heroqlif yazısı etnik konsolidasiyaya şərait yaratmışdır. Çin sivilizasiyası tənəzzül və yüksəlişlər yolu ilə xarici aləmlə maddi kommunikasiyaların açıqlığını və mənəvi sahədə əxzetmələr üçün məhdudluqları özündə birləşdirən superetnik əlaqələr modelini yaratmağa nail olmuşdur. Qədim Çin müasir bəşəriyyətə miqyasına görə nəhəng maddi abidələr şəklində irs qoyub getmişdir. Böyük Çin səddi və Böyük İpək yolu sivilizasiyalararası dialoq fəlsəfəsinin rəmzləridir. Bununla, açıq cəmiyyət və açıq iqtisadiyyat prinsiplərinə əsaslanan Qərb nümunəli qloballaşmaya alternativ kimi dünyanın quruluşunun başqa modeli təklif edilir.

Geosiyasətdə sivil, səmərəli kommunikasiya əlaqələri, geoməkan axtarışlarına yönəlmiş yanaşma xüsusi aktuallıq kəsb edir. Artıq geridə qalmış "qurğuşun əsri" *Nitsşenin* peyğəmbərcəsinə uzaqgörənliyini təsdiq etdi. O, xəbərdarlıq etmişdi ki, əgər ictimai normalar, xeyirxahlıq qaydaları insanın qəlbindən gəlmirsə, qarşıda bizi təhlükələr gözləyir. Təbiətdə ictimai inkişafın universal modelləri yoxdur, lakin dövlət xadimlərinin və ziyalıların birliyinə əsaslanan sağlam düşüncəyə və sivil yanaşmaya güvənərək pozitiv istiqamətdə hərəkət etmək mümkündür. Bir çox hallarda müşahidə olunduğu kimi, ədalət, ləyaqət, şərəf, vicdan, borc və digər ümumbəşəri dəyərləri təkzib etməklə çiçəklənən cəmiyyət qurmaq çətindir. İnsanın ruhu davakar ateizm radiasiyası və ya "kütləvi mə-

dəniyyət" ilə şüalanmış olduqda bəziləri yenidən öz çəkmələrini başqa dənizlərin sularında yumağa, başqaları isə ən "ədalətli" bomba və raketlərin köməyi ilə "düzgün olmayan" xalqlara "insan hüquqları" hədiyyə etməyə şirnikirlər.

Ser Makinder Kral Coğrafiya Cəmiyyətində sonralar çox məşhurlaşmış məruzəsi ilə çıxış edəndə, o, bəlkə də təsəvvür etmirdi ki, əgər siyasətçilər təklif edilən intellektual konsepsiyaları olduğu kimi rəhbər tutsalar, bu konsepsiyalar necə dağıdıcı xarakter ala bilər. XX əsrin əvvəllərində texniki tərəqqiyə inam yəqin ki, çox böyük deyildi, o vaxt təmtaraqlı "Titanik" gəmisi hələ özünün ilk və son reysinə çıxmamışdı, insanlar təbiəti fəth etmək imkanlarının sonsuz olmasına ürəkdən inanırdılar.

"Yer kürəsinin ürəyini fəth edən bütün dünyanı fəth edəcəkdir". İnsan səhv yollarda nə qədər enerji və qüvvə itirmişdir! "Çərxi-fələk" heç də keçmişdən işıqlı gələcəyə axan gur çay deyil. Mütəfəkkirlər dönə-dönə xəbərdarlıq edirlər ki, bu cür proqnoz analogiyaları mənəviyyata ziddir. Açıq cəmiyyət ideyasının banisi *K.Popper* demişdir: *"Gələcək hələ mövcud deyil və məhz bu vəziyyət bizim üzərimizə çox böyük məsuliyyət qoyur, çünki biz gələcəyə təsir edə bilmirik, biz onu yaxşılaşdırmaq üçün səy göstərə bilərik. Bunun üçün biz keçmişdə öyrəndiklərimizin hamısından istifadə etməliyik. Keçmişin ən vacib dərslərindən biri isə bundan ibarətdir ki, biz təvazökar olmalıyıq".*

Nikbin gələcək cəmiyyətin gizli inkişaf potensialını üzə çıxarmaq bacarığı ilə müəyyən olunur. Bu potensial sadə qərarlar hüdudundan kənardadır. Əsas məsələ əxlaqlı insanların həyat tərzi kimi başa düşülən vətəndaşlıq formasındadır. Təməlini qədim yunan və Avropa mütəfəkkirləri qoymuş müasir Avropaya doğru inkişaf məhz bu yolla baş vermişdi. Cəmiyyətdə mifoloji xaosu aradan qaldırmağa və onun strateji inkişaf resursunu aşkar etməyə yalnız siyasi mədəniyyət və intellektin ittifaqı sayəsində nail olmaq mümkündür.

Mütəfəkkir və peyğəmbərlərin böyük irsinin bir qismi Avropa təfəkküründə mənəvi məkanında kristallaşmışdı. Bu qaynaqlara qayıdış savadlı düşünməyə, savadlı danışmağa çalışan hər kəsin

borcudur. Bu, özünü sivil Avropaya mənsub elan edən hər bir ölkənin borcudur. Bəs fikrin hərəkətini necə təmin etməli? İnsan yalnız o vaxt insan olur ki, o, "naməlum ideyaların" axtarışında olsun. Ölkə vətəndaşlarının nə qədər çox hissəsi düşünməyə başlasa, bu ölkənin gələcəyinin şansı bir o qədər yüksəkdir.

Müəllif heç kəsə işıqlı gələcək vəd etmək iddiasında deyil. Biz mövcud geosiyasi konsepsiyaları araşdırsaq da, sosial tərəqqi yolunda əsas kommunikasiya marşrutları real siyasi və geoiqtisadi məkandan deyil, insanın daxili aləmindən keçir. Biz özümüzü dəyişməsək, dünyanı dəyişə bilmərik.

Artıq şübhə yoxdur ki, "soyuq müharibə"nin başa çatması ilə birlikdə dünya inkişafının ən sürəkli mərhələsi başlanmışdır. *Bəşəriyyətin inkişafında yeni mərhələnin məzmununun qiymətləndirilməsi məsələsinə iki prinsipial yanaşma var.*

Birinci yanaşmaya görə dünya Qərb dəyərlərini qəbul etməklə tədricən Böyük Qərbə çevrilməlidir. İkinci yanaşma isə ondan ibarətdir ki, rəqabət həqiqətən qlobal xarakter və sivil ölçü kəsb edir. Başqa sözlə desək, dəyər oriyentirləri və inkişaf modelləri də rəqabət predmetinə çevrilməkdədir.

Qarşıdan gələn mərhələni bəzən "postamerikan" mərhələ adlandırırlar. Lakin təbii ki, bu "ABŞ-dan sonrakı dünya" və xüsusən "ABŞ-sız dünya" demək deyildir (bax: Riçard Haasın "Qeyri-polyar dünya epoxası" məqaləsi). Bu dünyada başqa qlobal "güc mərkəzləri"nin yüksəlişi və onların təsirinin güclənməsi nəticəsində Amerikanın rolunun nisbi əhəmiyyəti azalır. Bu vəziyyət son onilliklərdə qlobal iqtisadiyyatda və qlobal ticarətdə müşahidə olunur. Liderlik başqa məsələdir və o, ilk növbədə, tərəfdaşlar əhatəsində razılığa nail olmağa, bərabərlər arasında birinci olmaq qabiliyyətinə aiddir. Bu prosesdə ən vacib amil isə ədalətli olmaqdır, heç olmasa nisbi ədalət prinsipini qorumaqdır.

Formalaşmaqda olan dünya nizamının məzmununu müəyyən etmək üçün "çoxqütblü dünya", "polisentrik dünya", "qeyri-polyar dünya" terminləri də təklif edilir. Sonuncu ifadəni ABŞ Dövlət Departamentinin xarici siyasətin planlaşdırılması xidmətinin keçmiş

rəhbəri, hazırda Beynəlxalq Münasibətlər Şurasının rəhbəri olan *Riçard Haas* da dəstəkləyir. Onun belə bir fikri ilə razılaşmamaq çətindir ki, qüvvə və nüfuz tədricən daha pərakəndə xarakter kəsb edir. Lakin hətta o da etiraf edir ki, yeni şəraitdə dünya inkişafının idarə oluna bilməsini təmin etmək üçün aparıcı dövlətlərdən ibarət bir özək tələb olunur. Başqa sözlə desək, hər bir halda Qərbin də ardıcıl olaraq tərəfdar çıxdığı kollektiv, lakin ədalətli liderliyə ehtiyacdan söhbət gedir. Əlbəttə, dünyanın rəngarəngliyi tələb edir ki, bu cür kollektiv liderlik həm coğrafi mənada, həm də sivilizasiya baxımından həqiqətən nüfuzlu və ədalətli olsun.

Biz dünyada konfiqurasiyanın dəyişməsi proseslərinin labüd olaraq "xaosa və anarxiyaya" gətirib çıxaracağından ehtiyat edənlərin fikrinə şərik deyilik. İndi yeni reallıqlara cavab verməli olan beynəlxalq siyasi və maliyyə-iqtisadi arxitekturanın formalaşması kimi təbii bir proses gedir.

Təəssüf doğuran isə odur ki, Qərb azadlıq və insan hüquqları anlayışlarını əlində bayraq edərək müasir variantda səlib yürüşü ilə geosiyasi problemlərinin həllinə çalışır. Lakin bu zaman iki mühüm məsələ qulaqardına vurulur. Əvvələn, həyata keçirilən metod düzgün metod sayıla bilməz. İkincisi, XXI əsrdə bütün dünyanı bu yolla idarə etmək mümkün deyil. Və Qərbin bunları götür-qoy etməsi heç də pis olmazdı. Bu, Qərbin özü üçün taleyüklü məsələdir.

"Soyuq müharibə" təcrübəsi bir neçə nəslin, ilk növbədə, siyasi elitaların şüurunu təhrif etmişdir. Çoxları elə güman edir ki, qlobal siyasət bütün hallarda ideolojiləşdirilməlidir.

Bu sahədə vəziyyətin tezliklə dəyişəcəyini güman etməyə dəyməz, çünki söhbət psixoloji qəbildən olan amillərdən gedir: nəzərə almaq lazımdır ki, siyasi elitaların ən azı iki nəsli müəyyən ideoloji koordinat sistemində tərbiyə edilmişdir və bu nəsillər bəzən sadəcə olaraq, həmin sistemin hüdudlarından kənara çıxan kateqoriyalarla düşünmək iqtidarında deyildir. Mövcud qlobal siyasi arxitekturanın ayrı-ayrı ölkələrə təqdim etdiyi imtiyazlarla bağlı, tamamilə aydın olan konkret geosiyasi maraqlar da özünü göstərir.

XX əsrdə iki dünya və onlarla lokal və regional müharibə geosiyasi iddialar və maraqların nəticəsi kimi meydana çıxmışdır. XXI əsrin əvvəllərindən başlayaraq dünyada baş verən hadisələr, gedən proseslər geosiyasi proseslərin intensivləşdiyini göstərir. Əfqanıstan, İraq, İran hadisələri, ərəb dünyasını bürüyən inqilablar beynəlxalq aləmdə birmənalı qarşılanmır. Bütün bu hadisələr istər-istəməz bir sıra dövlətlərin və xalqların - dünya birliyinin müxtəlif formalı narazılığına səbəb olur və bu istiqamətdə implisit mövqe formalaşmağa başlayır. Bu mövqe hələlik çox kövrək olsa da, realpolitik və praqmatizm ruhu ilə səciyyələnir. Bütövlükdə, birqütblü dünya nizamına qarşı müqavimətin möhkəmlənərək ciddi siyasi qüvvəyə çevriləcəyi də istisna edilmir. Bəs bu qüvvəyə liderliyi kim edə biləcəkdir - Rusiya, yoxsa Çin, ya da hər ikisi digərləri ilə birlikdə? Bu sual sözsüz ki, nə vaxtsa öz cavabını tapacaqdır.

Ümumiyyətlə, Qərbin strateji təfəkküründə bir fundamental qüsur var. Qərb qlobal çağırışları təhlil edərkən elə güman edir ki, dünyada ən mühüm problemlərin həlli yalnız ondan asılıdır. Əslində isə həmin problemlərin yaranmasının ən başlıca səbəblərindən biri elə Qərb özüdür. Əgər Qərb siyasətçiləri bunu başa düşməyi və müvafiq reaksiya verməyi öyrənməsələr, dünyamızı daha narahat dövrlər gözləyir.

Hazırda dünyanın reallıqları o qədər əsaslı şəkildə dəyişmişdir ki, onları başqa dövrün reallıqları şəraitində işlənib hazırlanmış metodlarla obyektiv təhlil etmək, sadəcə olaraq qeyri-mümkündür. Geosiyasət müasir dünya birliyinin əsas problemlərini diqqət mərkəzinə yönəldən bir elm kimi konkret ölkənin və ya xalqın ərazisi, yerləşdiyi məkan və coğrafiyası ilə əlaqədar problemlərdən təcrid oluna bilməz. Lakin məsələnin bu cəhətini dünya səhnəsində baş vermiş keyfiyyət dəyişiklikləri baxımından təhlil etmək lazımdır.

Son transformasiyalar həm gerçəkliklərin prioritetlərinin, həm də onların tədqiq edilməsi metodlarının, vasitələrinin, anlayışların və kateqoriyaların dəyişdirilməsini tələb edir. Onlar planetin məskunlaşmış hissəsinin qapalı olması və informasiya və ya telekommunikasiya inqilabının genişlənməsi şəraitində dünya birliyinin in-

kişaf qanunauyğunluqlarının yenidən dərk olunmasını və təhlilini şərtləndirir. Oxucuların diqqətinə təqdim etdiyimiz kitabda məhz bu vəzifə qarşıya qoyulur. Bu kitabda siyasət elminin mühüm bölməsi olan müstəqil elm kimi geosiyasətin ən mühüm parametrlərini, konseptual məqsədlərini və metodoloji prinsiplərini ifadə etməyə cəhd göstərilmişdir.

Təbii ki, bu məsələlər diskussiya xarakterlidir və onların açıqlanmasına kitabda xeyli yer ayrılmışdır. Ümumiyyətlə, dünya birliyi və beynəlxalq münasibətlər problemləri bir neçə sosial və humanitar elmin - siyasi tarix, diplomatiya tarixi, sosiologiya və fəlsəfənin tədqiqat mövzusudur. *Platon və Aristotel* dövründən başlayaraq müxtəlif fəlsəfi və elmi məktəblərin və istiqamətlərin nümayəndələri bu sahəyə aid olan zəngin empirik materialı ümumiləşdirmək, sistemləşdirmək və təhlil etmək məqsədi güdən anlayışlar, kateqoriyalar, prinsiplər və normalar sistemini yaratmağa cəhd göstərmişlər. Məsələn, tarix elmi (ədalətli və obyektiv olmasa insan fəaliyyətinin ən təhlükəli məhsuludur) beynəlxalq münasibətlər sisteminin öyrənilməsinə sanballı töhfə verir. Bu elmin tədqiqat obyektləri milli dövlətlərin xarici siyasət tarixi, ən qədim dövrlərdən zəmanəmizə qədər diplomatiya tarixi, vahid sistem olan beynəlxalq münasibətlər tarixi və başqa məsələlərdir. Bu baxımdan sosiologiyanın töhfəsi beynəlxalq münasibətlərin sosiologiyası adı almış müstəqil tədqiqatlar sahəsinin formalaşmasında ifadə olunmuşdur.

Hüquqşünaslıqda bu problemə böyük diqqət yetirilir. Hüquq elminin "Beynəlxalq hüquq" adlı ayrıca bir bölməsi dövlətlərin beynəlxalq münasibətlər sistemində fəaliyyətini tənzimləyən norma və prinsiplərin öyrənilməsi ilə məşğuldur. Beynəlxalq hüquq əsas diqqəti dövlətlərarası və beynəlxalq sazişlərdə, regional və beynəlxalq təşkilatların nizamnamələrində, digər beynəlxalq-hüquqi sənədlərdə təsbit olunmuş hüquqi normalar üzərində cəmləşdirir.

Geosiyasət elmi müəyyən mənada bu və digər elmlərin kəsişmə nöqtəsində mövqe tutur. Geosiyasəti siyasətin ayrıca bir bölməsi və ya beynəlxalq münasibətlərin nəzəri və praktiki problemlərinin öyrənilməsi, beynəlxalq həyatın əsas kateqoriya və anlayışlarının,

qanunauyğunluqların və əsas meyillərin tədqiqi ilə məşğul olan xüsusi bir elm hesab etmək olar. Bu baxımdan geosiyasətin öz öyrənmə predmeti, öz metodoloji prinsipləri, tədqiqat metodları və üsulları vardır. Eyni zamanda, geosiyasət müxtəlif elmlərin obyektləri, kateqoriyaları, metodları və s.-dən istifadə edərək bu gün insan fəaliyyətindən tutmuş dövlətlərin fəaliyyətlərinədək geniş bir sahədə, - şüuraltı və ya şüurlu surətdə, - aparıcı rol oynayır.

Xüsusi qeyd etmək lazımdır ki, kitabın müvafiq fəsillərində ətraflı təhlil edilən əsas meyarlarında geosiyasət anlayışındakı "geo" sözü təkcə bu və ya digər dövlətin və dövlətlər qrupunun siyasətində coğrafi və məkan-ərazi aspektini deyil, həm də istər bütövlükdə dünya birliyinin, istərsə də ayrı-ayrı dövlətlərin, ittifaqların, ümumdünya kontekstində blokların miqyasını, parametrlərini və ölçülərini, davranış qaydalarını və normalarını əhatə edir.

Bu mənada geosiyasət dövlətlərin, regionların və bütövlükdə dünyanın inkişaf proseslərini və prinsiplərini təhlil etməli, onların hansı prinsiplər əsasında, hansı mexanizmlərin köməyi ilə və necə yaşaması və fəaliyyət göstərməsi məsələlərini öyrənməlidir. Geosiyasətə müasir dünya birliyinin əsas strukturlarını və subyektlərini, onların həyat fəaliyyətinin qlobal və ya strateji istiqamətlərini, ən mühüm qanunauyğunluqlarını və prinsiplərini, müasir dünya birliyinin fəaliyyət və təkamülünün prinsiplərini öyrənən elm kimi baxmaq olar. Müasir dünyanın reallıqları nəzərə alınmaqla, geosiyasət elmi qarşısında son iki-üç onillikdə sözün hərfi mənasında dünya birliyinin simasını dəyişmiş olan geniş miqyaslı proseslərin tədqiq edilməsi formalarının və metodlarının, yeni paradiqmaların işlənib hazırlanması kimi çox aktual bir vəzifə durur.

Geosiyasət dünya birliyinin üzləşdiyi problemlərin beynəlxalq sistemin "aktorlar" deyilən əsas iştirakçıları tərəfindən qlobal, regional və lokal səviyyələrdə siyasi strategiyanın işlənib hazırlanması, qəbul edilməsi və reallaşdırılması ilə əlaqədar aspektlərini əhatə edir. Beynəlxalq münasibətlər insanların dövlətlərarası səviyyədə ünsiyyət və qarşılıqlı fəaliyyət sahəsidir. Beynəlxalq münasibətlərin əsas məzmununu təşkil edən ən mühüm məsələlər

arasında aşağıdakıların adlarını çəkmək olar: beynəlxalq həyatın xarakterini və formalarını müəyyənləşdirən sosial-iqtisadi, milli-tarixi, mədəni amillər və qanunauyğunluqlar; dövlət suverenliyi və milli təhlükəsizlik problemləri; dünya siyasətinin formalaşmasında milli dövlət maraqlarının yeri və rolu; beynəlxalq münaqişələrin və müharibələrin mənbələri və formaları, onların həll edilməsi və qarşısının alınması yolları və formaları və s.

Müasir şəraitdə, beynəlxalq münasibətlərin miqyası və onların həm ayrı-ayrı ölkələrin həyatına, həm də bütövlükdə bəşəriyyətin inkişafına təsirinin görünməmiş dərəcədə artdığı bir vaxtda geosiyasət elmlərarası və sistemli təhlilin müxtəlif metodlarından və üsullarından geniş istifadə edir. Müasir dünya reallıqlarının düzgün başa düşülməsi onların istiqamətlərini və dinamika sürətini nəzərə almağı və müvafiq təhlil aparmağı nəzərdə tutur. Məsələyə bu cür yanaşma beynəlxalq münasibətlərin kompleks şəkildə, onların bütün mürəkkəblikləri və müxtəlifliyi nəzərə alınmaqla təhlil edilməsini, beynəlxalq münasibətlər sistemində iştirak edən bütün elementlərin qarşılıqlı təsirinin xarakterini və formalarını, onların maraq və məqsədlərinin qovuşmasını, onların arasında yaranan münaqişələrin xarakterini və mənasını, onların real məzmununu dünya təcrübəsi, bu münaqişələrin həllinin yolları və metodları baxımından kompleks şəkildə tədqiq etməyə imkan verir.

Şərh etdiyimiz məqamlar onu göstərir ki, geosiyasət həm müasir dünyanın reallıqlarının başa düşülməsi üçün zəruri olan ən mühüm elmi fənlərdən biri, həm də müxtəlif peşələrin və ictimai dairələrin nümayəndələri üçün zəruri olan praktiki geosiyasi biliklərin nəzəri mənbəyi kimi inkişaf etdirilməlidir. Aydındır ki, bu biliklər ilk növbədə siyasətçilərə, diplomatlara, hüquqşünaslara - həm alim və mütəxəssislərə, həm də dövlətin, siyasi və işgüzar dairələrin nümayəndələrinə, habelə sosioloqlara, tarixçilərə, mədəniyyəti tədqiq edənlərə lazımdır. Lakin bu biliklər siyasi prosesin qalan iştirakçıları üçün də, yəni demokratik vətəndaş cəmiyyətində yaşayan hər bir fərd üçün zəruridir. Ali məktəblərdə geosiyasət fənninin dərindən öyrənilməsi, orta ümumtəhsil məktəbində tədris edi-

lən humanitar və sosial-iqtisadi yönümlü fənlərdə geosiyasi biliklərə xeyli yer ayrılması bununla əlaqədardır.

Bu kitab Azərbaycanda geosiyasətə dair sistemli elmi əsər yaratmağa bir cəhddir. Burada həmin elm üzrə həm ölkəmizdə, həm də xaricdə toplanmış tədqiqatlar təcrübəsi ümumiləşdirilir, ənənəvi (klassik) geosiyasət, yeni geosiyasət (geoiqtisadiyyat) və ən yeni sivilizasiya geosiyasəti (geofəlsəfə) ilə bağlı məsələlərə xüsusi diqqət yetirilir, ənənəvi geosiyasətin (hərbi qüdrətin), geoiqtisadiyyatın (iqtisadi qüdrətin) və sivilizasiya yanaşmasına əsaslanan müasir geosiyasətin anlayışları təhlil edilir.

Təbii ki, geosiyasətin heç də bütün tərəfləri bu kitabda öz əksini tapmamışdır. Geosiyasət sintetik elmdir, o, həyatın özü kimi çoxşaxəli, mürəkkəb və ziddiyyətlidir. Kitabda cəmiyyət həyatının ən fundamental istiqamətləri, ən mühüm sahələri - xarici və daxili siyasət, maliyyə-iqtisadi və geostrateji məsələlər təhlil və şərh edilmişdir.

Kitabda planetin müxtəlif geosiyasi regionlarında mövcud olan ən mürəkkəb ictimai-siyasi, iqtisadi və hərbi sistemlərin müasir vəziyyətinin mahiyyəti təhlil edilmiş, onların geostrateji nisbətlərinin real perspektivləri elmi cəhətdən proqnozlaşdırılmışdır.

Fikrimizcə, geosiyasət elminin problemlərinin bu sistemləşdirilmiş şərhi təkcə ali məktəb tələbələri və müəllimlər üçün deyil, həmçinin siyasi və işgüzar elita, dövlət qulluqçuları, ümumiyyətlə, XXI əsrin yeni sintetik elmi ilə maraqlanan oxucuların geniş əhatə dairəsi üçün maraqlı olacaqdır. Artıq qeyd etdiyimiz kimi, ölkə vətəndaşlarının nə qədər çox hissəsi geosiyasi təfəkkürə malik olsalar, ölkənin gələcəyi bir o qədər təminatlı olar.

Gələcək nəşrlərin daha da təkmilləşdirilməsində oxucuların arzu və təkliflərinin bizə köməyi dəyə bilər. Ona görə də kitabla bağlı qeyd və təkliflərini müəllifə göndərəcək bütün oxuculara qabaqcadan öz təşəkkürümüzü bildiririk.

Terminlər lüğəti

Aborigen (lat. *aborigines* - başlanğıc) - ölkənin hər hansı məkanında qədimdən məskən salmış yerli sakinlər.

Abstraksiya (lat. *abstractio* - mücərrədlik, diqqəti yayındırmaq) - 1) predmetin hansısa xüsusiyyətindən xəyali olaraq diqqəti yayındırmaq, təcrid etmək; 2) mücərrəd məfhum, idrak prosesində hansısa təzahürə aid olmayan, onun mahiyyəti ilə uyğunluq təşkil etməyən mülahizə və nəticələrin söylənməsi.

Açıq qapılar siyasəti - 1899-cu ildə ABŞ-ın dövlət katibi C.Heyin Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Rusiya və Yaponiya hökumətlərinə göndərdiyi notalarda irəli sürülmüşdü. Çində azad ticarət və bərabər imkanlar prinsipinin həyata keçirilməsini tələb edirdi. 1900-cü il martın 20-də C.Hey nota göndərərək ölkələrin bu prinsiplərə qoşulduqlarını elan etdi. Açıq qapılar siyasəti iri dövlətlərin əlində rəqibləri sıxışdırmaq aləti idi.

Adekvatlıq (lat. *adaeguatus* - bərabərləşdirilmiş) - uyğunluq, bərabərlik, ekvivalentlik.

Akkulturasiya (lat. *acculturare*) - birbaşa ünsiyyət nəticəsində yeni mədəniyyətə inteqrasiya.

Aksiologiya (yun. *axia* - dəyər və *logos* - təlim, söz) - dəyərlər haqqında təlim.

Aktor (ing. *actor*) - praktik olaraq fəaliyyət göstərən subyekt.

Aqnostisizm (yun. *agnostos* - dərketmə mümkünsüzlüyü) - təbii və sosial proseslərin inkişaf qanunlarının və dünyanın obyektiv dərkinin qeyri-mümkünlüyünü iddia edən idealist fəlsəfi cərəyan.

Alternativ (lat. alternus - vaxtaşırı) - bir-birini qarşılıqlı istisna edən iki ya daha çox imkandan birini seçmək zərurəti.

Alıcılıq qabiliyyətinin nisbəti - iki ölkənin pul vahidlərinin valyuta zonasında eyni alıcılıq qabiliyyətinə səbəb olan valyuta kursu.

Anakonda strategiyası - Avrasiya üzərində geosiyasi nəzarəti təmin etmək məqsədilə "Rimlənd"in (sahil zonasının) qoparılmasına yönəlmiş atlantizm geosiyasi xətti.

Analiz və sintez (yun. *analysis* - parçalanma və *synthesis* - birləşmə) - ən ümumi mənada bütövün fikrən, yaxud faktik olaraq tərkib hissələrinə bölünməsi və bütövün tərkib hissələrinin birləşib bütövü əmələ gətirməsi prosesləri. Analiz və sintez idrak prosesində mühüm rol oynayır və onun bütün pillələrində gedir.

Analogiya (yun. *analogia* - uyğunluq) - eyniyyət təşkil etməyən obyektlərin bəzi cəhətlərdən keyfiyyətcə, münasibətcə oxşarlığı.

Anarxizm (yun. *anarchia* - hakimiyyətsizlik) - bu nəzəriyyənin əsasını hakimiyyətsizlik, cəmiyyətin dövlətsiz qurulması ideyası təşkil edir.

Antanta (fr. *Entente* - razılıq) (Üçlər sazişi) - Fransa, Böyük Britaniya və Rusiyadan ibarət hərbi blok. 1904-1907-ci illərdə formalaşmış və Birinci Dünya müharibəsinin gedişində 25 dövləti birləşdirmişdi. Almaniya, Avstriya-Macarıstan və İtaliyadan ibarət digər hərbi bloka, Üçlər ittifaqına qarşı durmaq üçün yaradılmış və Birinci Dünya müharibəsində qalib gəlmişdi. 1917-ci il oktyabr çevrilişindən sonra Rusiya Antantadan çıxmışdır.

Antikomintern paktı (1936) - Faşist Almaniyası və militarist Yaponiyası arasında Berlində imzalanmış və 5 il müddətinə nəzərdə tutulmuşdu. Kommunist İnternasionalına (Komintern) qarşı mübarizə aparan bu pakta 1937-ci ildə İtaliya, 1939-cu ildə Macarıstan və İspaniya qoşuldu. 1941-ci ildə pakt daha 5 il uzadılmış və bir sıra Avropa dövlətləri də ona qoşulmuşdu.

Aparteid (burların dilində, *apartheid* - ayrı yaşama) - CAR rejimi tərəfindən köklü afrikalılara və avropalı olmayan əhaliyə münasibətdə həyata keçirilən irqi fərq, ayrı-seçkilik, əsarət və zülm siyasəti; aparteid CAR-da dövlət siyasəti həddində olub. Aparteid BMT BM, Afrika Birliyi Təşkilatı və Qoşulmamaq Hərəkatının bir çox qərarlarında bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilib.

Apokalipsis (yun. *apokalypsis* - kəşf etmək, açıqlamaq) - 1) Bibliyanın bir hissəsi olan "Yeni nəsihətlər"in kitablarından birinin adı. Burada dünyanın axırı, şər qüvvələrlə mübarizə barədə mistik əhvalatlar toplanmışdır; 2) böyük kataklizmlər, çalxalanmalar, zəlzələlər nəticəsində bəşəriyyətin, sivilizasiyanın, ətraf aləmin məhvinin mümkünlüyü haqda təlim.

Apriori (yun. *a priori* - başlanğıc) - idealist fəlsəfədə termin, aposterioridən fərqli olaraq, təcrübədən əvvəl və təcrübədən asılı olmadan əldə edilən və başlanğıc şüura xas biliyi ifadə edir.

Arxetip (yun. *arche* - başlanğıc və *typos* - surət) - 1) nümunə, ilkin forma, örnək; antik fəlsəfənin sonlarında timsal, ideya. Termin müasir Qərb ədəbiyyatında İsveçrə psixoloqu *Karl Yunqun* (1875-1961) əsərlərinin təsiri altında yayılmış və bütün psixi proseslərin özülünü təşkil edən kollektiv şüursuzluğun struktur elementi kimi izah edilir; 2) linq. təsdiq edilmiş və ya yenidən qurula bilən, onun sonrakı davamı üçün əsas, ilkin sayılan dil forması; 3) mədəniyyətin, mənəvi həyatın dəyişməz modellərini formalaşdıran əsas, baza elementləri.

Arqumentasiya - əsaslandırma, dəlil gətirmə, sübut göstərmə.

Atlantizm (mənaca yaxın terminlər: Su, Dəniz, Talassokratiya, Dəniz qüdrəti) - mürəkkəb geosiyasi anlayışdır. Bəşər sivilizasiyasının tarixi Qərb sivilizasiyasını, liberal-demokratik ideologiyanın üstünlük təşkil etdiyi Qərb ölkələrinin strateji ittifaqını, NATO iştirakçısı olan ölkələrin hərbi-strateji baxımdan ticarət quruluşuna, bazar dəyərlərinə oriyentasiyasını əks etdirir (ABŞ modeli). Avrasiyaçılığın əksidir.

Avesta - zərdüştiliyin müqəddəs kitablar külliyatı.

AVRAMAR (Sivilizasiyaların Avrasiya marginal zonası) - Böyük çoxölçülü məkanlar nəzəriyyəsinin əsas anlayışlarından biri. Mədəniyyətlər dialoqunun təmas zonası, bəşəriyyətin mənəvi inkişafının mühüm hərəkətverici qüvvəsi və eyni zamanda, qarşılıqlı anlaşılmazlıq və şübhənin "odlu cəbhəsi".

Avrasiya - Qitə (Kontinent), "Hartland", Quru, Torpaq, Tellurokratiya anlayışlarının sinonimi. Daha dar mənada geosiyasi Rusiya deməkdir.

Avrasiyaçılıq - mürəkkəb geosiyasi anlayış; bəşər sivilizasiyasının tarixi Şərq bölgəsini, liberal-demokratik ideologiya imperativini tanımaqdan imtina edən dövlətlərin və millətlərin strateji aktual və ya potensial bloku, "tellurokratik" Şərq ölkələrinin hərbi alyans şəklində aktual və ya potensial strateji birliyi, "ideokratiya" yönümlü sosial dövlət, qeyri-kapitalist iqtisadi quruluş.

Avro (ing. *euro*) - Avropa İttifaqına daxil olan ölkələrin ümumi pul vahidi.

Avrosentrizm - Qərbi Avropa mədəniyyətinin dünyada mərkəzi yer tutduğunu əsaslandıran konsepsiya.

Avtarkiya (yun. *autarkeia* - özü-özünə vurğunluq, özündən həzz alma) - yalnız daxili imkanlar hesabına mövcud olma imkanı. Ölkəni təsərrüfat cəhətdən xüsusiləşdirmə, ümumi iqtisadi prinsiplərdən yayındırmaq siyasəti, yalnız özünü təmin edən qapalı iqtisadiyyat qurmaq üsulu;

öz ölkəsini siyasi və iqtisadi cəhətdən dünya birliyindən, dünya bazarından ayırmaq siyasəti.

Avtoritet (lat. *autoritas* - ləyaqət, qüvvə, hakimiyyət) - müəyyən keyfiyyətlərinə, xidmətinə görə hər hansı bir şəxsin, baxışlar sisteminin və ya təşkilatın hamı tərəfindən etiraf edilən nüfuzu.

Ayətullah (ər. - hərfi mənada *"Allahın nişanəsi"*) - şiələrdə yetirmələri və ardıcılları olan ilahiyyat alimlərinin yüksək dini titulu. İslam tarixi boyunca din, xüsusilə şiə alimlərinin ləqəbləri və adları yanında axund, molla və şeyx, sonra da şeyxülislam kimi ümumi adlar işlənmişdir. Böyük fəqihlərin bir neçəsi bu titulu almış və tədricən ən görkəmli fəqihlərdən bir neçəsi Ayətullah-əl-uzma ("böyük ayətullah") adlandırılmışdır.

Azad ticarət - ölkələr arasında malların və xidmətlərin azad yerdəyişməsinə mane olan tariflərlə, idxal və ixrac kvotaları ilə və digər mexanizmlərlə çətinləşdirilməyən ticarət.

Azad ticarət zonası - aralarında gömrük vergilərinin və digər ticarət məhdudiyyətlərinin olmadığı, lakin ümumi xarici tarifə malik olmayan dövlətlər və ya regionlar qrupu.

Begemot - qədim yəhudi dilində "quruda yaşayan yırtıcı heyvan" növüdür (Bibliya). Bu termini *Şmitt* təklif etmişdir. Sinonimləri: kontinent, kontinentalizm, avrasiyaçılıq.

Berlin - Orta Avropanın təbii-strateji paytaxtı.

Berlin divarı - Qərbi və Şərqi Berlin əhalisinin sərbəst yerdəyişməsinin qarşısını almaq üçün inşa edilmiş sədd (1961-ci il avqustun 13-də tikilmişdir); ayırıcı sərhəd tikilisi. Berlin divarı "soyuq müharibə" dövründə kapitalist Qərbi ilə sosialist Şərqi arasında "dəmir pərdə"nin geosiyasi rəmzinə çevrilmişdir.

Bibliya (yun. *Biblia* - kitablar) - iudaizmə və xristianlığa aid müqəddəs kitablar külliyatı (e.ə. VIII əsr - eramızın II əsri). Birinci kitab - "Əhd-i ətiq" (Tövrat və s.) qədim vəsiyyətlər, ikinci kitab - "Əhd-i cədid" (İncil və s.) yeni vəsiyyətlər adlanır. Bütövlükdə Bibliya 77 kitabdan ibarətdir. Bunlardan 50-si "Əhd-i ətiq"ə, 27-si "Əhd-i cədid"ə daxildir. "Əhd-i ətiq"ə yəhudilər və xristianlar, "Əhd-i cədid"ə isə yalnız xristianlar etiqad edir.

Biosfer (yun. *bios* - həyat, *sphaira* - sfera, sahə) - Yerin həyatla əhatə olunmuş və bununla əlaqədar olaraq xüsusi geoloji və fiziki-kimyəvi

mütəşəkkilliyə malik örtüyü. Elmə E.Zyus gətirmiş və Vernadski inkişaf etdirmişdir.

Bipolyar (ikiqütblü) dünya - beynəlxalq münasibətlərdə iki fövqəldövlətin və ya ictimai-siyasi sistemin hökmranlıq etdiyi dünya nizamı.

Blok - bir neçə dövlətin strateji və geosiyasi keyfiyyətini əhəmiyyətli dərəcədə dəyişdirən, onları planetar fəaliyyətin daha yüksək səviyyəsinə çatdıran birliyi. "Məkan tərəqqisi" qanununa müvafiq olaraq blokların yaranması labüd prosesdir.

Böyük Avrasiya çölü - geosiyasətdə "Hartlənd" çox vaxt Böyük Avrasiya çölü - Şərq ilə Qərb arasında nəhəng təbii kommunikasiya dəhlizi ilə assosiasiya edilir. Dəhlizin ucqarları boyunca "sürtünmələr" nəticəsində mədəniyyətlərin qarşılıqlı təsiri və bir-birini qarşılıqlı zənginləşdirməsi baş vermiş, yeni etnoslar, imperiyalar və sivilizasiyalar yaranmışdır. Böyük Avrasiya çölü kontinentin əsas kommunikasiya oxu olaraq qalır, Qərb ilə Şərq arasında intensiv maddi, mədəni və informasiya mübadiləsi bu ox boyunca baş verir. Qərbi Avropada və Asiya-Sakit okean regionunda iqtisadi və texnoloji inkişafın qütbləri arasında gələcək nəqliyyat kommunikasiyaları buradan keçəcəkdir. Avrasiya çölünün ərazisində sivilizasiyalar arasında mədəni dialoqun və sərbəst ticarətin tarixi kommunikasiya qovşaqları yerləşir. Avrasiya çölünü kim fəth edərsə, o, iqtisadi tranzit və sivilizasiyalararası dialoqun translyatoru funksiyalarını yerinə yetirəcəkdir. Bu həqiqətin unudulması imperiyaların parçalanmasına və AVRAMAR-da çoxsaylı münaqişələrə gətirib çıxarmışdır.

Böyük coğrafi kəşflər - Avropa səyyahlarının XV-XVII əsrlərdəki ən böyük coğrafi kəşflərini göstərmək üçün qəbul olunmuş termin. Böyük coğrafi kəşflərin əsas səbəbləri Avropada əmtəə istehsalının sürətlə artması, bir sıra Avropa ölkəsinin Şərqə yeni ticarət yolları axtarmaq zəruriyyəti qarşısında qalması (XV əsrdə türklərin köhnə yolları tutması ilə əlaqədar), pul dövriyyəsində olan qızılın çatışmazlığı və s. idi.

1492-ci ildə *X.Kolumbun* Amerikanı, 1497-1498-ci illərdə *Vasko da Qamanın* Hindistana dəniz yolunu kəşf etmələri Böyük coğrafi kəşflərin əsasını qoydu. Bu kəşflər Avropa dövlətlərinin Amerika, Cənubi Asiya, Okeaniya və Avstraliyanı istila etməsi və müstəmləkələşdirilməsi üçün zəmin yaratdı. Yeni kəşf olunmuş torpaqların istilası və qarət edilməsi ilkin kapital yığımı deyilən prosesə və dünya bazarının yaradılmasına kömək etməklə müstəmləkəçilik dövrünün başlanmasına səbəb oldu.

Böyük Çin - kontinental Çindən əlavə Honkonqu (Syanqan), Tayvanı, Sinqapuru və çoxsaylı Çin diasporunu ehtiva edən dövlətüstü qurum və ya özünəməxsus transmilli korporasiya. "Sarı Çin fövqəlmilyardı" Qərbin "qızıl milyardına" qarşı dayanır. Böyük Çinin ümumi daxili məhsulu (ÜDM) ABŞ-ın ÜDM-i ilə müqayisə oluna bilər. Kontinental Çin diaspor nümayəndələrini ənənəvi olaraq öz ölkəsinin vətəndaşları hesab edir.

Böyük çoxölçülü məkanlar (BÇM) nəzəriyyəsi - geofəlsəfə (immanent məkan fəlsəfəsi) zəminində işlənib hazırlanan sivilizasiya geosiyasəti təlimi. Ənənəvi və yeni geosiyasətin coğrafi və iqtisadi determinizminə xas olan məhdudluğu effektiv coğrafi məkanın sərhəd energetikasını yaradan çoxölçülü məkanın kommunikasiya əlaqələri hesabına aradan qaldırmağa çalışır.

Böyük Xəzər - SSRİ-nin süqutundan sonra Avrasiyada yaranmış geosiyasi region. Bu regiona Xəzərə birbaşa çıxışı olan beş ölkə - Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran aiddir. Daha geniş mənada Cənubi Qafqazı və Mərkəzi Asiyanı əhatə edir.

Böyük limitrof - Şimal Buzlu okeanından Sakit okeanadək uzanan sivilizasiyalararası geosiyasi qurşaq.

Böyük məkan (Grossraum) - bu termin *K.Şmitt* tərəfindən təklif edilmişdir. Bir neçə dövlətin vahid strateji qurum şəklində birləşməsi deməkdir. Böyük məkanların yaranması "məkan tərəqqisi" nəzəriyyəsi ilə əlaqədardır.

Böyük məkanlar avtarkiyası - alman iqtisadçısı *F.Listin* geoiqtisadi nəzəriyyəsi. Bu nəzəriyyəyə görə, dövlətin dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası yerli istehsalçıya və gömrük ittifaqına münasibətdə proteksionist siyasətin birləşməsi əsasında tədricən açıq iqtisadiyyata keçid yolu ilə mümkündür. Milli təsərrüfatın dünya bazarına aralıq mərhələ (gömrük ittifaqı) vasitəsilə transformasiyası daha səmərəli olur. Dövlət islahatlar prosesinə nəzarət edir və yerli iqtisadiyyatın inkişafını proteksionist tədbirlərin köməyi ilə təşviq edir.

Böyük məkanlar nəzəriyyəsi - *K.Şmittin* geosiyasi təlimi, bir neçə dövlətin vahid strateji blok şəklində birləşməsi. Şmitt imperiya inteqrasiya prinsipini məntiqi sintezə meyil hesab edirdi. Böyük məkan güclü ideyaya malik olan dövlətin hökmü altında olur. *Şmitt* böyük məkanlara nümunə kimi Monro doktrinası vasitəsilə birləşdirilmiş Şimali və Cənubi Amerikanı nəzərdən keçirirdi. Nasist Almaniyasının məqsədi ümumdün-

ya imperiyası (Üçüncü reyx) yaratmaq idi. Müasir beynəlxalq münasibətlərdə Böyük məkanlar ideyası liberal demokratik ideyanın üstünlük təşkil etdiyi dövlət-sivilizasiyaların yaradılmasında müşahidə olunur (Amerika sivilizasiyası, Birləşmiş Avropa).

"Böyük Rusiya" - rus siyasi xadimi, iqtisadçı və filosof *P.B.Struvenin* (1870-1944) geosiyasi konsepsiyası. Bu konsepsiya Kadet partiyasının sağ cinahı və iri sahibkarlar arasında mühüm ideoloji rol oynamışdır. İmperiyanın daxili inkişafı onun xarici qüdrətindən asılıdır. 1916-cı ildə "Проблемы великой России" ("Böyük Rusiyanın problemləri") adlı xüsusi jurnal təsis edilmişdir.

Böyük Turan - XX əsrin əvvəllərində Türkiyədə formalaşmış türk xalqlarının birliyi ideyası. SSRİ-nin dağılmasından sonra yenidən canlanmış türk dövlətlərinin birliyi ideyasının başında Türkiyə dövləti dayanır.

"Böyük yeddilik" - öz qüdrəti və nüfuzu sayəsində dünya siyasətinə və iqtisadiyyatına mühüm təsir göstərə bilən böyük dövlətləri birləşdirən beynəlxalq siyasi təsisat. "Yeddiliyə" ABŞ, Yaponiya, Almaniya, Fransa, Böyük Britaniya, İtaliya və Kanada daxildir. 1990-cı illərin sonlarından etibarən Rusiya da onun iclaslarında iştirak edir.

"Bretton-Vuds institutları" - dünya valyuta-maliyyə sisteminin əsası, Beynəlxalq Valyuta Fondunu və Dünya Bankını ehtiva edir. 1944-cü ilin iyulunda Nyu-Hempşir ştatındakı (ABŞ) Bretton-Vuds adlı şəhərcikdə 44 ölkənin nümayəndələrinin iştirak etdiyi valyuta-maliyyə konfransında təsis edilmişdir.

Buddizm - dünya dinlərindən biri; istəklərdən imtina etmək yolu ilə iztirablardan azad olmağı və "nicat"a - nirvanaya çatmağı təbliğ edən din. E.ə. VI-V əsrlərdə Hindistanda meydana gəlmişdir. Hazırda Şri-Lanka, Yaponiya, Çin, Nepal, Myanma, Tibet (lamaizm formasında) və b. ölkələrdə yayılmışdır.

Bufer dövlət - geosiyasi güc mərkəzlərinin arasında yerləşən və onları bir-birindən ayıran bir və ya bir neçə ölkə. Keçmişdə Əfqanıstan Rusiya və Britaniya imperiyaları arasında bufer dövlət rolunu oynayırdı.

Cəmiyyət - icma qurumlarının parçalanmasının nəticəsi. İcmadan fərqli olaraq prinsip etibarilə atomar üzvlərə (fərdlərə) bölünə bilər.

Cənub - sakral coğrafiyada nizamsızlıq, qarışıqlıq və cırlaşma regionları. Müasir coğrafiyada - Üçüncü dünya, liberal-demokratik prinsiplərin bərqərar olmadığı, zəif inkişaf etmiş ölkələr.

Cənub ilə Şimalın toqquşması - zəngin Şimal ("qızıl milyard") ilə yoxsul Cənubun ("milyard işsizin") qarşıdurması haqqında geosiyasi konsepsiya.

Cihad (qəzavat) - müsəlmanların etiqad uğrunda kafirlərə qarşı müqəddəs müharibəsi.

Coğrafi amil - ənənəvi geosiyasətin əsaslarından biri. Müasir dövrün hərbi-siyasi məkanında coğrafi amilin rolu xeyli azalmışdır. Bu amil artıq nüvə zərbəsindən və ya transmilli terrorçuluqdan qorunmaq üçün yetərli deyildir.

Coğrafi determinizm (geodeterminizm) - sosial-darvinizmlə yanaşı, ənənəvi geosiyasətin əsaslarından biri. Beynəlxalq münasibətlərdə təbii-coğrafi amillərin rolunu şişirdir.

Coğrafi məkan - insanların fəaliyyətinin siyasi, sosial, mənəvi və iqtisadi sahəsini ümumi panideya ilə birləşdirən çoxölçülü (hərbi-siyasi, iqtisadi, demoqrafik, sosiomədəni, informativ və s.) kommunikasiya məkanının coğrafi interpretasiyası.

Çoxqütblü dünya - müasir mərhələdə bir neçə böyük məkanın mövcud olmasını nəzərdə tutan nəzəri konsepsiya. Yalnız birqütblü dünya dəf edildikdən sonra mümkündür.

Çoxölçülü kommunikasiya məkanı - böyük çoxölçülü məkanlar nəzəriyyəsinin əsas anlayışlarından biri.

Daxili aypara (qitə ayparası, "Rimlənd") - *Makinderin* təklif etdiyi bu termin Avrasiyanın "xarici aypara" ilə "ox arealı" arasında yerləşən sahil ərazilərini bildirir.

Daxili dəniz (lat. *mare internum*) - quru tellurokratik kütlənin daxilində olan, buna görə də strateji və ya mədəni sərhədləri olmayan su məkanını bildirən termin.

Daxili ox - periferiya ilə mərkəzin vahid strateji (yaxud siyasi) məkan daxilində geosiyasi əlaqəsinin keyfiyyəti.

Daxili okean - planetar miqyaslı "daxili dəniz". Onu "Orta okean" da adlandırırlar.

Daosizm - dao və yaxud "yollar" haqqında təlim; e.ə. VI-V əsrlərdə Çində meydana gəlmişdir. Daosizmin banisi qədim Çin filosofu Lao-tszı hesab olunur.

Deduksiya (lat.) - mənt. mühakimə prosesində ümumi müddəalardan xüsusi nəticəyə gəlmə; hər hansı bir ümumi fikirdən məntiqi yolla yeni müddəa çıxarma (induksiyanın əksi).

Definisiya (lat. *definitio* - təyinetmə, təyin) - hər hansı anlayışın qısa tərifi.

Demilitarizasiya (hərbsizləşdirmə) - müəyyən ərazinin beynəlxalq hüquqi rejimi; dinc dövrdə həmin ərazidən hərbi məqsədlərlə istifadəni qadağan edir.

Demokratiya (yun. *demokratia,* hərfi mənası - xalq hakimiyyəti; *demos* - xalq, *kratos* - hakimiyyət) - dövlətin idarə edilməsi forması. Birbaşa xalq hakimiyyəti (birbaşa demokratiya) və ya xalq tərəfindən, yaxud xalqın müəyyən hissəsi tərəfindən seçilən nümayəndələr vasitəsilə (nümayəndəli demokratiya) həyata keçirilir.

S.Hantinqtona görə, müasir dünyada *demokratikləşmənin üç dalğası* baş vermişdir. Hantinqton qeyd edir ki, XIX əsrin əvvəlində başlamış *demokratikləşmənin birinci, ən uzun dalğası* 1920-ci ildə demokratiyanın 30 ölkədə qələbəsi ilə nəticələnmişdir. Sonrakı dövrdə avtoritarizmin və faşizmin yaranması 1942-ci ildə demokratik ölkələrin sayının 10-a qədər azalmasına səbəb olmuşdur. İkinci Dünya müharibəsindən sonra *demokratikləşmənin ikinci yüksələn qısa dalğası* yenidən demokratik dövlətlərin sayını 30-a qədər artırmış, lakin əvvəl də olduğu kimi bu ölkələrin bəzilərində demokratik idarəçilik süquta uğramışlar. Keçən əsrin 70-ci illərində Portuqaliya, İspaniyada avtoritar rejimlərin yıxılması ilə başlayan, 90-cı illərdə SSRİ-nin parçalanması və Şərqi Avropada sosialist sisteminin süqutu ilə davam edən *demokratikləşmənin üçüncü dalğası* daha qüvvətli və sürətli, əvvəlkilərdən qat-qat üstün olmuşdur. İndi dünya ölkələrinin çoxu bu və ya digər formalarda, açıq və ədalətli seçkilər nəticəsində hakimiyyətə gəlmiş hökumətlərə malikdirlər.

Demosiyasət - *Çellen* tərəfindən təklif edilmiş termin. Demoqrafik parametrlərin dövlətin strukturuna təsiri. Geniş yayılmamışdır.

Determinizm (lat. *determinare* - müəyyən etmək) - cəmiyyət və təbiətdə baş verən bütün hadisələrin ümumi obyektiv qanunlardan və səbəbiyyət əlaqəsindən asılı olduğu haqqında elmi anlayış. Müxtəlif elm sahələrinə tətbiqinə görə spesifik adlarda işlədilir (coğrafi determinizm, fiziki determinizm, üzvi determinizm, sosial determinizm, texnoloji determinizm). Determinizmə qarşı indeterminizm (lat. *in* - inkar bildirən sözönü və *determinizm*) durur. İndeterminizm üçün səbəbiyyətin ən ümumi xarakterinin inkar edilməsi səciyyəvidir.

"Dəmir pərdə" - sosialist düşərgəsinin təcrid edilməsi siyasəti. İdeya 1946-cı il martın 5-də Fulton şəhərində (ABŞ) kommunist ekspansiyası təhlükəsi barədə xəbərdarlıqla çıxış edən *U.Çörçillə* (1874-1965) məxsusdur.

Dəniz - talassokratiya, Su terminlərinin sinonimi.

Dəniz-Qitə - ənənəvi geosiyasətin əsas obyektlərindən biri. Dünyanın bir-birinə qarşı duran dəniz və qitə dövlətlərinə bölünməsini əks etdirir.

"Dəniz qüdrəti" nəzəriyyəsi - təlim dəniz dövlətinin qitə dövləti üzərində üstünlüyünü irəli sürmüş amerikalı admiral və tarixçi *A.Mehenin* əsərlərində şərh olunmuşdur.

Dərin Cənub - sosial-iqtisadi münasibətlərin kriminallaşması və demodernizasiyası (yeniləşməsi) prosesləri ilə səciyyələnən geoiqtisadi region, dərin dünya əyaləti. Bu makroregion, əsasən, tropik və subtropik zonalarda (Mərkəzi Afrika, Hind okeanı qövsü) yerləşən ölkələrə aiddir.

Dialektika - məntiqi proses; Hegeldə - ideyanın inkişafı və ya tezis, antitezis və sintez prosesləri vasitəsilə digər ideyalara keçid şərti.

Diaspor (yun. *diaspora* - dağılmaq, səpələnmək) - bu termin daha çox yəhudilərə aid işlədilir. E.ə. VIII əsrdə Assuriya çarı II Sarqon tərəfindən İsrail çarlığının paytaxtı Samariya işğal olduqdan sonra yaranmışdı. Qədim yəhudilərin xüsusilə böyük miqyasda diasporu e.ə. VI əsrdə, 586-cı ildə İuda çarlığının paytaxtının Yeni Babil padşahlığının padşahı II Navuxodonosor tərəfindən tutulub dağılmasından sonra baş vermişdi. Yəhudilər isə Babilə sürgün olunmuşdular. Yəhudi müharibəsindən (66-70-ci illər) və romalılar tərəfindən Yerusəlimin dağılmasından sonra Fələstinin yəhudi əhalisinin əsas hissəsi bir çox ölkələrin ərazisinə səpələnmişdi.

Sonralar bu termin öz ərazilərini məcburi şəkildə tərk edən digər dini və etnik qruplara da aid edilməyə başladı.

Dixotomiya (yun. *dicha* - iki hissəyə və *tome* - yarılma) - ardıcıl surətdə ikiyə bölünmə; botanikada: haçalanma, budaqlanma.

Dinc yanaşı yaşama - müxtəlif ictimai quruluşa malik dövlətlərin qarşılıqlı münasibətlərinin əsas prinsipləri.

Diskontinual qurşaq - *Koen* tərəfindən təklif edilmişdir. Qeyri-müəyyən, dəyişkən oriyentasiyalı, həm tellurokratik kontinentə, həm də talassokratik dənizə çevrilə biləcək pərakəndə sahil zonaları.

Dominant [lat. *dominans (dominantis)* - hökm etmək, hökmranlıq, təkhakimiyyətlilik] - başlıca ideya, bir şeyin əsas əlaməti, mühüm tərkib hissəsi.

Dominion (ing. *dominion,* lat. *dominium* - mülk, hakimiyyət) - 1947-ci ilədək Britaniya Millətlər Birliyinin üzvü olan dövləti bildirmək üçün işlədilən termin. 1947-ci ildə "Dominon" termini "Birlik üzvü" termini ilə əvəz edilmişdir.

Dost (lat. *amicus*) - *Şmitt* tərəfindən təklif edilmişdir. Mövqeləri strateji paytaxtın mövqeləri ilə üst-üstə düşən xarici dövlət, sosial, etnik və ya dini qurumların məcmusunu bildirən xalis siyasi anlayış. Mənəvi yük daşımır və dinamik şəkildə müxtəlif qurumlara aid edilə bilər. Dəyişkən kateqoriyadır. *Bax:* düşmən.

Dövlət-Millət - aşkar ifadə edilmiş mərkəzçiliklə seçilən dünyəvi dövlət. Dövlət formalarının yeni etnos və onun mədəniyyətinin yaranması ilə nəticələndiyi siyasi qurum. Etnik qurumdan (icma, xalq) və imperiyadan fərqlənir.

Dövlət-sivilizasiya - müasir dünyada qlobal çağırış və təhlükələrə qarşı dayanmağın daha səmərəli forması. İqtisadi və texnoloji inkişafın ən iri qütbləri analoji təsisatlarla - Birləşmiş Avropa, Birləşmiş Ştatlar və Çinlə təmsil olunmuşdur.

Dünya adası - *Makinderin* işlətdiyi termin. Makinder Avrasiyanı və "tarixin coğrafi oxu"nu belə adlandırırdı. *Spaykmenin* əsərlərində bu anlayışın mənası əsaslı şəkildə dəyişmiş və o, talassokratik zonaların (xarici aypara zonalarının) məcmusunu ifadə etməyə başlamışdır.

Dünya-iqtisadiyyat - *F.Brodelə* görə, müəyyən iqtisadi birliklə səciyyələnən hər hansı bütöv ərazi qurumu (məsələn, Aralıq dənizi hövzəsi).

Dünya nizamı - dünyanın (beynəlxalq münasibətlərin) formalaşmış qüvvələr tarazlığını əks etdirən geosiyasi strukturu. Üç klassik modelə - ikiqütblü, çoxqütblü və təkqütblü modellərə əsaslanır.

Dünya okeanı - bütün materikləri və adaları əhatə edən fasiləsiz su örtüyü başa düşülür.

Düşmən (lat. *hostis*) - *Şmitt* tərəfindən təklif edilmiş bu termin xalis siyasi anlayış olub dövlətin xarici sosial, etnik və ya dini xarakterli, strateji paytaxtın mövqelərinə əks mövqe tutan qurumlarının məcmusunu bildirir. Mənəvi yük daşımır və dinamik şəkildə müxtəlif qurumlara aid edilə bilər. Dəyişkən kateqoriyadır. *Bax:* dost.

Ehkamçılıq (yun. doğma münasibət, elm, qərar) - hər cür şəraitdə, müxtəlif vəziyyətlərdə qeyd-şərtsiz həqiqət kimi qəbul olunmuş mövqe,

vəziyyət, təfəkkür metodu. "Ehkamçılıq" terminini elmə ilk dəfə qədim yunan filosof-skeptikləri Pirron və Zenon gətirmişlər.

Ekosiyasət - bu termini *Çellen* təklif etmişdir. Dövlətə iqtisadi qüvvə kimi baxılması deməkdir. Geniş tətbiq edilmir.

Ekzistensializm (lat. *exsistentia* - mövcudluq) - mövcudluq fəlsəfəsi - XX əsr fəlsəfəsində insanı özü taleyini seçməyə qadir olan nadir mənəvi varlıq hesab edən istiqamət.

Ekzogen - xarici mənşəli, kənar səbəblərdən irəli gələn.

Elitizm - XX əsrin əvvəlində İtaliyada yaranmış və dövlətin idarə edilməsi haqqında *N.Makiavellinin* ideyalarını inkişaf etdirən ideologiya. Elitizmə görə cəmiyyət onun fəaliyyətini idarə edən elitadan və bioloji kütlə olan xalqdan ibarətdir.

Endogen - daxili mənşəli, daxili səbəblərdən irəli gələn.

Enlik ekspansiya (paralellər boyunca ekspansiya) - labüd olaraq münaqişəli vəziyyətlər yaradan təcavüzkar geosiyasi tendensiya, hücum xarakterli geosiyasi strategiya. Demək olar ki, həmişə hərbi münaqişələrə gətirib çıxarır. Yalnız meridional ekspansiya başa çatandan sonra həyata keçirilir.

Enlik inteqrasiya (paralellər boyunca inteqrasiya) - mərkəzin nəzarətində olan geosiyasi məkanların əlaqələndirilməsində ən incə və mürəkkəb məqam. Mümkün qədər dinc və diplomatik vasitələrlə həyata keçirilməlidir. Müxtəlif tipli regionların və mərkəzə ən loyal bölmələrinin məkan iyerarxiyası vasitəsilə mərkəzi hissəyə tədricən birləşməsinə əsaslanır.

Ensiklika (yun. *enkyklios* - dairəvi) - Roma papasının bütün katoliklərə və ya ayrıca bir ölkənin katoliklərinə göndərdiyi məktub. Dini etiqad və ictimai-siyasi məsələlərə aid olur. Katolik kilsəsinin qanunlarına görə ensiklika müzakirə oluna bilməz və icra edilməsi məcburidir. Ensiklika vasitəsilə papalıq katolisizm yayılmış ölkələrdə katoliklərin ictimai fikrini formalaşdırmağa və ictimai-siyasi münasibətlərə təsir göstərməyə cəhd edir.

Entropiya (yun. *en* - da, də və *trope* - çevrilmə) - termodinamik sistemin hal funksiyası. Elmə *R.Klauzius* daxil etmişdir (1865).

Epistemologiya - biliyin mənşəyi, prosesləri və səhihliyi haqqında təlim.

Esxatologiya (yun. *eschatos - son* və *logos* - təlim, söz) - dünyanın və bəşəriyyətin son aqibəti barədə, dünyanın sonu və məhşər ayağı haqqında dini təlim.

Etatizm (fr. *etat* - dövlət sözündən) - cəmiyyətdə dövlətin rolunu mütləqləşdirən və onu ictimai inkişafın əsas məqsədi hesab edən baxış; cəmiyyətin həyatına və şəxsi həyatın bütün sahələrinə dövlətin fəal müdaxiləsi siyasəti.

Etnik qlobalizm - vahid məkanın formalaşmasına iri diasporların və etnik sahibkarların təsiri.

Etnik lobbi - yaşadıqları ölkənin inkişafına və onun beynəlxalq siyasətinə təsir göstərən ictimai qruplaşma.

Etnomərkəzçilik - dünyanın inkişafında bu və ya digər sivilizasiyanın (məsələn, Çin mərkəzçiliyi və avromərkəzçilik) əsas yer tutduğunu əsaslandıran konsepsiya.

Eyniyyət - predmetin, hadisənin öz-özü ilə bərabərliyini, eyniliyini və ya bir neçə predmetin bərabərliyini ifadə edən kateqoriya.

Ənənəvi cəmiyyət - sənayeləşmədən əvvəlki dövrə aid, əsasən, aqrar xarakterli kənd cəmiyyəti. "Ənənə-müasirlik" baza sosioloji tipologiyada müasir sənaye cəmiyyətinə qarşı qoyulur.

Ərazi qüdrəti konsepsiyası - *V.Semyonov Tyan-Şanskinin* "Rusiyaya münasib olan qüdrətli ərazi sahibliyi haqqında" (1915) əsərində şərh edilən təlim. ABŞ və Rusiya üçün səmərəli olan "dənizdən dənizə" kontinental geosiyasi sisteminin daha səmərəli olduğunu bildirirdi.

"Ərəb baharı" (ing. *Arab Spring)* - 2010-cu ilin dekabrından ərəb ölkələrində işsizlik, ərzaq qiymətlərinin yüksəlməsi, söz azadlığı, bürokratik əngəllər və aşağı həyat səviyyəsi ilə əlaqədar başlayan etiraz nümayişləri dalğasıdır. İlk qiyam 18 dekabrda 1987-ci ildən hakimiyyətdə olan dövlət başçısı *Zeynalabdin ben Əlinin* ölkəni tərk etməsi və onun qurduğu siyasi sistemin çökməsi ilə nəticələnmişdir. Tunis inqilabının qələbəsi digər ərəb dövlətlərində də nümayişlər dalğasına səbəb olmuş, nəticədə Misir və Liviyada uzunmüddətli siyasi hakimiyyətlər dəyişmiş, Suriya, Əlcəzair, Yəmən, Oman, Mərakeş, İordaniya, Bəhreyn kimi ölkələrdə kütləvi etirazlar baş qaldırmışdır.

